AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

DADAŞOVA RAMİLƏ BƏHLUL QIZI

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MÜASİR PROBLEMLƏRİ VƏ BMT

BAKI-2011

Elmi redaktor: t.e.d., prof., H.C.Əlibəyli

Rəyçilər: s.e.d., R.M.Sevdimalıyev, h.e.n., R.M.Qarayev

Ramilə Dadaşova Bəhlul qızı. **“Beynəlxalq münasibətlərin müasir problemləri və BMT”** Monoqrafiya. Bakı -2012. 186 s. **“Təknur”** nəşriyyatı

Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi Şurasının 30 yanvar 2012-ci il tarixli 1 saylı protokolu ilə çapa məsləhət görülmüşdür.

ISBN:9952-9952-445-04-5

Monoqrafiyada müasir dövrdə olan problemlərdən güc siyasətinin tətbiqi, hərbi müdaxilə, beynəlxalq münaqişələr, beynəlxalq terrorizm kimi qlobal problemlər, ABŞ-ın Avrasiya siyasətinin, natosentrizm siyasətinin mahiyyəti, BMT ilə əməkdaşlıq edən regional və ya subregional təşkilatlarda hakim mövqe tutan dövlətin, məsələn ATƏT-də, MDB-də Rusiyanın və ya NATO-da ABŞ-ın geopolitik maraqları araşdırılır, BMT-nin əsas və ixtisaslaşmış qurumlarının fəaliyyətinin gücləndirilməsi, islahatların keçirilməsi zəminində beynəlxalq münasibətlərin müasir problemlərinin həlli yolları göstərilir.

MÜNDƏRİCAT

GİRİŞ......................................................................................4
FƏSİL I. BMT-NİN YARADILMASI ƏRƏFƏSİNDƏ TƏŞƏBBÜSÇÜ DÖVLƏTLƏRİN TƏKLİFLƏRİ VƏ TƏŞKİLATIN FƏALİYYƏT MEXANİZMİ..................................................................................8
1.1.BMT-nin yaradılması ərəfəsində təşəbbüsçü dövlətlərin təklifləri və məqsədləri.................................................................................8
1.2.BMT-nin fəaliyyət mexanizmi................................................18
FƏSİL II. BMT-NIN REGIONAL VƏ SUBREGİONAL TƏŞKILATLARLA ƏMƏKDAŞLIĞI.........................................35
2.1.BMT-nin regional təşkilatlarla əməkdaşliğinin hüquqi əsaslari.35
2.2. Cənubi Qafqazda olan münaqişələrin nizama salınmasında BMT-nin ATƏT ilə əməkdaşlığının nəticələri..............................44
2.3. Kosova probleminin nizama salınmasında BMT-nin NATO ilə əməkdaşlığının nəticələri...................................................................84
2.4. Afrikada olan problemlərin nizama salınmasında BMT-nin Afrika Birliyi ilə əməkdaşlığının nəticələri...................................89
FƏSİL III. ABŞ-IN NATOSENTRİZM SİYASƏTİ VƏ BMT........96
3.1.ABŞ-ın Avrasiya siyasətinin mahiyyəti və bundan irəli gələn bəhanələr..................................................................................96
3.2. ABŞ-ın Yaxın Şərqdə siyasəti və BMT .................................107
3.3. Fələstin problemi və BMT......................................................112
3.4 BMT-nin beynəlxalq terrorizmə qarşı mübarizə tədbirlərindən ABŞ-ın Avrasiya siyasətində məqsədyönlü istifadəsi....................123
FƏSİL IV BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MÜASİR PROBLEMLƏRİNİ NİZAMA SALMAQ ÜÇÜN BMT-NİN POTENSİALININ ARTIRILMASI YOLLARI............................137
4.1. BMT-nin fəaliyyətinin gücləndirilməsi istiqamətində irəli sürülən təkliflər və onların nəticələri...........................................137
4.2.Beynəlxalq münasibətlərin müasir problemlərini nizama salmaq üçün BMT-də aparılması zəruri olan islahatlar..............................150
NƏTİCƏ.........................................................................................166
ƏDƏBİYYAT SİYAHISI.............................................................175

# GİRİŞ

Beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyi dəstəkləyən BMT-nin fəaliyyəti onun qəbul etdiyi Nizamnaməyə əsasən müəyyyənləşdirilir və beynəlxalq hüquq prinsiplərinin tətbiqinə əsaslanır. Bu beynəlxalq hüquq prinsipləri 1970-ci ildə Baş Məclisin dövlətlər arasında dostluq və əməkdaşlığı inkişaf etdirmək məqsədilə qəbul etdiyi bəyannamədə göstərilmiş dövlətlərin suveren bərabərliyi, beynəlxalq mübahisələrin sülh yolu ilə həll edilməsi, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi, güc tətbiq edilməməsi, hər hansı bir dövlətin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə edilməməsi, xalqların öz müqəddəratını təyin etməsi, çoxtərəfli əməkdaşlıq prinsipləri və 1975-ci ildə ATƏM-in (1995-ci ildən ATƏT adlandırıldığı üçün əsərdə ATƏT yazılacaq) Helsinki Yekun Aktında göstərilən hər hansı bir dövlətin ərazi bütövlüyünü və siyasi müstəqilliyini hədələməkdən çəkinmək, sərhədlərin toxunulmazlığı, insan hüquq və azadlığına hörmət prinsipləridir. Bundan başqa bütün üzv dövlətlər BMT-nin istənilən tədbirinə yardım etməli, əleyhinə preventiv və məcburiyyət tədbiri görülən istənilən dövlətə qarşı yardım etməkdən çəkinməli, Təşkilata üzv olmayan dövlətlər də beynəlxalq sülh və təhlükəsizliyi qorumaq üçün bu prinsiplərə uyğun hərəkət etməlidir. Beynəlxalq sülh və təhlükəsizliyi qorumaq, sülhü təhlükədə qoyan vasitələri aradan qaldırmaq, onları danışıqlar yolu ilə, ədalətlilik prinsipinə müvafiq olaraq beynəlxalq hüquq əsasında həll etmək BMT Nizamnaməsinin əsasını təşkil edir. BMT-nin sülh və təhlükəsizliyi müdafiə etməkdə imkanlarını düzgün başa düşmək üçün Nizamnamənin dövlətlərarası münasibətlərin möhkəmlənməsində, inkişafında rolunu, əhəmiyyətini izah etmək vacibdir. Hansı xarakterdə olursa-olsun münaqişələrin sülh yolu ilə nizama salınmasını, yaxud həll edilməsini təsdiq edən Brian-Kelloq paktının prinsipi BMT Nizamnaməsinin 2-ci maddəsinin 3-cü hissəsində bir daha öz əksini tapdı: "Bütün üzvlər öz beynəlxalq mübahisələrini dinc vasitələrlə o qaydada həll edirlər ki, beynəlxalq sülh və təhlükəsizlik və ədalət təhlükəsizliyə məruz qalmasın"

BMT-də hazırda 193 dövlət konstitusiya əsasında, beynəlxalq hüquq prinsiplərinə müvafiq çoxtərəfli əməkdaşlıq edir.

BMT-nin üzvü olan bütün dövlətlərin suverenlik prinsipi tanınmış və bir-birinin daxili işinə qarışmamaq ümumi vəzifə olaraq qarşıya qoyulmuşdur. Bu ümumdünya təşkilatının fəaliyyətə başlaması ilə gizli diplomatiyanın rolu məhdudlaşmış, bəşəriyyət baş verən hadisələr barədə daha çox informasiya almışdır. Belə ki, Baş Məclisin illik sessiyası hər bir dövlətə öz problemləri haqda dünya birliyinə müraciət etməyə imkan verir.

Beynəlxalq öhdəlikləri yerinə yetirmək prinsipi beynəlxalq hüququn ən qədim prinsipidir. Bu nöqteyi-nəzərdən dünya dövlətlərinin çoxtərəfli əməkdaşlığı çərçivəsində fəaliyyət göstərən BMT-nin Nizamnaməsi müqavilədir. Təşkilata daxil olarkən hər bir dövlət öz üzərinə müqavilədən irəli gələn öhdəliklər götürür. Özündə müasir beynəlxalq münasibətlərin əsas meyllərini əks etdirən Nizamnamənin əsas qərarlarını dəyişdirmək cəhdləri, yaxud onları yerinə yetirməmək müasir beynəlxalq hüququ pozmaq deməkdir. Beləliklə, beynəlxalq hüquq beynəlxalq münasibətlərin normal inkişafında vacib praktiki rol oynayır. Hələ "Soyuq müharibə" illərində ABŞ hüquqşünasları Klark və Zonun «...Əgər müharibənin qarşısını alan hüquq normaları yoxdursa, möhkəm sülhdən danışmaq olmaz» deməsi (38, s.18), müasir dövrdə isə Təhlükəsizlik Şurasının 2001-ci il 30 avqust tarixli "Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu" barədə 1366 saylı qətnaməsində Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların gələcəkdə silahlı münaqişələrin qarşısını almaqda rolu təsdiq edilərək, üzv dövlətlərin genosidin qarşısını almağa, bəşəriyyət əleyhinə cinayətlər və hərbi cinayətlər törədənləri məsuliyyətə cəlb etməyə, beynəlxalq mübahisələri həll etmək üçün regional təşkilatlarla əməkdaşlıqdan istifadə etməklə yanaşı, Beynəlxalq Məhkəməyə müraciət etməyə üstünlük verməyə çağırılması təsadüfi deyil.(141)

Almaniya və Yaponiyanın militarist dövlət kimi dirçəlməsinə, bu və ya digər dövlət qruplarının hökmranlığına yol verməmək məqsədilə yaradılan BMT-nin hazırda başlıca məqsədi siyasi, iqtisadi, sosial əməkdaşlıq yolu ilə bütün üzvlərin bərabərliyi əsasında beynəlxalq sülh və təhlükəsizliyi

təmin etməkdir. Lakin müasir dövrün aktual problemlərini nizama salmaq üçün BMT-nin effektivliyi aşağı səviyyədədir. Qloballaşma prosesində beynəlxalq təhlükəsizlik problemlərinin qarşısını almaq, tarazlı beynəlxalq münasibətlər sistemini inkişaf etdirilmək üçün BMT-nin əsas orqanlarının – Baş Məclisin, Təhlükəsizlik Şurasının, İqtisadi və Sosial Şuranın, Katibliyin, Beynəlxalq Məhkəmənin və ixtisaslaşmış qurumların fəaliyyətinin gücləndirilməsi, islahatların keçirilməsi, təkmilləşdirilməsi vacib məsələlərdəndir. BMT-nin əsasını qoyduğu beynəlxalq təhlükəsizlik sistemi dünya birliyində siyasi-hərbi proseslərin nizamlanmasında mühüm rol oynayır, qloballaşma layihələrinin həyata keçirilməsinə şərait yaradır. Bununla belə, müasir dövrdə beynəlxalq təhlükəsizliyi pozan amillər - güc siyasətinin tətbiqi, hərbi müdaxilə, beynəlxalq terrorizm, beynəlxalq münaqişələr, nüvə problemi, ekologiya problemi və s. qloballaşır, ABŞ-ın demokratiyanı yaymaq pərdəsi altında Yaxın Şərqdən başlayan Avrasiya siyasəti isə bəşəriyyəti təhlükədə qoyur.  ABŞ üçün əsas geopolitik mükafat Avrasiyadır. Bu gün Avrasiyada qeyri-avrasiya dövlətləri rəhbər rol oynayır və ABŞ-ın hegemonluq mövqeyi Avrasiya qitəsində onun hakimliyinin nə qədər və neçə müddətə effektli olmasından asılıdır. Harvard  Universitetinin politoloqu S.P.Xantinqton yazır ki, "ABŞ-ın başçılıq etmədiyi dünyada digər ölkələrin problemlərinin həllinə təsir etməyə çalışdığı ölkələrdən daha çox zor işlənəcək, qayda-qanunsuzluq olacaq, demokratiya, iqtisadiyyat az inkişaf edəcək. ABŞ-ın daimi beynəlxalq rəhbərliyi amerikalıların rifahı və təhlükəsizliyi və azadlıq, demokratiya, yer üzündə açıq iqtisadiyyat və beynəlxalq qayda-qanun üçün vacibdir"(133, s.44)

ABŞ-ın  hərbi sahədə, Yaponiya və Almaniya ilə rəqabətdə olmasına baxmayaraq iqtisadi sahədə, elmin və texnikanın qabaqcıl sahələrində, mədəniyyət sahəsində üstünlüyü ilə əlaqədar ABŞ siyasi xadimi Z.Bjezinski ABŞ-ın dünyada hegemonluğuna haqq qazandırır. O, yazır ki, "ABŞ texnologiya, kommunikasiya, informasiya sistemi, ticarət və maliyyənin inkişafına görə dünyada birinci dövlət olduğu kimi geopolitik aspektdən də dünyanın birinci

dövləti olmalıdır. Avrasiya şahmat taxtasıdır, orada dünyada hakimlik uğrunda mübarizə gedir."(133, s.13)

H.Kissincer XX əsrin son on ilində hərbidə, biznesdə, elmdə, texnologiyada, ali təhsildə, mədəniyyətdə dominant mövqeyi ilə bağlı beynəlxalq təhlükəsizliyi təmin etməkdə ABŞ-ın əvəzedilməz olduğunu bildirir: "ABŞ beynəlxalq maliyyə sistemində dominantlıq edir, iri investorları cəlb edir. Zaman keçdikcə bu və ya digər ölkədə narazılıqla qarşılanmasına baxmayaraq, Amerika pop mədəniyyəti bütün dünyada zövqlə qarşılanır."(60, s.1-2) Bunun əksinə olaraq Z.Bjezinski "Seçməli: qlobal hegemonluq, yoxsa qlobal liderlik" adlı əsərində amerika mədəniyyətinin çox aspektinin dəhşətli, vulqar olduğunu, bütün dünyada mədəni eroziyaya aparıb çıxardığını etiraf edir, amerikalıların digərlərinin mədəniyyətini onların dininə görə, yaxud qütblərarası münasibətlərə görə tənqid etməkdə haqlı olmadıqlarını bildirir.(124)

ABŞ-ın İraqın, Əfqanıstanın, Misirin, Liviyanın, Suriyanın, Yəmənin daxili siyasətinə müdaxiləsinin nəticəsi göstərdi ki, bu gün ABŞ dünyanı tək idarə etməyə çalışır. Beynəlxalq təhlükəsizlik sisteminin hegemon dövlət tərəfindən birtərəfli qaydada deyil, dünya dövlətlərinin birgə səyi ilə təkmilləşdirilməsi hazırda aktuallıq kəsb edir. Hər hansı dövlətin beynəlxalq sistemin hegemonuna çevrilməsinə yol verməmək və beynəlxalq hüquq normalarına əməl etmək BMT-nin XXI əsrin mürəkkəb çağırışlarına cavab vermək istiqamətində fəaliyyətinə şərait yarada bilər.

Qloballaşmanın sürətləndiyi bir dövrdə dünya dövlətlərinin qarşılıqlı asılılığı güclənir. Bu nöqteyi-nəzərdən Rusiya hüquqşünası Q.İ.Tunkin qeyd edir ki, qlobal problemlərin bütün bəşəriyyətin birgə cəhdi ilə həll edilməsi beynəlxalq nizamasalma, hər şeydən əvvəl beynəlxalq hüququn və beynəlxalq təşkilatların sürətlə inkişafı və onların beynəlxalq həyatda rolunun yüksəlməsi ilə mümkündür.(95, s.53)

BMT-nin fəaliyyətinin hansı halda müsbət nəticə verə biləcəyi barədə ümummilli lider H.Əliyev demişdir: "Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlər ilə möhkəmləndikdə müvəffəqiyyət gətirir."(17, s.310)

# FƏSİL I
# BMT-NİN YARADILMASI ƏRƏFƏSİNDƏ TƏŞƏBBÜSÇÜ DÖVLƏTLƏRİN TƏKLİFLƏRİ VƏ TƏŞKİLATIN FƏALİYYƏT MEXANİZMİ

## 1.1. BMT-nin yaradılması ərəfəsində təşəbbüsçü dövlətlərin təklifləri və məqsədləri

İyirmi milyondan çox insanın məhvinə səbəb olmuş I dünya müharibəsindən sonra keçirilən Paris sülh konfransında, 1919-cu il aprelin 28-də sülh və təhlükəsizliyi müdafiə edən ilk universal siyasi institut kimi Millətlər Cəmiyyəti yaradılsa da, az bir zamanda o öz nüfuzunu itirdi. 1932-ci ildə ABŞ prezidenti Ruzvelt Nyu-York auditoriyasında bildirdi ki, "indiki Millətlər Cəmiyyəti Vudro Vulsonun yaratdığı o Millətlər Cəmiyyəti deyil. Əvvəllər onun funksiyası ümumsülh sabitliyi yaratmaq olmamış, Avropa milli problemlərinə dair siyasi müzakirələr aparmaq olmuşdur. Bu müzakirələrdə ABŞ iştirak etməməli idi."(92, s.27)

II Dünya müharibəsindən sonra dövlətlər arasında istər iqtisadi, texniki, strateji, ya da mədəni sahələrdə, istər qlobal məsələlərin ətraf mühitin çirklənməsi, demoqrafik artım, təbii sərvətlərin azalması, geridə qalma və s. həllində yaranmış qarşılıqlı asılılıq münasibətləri daha da gücləndi. Bu problemlərin kollektiv həlli məsələsi meydana çıxdı, sülh və təhlükəsizliyi dəstəkləyən ümumdünya təşkilatının yaradılması barədə məsələ yenidən ortaya atıldı. Ruzveltin fikrincə beynəlxalq təşkilatın yaradılması amerika diplomatiyasının əsas vəzifəsi idi. 1919 cu il Paris konfransında Vudro Vulson birinci növbədə Millətlər Cəmiyyətinin yaradılması məsələsini irəli sürdüyü kimi Ruzvelt də təşkilat yaradılmadan sülh quruculuğu məsələlərinin müzakirə edilə bilməyəcəyini bildirdi.(91,s.468) Həqiqətən də beynəlxalq subyektlərin fəaliyyətinə sosial xarakter verən, beynəlxalq davranış normalarına itaət edilməsinə şərait yaradan beynəlxalq təşkilatın yaradılması vacib məsələ idi. 1941-ci ilin sonlarında belə bir təşkilatın və onun prinsiplərinin yaranması barədə fikirləşən Ruzveltin ağlına "Birləşmiş Millətlər" ideyası gəldi. U.Çerçil bunu eşidən kimi Bayronun "birləşmiş millətlərin qılıncı" ifadəsini xatırladı.(92,s.213)

Müharibənin ilk illərində sovet hökuməti kollektiv təhlükəsizlik barədə bir sıra sənədlər imzaladı. F.Ruzvelt və U.Çerçilin 1941-ci il 14 avqust tarixli Atlantik Xartiyası layihəsində ümumi təhlükəsizlik məsələlərinin bəzi prinsipləri – qüvvə tətbiqindən imtina etmək, xammal, iqtisadi və sosial rifahda bərabərliyə nail olmaq elan edildi. U.Çerçil ABŞ və İngiltərənin «böyük və daimi ümumi təhlükəsizlik sistemi» təsis etmək barədə arzusunu bildirdi. 1941-ci il 4 dekabr tarixli Sovet-Polşa bəyannaməsində göstərilirdi ki, möhkəm və ədalətli sülhə yalnız demokratik ölkələrin birləşməsi əsasında, yeni beynəlxalq münasibətlərin təşkilatını yaratmaqla nail olmaq olar.(73, s.14)

1942-ci il yanvarın 1-də ABŞ-ın prezidenti Ruzvelt, Böyük Britaniyanın baş naziri U.Çerçil, SSRİ-nin ABŞ-dakı səfiri M.M.Litvinov, Çinin ABŞ-dakı səfiri T.Sunq F.Ruzveltin iş otağında "Birləşmiş Millətlərin Bəyannaməsi" adı altında sənədi imzaladılar. Sənədə birinci Ruzvelt, ikinci Çerçil, üçüncü Litvinov, dördüncü Sunq imza atdı.(92,s.213) Bu vaxtdan etibarən "Birləşmiş Millətlər" ifadəsi geniş yayıldı. Bu ifadənin müəllifi F.Ruzvelt hesab edilir. Hətta rəsmilərin keçirdiyi bir mərasimdə Ruzvelt "Birləşmiş Millətlər"in yaradılması üçün sağlıq demişdi.(91,s.338) Adı çəkilən bəyannamədə faşist Almaniyası və onun müttəfiqləri ilə mübarizə etmək və separat danışıqlarda onlara güzəşt etməmək öz əksini tapmışdı. Ruzvelt yazırdı ki, "Qələbə bizim birinci və əsas məqsədimizdir. Yeni dünyanın birinci məqsədi Almaniya, İtaliya və Yaponiyanın tərksilah edilməsidir, onları dünyada əzab-əziyyət vermək "fəlsəfəsindən" imtina etməyə məcbur etməkdir"(92,s.290)

Ruzvelt dünya strategiyasını ancaq Çerçillə müzakirə etməyə razı idi. Bu isə çoxlarının, ilk növbədə çinlilərin xoşuna gəlmirdi. Çin cəbhəsində ali baş komandan dərəcəsi alan generalissimus Çan Kayşi təcili ittifaq strategiyasında iştirak etmək arzusunu bildirdi. Problemi zəiflətmək üçün Ruzvelt Maliyyə naziri Morqentaudan 1942-ci ilin yanvarında Çan Kayşi hökumətinə yarım milyard dollar borc ayırmağı tələb etdi. Lakin Çan Kayşi bildirdi ki, bu, dünya strategiyasının işində iştirak etməyə təsir etmir.(92,s.213)

Qeyd etmək lazımdır ki, Atlantik Xartiyası hazırlananda ABŞ və İngiltərə müharibədən sonra sülhü qorumaq üçün bu iki dövlətin silahlı qüvvələrindən ibarət «beynəlxalq polis»

yaradılmasının vacibliyini vurğulayırdılarsa, qələbə çaldıqdan sonra SSRİ-nin artan nüfuzu Vaşinqton və Londonu «İngiltərə-Amerika polis qüvvələri» ideyasından əl çəkməyə, özünün sülhsevər böyük və kiçik dövlətlərin iştirak etdiyi universal beynəlxalq təşkilat yaratmaq planı ilə razılaşmağa məcbur etdi. ABŞ-ın əsas problemi SSRİ ilə idi. SSRİ-nin yeri bu təşkilatda müəyyən edilməmişdi. İngiltərə ABŞ-ın köməyindən asılı olduğu üçün, hətta Ruzveltin Birləşmiş Millətlər Bəyannaməsi adı altında Hindistan məsələsini imzalaması barədə Çerçil mübahisə etmədi.(92,s.213)

Yeni ümumdünya təşkilatının dünyanın müxtəlif ölkələrində 100-dən çox layihəsi irəli sürüldü. 1942-ci ilin noyabrında Ruzvelt müharibədən sonrakı sülhquruculuğunu XX əsr diplomatiyasının veteranı, Cənubi Afrikanın baş naziri Y.Smetslə, K.Eyşelberqerlə, həmin ilin dekabrında Kanadanın baş naziri Makkenzi Kinq ilə müzakirə etdi.(92,s.290)

BMT-nin yaradılmasında vacib mərhələ 1943-cü il Moskva konfransı oldu. 1943-cü il oktyabrın 30-da SSRİ, ABŞ, Böyük Britaniya və Çin nümayəndələri Moskva konfransında böyük və kiçik dövlətlərin suveren bərabərliyi əsasında beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləməyi nəzərdə tutan beynəlxalq təşkilatın təsis edilməsi barədə Bəyannaməni imzaladılar.(69,s.249) Moskva konfransında gələcək BMT-nin vacib prinsipləri elan edildi. SSRİ antifaşist koalisiyadan dövlətlərin sıx əməkdaşlığına əsaslanan, yeni təcavüzün qarşısını almağa qadir olan, müharibə baş verərsə, onu başlanğıcda kəsməyə imkan verən beynəlxalq təşkilat yaratmağı təklif etdi. Bu təşkilatın sərəncamında təcavüzün qarşısını almaq və günahkarları cəzalandırmaq üçün azsaylı silahlı qüvvələr olmalı idi. Konfransda ABŞ-ın dövlət katibi müharibədən sonrakı iqtisadi əməkdaşlığı inkişaf etdirmək üçün Birləşmiş Millətlərin növbəti orqanının yaradılması barədə məsələ qaldırdı. Bu məsələ Tehran konfransında Ruzvelt, Çerçil və Stalin arasında müzakirə edildi. Ərzaq və kənd təsərrüfatı məsələləri üzrə daimi təşkilat yaradılması barədə tövsiyə araşdırıldı. (77,s.129-130) 1943-cü ilin noyabrında yuxarıda adı çəkilən dövlətlərin hökumət başçılarının iştirakı ilə keçirilən Tehran konfransında Moskva Bəyannaməsi bəyənildi, təşkilatın strukturu, üzvlük haqqı, rəhbər orqanların qərarları qəbul etməsi və onların icrasına nəzarət mexanizmi müəyyən edildi.(69,

s.249) Stalinlə söhbət zamanı Ruzvelt bu təşkilatın sxemini çəkdi. Sxemdə təşkilatın üç əsas orqandan – sülh məsələsini müzakirə edib tövsiyə verən Baş Məclis, SSRİ, ABŞ, İngiltərə, Çin, Avropa dövlətlərindən iki nümayəndə, Latın Amerikası, Orta Şərq, Uzaq Şərq və İngiltərə dominionlarından bir nümayəndə daxil olan iqtisadi, ərzaq, səhiyyə və s. məsələlərə baxan İcraedici Komitə, SSRİ, ABŞ, İngiltərə, Çin nümayəndələrindən ibarət olan fövqəladə hallarda təcili tədbirlər görmək səlahiyyəti olan məcburetmə orqanı kimi «Polis Komitəsi»ndən ibarət olması göstərilmişdi. Ruzvelt müharibədən əvvəlki kimi Qərbi Avropanın güclü olmasını istəmirdi. Onun "dörd polis" konsepsiyası belə inkişafı özündə əks etdirirdi. (92,s.433) Sonralar F.Ruzvelt öz oğlu E.Ruzvelt ilə söhbətdə «Polis Komitəsi» məsələsinə öz münasibətini daha konkret bildirmişdi: «Sülh üç dövlətdən (ABŞ, SSRİ, İngiltərə) asılıdır, mübahisəli məsələlərə veto qoymaqla əks mövqeyi onlardan biri tuta bilər.»(55,s.173) E.Ruzvelt atasının veto hüququnu dəstəklədiyini və bu məsələnin daha çox müzakirəyə qoyulması barədə onun sözlərini xatırlayırdı.

İ.V.Stalinin fikrinə gəldikdə isə, F.Ruzvelt Tehran konfransında yeni beynəlxalq təşkilatın yaradılması ideyasını irəli sürdükdə, İ.V.Stalin sülhü müdafiə üçün SSRİ, ABŞ, İngiltərə müttəfiq dövlətlərinin ordusunun cəmləşdiyi Avropada və Uzaq Şərqdə iki hərbi-strateji baza yaratmaq arzusunu bildirmişdi.

U.Çerçilin də müharibədən sonra öz planı var idi. O, antifaşist koalisiyanın bütün üzvləri ilə əməkdaşlıq etmək yox, SSRİ, ABŞ, İngiltərədən ibarət federasiya, yaxud konfederasiya yaratmağı planlaşdırmışdı. İngiltərənin dünyada hakim mövqeyini təchiz etməyə cəhd edən U.Çerçil hökuməti yeni beynəlxalq təşkilat yaradılması layihəsini ciddi qəbul etmirdi. (55,s.173) Lakin sonralar Çerçil BMT haqqında yazırdı:"BMT bizi göylərə çatmağa kömək etmək üçün yox, bizi cəhənnəmdən xilas etmək üçün yaradıldı."(96,s.509)U.Çerçil BMT-nin möhkəmləndirilməsi prosesində, onun himayəsi altında Avropa dövlətlərini birləşdirən Avropa Birləşmiş Ştatları regional strukturunu yaratmağın zəruriliyini bildirirdi:"Birinci addımda Avropa Şurasını təsis etməliyik."(96,s.503) Hökumət üzvləri İden, Ettli, Bevin, Morrison Çerçillə həmfikir idi. Maraqlıdır ki, ibtidai təhsilli olsa da Bevin

İngiltərənin hökumət üzvləri arasında daha bacarıqlı idi və İden onunla tez-tez məsləhətləşirdi.(88,s.278)1947-ci il İngiltərə və Fransa arasında Dyünker müqaviləsi, Qərb ölkələri ittifaqı yaratmaq barədə müqavilə, İngiltərə, Fransa və Benilüks ölkələrinin daxil olduğu Qərb ittifaqının yaradılması barədə müqavilə ilə Avropa Birləşmiş Ştatlarının yaradılması barədə Çerçilin və İngiltərənin xarici siyasətində XX əsrin 30-50-ci illərində mühüm rol oynayan İdenin və başqa hökumət üzvlərinin fikirləri həyata keçirildi. 1949-cu ildə Avropa Şurası yaradıldı, eyni zamanda Strasburqda Avropanın vahidliyini və Nazirlər Şurasının problemlərini müzakirə etmək üçün məsləhət şurası təsis edildi.(88,s.298)

1944-cü ilin yayında, Moskva konfransının qərarlarına müvafiq olaraq hər üç dövlət beynəlxalq təşkilat barədə fikir mübadiləsi etdilər. Həmin il avqustun 21-dən oktyabrın 7-dək SSRİ, ABŞ və İngiltərə, son günlər Çinin iştirakı ilə keçirilmiş Dumbarton-Okse (Vaşinqton) konfransında Təhlükəsizlik Şurasında səsvermə proseduraсı, məcburi və tövsiyə xarakterli qərarlar, Beynəlxalq Məhkəmənin statutu, tərkibi, seçilmə qaydası barədə mübahisələr oldu. Dumbarton-Oksedə sovet nümayəndəsi 16 səs almağa cəhd etdi. Qeyd etmək lazımdır ki, Bolqarıstan 16-cı Sovet Respublikası hesab edilirdi. Sovet nümayəndəsi Molotovun Baş Məclisdə 16 sovet respublikasına yer ayırnaq barədə xahişi qəbul edilmədi. Onda sovet nümayəndəsi əhalisinin sayına görə və müharibədən əziyyət çəkən ölkələr kimi Ukrayna və Belorusiyaya yer ayırmağı, onları təşkilatın təsisçi dövlətləri sırasına daxil etməyi xahiş etdi.(77,s.166) Ruzvelt Molotova qulaq asaraq o dəqiqə etiraz etdi və BMT-yə üzvlük barədə məsələni konfrans çağırılanadək dayandırmağı təklif etdi. Ruzvelt bildirdi ki, ABŞ konqresi və xalqı başa düşməyəcək ki, nə üçün böyük dövlətlər Baş Məclisdə nümayəndələrinə görə bərabər deyil. Buna görə də o da iki səs əlavə almalıdır.(91,s.467; 77,s.202) Ruzvelt fikirləşirdi ki, Millətlər Cəmiyyətində İngiltərə və onun beş dominionu olanda ABŞ tək qalmışdı.(92,s.492) İngiltərə sovet təklifini dəstəklədi və BMT-nin yaradılmasına mane olmamağa çağırdı.(91,s.467) Dumbarton-Oksedə SSRİ daimi üzvlərin yekdil səs verməsi prinsipini dəstəklədi.(100,s.127). Konfransda sovet nümayəndəliyinə SSRİ-nin ABŞ-dakı səfiri A.A. Qromıko, ABŞ nümayəndəliyinə dövlət katibi E. Stettinius, İngiltərə

nümayəndəliyinə xarici işlər nazirinin müavini A.Kadoqan başçılıq edirdi. Konfrans iştirakçıları BMT-nin əsas orqanları kimi Təhlükəsizlik Şurası, Baş Məclis, Beynəlxalq Məhkəmə, Katibliyin fəaliyyət göstərməsi barədə razılaşdılar. Təhlükəsizlik Şurasında qərar qəbul edilərkən bütün daimi üzvlərin yekdil razılığı olması prinsipi bildirildi. Təhlükəsizlik Şurasının tərkibi barədə SSRİ-nin təklifi müzakirə edilərək SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin daimi üzv, 6 üzv isə 2 il müddətinə seçilən müvəqqəti üzv oldu. Yaradılan beynəlxalq təşkilatın məqsədi yalnız sülh və təhlükəsizlik məsələləri deyil, həm də iqtisadi, sosial və s. humanitar problemlər sahəsində əməkdaşlıq etmək olduğu üçün İqtisadi və Sosial Şuranın yaradılması zəruriliyi də qeyd olundu. Ruzvelt bildirdi ki, "ABŞ effektli dünya təşkilatı yaratmağa cəhd etməlidir. Ölkədə "Vilson" adlı film müvəffəqiyyətlə nümayiş etdirilir. Bu film 1920-ci ildə olmuş bir səhvdən, Millətlər Cəmiyyətinin senat tərəfindən rədd edilməsindən bəhs edir. Bu kino həmin səhvi düzəltməkdən və yeni beynəlxalq təşkilat yaratmaqdan bəhs edir. İctimai rəy göstərir ki, amerika əhalisinin üçdə ikisi belə təşkilatın yaradılmasına səs verir. Bu təşkilatın sadəcə bəyan etmək üçün yox, öz qərarını təsdiq etmək üçün öz xüsusi silahlı qüvvələri olmalıdır." (92,s.432)

1944-cü il seçkiqabağı günlərdə "Uoldorf Astoriya" otelində çıxış edən Ruzvelt beynəlxalq təşkilatın funksiyasını belə izah etdi:"Birləşmiş Millətlər Şurasının cəld hərəkət səlahiyyəti olmalı və lazım olduqda sülh məqsədilə qüvvə ilə kömək etməlidir."(92,s.449)

1944-cü ilin dekabrında Təhlükəsizlik Şurasında səsvermə prosedurası barədə Stalin və Ruzvelt arasında yazışmalar oldu. Məşhur Amerika politoloqu Q.Kolko ABŞ-ın qəddar mövqeyini belə xarakterizə edirdi: «Yalta konfransına (əksər halda Krım konfransı adlanır - R.D.) qədər ABŞ həyatı öyrədən dəyənək rolunu oynamalı idi.» (55, s.173) Son illərin hadisələri də göstərir ki, ABŞ indi də həyatı öyrədən dəyənək rolu ilə BMT-dən istifadə etməyə çalışır, hakimiyyətin zəif olduğu dövlətlərə demokratiyanı yaymaq pərdəsi altında hücum edir. Məs: İraqa hücum. Əslində İraqın əsas «günahı» onun neftlə zəngin olmasıdır.

BMT-nin strukturu müzakirə edilərkən Fransa böyük dövlətlər sırasına düşmədi. ABŞ senatı bunu Fransanın müharibədə

kiçik rol oynaması ilə izah etdi. İngiltərə isə Fransanın böyük dövlətlər arasında öz yerini tutmaq vaxtının çatdığını bildirdi. Noyabrın 1-də SSRİ-nin təşəbbüsü ilə üç böyük dövlət Fransanı daimi üzv kimi dəvət etdi. Həmin il dekabrın 10-da Moskvada Sovet-Fransa müqaviləsinin bağlanması diplomat J.Kambonun sözləri ilə desək, "Fransaya böyük dövlət titulunu qazandırdı."(92,s.444)

Böyük dövlətlərin növbəti konransının Krımda keçirilməsi təsadüfi olmadı. Ruzvelt mandat altında olan ərazilər üzərində ayrı-ayrı ölkələrin qəyyumluq hüququ barədə məsələni qaldıranda Çerçil buna etiraz etmişdi. Çerçil kreslodan qalxaraq onu alqışlayan Stalinə tərəf baxaraq "Krımın beynəlxalq istirahət zonası olmasına o, necə baxır?" deyərək soruşmuşdu. Stalin üçlüyün Krımda görüşməsinə şad olduğunu bildirmişdi. (92,s.494)

1945-ci ilin fevralında keçirilən Krım konfransına dəvət edilməyən De Qol hökuməti proingilis istiqaməti gücləndirdi, Fransa və İngiltərənin ikitərəfli pakt bağlamasına çalışdı.(92, s.483) U.Çerçil yazır ki, "Yalta konfransında üç böyük dövlət Dumbarton-Oksedə razılığa gələ bilmədikləri səsvermə barədə razılaşdılar. Bu razılıq yeni beynəlxalq təşkilatın yaradılmasına imkan verdi." Konfransda ABŞ nümayəndəliyi adından Stettinius, Böyük Britaniya nümayəndəliyi adından İden, SSRİ nümayəndəliyi adından Molotov iştirak edirdilər.(100, s.129) Böyük dövlətlərin Təhlükəsizlik Şurasında veto qoymaq məsələsi kəskin müzakirəyə səbəb oldu. Bu ərəfədə S.Uellesin "Qərarın zamanı" adlı kitabı ABŞ-da yayımlandı. Əsərdə göstərilirdi ki, ABŞ, SSRİ, İngiltərə və Çin daimi üzv olmaqla, 11 üzvdən ibarət olan icraçı şuranın işi effektli ola bilər. Bu dördlüyün qərarı yekdil olmalıdır. Kitab ABŞ-da məşhurlaşdı və yalnız 1944-cü ilin avqustunda bu kitabdan yarım milyon tiraj buraxılmışdı. ABŞ tarixçi və politoloqları D.Perkins, D.Fleminq, U.Lippman, C.Şotvel də ABŞ-ın dünya siyasətinə çıxması, ümumdünya təşkilatının yaradılması barədə fikri ilə razılaşırdılar. Ruzvelt alimlərin dəstəyini qiymətləndirərək yazırdı:"Təxminən bütün zəkalar indi bizimlədir."(92,s.432) Ruzvelt alimlərin fikrini qiymətləndirərək veto hüququnu dəstəkləsə də, senat bu məsələni dəstəkləmirdi. Stalin və Çerçil isə vahidlik prinsipini dəstəkləyirdilər. Əgər bu prinsip qəbul edilməzsə, Stalin Birləşmiş Millətlərin yaradılması barədə layihədə iştirak etməyəcəyini

bildirmişdi. Stalinin fikrincə, bu prinsipin tətbiq edilməməsi böyük dövlətlərin qarşıdurmasına, ümumtəhlükəsizliyin pozulmasına, kiçik dövlətlərin də təhlükədə qalmasına gətirib çıxara bilərdi. (77, s.189)

Vəziyyətdən çıxmaq üçün Ruzvelt sovet nymayəndəsinin başçısı A.A.Qromıko ilə mübahisəli məsələni müzakirə etməyi qərara aldı. Ruzvelt bildirdi ki, böyük dövlətlərin veto hüququ kiçik dövlətlərin təhlükəsizliyini pozduğu üçün Amerika xalqı və senatı bu təklifi dəstəkləməyəcək.(92,s.433-434) Stalin Ruzveltə məktubunda dörd dövlətin vahidlik prinsipini müdafiə etdiyini bildirdi: ”Bu ölkələr arasında qarşılıqlı şübhə yeri olmamalıdır.”(92,s.434)Çerçil də böyük dövlətlərin yekdil fəaliyyətinin BMT-də də böyük məna kəsb etdiyini bildirirdi. O, bu barədə Stalinə məxfi məktubunda da yazırdı.(76,s.227)

Krım konfransında ABŞ nümayəndəsi adından dövlət katibi E.Stettinus təşkilatın əsas orqanı olan Təhlükəsizlik Şurasının fəaliyyəti barədə variantı izah etdi. Təhlükəsizlik Şurasının 11 üzvündən 7 üzvünün səsi istənilən mübahisəli məsələyə baxmaq üçün kifayət idi. Təhlükəsizlik Şurasının 5 üzvündən hər biri BMT-nin iqtisadi və hərbi sanksiya tətbiq edilməsi barədə məsələyə veto hüququ alırdı. Təhlükəsizlik Şurasının üzvü beynəlxalq arenada məhz onun fəaliyyəti barədə məsələnin qoyulmasında səs hüququna malik deyildi. Stettinius izah etdi ki, ABŞ-ı iki hal maraqlandırır: böyük dövlətlərin vahidliyini saxlamaq və eyni zamanda kiçik dövlətlərə Təhlükəsizlik Şurasında öz iddialarını bildirmək imkanı vermək.(91,s.469)

Konfransda həmçinin bir neçə aydan sonra keçiriləcək San-Fransisko konfransına kimlərin dəvət olunacağı məlum oldu.(96,s.439) 1945-ci il 1 mart tarixədək Almaniya və Yaponiyaya müharibə elan edən 42 dövlət ABŞ, Böyük Britaniya, SSRİ, Fransa müvəqqəti hökuməti və Çin Respublikasının dəvəti ilə San-Fransiskoya çağırıldı. Məhz bu dövlətlərin üzərilərinə sülh və təhlükəsizliyi saxlamaq məsuliyyəti düşürdü. Yeni beynəlxalq təşkilat böyük dövlətlərin vahidliyini pozmamaq və ya onların effektli fəaliyyətinə mane olmamaq məsuliyyətinə diqqət ayırmalı idi. Eyni zamanda beynəlxalq təşkilat böyük dövlətlərin diktaturasına əsaslanmamalı, onun borcu dünya üzərində ağalıq etmək yox, dünyaya xidmət etmək olmalı idi.(96,s.440) U.Çerçil yazır: ”Bizim

gələcəyimiz bu dövlətlərin sıx və səmərəli əməkdaşlığından asılıdır. Bu təşkilat özündə varisi olduğu Millətlər Cəmiyyətinin xüsusiyyətlərini daşıyır. Keçmişdə olan bütün işlər, Millətlər Cəmiyyətinin işi prosesində qazanılmış təcrübə atılmır. Lakin yeni təşkilat Millətlər Cəmiyyətindən fərqlənəcək. O öz zamanında istənilən sülhü pozanlar üzərində silah tətbiq etməkldən çəkinməyəcək. Biz inanırıq ki, bu təşkilat bəşəriyyəti üçüncü dünya fəlakətindən müdafiə edəcək."(96,s.441) Ruzvelt də əbədi sülhə inanmırdı. Lakin o, böyük müharibədən daha 50 il xilas olmağa inanırdı.(92,s.493) Krım konfransından qayıdandan sonra Ruzvelt bildirdi ki, BMT dünyanın təhlükəsizliyini təmin etmək məqsədilə tam qəyyumluq edəcək.(92,s.496)

U.Çerçil BMT-nin sərəncamında beynəlxalq silahlı qüvvələr olmadan onun işləyə bilməyəcəyini vurğulayaraq, BMT-yə daxil olan hər bir dövlətin onun sərəncamına müəyyən miqdarda eskadrila verməsini təklif etdi. Bu eskadrilanın tərkibi öz vətənində təhsil almalı, hərbi hazırlıq keçməli idi.(96,s.468) Artıq 1945-ci ilin fevralında Ruzvelt Stalinə yazırdı ki, "Birləşmiş Millətlərin silahlı qüvvələri ilə birlikdə sizin ordunuz cənubda və qərbdə qələbələr çalır."(77,s.204)

Ruzvelt növbəti konransda da sovet nümayəndəliyinin tərkibində Molotovu görmək istədiyini bildirdi. Xarici diplomatlarla danışıqlar zamanı Molotov heç zaman dərindən rəsmi çərçivədə çıxış etmirdi və o, bu xarakterini Ruzveltlə danışıqlarda da saxlamışdı. Şervud yazır ki, Ruzvelt heç zaman Molotova oxşar adama rast gəlməmişdi.(98,s.403) ABŞ-da SSRİ-nin səfiri olan A.A.Qromıko San-Fransiskoda sovet nümayəndəliyinin tərkibi haqqında bildirdikdən sonra Ruzvelt Stalinə Yaltada Molotov, İden, Stettiniusun dostluq etdiklərini, səmərəli əməkdaşlıq barədə necə fəal olduqlarını bildirdi və Stalindən Molotovun konfransa gəlməsini xahiş etdi. O, yazırdı ki, əgər Molotov gəlməsə, konfrans çox şey itirəcək. (77,s.209) 1945-ci ilin aprelində SSRİ-nin xalq xarici işlər komissarı B.M.Molotov və ABŞ nümayəndəsi respublikaçı senator A.X.Vandenberq bir ay danışıqlardan sonra San-Fransiskoda BMT Nizamnaməsinin layihəsini hazırladılar. Layihə təsdiq edilmək üçün konfransa təqdim edildi. Aprelin 25-də başlanan konfrans iyunun 26-dək davam etdi, orada iştirak edən 50 ölkə nümayəndəsi BMT

Nizamnaməsini yekdilliklə qəbul etdi və iyunun 26-da imzalanan Nizamnamə oktyabr ayında hüquqi qüvvəyə mindi və BMT öz işinə başladı. Polşa San-Fransiskoda iştirak etmədi, Nizamnaməni sonra imzaladı və 51-ci dövlət oldu. Ukrayna və Belorusiya BMT-nin ilk üzvləri oldu. SSRİ-nin tərkibində olmasına baxmayaraq, Ukrayna SSR, Belorusiya SSR BMT-yə təsisçi dövlət kimi daxil oldu. Bu isə faktiki olaraq, BMT-də müzakirələr zamanı SSRİ-nin 1 deyil, 3 səsi olması demək idi. (83, s.30)

Həmin il iyulun 17-dən avqustun 2-dək keçirilən Potsdam konfransında SSRİ, ABŞ və Böyük Britaniyanın hərbi cinayətkarları cəzalandırmağın vacibliyi barədə tövsiyəyə müvafiq olaraq, nasist cinayətkarların siyahısı dərc edildi, ilk Beynəlxalq Hərbi Trbunal noyabrın 20-də Nyurnberqdə işə başladı, 1946-cı il oktyabrın 1-dək işini qurtardı. 12 əsas hərbi cinayətkar – Qerinq, Ribbentrop, Keytel, Kaltenbrunner, Rozenberq, Frank, Frik, Ştreyxer, Zukel, Yodl, Zeys-İnkvart, Borman (qiyabi), Hess, Funk, Reder ölümə məhkum edildi, Şpreer və Şirax 20 il, Noyrat 15 il, Denis 10 il müddətinə azadlıqdan məhrum edildi.

1945-ci il oktyabrın 24-də 51 ölkənin imzası ilə kollektiv təhlükəsizliyi təmin etmək və beynəlxalq əməkdaşlığı inkişaf etdirmək, bəşəriyyətə qarşı sözlə ifadə edilə bilməyən fəlakətlərə gətirib çıxaran yeni dünya müharibəsinin qarşısını almaq məqsədilə BMT yaradıldı. İndi dünyanın təxminən bütün ölkələri – 193 ölkə BMT-nin üzvüdür.

1946-cı il yanvarın 10-da Londonda Vestminster sarayının əsas salonunda 51 dövlətin iştirakı ilə Baş Məclisin birinci sessiyası öz işinə başladı.

BMT Nizamnaməsinə müvafiq dörd məqsədə xidmət edir: 1) beynəlxalq sülh və təhlükəsizliyi müdafiə etmək; 2) millətlər arasında dost münasibətləri inkişaf etdirmək; 3) qlobal problemlərin həllini beynəlxalq əməkdaşlıqda həyata keçirmək; 4) insan hüquqlarına hörmət etmək.

BMT-nin əsas iqamətgahı Nyu-Yorkda, hərbi qərargahları Cenevrədə (İsveçrə), Vyanada (Avstriya), Nayrobidə (Keniya) yerləşir. Təşkilatda işlənən rəsmi dillər ingilis, ərəb, ispan, çin, rus, fransız dilləridir. BMT-nin əsas vəzifəsi sonrakı nəsli müharibədən qorumaq, insan hüquqlarını müdafiə etmək, ədalətli

şərait yaratmaq, sosial inkişafa kömək etmək, həyat səviyyəsini qaldırmaq, beynəlxalq münasibətləri sabitləşdirməkdir. Yeni meydana çıxan qlobal problemləri heç bir dövlət təkbaşına həll edə bilməz. Beynəlxalq münaqişələrin nizama salınmasından başqa, BMT bir çox istiqamətdə fəaliyyət göstərir. Məsələn, uşaqların inkişafı, ətraf mühitin qorunması, insan hüququ, səhiyyə və tibbi tədqiqat, kütləvi yoxsulluğun ləğv edilməsi, iqtisadi inkişaf, kənd təsərrüfatı və balıqçılığın inkişafı, təhsil, qadınların vəziyyətinin yaxşılaşdırılması, fövqəladə vəziyyətlərdə kömək, fəlakət hallarında kömək, hava və dəniz yolu ilə yükdaşımaları, atom enerjisindən sülh məqsədilə istifadə etmək, zəhmətkeşlərin hüquqlarını müdafiə etmək və s.

## 1.2.BMT-nin fəaliyyət mexanizmi

BMT-yə qəbul edilən hər bir dövlət təşkilata üzvlükdən irəli gələn hüquq və imtiyazları yerinə yetirmək, mübahisəli məsələləri sülh yolu ulə həll etmək, beynəlxalq sülh, təhlükəsizlik və ərazi bütövlüyünü pozmamaq, istənilən dövlətin ərazi toxunulmazlığı və siyasi müstəqilliyinin pozulmasına dəstək durmamaq, beynəlxalq sülh və təhlükəsizlik barədə əməkdaşlıqda iştirak etmək, BMT-nin preventiv, yaxud məcburi xarakterli tədbirlərində iştirak etmək öhdəliklərini öz üzərinə götürür.

BMT-nin strukturunu aşağıdakı kimi təsnifləşdirmək olar:

- əsas orqanlar
- ixtisaslaşmış qurumlar
- xüsusi problemləri həll etmək üçün təşkilatlar, komissiyalar, komitələr
- altkomitələr

BMT-nin altı əsas orqanı var. Onlardan Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Katiblik, Qəyyumluq Şurası Nyu-Yorkda, Beynəlxalq Məhkəmə Haaqada yerləşir.

BMT təsis ediləndə onun vacib orqanlarından biri Millətlər Cəmiyyətinin mandatı altında olan ərazilərin idarə olunmasını təşkil edən Qəyyumluq üzrə Şura idi. II dünya müharibəsində məğlub edilmiş dövlətlərdən alınan ərazilər qələbə çalan dövlətlər arasında bölünmüşdü. Qeyd etmək lazımdır ki, SSRİ mandat sistemində

iştirak etməkdən imtina etmişdi. 1994-cü ildə qəyyumluq altında olan ərazilərin qurtarması barədə müqaviləyə əsasən ABŞ-ın mandatı altında olan Palau istisna olmaqla, bütün ərazilər Təhlükəsizlik Şurasının qərarı ilə müstəqillik əldə etdi. BMT 2000-ci ili dünyada müstəmləkə sisteminin sona çatması ili kimi elan etdi və müvafiq olaraq Qəyyumluq üzrə Şuranın missiyası başa çatdı. 2005-ci il Ümumdünya Sammitində BMT Baş katibi Kofi Annan çıxış edərək Nizamnamədən "düşmən dövlət" ifadəsi, Qəyyumluq üzrə Şura, Hərbi-Qərargah Komitəsi ilə bağlı maddələrin çıxarılmasının vacibliyini bildirdi.(151)

Baş Məclis müşavirə xarakterli, istiqamətləndirici, nümayəndəli orqandır. Baş Məclis beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləmək sahəsində əməkdaşlıq prinsiplərinə baxır, Təhlükəsizlik Şurasının müvəqqəti üzvlərini, İqtisadi və Sosial Şuranın üzvlərini seçir, Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş katibi təyin edir, Təhlükəsizlik Şurası ilə birlikdə Beynəlxalq Məhkəmənin üzvlərini seçir, iqtisadi, sosial, mədəni, humanitar sahələrdə beynəlxalq əməkdaşlığı koordinasiya edir, Nizamnamədə nəzərdə tutulan digər səlahiyyətləri həyata keçirir.

Baş Məclisin sessiyaları növbəti, xüsusi və fövqəladə çağırıla bilər. Növbəti sessiya sentyabrın üçüncü həftəsinin çərşənbə axşamı günü açılır və Baş Məclisin sədrinin, yaxud 21 müavinindən birinin rəhbərliyi altında işləyir.

Baş Məclisin özünün 1993-cü il 17 avqust tarixli qərarına müvafiq olaraq tərkibində 6 komitə, Baş komitə və səlahiyyətlərin yoxlanılması üzrə komitə var: Baş komitə Baş Məclisin gündəliyində olan məsələlərin təsdiqi, təşkilatın işi barədə tövsiyələr verir. Baş komitənin tərkibinə daxildir: Baş Məclisin sədri, sədrin müavinləri, əsas komitələrin beş regiondan – Asiyadan, Afrikadan, Latın Amerikasından, Qərbi Avropadan (Kanada, Avstraliya, Yeni Zelandiya daxil olmaqla) və Şərqi Avropadan ədalətli coğrafi prinsipə əsasən seçilmiş sədrləri.

Səlahiyyətlərin yoxlanılması üzrə komitə nümayəndələrin səlahiyyətləri barədə Baş Məclisə məruzə təqdim edir. Digər komitələr Beynəlxalq təhlükəsizlik və tərksilah məsələləri üzrə komitə, İqtisadi və maliyyə məsələləri üzrə komitə, Sosial, humanitar və mədəniyyət məsələləri üzrə komitə, Xüsusi siyasi

məsələlər və müstəmləkədən azad olma məsələləri üzrə komitə, İnzibati və büdcə məsələləri üzrə komitə və Hüquq məsələləri üzrə komitədir.

Baş Məclisin xüsusi sessiyası istənilən məsələ barədə Baş katibin, BMT-nin əksər üzvlərinin, Təhlükəsizlik Şurasının tələbi ilə 15 gün ərzində çağırıla bilər. Fövqəladə sessiya Baş katibin tələbi ilə 24 saat ərzində Təhlükəsizlik Şurasının, yaxud Baş Məclisin əksər üzvünün tələbi ilə çağırıla bilər.

Baş Məclis Təhlükəsizlik Şurasından fərqli olaraq, BMT üzvlərinin daha çox nümayəndəli orqanı olsa da, beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizliyi müdafiə etməkdə onun rolu məhduddur. Baş Məclisin sessiyalarında böyük dövlətlər kimi, kiçik dövlətlər də iştirak edir, beynəlxalq məsələləri həll etməkdə əməkdaşlıq edirlər. Nizamnaməyə uyğun olaraq Baş Məclis və Təhlükəsizlik Şurasının birgə fəaliyyəti beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə effektli nəticə verə bilər. Rusiya tədqiqatçısı T.N.Neşatayeva Baş Məclisin qəbul etdiyi qətnamələrin müqavilə mənşəli olduğunu, müraciət edilən subyektlər üçün hüquqi öhdəlik olduğunu bildirir.(73, s.95) Təhlükəsizlik Şurası ancaq bu məsələlərə baxıb qurtarandan sonra Baş Məclis BMT üzvlərinə məlumat verir. Baş Məclisin qərarlarının ancaq tövsiyə xarakteri daşıması, hər hansı bir üzv dövlətin bütün rəhbər orqanlarda iştirakı dövlətlərin suverenliyini məhdudlaşdırır. (69, s.248) Baş Məclisin hüquq və vəzifələri Nizamnamənin 10 və 11-ci maddələrində əksini tapır. 10-cu maddədə yazılır ki, «Baş Məclis bu Nizamnamənin tətbiq dairəsində olan və yaxud bu Nizamnamə ilə nəzərdə tutulmuş orqanlardan hər hansı birinin səlahiyyət və funksiyalarına aid olan istənilən məsələ və ya işləri müzakirə edə bilər və 12-ci maddə ilə nəzərdə tutulmuş hallardan başqa, Birləşmiş Millətlər Təşkilatının üzvlərinə və Təhlükəsizlik Şurasına və yaxud onların hər ikisinə hər hansı bu cür məsələ və ya işlər üzrə tövsiyələr verə bilər.» 12-ci maddəyə müvafiq olaraq əgər tələbi ilə15 gün ərzində xahiş etmirsə, Baş Məclis həmin mübahisə və ya situasiya ilə bağlı heç bir tövsiyə verə bilməz. Baş Məclis, Təhlükəsizlik Şurasının səlahiyyətlərinə daxil olan məsələlər istisna olmaqla,

beynəlxalq sülh və təhlükəsizliyi dəstəkləmək barədə istənilən məsələləri müzakirə edə bilər. Baş Məclisin qərarları BMT üzvləri üçün tövsiyə xarakteri daşıyır. Təhlükəsizlik Şurasının baxdığı məsələlər barədə Baş Katib hər sessiyada Baş Məclisə məlumat verir. Baş Məclisin illik sessiyası adətən sentyabrın ortalarında başlayır və dekabra qədər davam edir. Təhlükəsizlik Şurası, yaxud üzv dövlətlərin əksəriyyətinin tələbi ilə fövqəladə sessiyalar da keçirilə bilər. Hər bir dövlətin 1 səsi var və vacib qərarlar səsvermədə iştirak edənlərin $_3/^2$ səs çoxluğu ilə, digər qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Vacib qərarlar dedikdə, sülh və təhlükəsizliyin müdafiəsi, təşkilata yeni üzvlərin qəbul edilməsi, və ya kənarlaşdırılması, BMT-nin büdcəsinin təsdiq edilməsi, Nizamnaməyə müvafiq ona əlavələr edilməsi nəzərdə tutulur. Son illərdə Baş Məclisin qərarları rəsmi səsvermə ilə deyil, konsensus əsasında qəbul edilir. Konsensus əsasında səsvermə səslərin bərabərliyini bildirsə də, əslində heç bir faktiki bərabərlik yoxdur. Baş Məclisdə üzv dövlətlərin istifadə etdiyi əsas meyar nə qədər pul ödəmə qabiliyyətidir. Bu isə Təşkilatı daha çox maliyyələşdirən dövlətin statusunu gücləndirir, nəticədə qeyri-bərabərlik yaranır. 2009-cu ildə BMT büdcəsini daha çox maliyyələşdirən aşağıda adları çəkilən 10 dövlətdir: ABŞ (598,2 milyon dollar), Yaponiya (452 milyon dollar), Almaniya (233,2 milyon dollar), Böyük Britaniya (180,6 milyon dollar), Fransa (171,3 milyon dollar), İtaliya (138,1 milyon dollar), Kanada (80,9 milyon dollar), İspaniya (80,7 milyon dollar), Çin (72,5 milyon dollar), Meksika (61,3 milyon dollar). Rusiya BMT-yə 32,6 milyon dollar vermişdir.

ABŞ və Rusiyanı müqayisə etsək, ABŞ BMT büdcəsinin 22 faizini, Rusiya isə 1,2 faizini ödəyir.

Sülhyaratma sahəsində Baş Məclisin sülh əməliyyatlarını dəstəkləmək üzrə Xüsusi Komitəsi vacib qurumdur. Təhlükəsizlik Şurasından fərqli olaraq bu komitə müşavirə xarakterlidir, praktiki deyil, nəzəri işləri həyata keçirir. Komitə hər il üç həftə davam edən sessiya keçirir. Sessiyada üzv dövlətlər müzakirələr edir, fikir mübadiləsi aparır, sonda qərara Siyasi məsələlər üzrə Dördüncü Komitə baxır. Baş Məclisin növbəti sessiyasının gündəliyində hansı məsələlərin olması orada qərara alınır.

Beynəlxalq sülh və təhlükəsizliyi müdafiədə əsas məsuliyyət Təhlükəsizlik Şurasının üzərinə düşür. Təhlükəsizlik Şurası 15 üzvdən ibarətdir. ABŞ, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Rusiya, Fransa, Çin Təhlükəsizlik Şurasının daimi üzvləridir. Təhlükəsizlik Şurasının iki il müddətinə seçilən digər 10 müvəqqəti üzvünü Baş Məclis BMT üzvləri arasından seçir. Bu seçki coğrafi bölgüyə, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılmasına verilən töhfəyə əsaslanır. Təhlükəsizlik Şurasının üzvlüyündən çıxan dövlətin dərhal yenidən seçilmək hüququ yoxdur. BMT-nin üzvləri Nizamnamənin 25-ci maddəsinə müvafiq olaraq Təhlükəsizlik Şurasının qərarlarına tabe olmalı, onları yerinə yetirməlidir. Təhlükəsizlik Şurasının daimi üzvləri dünyanın aparıcı, BMT-nin fəaliyyətinə daha çox maliyyə qoyan, hərbi qüvvə verə bilən dövlətləridir. BMT-nin yaradılmasında əsas təşəbbüsçü dövlət olan ABŞ maliyyə və hərbi cəhətdən ən qüvvətli dövlət, Böyük Britaniya ən böyük müstəmləkələr dövləti və eyni zamanda həmişə ABŞ-ın siyasətini müdafiə edən dövlət idisə, SSRİ Almaniya kimi dövləti məğlub edən nəhəng dövlət idi. Aparıcı dövlətlərin əlamətlərinin əhalisinin sayı, hərbi potensialı, iqtisadi, texniki inkişafı ilə müəyyənləşdirildiyini nəzərə alsaq, Çin də beynəlxalq münasibətlər sisteminə güclü təsir edən, eyni zamanda II Dünya müharibəsində Çin cəbhəsində qələbələrdə böyük müvəffəqiyyətlər əldə edən dövlət idi. Proingilis siyasət yeridən Fransa isə Böyük Britaniyanın və SSRİ-nin təşəbbüsü ilə ora qəbul edilmişdir.

Təhlükəsizlik Şurasının daimi üzvləri ilə yanaşı, iki il müddətinə seçilən müvəqqəti üzvlər də müzakirələrdə mühüm rol oynayır. Coğrafi bölgüyə görə beş üzv Asiya və Afrikadan, bir üzv Şərqi Avropadan, iki üzv Latın Amerikasından, iki üzv Qərbi Avropa və digər dövlətlərdən seçilir.

BMT-nin yaradıcıları SSRİ, ABŞ, Böyük Britaniya, sonralar Fransa, Çin beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsini onun əsas orqanı olan Təhlükəsizlik Şurasına həvalə etmişlər. Təhlükəsizlik Şurası Nizamnaməyə uyğun olaraq hüquqi aktlar qəbul edir. Təcavüzkar dövlətin cəzalandırılması beş daimi üzvün əlində olduğu üçün Təhlükəsizlik Şurasının fəaliyyəti müəyyən dərəcədə onların operativ işindən asılıdır. Başqa sözlə, Təhlükəsizlik Şurası

daimi üzvləri veto hüququndan istifadə edərək özlərinin eqoist maraqlarına görə digər dövlətlərin maraqlarına zərər vurmamalıdırlar.

BMT-nin üzv dövlətlərinin nümayəndəli orqanı kimi fəaliyyət göstərən Təhlükəsizlik Şurası tövsiyə verməklə yanaşı, beynəlxalq sülh və təhlükəsizliyi bərpa etmək üçün BMT adından embarqo, sanksiyalar, silahlı qüvvə tətbiq edilməsi barədə hüquqi əsaslı qərarlar qəbul edə bilər (111, s.69). Bu qərarlar bütün üzvlər tərəfindən öhdəliyə götürülən Nizamnaməyə uyğun qəbul edilir, bütün üzvlər onu yerinə yetirməyə borcludurlar. Təhlükəsizlik Şurası özü öz qərarını dəyişə bilər. Əgər birinci dəfə qərar qəbul edəndə ona məlum olmayan hallar ortaya çıxarsa, Təhlükəsizlik Şurasının həmin məsələyə yenidən baxa bilər və öz ilkin qətnaməsini dəyişə bilər. Nizamnaməyə əsasən qəbul edilən Təhlükəsizlik Şurasının qətnamələri hüquqi xarakterli qərarlardır və beynəlxalq hüquq normalarına uyğun hər bir üzv dövlət bu qətnamələrə əməl etməlidir. Beynəlxalq hüquqi nizamlama vasitəsi kimi sanksiyaların, qətnamələrin təhlükəsizliyi təmin etməkdə rolu böyükdür. Baş Məclisin, Təhlükəslik Şurasının Nizamnaməyə müvafiq qəbul etdiyi qətnamələr hüquq pozuntularına qarşı ciddi tədbirlərdir. Hərbi sanksiyaları isə yalnız BMT qəbul edə bilər. (99, s.119)

BMT-yə daxil olan hər bir dövlət Təhlükəsizlik Şurasının qərarlarını danışıqsız yerinə yetirəcəyi barədə öhdəlik götürür. Beynəlxalq hüquq çərçivəsində Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri yerinə yetirməyən dövlət bəşəriyyətə qarşı çıxır. Təhlükəsizlik Şurası BMT-nin digər əsas orqanlarından yalnız qətnamələr qəbul etmək ilə deyil, həm də geniş funksiyası, səlahiyyəti ilə fərqlənir. Bu barədə amerikalı hüquqşünas Q.Kelzen yazır ki, « Təhlükəsizlik Şurasının səlahiyyəti bütün BMT-nin səlahiyyətləri ilə üst-üstə düşür.»(93,s.20) Təhlükəsizlik Şurasının səlahiyyətləri BMT Nizamnaməsinin 24-cü maddəsinin 1-ci bəndində ifadə olunmuşdur: «BMT-nin cəld və səmərəli hərəkətlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyur və məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurasının onların adından çıxış etməsinə razılaşırlar.» Həmin maddənin 2-ci bəndində isə göstərilir

ki, Təhlükəsizlik Şurası BMT-nin məqsəd və prinsiplərinə müvafiq hərəkət edir. Bu vəzifələri icra etmək üçün Təhlükəsizlik Şurasına verilən konkret səlahiyyətlər VI, VII, VIII və XII fəsillərdə öz əksini tapmışdır.(7, s.22-23;43-48)

Təhlükəsizlik Şurası bütün mübahisələrə deyil, ancaq beynəlxalq sülh və təhlükəsizliyi hədələyən mübahisələrə baxır. Təhlükəsizlik Şurasının iclasları açıq və qapalı formatda keçirilə bilər. Açıq iclaslarda arzu edən üzv dövlətlər (digər təşkilat nümayəndələri və press olmadan), münaqişə tərəfləri olan ölkələr işirak edə bilsə də, onlar qərar qəbul etməkdə iştirak edə bilməzlər. Qapalı formatda olan iclasda isə heç bir qərar qəbul edilmir, belə iclasların stenoqrammasının bir nüsxəsi Katiblikdə saxlanılır. Əksər halda xüsusi otaqda Təhlükəsizlik Şurası üzvləri və Katibliyin (hər ölkədən 4-5 nəfər) iştirakı ilə məsləhətverici iclaslar keçirilir. Təhlükəsizlik Şurasının istənilən dövlətin daxili səlahiyyətlərinə qarışmaq hüququ yoxdur.(53,s.77-78) Nizamnamənin 1-ci maddəsinin 7-ci bəndində deyilir ki, heç bir müddəa BMT-yə hər hansı dövlətin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etmək səlahiyyəti vermir. BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulur ki, BMT-nin üzv dövlətləri fərdi, yaxud kollektiv özünümüdafiə üçün hərbi qüvvə tətbiq edə bilər: «Əgər BMT-nin üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri tədbirlər görənə qədər fərdi, yaxud kollektiv özünümüdafiə hüququ var.» Beynəlxalq təşkilatlarda (müqavilələrdə) heç kəs dövləti bu və ya digər beynəlxalq təşkilata daxil olmağa, yaxud da müqavilələr bağlamağa məcbur edə bilməz.(111, s.81)

Təhlükəsizlik Şurası öz məqsədinə nail olmaq vasitələrini seçməkdə azad deyil, müəyyən funksiyalar, səlahiyyətlər daxilində fəaliyyət göstərməlidir. Əgər mübahisələr sülh yolu ilə həll edilmirsə, Təhlükəsizlik Şurası müəyyən edir ki, göstərilən mübahisə sülhü təhlükədə qoyur. Bu zaman Təhlükəsizlik Şurası BMT üzvləri adından kollektiv fəaliyət haqqında qərar qəbul edə bilər. Onun xüsusi səlahiyyətləri Nizamnamənin VII fəslində sadalanır. 39-cu maddəyə müvafiq Təhlükəsizlik Şurası sülhə təcavüz aktının olduğunu müəyyən edir, tövsiyələr verir, beynəlxalq sülh və

təhlükəsizliyin qorunub saxlanması üçün 41 və 42-ci maddələrə müvafiq tədbirlər görülməsi barədə qərar qəbul edir. Əvvəlcə Təhlükəsizlik Şurası dinc yolla tədbirlər həyata keçirir. Bu, 41-ci maddədə öz əksini tapmışdır: «Təhlükəsizlik Şurası öz qərarlarının həyata keçirilməsi məqsədilə silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan hər hansı tədbirin tətbiq olunması barədə qərar qəbul edə bilər və BMT-nin üzvlərindən bu tədbirlərin tətbiq olunmasını tələb edə bilər. Həmin tədbirlər iqtisadi münasibətlərin və dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini özündə əks etdirə bilər.»

Kollektiv təhlükəsizlik sisteminin müdafiəsində Təhlükəsizlik Şurasının rolu 33-cü maddədə belə əksini tapmışdır: «Beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə yarada biləcək hər hansı mübahisədə iştirak edən tərəflər, həmin mübahisəni, hər şeydən əvvəl, danışıqlar, təhqiqat, vasitəçilik, barışdırma, arbitraj, məhkəmə vasitəsilə, regional orqanlara və ya sazişlərə müraciət etməklə və yaxud öz seçimi ilə digər dinc vasitələrlə həll etməyə çalışmalıdır.» Nizamnamənin 40-cı maddəsində göstərilir ki, «Vəziyyətin pisləşməsinin qarşısını almaq məqsədilə Təhlükəsizlik Şurası tövsiyələr verməzdən, yaxud 39-cu maddədə nəzərdə tutulmuş tədbirlər barədə qərar qəbul etməzdən əvvəl, maraqlı tərəflərdən onun zəruri hesab etdiyi müvəqqəti tədbirlərin yerinə yetirilməsini tələb edə bilər. Bu müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, mövqelərinə xələl gətirməməlidir.» Beynəlxalq hüquq normalarının pozulması bütün subyektlərin maraqlarına toxunduğu üçün Təhlükəsizlik Şurasının sanksiyaları ilə yanaşı, UNESCO, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və digər ixtisaslaşmış qurumlar da sanksiyalar qəbul edə bilər. Məsələn, BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı Nizamnaməsinin 22-ci maddəsində sazişin qərarlarını yerinə yetirməyən dövlətə köməyin dayandırılması nəzərdə tutulur. Bütün sanksiyaların məqsədi hüquq pozuntularını xəbərdar etmək olduğu üçün bu vasitələrdən istifadə etmək qanunauyğundur. Belə ki, sanksiyalar günahkar dövləti hüquq normalarına əməl etməyə məcbur edir, sülh və təhlükəsizliyin qorunub saxlanmasında müsbət təsir göstərir. Əgər yuxarıda sadalanan tədbirlər kifayət etməzsə, 42-

ci maddə tətbiq edilir. Yəni, Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələrinin vasitəsilə beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri olan tədbirlər görə bilər. 45-ci maddədə göstərilir ki, BMT-yə təcili hərbi tədbirlər görmək imkanı yaratmaq məqsədilə üzv dövlətlər birgə beynəlxalq məcburi tədbirlər üçün öz milli hərbi-hava qüvvələrinin kontingentlərini dərhal hazırlıq vəziyyətində saxlamalıdırlar. Bu kontingentlərin hərbi gücü və hazırlıq dərəcəsi, onların birgə hərəkət planları Təhlükəsizlik Şurası tərəfindən, Hərbi Qərargah Komitəsinin köməyi ilə, 43-cü maddədə göstərilmiş xüsusi saziş və sazişlərdə nəzərdə tutulan hədlər çərçivəsində müəyyən edilir. 43-cü maddəyə müvafiq olaraq Təhlükəsizlik Şurası BMT-yə üzv dövlətlərin təhlükəsizliyini təmin etmək üçün silahlı qüvvə verilməsini tələb edə bilər: «BMT-nin üzvləri beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması məqsədilə Təhlükəsizlik Şurasının tələbi ilə, xüsusi sazişə uyğun olaraq, Təhlükəsizlik Şurasının sərəncamına görə zəruri olan silahlı qüvvələr, yardım və ərazidən keçmək hüququ da daxil olmaqla, müvafiq xidmət vasitələri vermək vəzifəsini öhdələrinə götürürlər.» Belə sazişlər BMT üzvləri ilə bağlanmalıdır. 29-cu maddəyə görə Təhlükəsizlik Şurası zəruri halda köməkçi orqan yarada bilər.

Təhlükəsizlik Şurasının beynəlxalq təhlükəsizlikdə tətbiq etdiyi metodlardan biri atəşkəs və ona nəzarət etməkdir. Bu məqsədlə Təhlükəsizlik Şurası vasitəçilər təyin edir, münaqişənin təhlili ilə məşğul olan komissiya yaradır. Münaqişə tərəflərini barışdırmaq Baş katibə, yaxud onun nümayəndəsinə həvalə edilir.

Təhlükəsizlik Şurasından başqa digər orqanların, hətta Baş Məclisin də hərbi qüvvə yaratmaq, maliyyələşdirmək, ondan istifadə etmək hüququ yoxdur. Bu nöqteyi-nəzərdən Təhlükəsizlik Şurasının səlahiyyətləri genişdir və bunu kollektiv təhlükəsizikdə səmərəli istiqamətə yönəltmək lazımdır. Təhlükəsizlik Şurasının effektivliyini artırmaq, sülh əməliyyatlarının keçirilməsini tezləşdirmək üçün Hərbi-Qərargah Komitəsinin üzərinə böyük vəzifə düşür. Bu barədə 46-cı maddədə deyilir: «Silahlı qüvvələrin tətbiqi planları Təhlükəsizlik Şurası tərəfindən Hərbi Qərargah Komitəsinin köməyi ilə tərtib edilir.» 47-ci maddənin 4-cü bəndinə əsasən «Hərbi Qərargah Komitəsi Təhlükəsizlik Şurasının icazəsi ilə müvafiq

regional orqanlarla məsləhətləşdikdən sonra regional subkomitələr yarada bilər.»

Təhlükəsizlik Şurası digər beynəlxalq təşkilatlar, ayrı-ayrı dövlətlər tərəfindən həyata keçirilən sülh əməliyyatlarına sanksiyalar verə bilər. Məsələn, 1999-cu ildə NATO-nun Kosovada əməliyyatlarına BMT sanksiya verdi və orada müvəqqəti idarəetmə işləri üzrə BMT missiyası yaradıldı.

Təhlükəsizlik Şurasının beynəlxalq təhlükəsizliyi müdafiədə səlahiyyətlərindən biri də 34-cü maddədə əksini tapmışdır. Bu maddəyə müvafiq olaraq Təhlükəsizlik Şurasının beynəlxalq inkişafa gətirib çıxara bilən istənilən mübahisəni, situasiyanı, həmin hadisənin beynəlxalq sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyini tədqiq etmək hüququ var və o, bu məqsədlə beynəlxalq təhqiqatlar keçirə bilər.

Beləliklə, Təhlükəsizlik Şurasının müəyyən münaqişənin dərinləşməsinin qarşısını almaq imkanları genişdir. Onun istənilən təhlükəni müəyyən etmək, 41-ci və 42-ci maddələrə müvafiq olaraq, əvvəlcə iqtisadi sanksiyalar tətbiq etmək, əgər bu, nəticə verməzsə, hava, dəniz, quru qüvvələrinin nümayişlərini, blokadasını və digər sülh əməliyyatlarını həyata keçirmək hüququ var. Baş Məclisin isə bu səlahiyyətləri yoxdur. Təhlükəsizlik Şurası illik hesabatı Baş Məclisə verir, lakin Baş Məclisin hər hansı qətnaməni bəyənməmək hüququ yoxdur. Baş Məclis Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri yerinə yetirməlidir. Mübahisələrin sülh yolu ilə həll edilməsi, təşkilatın üzvlərinin hüquqları, onların BMT-dən çıxarılması zamanı Təhlükəsizlik Şurasının tövsiyəsi tələb olunur. Təhlükəsizlik Şurasında qərarların qəbul edilməsi isə, yuxarıda qeyd etdiyimiz kimi veto hüququ olan beş dövlətin əlindədir. Beləliklə, nəinki Baş Məclisdə, həmçinin Təhlükəsizlik Şurasında səsin çəkisi fərqlənir. Böyük dövlətlər böyük, kiçik dövlətlər kiçik səsə malik olur. Əgər 14 üzv Təhlükəsizlik Şurasının qərarlarını dəstəkləyirsə, daimi üzvlərdən biri onun əleyhinə çıxırsa, qərar qəbul edilmir. Əgər 5 daimi üzv daxil olmaqla, 9 üzv qərarı dəstəkləyirsə, qalan 6 müvəqqəti üzv dəstəkləmirsə, qərar qəbul edilir.

ABŞ hüquqşünaslarının irəli sürdüyü «kompensasiya doktrinası»na görə BMT-nin əsas orqanlarından birinin zəifləməsi digər orqanların zəifləməsinə səbəb ola bilər.(1,s.46) BMT

yaradılandan ABŞ ənənəvi olaraq veto hüququndan öz maraqlarını müdafiə etmək üçün istifadə etmişdir. ABŞ siyasi xadimləri və hüquqşünasları BMT-nin "hirsli veto" hüququndan istifadə etməsi barədə yazırlar.(93,s.40-45) SSRİ də veto hüququndan istifadə edərək «arzuedilməz» qətnamələrin qarşısını alırdı. Baş Məclisin XXIII sessiyasında SSRİ-nin xarici işlər naziri A.A. Qromıkonun çıxış edərək, Təhlükəsizlik Şurasının effektivliyini artırmağın zəruriliyini bildirməsi də təsadüfi deyildi. BMT-nin yaradılmasının 40 illiyi münasibətilə məruzə edən SSRİ-nin xarici işlər naziri E.A.Şvernadze SSRİ-nin BMT-nin yaradıcılarından biri olduğunu, BMT-ni bəşəri nüfuzlu təşkilat kimi görmək arzusunu, xalqın maraqlarına xidmət edərsə, BMT-nin nüfuzunun artacağını bildirmişdi. (94,s.12)

Rusiya tədqiqatçısı A.V.Torkunov Təhlükəsizlik Şurasında islahatların BMT-də islahatlara stimul verdiyini qeyd edərək, "Soyuq müharibə"dən sonra BMT-nin qarşısında duran vəzifələrin artdığını və bu məqsədlə təşkilatda islahatların zəruriliyini vurğulayır. Müəllif Baş Məclisin qəti qərar qəbul etməsi, Baş katibin statusunun daha aydın müəyyənləşdirilməsi, Katibliyin işində yenidənqurmanın, ixtisaslaşmış qurumların funksiyalarının dəqiqləşdirilməsi, fəaliyyətinin koordinasiyası, Beynəlxalq Məhkəmənin səlahiyyətlərinin genişlənməsi zəruriliyini göstərməklə yanaşı, Təhlükəsizlik Şurasında islahatları ön plana çəkir, veto hüquqlu daimi üzvlərin sayının çoxalmasının Təhlükəsizlik Şurasının fəaliyyətini iflic edəcəyi, beynəlxalq münaqişələri nizamasalmaya mənfi təsir edəcəyi ehtimalını bildirir. (86,s.228-229) Müəllifin fikrinə əlavə olaraq qeyd etmək lazımdır ki, BMT-də əsas orqanlarda dövlətlərin statusu onun maliyyə gücündən asılı olmamalıdır, üzvlər coğrafi bölgü əsasında seçilməlidir. Daimi üzvlər isə veto hüququ ləğv edilməklə yarıdaimi üzvlərlə əvəz edilərsə və müddətli, fəaliyyətlərinin nəticələrinə əsasən seçilərsə, Təşkilatın işi daha səmərəli ola bilər. Təşkilatın maliyyə və hərbi cəhətdən güclü dövlətləri Hərbi Qərargah Komitəsinin güclənməsinə kömək etməli , ABŞ-ın münaqişələri nizama salmaq pərdəsi altında özünün hegemon olduğu NATO qüvvələrindən istifadə etməsinə yol verilməməlidir.

BMT-nin effektivliyini artırmaq üçün Baş Məclisin 1963-cü il 1991 saylı qətnaməsinə əsasən Təhlükəsizlik Şurasının üzvlərinin sayı 11-dən 15-dək artdı. Bu qərar BMT-nin üzvü olan dövlətlərin sayının 51-dən artaraq 112-yə çatması və inkişaf etməkdə olan ölkələrin Təhlükəsizlik Şurasında təchiz edilməsi ilə bağlı idi. Bu tarixə qədər Təhlükəsizlik Şurasının müvəqqəti üzvləri Asiya, Afrika, Latın Amerikası, Şərqi Avropa və Qərbi Avropa regionlarından seçilmirdi, beş daimi üzvün centlmen sazişinə əsasən həmin regionlardan üzv ölkələr təqdim edilirdi. 70-ci illərdə də BMT Nizamnaməsinə yenidən baxmaq, Afrika və Asiya nümayəndələrinin artırılması hesabına Təhlükəsizlik Şurasının genişləndirilərək 15-dən 21-dək artırılması təklifi irəli sürüldü. Bu zaman SSRİ Təhlükəsizlik Şurasının genişləndirilməsi əleyhinə çıxmışdı. «Soyuq müharibə» dövründə ABŞ-ın sosialist sisteminə qarşı mübarizəsi, yaxud əksinə, SSRİ-nin öz sistemini saxlaması və ABŞ-ın maraqlarının qarşısını alması, başqa sözlə, dünyada balans yaratmaq üçün veto hüququ lazım idi. İndi isə SSRİ yoxdur, ABŞ hegemon dövlətdir, monopolyarlıqdan qaçmaq, çoxqütblü dünya yaratmaq regional münaqişələri nizama salmaq üçün veto hüququnun ləğv edilməsi labüddür. Təhlükəsizlik Şurası son zamanlar beynəlxalq sülh və təhlükəsizliyi qorumaq üçün çox qətnamələr qəbul etmişdir. Lakin onların əksəriyyəti reallaşmır, ancaq nəzəriyyədə qalır. Təhlükəsizlik Şurası qəbul etdiyi qətnamələri sözdə deyil, işdə həyata keçirməlidir, emosiyaların yarandığı «iclasa» çevrilməməlidir. Təhlükəsizlik Şurasında 1963-cü ildə islahatlar zamanı daimi üzvlər saxlanılmaqla, müvəqqəti üzvlərin artırılması problemlərin nizama salınmasında BMT-nin effektivliyini artırmadı. Tarixi təcrübə göstərir ki, yeni islahatlarda demokratik cəmiyyətə uyğun olmayan veto hüququnun ləğv edilməsi, Təhlükəsizlik Şurasının Nizamnamənin sülhə məcburetmə bölmələrindən istifadə etməsi imkanlarının nəzərdən keçirilməsi labüddür, zəruridir. İslahatlar yalnız Təhlükəsizlik Şurasında deyil, həmçinin Baş Məclisdə, İqtisadi və Sosial Şurada, Katiblikdə, Beynəlxalq Məhkəmədə, Hərbi Qərargah Komitəsində, BMT-nin ixtisasiaşmış qurumlarında aparılmalıdır. Qeyd etmək lazımdır ki, 1946-1949-cu illərdə Təhlükəsizlik Şurasının siyasi rəhbərliyi və Hərbi-Qərargah Komitəsinin komandanlığı altında BMT silahlı

qüvvələrinin yaradılması planlaşdırıldı. Mövcud və potensial münaqişələrin qarşısını almaq üçün Hərbi müşahidəçilər institutu inkişaf etməyə başladı.(159) BMT-nin Hərbi Qərargah Komitəsinin fəaliyyətini gücləndirməklə NATO qüvvələrindən istifadə edən ABŞ-ın təkqütblü dünya yaratmaq istəyinin qarşısını almaq olar. Nizamnamənin 43-cü maddəsində üzv dövlətlərin xüsusi sazişlərlə Təhlükəsizlik Şurasının sərəncamına silahlı qüvvələr vermək vəzifəsi göstərilmişdir. Baş katib Li Truqvenin təşəbbüsü ilə Baş Məclis münaqişə regionunda qayda-qanuna nəzarət etmək məqsədilə BMT-nin polis qüvvələri yaradılması məsələsinə baxdı. 1965-ci ildə 39 dövlət nümayəndəsindən ibarət Sülhü dəstəkləmək üzrə xüsusi komitə yaradıldı.(104, s.44) 2005-ci il Ümumdünya Sammitinin qərarına müvafiq olaraq 2006-cı ildə "daimi polis kontingenti" üçün ilkin potensial yaradılması barədə qərar həyata keçirildi.(176, s.68) Əvvəllər böyük dövlətlər maraqları olan regiona hərbi kontingent göndərməkdə iştirak etmirdilərsə, 90-cı illərdən başlayaraq, ABŞ, Fransa, Böyük Britaniya, Rusiya münaqişə zonalarına hərbi kontingent göndərməyə üstünlük verdilər. Fikrimizcə, ayrı-ayrı münaqişə regionunda belə kontingentin olması kontingent verən dövlətin marağına və onun həmin regionda nüfuzunu yüksəltməyə xidmət edir.

İqtisadi və sosial əməkdaşlıq sahəsində BMT-nin funksiyasını həyata keçirən İqtisadi və Sosial Şura 5 regional komissiyadan ibarətdir: Avropa iqtisadi komissiyası, Asiya və Sakit okean üzrə iqtisadi və sosial komissiya, Qərbi Asiya üzrə iqtisadi və sosial komissiya, Afrika üzrə iqtisadi komissiya, Latın Amerikası və Karib hövzəsi üzrə komissiya.

İqtisadi və Sosial Şura (EKOSOS) 54 üzvdən, o cümlədən 5 daimi üzvdən ibarət olub, Baş Məclis tərəfindən 3 il müddətinə seçilir, ölkələr arasında bərabərhüquqlu sülh münasibətlərini təmin etmək üçün ümumi rifahı yaxşılaşdırmağa xidmət edir. EKOSOS-un funksiya və səlahiyyətləri Nizamnamənin 62-66-cı maddələrində müəyyən olunmuşdur. EKOSOS iqtisadi və sosial sahələrə, insan hüquqlarının müdafiəsinə dəstək vermək üçün komissiyalar təsis edir, ixtisaslaşdırılmış qurumlarla məsləhətləşmələr aparır, Baş Məclisə tövsiyələr vermək vasitəsilə həmin qurumların fəaliyyətini

əlaqələndirir. II dünya müharibəsindən sonra sülh və təhlükəsizliyi dəstəkləmək məqsədilə yaradılan BMT-nin tarixdə həqiqətən çox xidmətləri olmuşdur, ən azı III dünya müharibəsinin qarşısını almışdır. Bu təşkilatın yalnız III sektor ölkələrinə yardım göstərən «iqtisadi» təşkilata çevrilməsinin qarşısı alınmalıdır. BMT-nin atdığı hər bir addım sülh və təhlükəsizliyi müdafiə etməyə, münaqişələrin qarşısını almağa xidmət etməlidir.

Katiblik Baş Məclis, Təhlükəsizlik Şurası və başqa orqanların göstərişinə müvafiq olaraq BMT-nin operativ və administrativ işini həyata keçirir. Katiblik beynəlxalq heyətdir, digər orqanların qəbul etdiyi proqram və siyasi qərarları həyata keçirir. Nizamnaməyə görə Baş katib Təhlükəsizlik Şurasının, Baş Məclisin, İqtisadi və Sosial Şuranın və digər təşkilatların həvalə etdiyi vəzifələri yerinə yetirir. Katibliyin iqamətgahı Nyu-Yorkda, bölmələrinin iqamətgahları Cenevrə və Vyanada yerləşir. Katiblik BMT-nin materiallarının dərc edilməsi, yayılması, arxivin qorunması, beynəlxalq müqavilələrin qeydə alınması və nəşr edilməsi məsələlərinə baxır. Katibliyin başında Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Məclis tərəfindən seçilən Baş katib dayanır. Baş katib 5 il müddətinə seçilir, yenidən seçilə bilər. Hazırda mövcud olan centlmen sazişinə görə Təhlükəsizlik Şurasının daimi üzvləri olan ölkələrin vətəndaşları Baş katib seçilə bilməzlər. Katibliyə və digər rəhbər orqanlara işə qəbul edilərkən yalnız yüksək iş qabiliyyəti deyil, həm də coğrafi əsasda təyin olunma vacibdir. İndiyə qədər aşağıdakı şəxslər BMT-nin Baş katibi olmuşlar: Truqve Li (Norveç) – 1945-1953; Daq Hammerşeld (İsveç) – 1953-1961; U.Tan (Birma) – 1961-1971; Kurt Baldhaym (Avstriya) – 1971-1981; Xavyer Peres de Kuelyar (Peru) – 1982-1991; Butros Butros Qali (Misir) – 1991-1997; Kofi Annan (Kana) – 1997-2006; Pan Qi Mun (KXDR) - 2007-ci ildə təyin olunmuşdur.

Beynəlxalq Məhkəmə Baş Məclis və Təhlükəsizlik Şurasının seçdiyi 15 məhkəmədən ibarət olub, dövlətlər arasında mübahisələri nizama salmaqla məşğul olur. Məhkəmə işində dövlətlərin iştirakı könüllüdür. Beynəlxalq Məhkəmə Təhlükəsizlik Şurasının və Baş Məclisin sorğusuna müvafiq olaraq məsləhətlər verir. BMT-nin bütün üzv dövlətləri Beynəlxalq Məhkəmə Statutunun iştirakçılarıdır. Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Məclisin

müəyyən etdiyi üzv olmayan dövlətlər də Statutda iştirak edə bilərlər. Statutun bütün iştirakçıları Məhkəmənin qərarlarını yerinə yetirməlidirlər. Əgər hər hansı dövlət Beynəlxalq Məhkəmənin qərarı ilə bağlı vəzifələrini yerinə yetirmirsə, onun yerinə yetirilməsini zəruri hesab edən digər dövlət Təhlükəsizlik Şurasına bu barədə müraciət edə bilər. Təhlükəsizlik Şurası qərarın yerinə yetirilməsi üçün tədbirlər görməlidir. BMT-nin rəhbər orqanları Beynəlxalq Məhkəmədən fəaliyyəti barədə məlumat ala bilərlər. BMT-nin üzvləri öz aralarında ixtilafı həll etmək üçün digər məhkəməyə də müraciət edə bilərlər. Beynəlxalq məhkəməyə yalnız dövlətlər müraciət edə bilər, hüquqi və fiziki şəxslər müraciət edə bilməz.

BMT yaradılarkən onun əsas orqanlarından biri də Qəyyumluq üzrə Şura idi. 1994-cü il oktyabrın 1-də Palau müstəqillik əldə etdikdən sonra Qəyyumluq üzrə Şura öz işini 1 noyabr tarixdə dayandırdı.

BMT-nin əsas orqanlarından əlavə, xüsusi səlahiyyətlərə malik qlobal institutları da var, onlar ixtisaslaşmış qurumlar sayılır, hər birinin öz büdcəsi, katibliyi olsa da, birlikdə BMT sistemini təşkil edir . (141, s.41) İxtisaslaşmış qurumlar BMT ilə İqtisadi və Sosial Şura xətti ilə bağlanan universal xarakterli dövlətlərarası təşkilatlardır. Bunlar aşağıdakılardır: Ümumdünya Meteorologiya Təşkilatı (Cenevrə), Ümumdünya Səhiyyə Təşkilatı (Cenevrə), Ümumdünya İntellektual Dəyərlər təşkilatı (Cenevrə), Ümumdünya Poçt İttifaqı (Bern), Beynəlxalq Dənizçilik Təşkilatı (London), Beynəlxalq Mülki Aviasiya Təşkilatı (Monreal), Beynəlxalq Əmək Təşkilatı (Cenevrə), Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (Vaşinqton), Beynəlxalq Maliyyə Korporasiyası (Vaşinqton), Beynəlxalq Valyuta Fondu (Vaşinqton), Beynəlxalq Telekommunikasiya İttifaqı (Cenevrə), Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (Roma), BMT Təhsil, Elm, Mədəniyyət Təşkilatı (UNESCO) (Paris), BMT Sənaye İnkişafı Təşkilatı (Vyana), BMT Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (Roma), Beynəlxalq İnkişaf Assosiasiyası, Ümumdünya Ticarət Təşkilatı, İnvestisiya Təminatları üzrə çoxtərəfli agentlik (Vaşinqton), 1957-ci ilin iyulundan etibarən Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (MAQATE) (Vyana) yaradıldı. MAQATE sazişlər sistemi əsasında fəaliyyət göstərərək nüvə materiallarının,

avadanlıqların hərbi məqsədlərlə istifadəsinə yol vermir. Haaqada yerləşən Kimyəvi silahların qadağan edilməsi üzrə təşkilat bütün ölkələrdə kimyəvi obyektlər barədə məlumatlar yığmaqla məşğul olur və kimyəvi silahlar barədə konvensiyaya nəzarəti həyata keçirmək məqsədilə yoxlamalar, təhqiqatlar aparır. MAQATE öz fəaliyyəti haqqında müntəzəm olaraq Baş Məclisə, Təhlükəsizlik Şurasına illik və xüsusi hesabatlar verir.

ABŞ sistemi ixtisaslaşmış qurumların, xüsusən də beynəlxalq maliyyə institutlarının əsas hissəsini təşkil edir II Dünya müharibəsindən sonra ABŞ-ın iqtisadiyyatı dünya iqtisadiyyatının 50 faizini təşkil edirdi. Həqiqətən bütün dünyanın maraqlarını özündə əks etdirən Beynəlxalq Valyuta Fondu və Dünya Bankında amerikalılar üstünlük təşkil edir, bu təşkilatlar 1944-cü ildə Bretton-Vudsda ABŞ-ın təşəbbüsü ilə yaradılmışdır. Bu nüfuzlu qurumlarda ABŞ-ın üstünlük təşkil etməsi digər ölkələr üzərində onun hegemonluğunu möhkəmlədir.

Sülhü dəstəkləmək üzrə əməliyyatların qarşısında üç əsas vəzifə durur: münaqişələrin qarşısını almaq, sülh quruculuğu, sülhün qorunub saxlanması. Bu nöqteyi-nəzərdən BMT-də xüsusi problemləri həll etmək üçün çoxsaylı təşkilatlar, komissiyalar, komitələr, fondlar, məsələn, Qaçqınların işi üzrə Ali Komissarlıq (Cenevrə), İnsan hüquqları üzrə Ali Komissarlıq (Cenevrə), Kosmik məkan məsələləri barədə komitə (Vyana), Humanitar fəaliyyətin koordinasiyası barədə Komitə, Layihələr üzrə Komitə (Nyu-York), Daxili nəzarət xidməti barədə komissiya, Hüquqi məsələlər barədə komissiya, Yüksək inkişaf barədə komissiya (Nyu-York), Beynəlxalq ticarət barədə komissiya, Məskunlaşmış məntəqələr barədə komissiya, İqtisadi komissiya, BMT Uşaq fondu (UNİSEF), Beynəlxalq Kənd Təsərrüfatının İnkişaf fondu (UFAD), Qadınların maraqlarının inkişafı üzrə BMT fondu (UNİFEM), Əhali fondu (UNFPA) fəaliyyət göstərir. Sülhquruculuğunda humanitar yardım, qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz yurdlarına qayıtması, ərazilərin minalardan zərərsizləşdirilməsi, yoluxucu xəstəliklərlə mübarizə, münaqişə zonasında olan əhalinin ərzaqla, gündəlik tələbatla təmin edilməsi, bərpaetmə işlərində və s. əsas vəzifələr ixtisaslaşmış qurumların, beynəlxalq maliyyə institutlarının, qeyri-hökumət təşkilatlarının üzərinə düşür və bu qurumların Baş

Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura və Katiblik ilə əməkdaşlığı sülhquruculuğunun səmərəli həyata keçirilməsinə gətirib çıxara bilər.

BMT komitələri yanında narkotikə nəzarət barədə, okean və sahilzonalar barədə, kəndlərin inkişafı barədə, statistika fəaliyyəti barədə, su resurslarının mənimsənilməsi barədə və s. kimi altkomitələr də var. BMT narkotik vasitələr üzərində nəzarətə dair, dünyanın ərzaqla təchiz edilməsinə dair, insanlarda immunitetlər yaratma üzrə, ətraf mühit barədə, inkişaf barədə və s. beynəlxalq proqramlar həyata keçirir. Məsələn 9 bal gücündə zəlzələ nəticəsində nəhəng sunami dalğalarının sahilyanı ölkələrə - Hindistana, İndoneziyaya, Şri-Lankaya, Taylanda, Maldiv adalarına, Myanmaya, Seyşel adalarına, Somaliyə vurduğu zərərin nəticələrini aradan qaldırmaq üçün BMT 2005-ci il 5 yanvar tarixdə 977 milyon dollar vəsait ayırdı.

BMT dövlətlərin qarşılıqlı münasibətlərini nizamlayan bir sıra konvensiyalar qəbul etmişdir. BMT Nizamnaməsindən fərqli olaraq BMT-nin konvensiyalarının təşkilatın üzvləri tərəfindən qəbul edilməsi mütləq deyil. BMT-nin daha çox tanınmış konvensiya və bəyannamələri aşağıdakılardır: 1948-ci il İnsan hüquqları barədə ümumi bəyannamə; 1948-ci il Genosid cinayətinə görə xəbərdarlıq və cəza barədə konvensiya; 1966-cı il Mülki və siyasi hüquqlar barədə beynəlxalq pakt; 1968-ci ildə bəyənilmiş və imzalanma üçün açıq olan Nüvə silahının yayılmaması barədə saziş; 1989-cu il Uşaq hüquqları barədə konvensiy; 2000-ci il Minilliyin bəyannaməsi və s.

# FƏSİL II
# BMT-NIN REGIONAL VƏ SUBREGİONAL TƏŞKILATLARLA ƏMƏKDAŞLIĞI

## 2.1.BMT-nin regional təşkilatlarla əməkdaşlığının hüquqi əsasları

BMT XX əsrin 90-cı illərindən başlayaraq sülhməramlı fəaliyyətini regional təşkilatlarla əməkdaşlıqda həyata keçirir. Reymon Aronun nəzəriyyəsinə görə regional yardımçı sistemləri fərqləndirən üç meyar vardır:1) Regional yardımçı sistem regional gərginliyin nəticəsi kimi regional qüvvələr tarazlığı əsasında formalaşır. 2)Regional sistemə daxil olan dövlətləri və xalqları tale həmrəyliyi birləşdirir, onlar daxili və xarici faktorları bir-birindən fərqləndirirlər. Başqa sözlə, regional sistem yaxınlıq və eynilik hissləri ilə müəyyənləşən geotarixi reallığa əsaslanaraq yaradılır. 3) Regional yardımçı sistem hakim sistem ilə münasibət müstəvisində onunla rəqabət apara bilər.(8,s.89)

BMT Nizamnaməsinin 52-ci maddəsinə görə BMT-nin regional təşkilatlar və sazişlərlə əməkdaşlığı yerli mübahisələrin Təhlükəsizlik Şurasına verilməsindən əvvəl dinc yolla həll edilməsinə imkan yaradır. 53-cü maddədə göstərilir ki, Təhlükəsizlik Şurası bu cür regional saziş və təşkilatlardan öz rəhbərliyi altında məcburiyyət tədbirləri üçün istifadə etsə də, Təhlükəsizlik Şurasının mandatı olmadan həmin regional sazişlər və ya regional təşkilatlar tərəfindən heç bir məcburiyyət tədbiri görülə bilməz. 54-cü maddəyə görə isə Təhlükəsizlik Şurasına hər bir zaman sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün sazişlər və ya regional təşkilatlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barəsində tam məlumat verilməlidir. Gündəmdə olan bir problemi misal çəkək. ATƏT-in münaqişə zonasında düzgün fəaliyyət göstərməməsi, Nizamnamənin VIII fəslinə müvafiq olaraq BMT-nin lider rolunu azaltmağa çalışması Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasını təxirə salır.(Bu barədə növbəti paraqrafda danışılacaq.)

Baş katibin müxtəlif vaxtlarda etdiyi məruzələrdə, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə BMT-nin müxtəlif problemləri nizama salmasında regional və subregional təşkilatlarla

əməkdaşlığının əhəmiyyəti dəfələrlə vurğulanır. 1995-ci ildə baş katib B.B.Qali "Sülh üçün gündəlik" adlı məruzəsində bildirdi ki, regional təşkilatların münaqişələri nizamasalmada iştirakı "Təhlükəsizlik Şurasının üzərinə düşən ağırlığı azaltmaqla yanaşı, beynəlxalq məsələlərin həllində demokratiyaya, konsensusa imkan verir. Belə ki, "Təhlükəsizlik Şurası regional təşkilat və sazişlərə regionları böhranlı vəziyyətdən çıxarmaq üçün səlahiyyət verir.(103)Baş katibin 1998-ci il aprelin 13-də etdiyi məruzədə, əsasən Afrikada sülh barədə danışılsa da, bu məruzə digər regionlar üçün də aktual əhəmiyyət kəsb etdi. Məruzənin müzakirəsindən sonra, mayın 28-də "Təhlükəsizlik Şurası 1170 saylı qətnamə qəbul etdi. Qətnaməyə əsasən bütün tövsiyələrə baxmaq üçün işçi qrup təsis edilməsi barədə qərar qəbul edildi.(139)

"Təhlükəsizlik Şurası sədrinin 1998-ci il 16 sentyabr tarixli bəyanatı sülh quruculuğunda BMT-nin rolunu təsdiq edərək, regional, subregional təşkilatlar, yaxud sazişlər əsasında aparılan sülh əməliyyatları barədə daimi olaraq"Təhlükəsizlik Şurasına məlumat verilməsinin vacibliyini bildirdi.

"Təhlükəsizlik Şurasının həmin il 18 sentyabr tarixli 1197 saylı qətnaməsi yenidən regional və subregional təşkilatların təşəbbüslərini dəstəklədi. (139) Təhlükəsizlik Şurası 30 noyabr tarixli bəyanatında regional və subregional təşkilatlarla əməkdaşlığın Nizamnamənin 52-54-cü maddələrinə müvafiq olaraq həyata keçirilməsinin münaqişələrin nizama salınmasına effektli təsir edə biləcəyini vurğuladı.

Baş Məclisin 55-ci sessiyasında qəbul edilən Minilliyin Bəyannaməsində sülh və təhlükəsizliyi müdafiə etmək üçün BMT-nin regional təşkilatlarla əməkdaşlığının möhkəmləndirilməsi zəruriliyi qeyd edildi.(149) "Təhlükəsizlik Şurası həmin il qəbul etdiyi 13 noyabr tarixli 1327 saylı qətnaməsində tərəfləri regional, subregional təşkilatlarla birgə BMT ilə əməkdaşlığa çağırdı .(140)

2003-cü il aprelin 11-də Meksikanın sədrliyi ilə "Təhlükəsizlik Şurası və regional təşkilatlar: yeni beynəlxalq sülh və təhlükəsizlik hədələri qarşısında", 2004-cü il iyunun 20-də Rumıniyanın sədrliyi ilə "Sabitləşmə proseslərində BMT və regional təşkilatlar arasında əməkdaşlıq" adlı iclaslar keçirildi.

XXI əsrdə effektli BMT-nin yaradılması üçün Təhlükələrin qarşısını almaq üzrə yüksək səviyyəli qrupun məruzəsində"Təhlükəsizlik Şurasının regional və subregional təşkilatların potensial imkanlarından istifadə etmədiyi göstərilir. (131)

"Təhlükəsizlik Şurası 2004-cü il 22 aprel tarixli 1539 saylı qətnaməsində də silahlı münaqişələr zamanı uşaqların vəziyyəti ilə maraqlanarkən BMT-nin Avropa Birliyi və digər regional təşkilatlarla əməkdaşlığının vacibliyini göstərdi. (142)

2005-ci il 25-26 iyul tarixdə BMT, regional təşkilatlar və digər hökumətlərarası təşkilatların iştirakı ilə müşavirə keçirildi. Müşavirədə sülh və təhlükəsizliyi müdafiədə regional və subregional təşkilatlar, xüsusən də Afrika regional və subregional təşkilatları ilə əməkdaşlığın zəruriliyi qeyd edilərək, yaradılacaq Sülh üzrə komissiyaya belə təşkilatlarla sıx əlaqələr saxlamaq tövsiyə edildi. Həmin ilin sentyabrında keçirilən Ümumdünya Sammitində iştirakçı dövlətlər yenidən regional və subregional təşkilatların sülh və təhlükəsizliyi müdafiədə rolunun vacibliyini təsdiq edərək, onların, xüsusən də Afrika Birliyinin BMT ilə güclü əməkdaşlıq etdiyini qeyd etdilər. Ümumdünya Sammitində Sülhquruculuğu üzrə komissiyanın yaradılması qərara alındı. "Təhlükəsizlik Şurasının qəbul etdiyi 14 sentyabr tarixli 1625 saylı qətnamədə regional vasitəçi təşəbbüslərinə köməyin, müvafiq regional və subregional təşkilatlarla məsləhətləşmənin, onların potensial imkanlarından istifadə etmənin əhəmiyyəti göstərilmişdi.(142) "Təhlükəsizlik Şurasının 17 oktyabr tarixli 1631 saylı qətnaməsində yuxarıda adı çəkilən qətnamənin məzmunu təkrarlanmaqla yanaşı, regional və subregional təşkilatlar silah satışının qarşısını almaqda, beynəlxalq terrorizmlə mübarizədə BMT ilə əməkdaşlığı gücləndirməyə çağırıldı. Qətnamənin 9-cu bəndində göstərilirdi ki, Nizamnamənin 54-cü maddəsinə müvafiq olaraq, sülh və təhlükəsizliyi müdafiə edərkən regional və subregional təşkilatlarTəhlükəsizlik Şurasına tam məlumat verməlidir. Təhlükəsizlik Şurası bu təşkilatların rəhbərləri ilə müntəzəm müşavirə keçirməli, onların münaqişələrin nizama salınmasında rolu göstərilməlidir. Təhlükəsizlik Şurası eyni zamanda, Baş katibdən BMT və regional, subregional təşkilatlar

arasında əməkdaşlıq çərçivəsində imkanlar və problemlər barədə məruzə etməyi xahiş etdi.(143)

Baş Məclisin 61-ci sessiyasında BMT-nin Avropa Birliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası ilə əməkdaşlığının möhkəmləndirilməsi barədə qətnamə qəbul edildi. Belə qətnamələrin qəbul edilməsinin Minilliyin Bəyannaməsinin həyata keçirilməsində mühüm rol oynayacağını qeyd edən Rusiyanın BMT yanındakı daimi nümayəndəsi Vitaliy Çurkin Baş Məclisin 63-cü sessiyasında BMT-nin Avrasiya regionunda beynəlxalq terrorizmlə, qeyri-qanuni narkotik malların dövriyəsi və s. ilə mübarizə məqsədilə yaradılmış Şanxay təşkilatı ilə əməkdaşlıq etməyinin əhəmiyyətli olduğunu vurğuladı. BMT-nin qətnamələrində, keçirilən müşavirələrdə regionları böhranlı vəziyyətdən çıxarmaq üçün regional təşkilat və sazişlərin rolunun artırılmasına üstünlük verilməsi təklifləri ilə əlaqədar bu fəsildə BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı və bu əməkdaşlığın nəticələrindən bəhs edir. Baş Məclisin, Təhlükəsizlik Şurasının BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı barədə qətnamələr qəbul etməsi, BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığını möhkəmləndirmək təşəbbüsü ilə çağırılan müşavirə və iclaslarda qərarlar verməsi, ayrı-ayrı dövlətlərin bu barədə fikir yürütməsi əsassız deyil. Belə ki, BMT-nin regional münaqişələrin nizama salınmasında regional və subregional təşkilatlarla əməkdaşlığının əhəmiyyəti ondadır ki, bu təşkilatlar regionlarını daha yaxşı tanıyır, sakinlərinin dilini, adət-ənənəsini və s. daha yaxşı bilirlər. Eyni zamanda, bu təşkilatların potensialından istifadə etmək, maliyyə, texnika və s. baxımdan BMT-nin üzərinə düşən ağırlığı yüngülləşdirir. Lakin BMT-nin regional və subregional təşkilatlarla əməkdaşlığı Nizamnamənin 52-54-cü maddələrinə uyğun həyata keçirilmədikdə neqativ hallarla nəticələnir. Belə ki, regional təşkilat nizamasalmada qərəzli mövqedən çıxış edə bilər. İri region dövləti öz “sülhməramlı” cəhdlərindən istifadə edərək regionda xüsusi maraqlarını həyata keçirməyə çalışa bilər. Eyni zamanda, regional təşkilat nizamasalmada tək hərəkət edə bilməz. Bir qayda olaraq, onun dünya birliyini cəlb etmək üçün imkanları azdır və belə bir şəraitdə BMT-nin regional təşkilatlarla sülhməramlı qüvvələrini birləşdirmək zərurəti ortaya çıxır. Bu əməkdaşlıq

sayəsində hərbi-siyasi, humanitar, sosial-iqtisadi, insan hüquqları və əsas azadlıqları məsələlərinə baxılır.

ATƏT-in sülh əməliyyatlarında iştirakı ilk dəfə 1992-ci ilin yanvarında Praqa görüşündə qərara alındı və bu məsələ həmin il 9-10 iyul tarixdə Helsinki görüşündə həyata keçirildi. 1994-cü ildə ATƏT-in Budapeşt sammitində BMT Təhlükəsizlik Şurasının qətnaməsi əsasında hərbi münaqişənin kəsilməsi barədə tərəflərin razılığından sonra sülhü dəstəkləmək üzrə çoxmillətli qüvvələrin yaradılması barədə qərar qəbul edilməsi münaqişələrin nizama salınmasında ATƏT-ə yeni rol verdi. Mərkəzi və Şərqi Avropanın, həmçinin Baltik ölkələrinin NATO-ya və Avropa İttifaqına qoşulduğu halda münaqişələrin nizama salınmasında ATƏT-in rolu məhdudlaşır. Rusiya diplomatiyası bu təşkilatın rolunun artırılmasına cəhd edir və NATO-ya qarşı onu real təşkilat hesab edir.

Rusiya tədqiqatçısı V.F.Zayomski öz əsərində göstərir ki, bəzi regional təşkilatlar, xüsusən də ATƏT daha fəal hərəkət edərək BMT-nin lider rolunu azaltmağa çalışır, müvafiq regionda münaqişələrin nizama salınmasında əsas rol oynamağa cəhd edir. (54, s.23-24) Baş Məclisdə 2008-ci il 14 mart tarixdə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" adlı qətnamə qəbul edilərkən Minsk qrupunun həmsədrləri ABŞ, Fransa və Rusiyanın əleyhinə səs verməsi və onların belə mövqelərinin 2007-ci ildə Minsk qrupunun təklif etdiyi "balanslaşdırılmış paket"də göstərilən nizamasalmanın bütün gedişatını özündə əks etdirməməsi ilə əlaqələndirməsi ATƏT-in lider rol oynamağa cəhd etməsini açıq-aydın sübut edir.(125)

Rusiya tədqiqatçısı A.İ.Nikitin ATƏT-in fəaliyyətinin, eləcə də Dağlıq Qarabağ üzrə sülhməramlı fəaliyyətinin uğursuz olmasını təsdiq etməklə yanaşı, regional təşkilatların sülhməramlı əməliyyatlarda iştirak etməsi, münaqişələrin ATƏT ərazisində olması, hökumətlərarası əlaqələrin yüksək səviyyədə olması, BMT və ATƏT-in səlahiyyət və sülhməramlı funksiyalarının bir-birini tamamlaması və s. kimi üstünlüklərini, ATƏT-in sülhməramlı əməliyyatlarının uğursuzluğunun səbəbləri kimi münaqişə regionunda ədavətin kəskinləşməsini, maliyyə və kontingent çatışmamazlığını göstərir.(87, s.426)

ATƏT-in Dağlıq Qarabağ problemini nizamasalmada Minsk qrupunun uğursuzluğunu qeyd edən "Beynəlxalq münasibətlər: nəzəriyyə, münaqişələr, təşkilatlar" kitabının müəllifləri münaqişələri nizama salmaq üçün onun haqqında az bilgiyə malik olmağı dözülməz hesab edirlər. Müəlliflər bildirirlər ki, münaqişələr siyasətdən ayrılmazdır, onların rolunu, funksiyalarını, yaranma şəraitini, xarakterini başa düşmək zəruridir. Münaqişələrin nizama salınmasında üçüncü tərəfin iştirakı, münaqişə tərəflərindən birinə kömək məqsədilə deyil, sülh yolu ilə nizamasalma məqsədilə edilməlidir.(68, s.93-94)

BMT-nin regional sülhməramlı qüvvələrlə ilk əməkdaşlığı 1993-cü ildə Liberiyada Qərbi Afrika dövlətləri Birliyi timsalında həyata keçirildi. ATƏT-in 1993-cü ildən Dağlıq Qarabağda əməliyyatları regionda ədavətin artması ilə müşahidə edildi və bu sübut etdi ki, sülh əməliyyatlarında ATƏT və digər regional təşkilatlar təkbaşına fəaliyyət göstərə bilməz. Baş Məclisin 62-ci sessiyasında çıxış edən Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Dağlıq Qarabağ münaqişəsinin ən təhlükəli münaqişə olaraq qaldığını, ATƏT çərçivəsində 1992-ci ildən bəri olan danışıqların səmərə vermədiyini, Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edilmədiyini bildirdi. Baş Məclisin BMT-nin regional təşkilatlarla əməkdaşlığına həsr edilmiş 2006-cı il 20 sentyabr tarixli iclasında Ukraynanın xarici işlər naziri Vladimir Xandoni çıxış edərək, Gürcüstan, Moldova və Azərbaycanda olan "dondurulmuş münaqişələrin" həll edilməsi üçün BMT-nin regional təşkilatlarla əlaqələrini möhkəmləndirməyə çağırdı, BMT-nin GUAM, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT ilə əməkdaşlığının möhkəmlənməsinin əhəmiyyətli olduğunu qeyd etdi.(157) Qeyd etmək lazımdır ki, GUAM BMT-də müşahidəçi statusunda iştirak edir və bu təşkilatın üzvü olan dövlətləri onların ərazisində olan oxşar problemlər birləşdirir. GUAM-ın BMT ilə bu regionda sülh və təhlükəsizliyi müdafiədə əməkdaşlığı daha məqsədəuyğundur.

1994-cü ildə BMT Gürcüstanda keçirdiyi əməliyyatlarda MDB sülhməramlıları ilə əməkdaşlıq etsə də, MDB təşkilatı sülhməramlı fəaliyyətini BMT Nizamnaməsinə müvafiq həyata keçirmədi.(Bu barədə növbəti paraqrafda danışılacaq.) Nəticədə

regionun, eləcə də MDB-nin aparıcı dövləti olan Rusiya Gürcüstanın daxili işlərinə müdaxilə etməklə beynəlxalq hüquq normalarını pozdu. Həmin il mayın 3-də Təhlükəsizlik Şurasının sədri sülhməramlı əməliyyatlarda regional, subregional təşkilatların, yaxud sazişlərin iştirakının zəruriliyi barədə çıxış etdi. Dekabr ayında BMT və regional sazişlər, yaxud ixtisaslaşmış qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi barədə Baş Məclis bəyannamə qəbul etdi.

Avropa Birliyi də 1992-1993-cü illərdən başlayaraq, 1995-ci ildə Lissabon bəyannaməsi qəbul ediləndən sonra da sülh əməliyyatlarında, Yuqoslaviya, Kosova, Bosniya, Herseqovina, Makedoniya, Konqo Demokratik Respublikası və Əfqanıstanda sülhməramlı əməliyyatların keçirilməsində BMT ilə əməkdaşlıq etdi.

BMT ilə NATO arasında əməkdaşlığın hüquqi əsasları NATO-nun nizamnaməsində öz əksini tapmışdır. Sovet dövlətlərinə qarşı bir silah kimi 1949-cu ildə NATO-nun yaradılması Təhlükəsizlik Şurasının daimi üzvləri arasında əməkdaşlıqdan çox ziddiyyətlərə gətirib çıxardı.(57,s.226) 1955-ci ildə bu quruma qarşı sovet dövlətlərini birləşdirən Varşava müqaviləsi bağlandı.

NATO müqaviləsinin preambulasında BMT Nizamnaməsinin NATO-nun fəaliyyəti üçün çərçivə olduğu göstərilir. Müqavilənin 1-ci maddəsində tərəflər beynəlxalq münaqişənin sülh yolu ilə həlli və BMT Nizamnaməsinin məqsədlərinə cavab verməyən halda hədə və ya gücün istifadəsindən çəkinməyə dair öhdəlikləri öz üzərilərinə götürürlər.(27,s.385) Müqavilənin 5-ci maddəsi BMT Nizamnaməsinin 51-ci maddəsinə istinad edir, müttəfiqin özünü müdafiə etmək məqsədilə fərdi və ya kollektiv şəkildə zəruri hesab etdiyi tədbirlərin görülməsi hüququnu təsdiq edir. 51-ci maddədə deyilir:"Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlər Təşkilatının üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün zəruri olan tədbirlər görülənə qədər, ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir." Eyni zamanda, NATO BMT Təhlükəsizlik Şurasının beynəlxalq sülh və təhlükəsizliyi bərpa və müdafiə etmək məqsədilə zəruri tədbirlər gördüyü halda üzv dövlətlərdən silahlı hücumları və bunun

nəticəsində görülən bütün tədbirləri dayandırmağı tələb edir.(27,s.386) BMT ilə əməkdaşlığın hüquqi əsasları 7-ci maddədə də öz əksini tapmışdır:”Hazırkı müqavilə Birləşmiş Millətlər Təşkilatının üzvlərinin Nizamnamə çərçivəsində hüquq və öhdəliklərinə və yaxud beynəlxalq hüquq və təhlükəsizliyin qorunmasında Təhlükəsizlik Şurasının əsas məsuliyyətinə təsir etmir və bu cür şərh olunmamalıdır.” (27,s.287) Nəhayət 12-ci maddədə göstərilir:”Müqavilə on il qüvvədə olduqdan sonra və ya bundan sonra istənilən zaman üzvlər, əgər hər hansı biri sorğu edərsə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün ümumdünya, eləcə də regional qurumların inkişafı da daxil olmaqla, Şimali Atlantika bölgəsində sülhə və təhlükəsizliyə təsir edən faktorları nəzərə alaraq Müqavilıni nəzərdən keçirmək məqsədilə məsləhətləşməlidirlər. ”(27,s.388)

BMT-nin Hərbi Qərargah Komitəsinin zəifliyindən, sərəncamında kifayət qədər sülhməramlılar olmamasından istifadə edən NATO münaqişə zonalarında dominantlığı öz əlinə alır. Vaşinqton müqaviləsinin 10, 11, 13 və 14-cü maddələrində ABŞ-ın bu qurumda digər üzv dövlətlərdən fərqli yer tutduğu açıq-aydın görünür və NATO-nun dünyanı məngənəyə salması ABŞ-ın dünyada hegemonluğu deməkdir. Serbiyanın imtina etməsinə baxmayaraq NATO hərbi aviasiyası 1995-ci il avqustun 30-da Bosniya və Hersoqovinada Serb birləşmiş qüvvələrinin seçilmiş hədəflərinə qarşı dəqiq zərbələr silsiləsi həyata keçirdi. Bu, NATO-nun sentyabrın 15-dək davam edən və Qüvvələrin gözlənilmədən keçirtdiyi əməliyyat adlandırılan ilk hava hərbi əməliyyatından xəbər verirdi. Serb birləşmiş qüvvələri darmadağın edildi və atəşkəs barədə razılıq əldə edildi. (Bu barədə danışılacaq.)

BMT-nin və NATO-nun baş katibləri arasında əlaqələr 1998-ci ildən Kosovada münaqişə başlayanda möhkəmləndi. 2001-ci ilin may ayında BMT yanında NATO-nun nümayəndəsinin danışıqlar aparmasından sonra əməkdaşlıq gücləndi. BMT Katibliyinin Tərksilah məsələləri üzrə departamenti və NATO yanında Kütləvi qırğın silahları üzrə mərkəz arasında əlaqələr yarandı. Katiblikdə münaqişələrin qarşısının alınmasından sülh quruculuğuna qədərki dövrdə NATO-nun potensialından istifadə etmək bildirildi.(54,s.133)

Belə bir saziş NATO ilə Avropa İttifaqı arasında da yaradılmışdı. 2003-cü ilin martında razılaşdırılan bu saziş NATO-Qərbi Avropa İttifaqı çərçivəsində 1996-cı ildə Berlində qəbul edilən qərarlara əsaslandığı üçün Berlin Plyus adlanır. Bu sazişdə Avropa İttifaqı tərəfindən aparılan əməliyyatlarda NATO-nn əmlak və imkanlarından istifadə edilməsi razılaşdırılıb.(27,s.249) Lakin BMT-nin Hərbi Qərargah Komitəsinin fəaliyyəti gücləndirilərsə və onun kifayət qədər sülhməramlı qüvvələri olarsa, NATO-nun hərbi qüvvələrinə ehtiyac olmaz.

NATO nizamnaməsinin 5-ci maddəsinə uyğun olmayaraq Kosovada aparılan hərbi əməliyyatlar dünya birliyi tərəfindən mənfi qarşılandığı üçün NATO xarici işlər nazirləri 2002-ci ilin may ayında İslandiyanın Reykyavik şəhərində keçirilmiş toplantıda qərara aldılar ki, "öz missiyalarının öhdəsindən tam gəlmək üçün NATO ehtiyac duyulan əraziyə öz hərbi qüvvələrini qısa müddət ərzində çatdırmaq bacarığına malik olmalı, məsafə və vaxt baxımından əməliyyatları daim nəzarətdə saxlamalı və bu yolla məqsədlərinə nail olmalıdır." Bu qərarı qəbul etdikdən sonra 2003-cü il avqust ayının 11-də NATO Kabulda və onun ətraf ərazilərində təhlükəsizliyi təmin etmək üçün BMT tərəfindən səlahiyyət verilən Beynəlxalq təhlükəsizliyə yardım qüvvələri (İSAF) üzərində rəsmi olaraq nəzarəti ələ aldı.

BMT-nin Afrika Birliyi ilə əməkdaşlığı daha səmərəli nəticə verir. Afrika Birliyinin təşəbbüsü ilə regional briqadalar yaradıldı, Darfur, Sudan, Qərbi Saxar, Burundi, Kot d`İvuar, Konqo Demokratik Respublikası, Efiopiya və Eritreyada əməliyyatlar BMT ilə əməkdaşlıqda həyata keçirildi, Böyük Göldə vəziyyəti sabitləşdirmək üçün seçkilərə nəzarət edən xüsusi mexanizm yaradıldı. 2004-cü ildə BMT Afrika Birliyinə Timorleştdə, Darfur və Sudanda sülhə nail olmaq üçün monitorinqlərin keçirilməsini təklif etdi. Syerra-Leonda təsis edilən BMT-nin Birləşmiş nümayəndəliyi missiyası insan hüquqlarının, iqtisadi və sosial hüquqların müdafiəsinə, şəffaf seçkilərin keçirilməsinə kömək etdi.

Yuxarıda deyilənləri ümumiləşdirərək, belə nəticəyə gəlmək olar ki, XXI əsrdə münaqişələrin qarşısını almaq, nizama salmaq üçün BMT-nin effektivliyinin artırılması meyarlarından biri bu universal təşkilatın sülhməramlı fəaliyyətdə regional və subregional təşkilatlarla əməkdaşlıq etməsidir. Lakin bu əməkdaşlıq BMT

Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq həyata keçirilməlidir. Təhlükəsizlik Şurası bu cür regional saziş və təşkilatlardan öz rəhbərliyi altında məcburiyyət tədbirləri üçün istifadə etsə də, Təhlükəsizlik Şurasının mandatı olmadan həmin regional sazişlər və ya regional təşkilatlar tərəfindən heç bir məcburiyyət tədbiri görülməməlidir. Təhlükəsizlik Şurasına hər bir zaman sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün sazişlər və ya regional təşkilatlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barəsində tam məlumat verilməlidir. Əks halda regional təşkilatın fəaliyyəti səmərəli olmaz və hətta regionda münaqişənin eskalasiyasına gətirib çıxarar. Buna misal olaraq, yuxarıda qeyd etdiyimiz kimi, ATƏT və MDB-nin Gürcüstanda, ATƏT-in Azərbaycanda səmərəsiz fəaliyyətini göstərmək olar. ATƏT keçmiş Yuqoslaviyada, Dağlıq Qarabağda, Tacikistanda, Abxaziyada, Cənubi Osetiyada, Dnestryanında münaqişələrin nizama salınmasında iştirak etmişdir. Lakin onun tez-tez Baş Məclisin qətnamələrini xatırladan çağırışları, bəyannamələri nəticəsiz olmuşdur. Avropada münaqişələrin qarşısını almaq və böhranları nizama salmaq, postkonflikt bərpa işləri görmək məqsədilə yaradılmış ATƏT Bosniya və Herseqovinada, Xorvatiyada, Makedoniyada, Gürcüstanda, Moldavada, Tacikistanda, Estoniyada, Latviyada, Ukraynada demoktarik institutların yaradılmasına kömək etmiş, Rusiyada (Çeçenistan), Albaniya və Belorusiyada xüsusi qrupları yerləşdirmişdir. ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığı potensial münaqişə zonalarında gərginliyi zəflətməyə nail olmuşdur. Məsələn, bəzi Baltik ölkələrində rusdilli əhalinin vəziyyəti ilə bağlı problemlər aradan qaldırılmışdır.

## 2.2. Cənubi Qafqazda olan münaqişələrin nizama salınmasında BMT-nin ATƏT ilə əməkdaşlığının nəticələri

Cənubi Qafqaz dövlətlərindən Azərbaycan və Gürcüstan ərazisində müharibəyə gətirib çıxaran münaqişələr mövcuddur. Bu münaqişələrdən Dağlıq Qarabağ münaqişəsi Ermənistanın beynəlxalq hüquq normalarını və prinsiplərini pozaraq Azərbaycan ərazisinə müdaxiləsi nəticəsində yaranmışdırsa, Abxaziya münaqişəsi Rusiyanın Gürcüstanın daxili siyasətinə müdaxiləsi

nəticəsində yaranmışdır. İstər Ermənistan-Azərbaycan münaqişəsi, istərsə də Abxaziya, eləcə də Cənubi Osetiya münaqişəsi həllini tapmayana qədər Cənubi Qafqazda sabitlikdən danışmaq olmaz. Bu paraqrafda BMT səviyyəsində müzakirə edilən Abxaziya münaqişəsindən və Ermənistan-Azərbaycan münaqişəsindən bəhs edir. Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasından fərqli olaraq Abxaziya münaqişəsinin nizama salınmasında ATƏT-lə yanaşı MDB də iştirak etmişdir.

Gürcüstanın 6 milyonluq əhalisinin təxminən 30 faizini milli azlıqlar təşkil edir. Z.Bjezinski "Avrasiya balkanları" adlandırdığı doqquz dövlətin adları arasında Gürcüstanın da adını çəkir.(133, s.52) SSRİ devrildikdən sonra osetinlər və abxazlar Gürcüstanın daxili vəziyyətindən istifadə edərək dövlətin tərkibindən çıxmağa cəhd etdilər. Hər hansı bir regional münaqişənin qarşısını almaq, yaxud sülh yolu ilə nizama salmaq üçün həmin münaqişənin başlanması səbəbini, tarixi köklərini bilmək, sülhquruculuğunu həyata keçirmək üçün isə münaqişənin nəticələrini düzgün araşdırmaq və onları aradan qaldırmaq lazımdır. Münaqişələri nizama salmağa çalışan aktorların münaqişə haqqında az bilgiyə malik olması yolverilməzdir. Münaqişə siyasətdən ayrılmazdır, buna görə də onun rolunu, funksiyasını, yaranma şəraitinin xarakterini başa düşmək zəruridir. Rusiyanın Gürcüstanın daxili işlərinə müdaxilə etməsi, Gürcüstanda qeyri-sabitlik, siyasi böhran və Z.Qamsaxurdiya hökumətinin Rusiya ilə əlaqələri kəsməsi, Abxaziyada KİV-in, elmi jurnalların və başqa mənbələrin gürcülərin süni surətdə yerli abxaz əhalini azaltması barədə dezinformasiya yaratması Abxaziya probleminin meydana gəlməsinə səbəb oldu.(13)

E.Şevardnadzenin hakimiyyətə gəlməsi ilə konstitusiyada olan dəyişikliklər, 1978-ci il konstitusiyasının əvəzinə 1921-ci il konstitusiyasının bərpası, buna cavab olaraq Abxaziyanın SSRİ-nin tərkibində İttifaq Respublikası olması barədə 1925-ci il konstitusiyasını bərpa etməsi, nəticədə Gürcüstan Dövlət Şurasının Abxaziya parlamentinin fəaliyyətini dayandırması abxaz-gürcü münaqişəsinin kəskinləşməsi üçün bəhanə oldu.

1989-cu il məlumatına görə, Abxaziyada yaşayan 535 min əhalinin 17,8 faizini abxazlar, 45,7 faizini gürcülər, 16 faizini ruslar,

15 faizini ermənilər, 2,5 faizini yunanlar, qalan 3 faizini türklər, tatarlar, ukraynalılar, beloruslar və b. təşkil edirdi.

Baş Məclisin tövsiyəsilə 763 saylı qətnaməyə müvafiq olaraq 1992-ci il 6 iyul tarixdə Gürcüstan BMT-yə üzv qəbul edildi. Həmin il sentyabrın 3-də Moskvada Gürcüstan, Abxaziya və Rusiya atəşkəs barədə saziş imzaladılar. Sazişdə Gürcüstan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi, qeyri-qanuni silahlı qruplaşmaların tərksilah edilməsi, əsirlərin mübadiləsi göstərilmişdi.

Abxaziya münaqişəsi dəfələrlə BMT-də müzakirə edilmiş, qətnamələr qəbul edilmiş, Təhlükəsizlik Şurası münaqişə zonasında hadisələrin gedişatını öyrənmək və məlumat vermək üçün Baş katibə tapşırıqlar vermişdi. Baş katib Gürcüstan üzrə İsveçrə səfiri Edvard Brunneri öz xüsusi nümayəndəsi kimi təyin etdikdən sonra BMT-nin nizama salmada fəaliyyəti genişləndi. Bu nümayəndə Gürcüstan Respublikasına ilk missiyanı 1993-cü il 20-25 may tarixdə həyata keçirdi. Onun regiona birinci səfəri münaqişə tərəflərinin BMT-nin vasitəçilik missiyasını dəstəklədiyini təsdiq etdi. Tbilisidə E.Brunner və onun qrupu Gürcüstan Dövlət Şurasının sədri, dövlət başçısı E.Şevardnadze ilə görüşdükdən sonra baş nazir Tenqiz Siqua, İnsan hüquqları və millətlərarası münasibətlər üzrə komitənin sədri Sandro Kavsadze ilə danışıqlar apardı. Suxumidə missiya yerli hökumətin baş naziri, Hərbi Şuranın sədri Tamaz Nadoraşivili, Abxaziyanın xilası üzrə komitənin və Milli Birlik Şurasının üzvləri, Qudautda yerli Ali Sovetin sədri Vladislav Ardzinba və kolleqası, Gürcüstanın müdafiə naziri general Georgi Karkaraşvili ilə danışıqlar apardı. Gürcüstanda öz missiyasını yerinə yetirdikdən sonra E.Brunner İsveçin xarici işlər naziri, ATƏT-in sədri Marqaret af Uqlasla məsləhətləşmək üçün Stokholma getdi. Baş katibin münaqişə zonasında vəziyyətə dair məlumatına, 1992-ci il 3 sentyabr tarixli Moskva sazişinə əsasən Təhlükəsizlik Şurası 1993-cü il 9 iyul tarixdə 849 saylı qətnamə qəbul etdi. Qətnamədə Baş katibdən Gürcüstana özünün xüsusi nümayəndəsini, 50 hərbi müşahidəçi göndərmək, ATƏT ilə əməkdaşlığı genişləndirmək, üzv dövlətlər arasında əlaqələr yaratmaq xahiş edildi.(136) İyulun 28-də Qudautda Gürcüstan və Abxaziya arasında atəşkəs barədə yeni saziş bağlandı. Sazişdə təcili olaraq münaqişə zonasının tərksilah edilməsi nəzərdə tutulmuşdu və bu prosesə nəzarət etmək üçün 10-15 gün ərzində

beynəlxalq müşahidəçilər göndərilməli idi. Lakin atəşkəs pozulduqdan sonra Gürcüstan üzrə BMT missiyası öz işini dayandırdı. Missiyanın üzvlərindən 4 hərbi müşahidəçi və 4 mülki əməkdaş Suxumidə, 1 müşahidəçi Tbilisidə, 7 müşahidəçi Soçidə (Rusiya ilə sərhəddə şəhər) qaldı.(54, s.235-238) Həmin il 6 avqust tarixdə qəbul edilən 854 saylı qətnamədə 10 nəfərdən ibarət BMT hərbi müşahidəçisinin göndərildiyi bildirildi.(136) 24 avqust tarixli 858 saylı qətnamədə atəşkəsə nəzarət üçün Gürcüstan, Abxaziya, Rusiya bölmələrindən ibarət müvəqqəti nəzarətçi qrupun münaqişə zonasında yerləşdirilməsi təklifi bəyənildi.(136) Gürcüstan üzrə yaradılan BMT missiyası Baş katibə öz mandatını həyata keçirmək barədə, atəşkəsin pozulmasına dair məlumat verməli idi. Missiyanın tərkibi 88 hərbi müşahidəçidən ibarət idi.

1993-cü ilin sentyabrında Abxaziya separatçıları Soçi sazişini pozaraq Suxumi və Oçamçirə irimiqyaslı hücum etdilər, sentyabrın 20-də Suxumini tutaraq Abxaziyanın müstəqilliyini elan etdilər. E.Şevardnadze BMT Təhlükəsizlik Şurasının bütün üzvlərini abxaz separatıçları dəstəkləməkdən çəkinməyə, BMT-nin himayəsi altında xüsusi işçi qrupu yaratmaq üçün zəruri tədbirlər görməyə, Baş katibi Abxaziyada etnik təmizləmə və əhaliyə qarşı genosidi Təhlükəsizlik Şurasında pisləməyə çağırdı. Döyüşlər təxminən 30 min dinc sakini Rusiyaya qaçmağa məcbur etdi. Təxminən 20 000 insan həlak oldu, minlərlə insan şikəst edildi, yüzlərlə insan itgin düşdü, girov götürüldü, təkcə 6000-dən çox görkəmli siyasi xadim – elm, mədəniyyət nümayəndəsi, jurnalist, həkim, pedaqoq məhv edildi. Abxaziyada etnik təmizləmə həyata keçirildi. Gürcüstanın iqtisadiyyatına böyük miqdarda zərər dəydi. Gürcüstanda insan hüquqlarının pozulması, o cümlədən "etnik təmizləmə" barədə məlumatları tədqiq etmək üçün Baş katibin təklifi ilə, Təhlükəsizlik Şurası 1993-cü il oktyabrın 19-da 876 saylı qətnamə qəbul etdi. Qətnamədə 1993-cü il 27 iyul tarixli Soçi sazişinin Abxaziya tərəfindən pozulduğu təsdiq edildi.(136) Bu qətnaməyə müvafiq olaraq «tədqiqatçı» missiya 22-30 oktyabr tarixdə münaqişə regionunda oldu. Təhlükəsizlik Şurası 881 saylı qətnaməsində missiyanın münaqişə tərəfləri, Rusiya hərbi kontingenti ilə əlaqə saxlamalı, vəziyyəti müşahidə edərək BMT-yə məruzə etməli idi.

Baş katib Təhlükəsizlik Şurasından 50 hərbi müşahidəçi (5 nəfər artıq münaqişə zonasında idi.) verməyi xahiş etdi. (108, s.63)

1993-cü il 30 noyabr – 1 dekabr tarixdə Cenevrədə Rusiyanın vasitəçiliyi və ATƏT nümayəndələrinin iştirakı ilə BMT-nin himayəsi altında gürcü-abxaz münaqişəsinin tammiqyaslı nizama salınması barədə danışıqların birinci raundu oldu. Təhlükəsizlik Şurasının 849 (1993, 9 iyul), 854 (1993, 6 avqust), 858 (1993, 24 avqust), 876 (1993, 19 oktyabr), 881 (1993, 4 noyabr) qətnamələrinə müvafiq olaraq keçirilən adı çəkilən danışıqda aşağıdakı saziş əldə edildi:

1. Abxaziyada atəşkəs barədə 27 iyul 1993-cü il Soçi sazişinin əsas qərarlarına nəzarəti öhdəsinə götürərək, tərəflər bir-birinə silahlı qüvvə tətbiq etməməlidir.

2.Tərəflər hesab edirlər ki, Təhlükəsizlik Şurası və Baş katibin beynəlxalq müşahidəçiləri və sülhməramlı qüvvələrinin razılığı ilə münaqişə zonasında sülh mümkündür.

3.1993-cü il 20 dekabr tarixədək şərt qoyulmadan, «başa baş» prinsipi ilə bütün hərbi əsirlər dəyişilməli, itgin düşənlərin siyahısı mübadilə edilməli, ölənlər barədə də tədbir görülməlidir.

4.Tərəflər qaçqın və məcburi köçkün problemini həll etməyi öhdələrinə götürərək onların könüllü, təcili, təhlükəsiz olaraq vətənə qayıtmasını təmin etməli, evləri, əmlakları qaçqınların özlərinə qaytarlımalı idi. Qaçqın probleminin həllində BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığının iştirakı zəruri hesab edilirdi.

5.Münaqişə zonasında əziyyət çəkənlərə humanitar yardım göstərilməsi üçün tərəflər beynəlxalq birliyə müraciət etdilər.

6.Münaqişə zonasında iqtisadi vəziyyəti bərpa etmək üçün tərəflər beynəlxalq və milli təşkilatların iştirakı ilə beynəlxalq komissiya yaradılması arzusunu bildirdilər.

7. 1993-cü ilin dekabrında Abxaziyaya siyasi status verilməsi barədə tövsiyəyə hazırlıq məqsədilə Moskvada münaqişə tərəfləri nümayəndələri, BMT, Rusiya Federasiyası və ATƏT nümayəndələrinin daxil olduğu ekspertlər qrupu danışıqların növbəti raunduna öz məruzələrini hazırlamalı idi.

8.Rusiyanın vasitəçiliyi və ATƏT-in iştirakı ilə danışıqların növbəti raundu Moskvada, yaxud Cenevrədə 1994-cü il yanvarın 11-də keçirilməli idi.

Memorondumu Gürcüstan nümayəndəsi Caba İoseliani, Abxaziya nümayəndəsi Sokrat Cincaliya, BMT-nin nümayəndəsi Edvard Brunner, ATƏT-in nümayəndəsi Vinçentso Manno, Rusiya nümayəndəsi Boris Pastuxov imzaladılar. (107 ,s.365) BMT Baş katibi memorondumla tanış oldu.

1994-cü il 11-13 yanvar tarixdə Cenevrədə danışıqların ikinci raundu keçirildi. Danışıqların nəticəsi olaraq, P.Çxeidze BMT-nin sülhməramlı qüvvələrinin münaqişə zonasına göndərilməsi barədə məsələni müzakirə etmək üçün Təhlükəsizlik Şurasının iclas çağırmasını xahiş etdi. Abxaziya regionunda tammiqyaslı sülh əməliyyatlarının aparılması ikinci raundda təsdiq edildi.

Danışıqların üçüncü raundu 1994-cü il martın 7-də Nyu-Yorkda başladı və bu danışıqlarda qaçqın və məcburi köçkünlərin yerlərinə qaytarılması məsələləri müzakirə edildi. Martın 7-9-da Edvard Brunnerin sədrliyi ilə üç gün keçirilən danışıqlarda Rusiya, ATƏT və BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı nümayəndələri də iştirak etdilər. Humanitar kömək məqsədilə Gürcüstan rəhbərliyi Baş katibin xüsusi könüllü fond yaratmaq, silahlı qüvvələrin əməliyyatlarına maliyyə dəstəyi göstərmək təklifi ilə razılaşdı. (108, s.75) BMT Qaçqınların qayıtması və yaşayışını təmin etmək üçün Liberiya, Somali və b. yerlərdə də belə fond yaratmışdı.

1994-cü il aprelin 4-də Moskvada abxaz-gürcü münaqişəsini nizama salmaq üzrə tədbirlər barədə bəyanat, qaçqın və məcburi köçkünlərin könüllü qayıtması barədə dördtərəfli saziş imzalandı. Dördtərəfli sazişə müvafiq olaraq münaqişə tərəfləri, Qaçqınların işi üzrə Ali Komissarlıq, Rusiya, ATƏT nümayəndələrinin daxil olduğu xüsusi komissiya aprelin ortalarında Soçidə işə başlamalı idi. (109, s.18) Lakin yuxarıda adı çəkilən sazişə əməl olunmadı, vəziyyət gərginləşdiRusiya başda olmaqla Müstəqil Dövlətlər Birliyi vəziyyətdən istifadə etdi. Aprelin 15-də MDB dövlət başçılarının Moskva görüşü zamanı abxaz-gürcü münaqişəsi zonasında sülh əməliyyatları keçirmək barədə bəyannamə qəbul edildi. MDB dövlətləri Təhlükəsizlik Şurasını münaqişə zonasında sülhməramlı əməliyyatlar keçirməyə çağırdı və əgər yaxın vaxtlarda belə qərar qəbul edilməzsə, kollektiv təhlükəsizlik barədə müqavilənin prinsipinə və BMT Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq sülhü müdafiə sahəsində regional təşkilatların sülhməramlı

qüvvələrindən istifadə edilməsi prinsipi üzrə, tərəflərin razılığı ilə MDB dövlətləri hərbi kontingentinin münaqişə zonasına göndəriləcəyini bildirdilər. (109, s.87)

Dördtərəfli komissiyanın ilk iclası aprelin 8-9-da Soçidə keçirildi. Komissiyanın planına müvafiq olaraq Qaçqınların işi üzrə Ali Komissarlığın missiyası aprelin 16-29-da Gürcüstanda, Rusiyada, qaçqınların qayıtdığı Qal rayonunda müvəqqəti sığınacaqlarda oldu. Tərkibi 22 hərbi müşahidəçidən ibarət olan BMT missiyası Qal rayonunda və Kodari çayı vadisində gərginlik olduğunu qeyd edirdi. (109, s.150) Aprelin 26-da komissiyanın ikinci iclasında qaçqınların qeydiyyata alınması, KİV-də informasiyanı tədqiq etmək üçün dördtərəfli ekspertlər qrupu yaradıldı.

1994-cü il 4 aprel tarixli abxaz-gürcü münaqişəsinin nizama salınması barədə bəyanat, 1994-cü il 13 yanvar tarixli bir-birinə qarşı qüvvə tətbiq etməmək barədə razılıq qüvvədə qalmaqla, 1994-cü il mayın 11-də Moskvada BMT-nin himayəsi altında Rusiya və ATƏT-in iştirakı ilə koordinasiya komissiyası yaradılması təklif edildi, mayın 14-də isə yuxarıda sadalanan bir neçə danışıqlar raundundan sonra Atəşkəs və silahlı qüvvələrin buraxılması barədə tərəflər arasında saziş bağlandı. Bu sazişə görə münaqişə tərəfləri quru, dəniz, hava məkanında atəşkəsə riayət etmək, bir-birinə qarşı bütün hərbi əməliyyatları dayandırmaq, silahlı qüvvələri buraxmaq öhdəliyini götürdülər. Bununla belə, siyasi nizamasalma mərhələli olmalı idi. Nəzərdə tutulan təhlükəsizlik zonasında silahlı qüvvə və ağır döyüş texnikası saxlanılmamalı idi. (109, s.215) Sazişə riayət edilməsinə nəzarət məqsədilə tərəflər təhlükəsizlik zonasında MDB sülhməramlı qüvvələrinin yerləşdirilməsi və qaçqınların Qal rayonuna qayıtması barədə razılaşdılar.(109,s.225) Gürcüstan üzrə BMT missiyası sazişin həyata keçirilməsinə və MDB sülhməramlı qüvvələrinin fəaliyyətinə nəzarət etməli idi. BMT, Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq, mayın 14-də MDB kollektiv təhlükəsizlik qüvvələrinin 6 ay müddətinə münaqişə zonasına aparılması barədə qərar qəbul etdi. (109, s.429-430)

Təhlükəsizlik Şurasının 937 saylı qətnaməsinin 10-cu maddəsinə müvafiq olaraq Baş katib 1994-cü il 14 may tarixli Atəşkəs və silahlı qüvvələrin ayrılması barədə sazişi həyata keçirməyi maliyyələşdirmək üçün fond təsis etdi, humanitar

proqram, ərazilərin minalardan təmizlənməsi daxil olmaqla, sülh əməliyyatlarının həyata keçirilməsinə şərait yaratdı. Baş katib fondun təsis edilməsi barədə üzv dövlətlərə məlumat verdi. Təhlükəsizlik Şurasının 937 saylı qətnaməsinə müvafiq olaraq Gürcüstanda BMT hərbi müşahidəçilərinin sayı 136-dək artırıldı, onlar Suxumidə yerləşdirildi. Missiyanın mandatı 1995-ci il yanvarın 13-dək uzadıldı. (108,s.67) Mandat aşağıdakı kimi müəyyənləşdirildi: 1994-cü il 14 may sazişinə tərəflərin əməl etməsinə nəzarət; MDB sülhməramlılarının əməliyyatlarının müşahidə edilməsi; münaqişə zonasına ağır texnikanın gətirilməməsinə nəzarət; ağır texnikanın oradan çıxarılması üçün, lazım olarsa, MDB sülhməramlıları ilə əməkdaşlıq; Gürcüstan ordusunun Abxaziya və Kodor dərəsindən çıxarılması; sazişin pozulmasına nəzarət məqsədilə təhqiqat aparmaq və Baş katibə məruzə etmək; hər iki münaqişə tərəfi ilə və MDB sülhməramlıları ilə sıx əlaqə yaratmaq; qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə köçürülməsinə kömək etmək.

Sentyabrın 28-də Dördtərəfli komissiyanın Soçidə keçirilən səkkizinci iclasında tərəflər qaçqınların qayıtması üçün təhlükəsizliyi bərpa etməyi qərara aldılar. Bu iclasdan sonra Abxaziya tərəf 460 nəfərin repatriasiyası barədə 100 ərizə qəbul etdi. Qal rayonunda minaların qurulması repatriantları həyəcanlandırır, eyni zamanda sülhməramlı qüvvələrin regionda fəaliyyətini çətinləşdirirdi. 1994-cü ilin avqust ayında BMT-də yaradılan missiya minaların qurulması haqda təhqiqat apardı. Məlum oldu ki, Qumista və İnquri çayları arasındakı ərazidə təxminən 75 - 150 min mina qurulmuşdur. BMT Qaçqınların işi üzrə Ali Komissarlıqla əməkdaşlıqda həyata keçirilən mina təhlükəsi barədə xəbərdarlıq proqramı hazırlandı.

Noyabrın 26-da Abxaziya yeni konstitusiya qəbul etdi. Konstitusiyada Abxaziyanı suveren respublika, beynəlxalq hüquq subyekti elan edən abxaz rəhbərliyi BMT-nin gərgin sülh yaratma cəhdlərini rədd etdi. Noyabrın 28-də E.Şevardnadze Təhlükəsizlik Şurasına bəyanatla müraciət edərək müvafiq tədbirlər görməyi xahiş etdi. Cəzasız qalan separatçılar V.Ardzinbanı “prezident” seçdilər. Abxaziyanın statusu barədə qərarla hakimiyyət yenidən təşkil edildi, gürcü və digər millətlərdən olan deputatlar parlamentdən qovuldu.

1996-cı il 23 noyabr və 7 dekabr tarixdə Abxaziyada “parlament“ seçkilərinin keçirilməsilə yenidən beynəlxalq hüquq

normaları pozuldu. Təhlükəsizlik Şurası 1997-ci il 30 yanvar tarixdə qəbul etdiyi 1096 saylı qətnamədə Abxaziya "rəhbərliyi"nin Gürcüstanın ərazi bütövlüyünü pozması cəhdlərini pislədi, tərəfləri qaçqın və məcburi köçkünlərin qayıtmasına şərait yaratmağa, minaların basdırılmasının qarşısını almağa çağırdı.(138)

Gürcüstanda olan sülhməramlıların öldürülməsi, yaxud oğurlanması BMT-nin şəxsi heyətinin təhlükəsizliyi barədə 1994-cü il 9 dekabr tarixli konvensiyanı pozurdu. Təhlükəsizlik Şurası bu cinayətlərdə məsuliyyət daşıyan insanların cəzalandırılmasını tələb edirdi. (141) Belə insident 1999-cu ilin oktyabrında, 2000-ci ilin iyununda da baş vermişdi. Bundan başqa, 2000-ci il dekabrın 10-da Kodor dərəsində Gürcüstan üzrə BMT missiyasının 2 müşahidəçisi oğurlandı, 2001-ci il aprel və may aylarında Qal rayonunda, 8-9 iyulda Qulripşs rayonunda, iyulun 22-də Primorskda BMT sülhməramlılarından öldürülənlər və girov düşənlər oldu. 8 oktyabrda isə BMT-nin Gürcüstan üzrə missiyasının vertolyotunun vurulması nəticəsində 9 nəfər həlak oldu. Şərh edilənlərlə bağlı qeyd etmək lazımdır ki, BMT sülhməramlı əməliyyatlarını həyata keçirərkən onun heyətinin təhlükəsizliyinin müdafiəsi prioritet məsələlərdən biridir və heyətin müdafiəsində başlıca məsuliyyət onun olduğu dövlətin üzərinə düşür. BMT-nin vəzifəli şəxslərinin təhlükəsizliyinə və müdafiəsinə təminat verən bir sıra hüquqi sənədlər – 1946-cı il BMT-nin imtiyazları və immunitetləri barədə konvensiya, BMT-nin ixtisaslaşmış qurumlarının imtiyazları və immunitentləri barədə konvensiya, BMT əməliyyat qüvvələrinin statusu barədə saziş, 1990-cı il BMT-nin İnkişaf Proqramına kömək barədə əsas saziş, Ölkə hökuməti və BMT Katibliyi arasında BMT missiyasının statusu barədə saziş mövcuddur. 1994-cü ildə qəbul edilən və 1999-cu ildə hüquqi qüvvəyə minən BMT heyəti və heyətlə bağlı şəxslərin təhlükəsizliyi barədə konvensiya hərbi, mülki vətəndaşlara qarşı qüvvə tətbiq etməyi, hücum etməyi, sülhməramlıların oğurlanmasını qadağan edir. Münaqişə tərəflərindən birinin sülhməramlını tutduğu zaman dövlət öz sərəncamında olan tədbirlərdən istifadə edərək, onu azad etməlidir. Dövlətlər öz aralarında belə cinayətləri tədqiq edərək aradan qaldırmalı, günahkarları məsuliyyətə cəlb etmək üçün əməkdaşlıq etməlidirlər. BMT Nizamnaməsinin 105-ci maddəsində göstərilir ki,

Təşkilata üzv olan ölkələrin nümayəndələri və BMT-nin vəzifəli şəxsləri Təşkilatla əlaqədə öz funksiyalarını müstəqil həyata keçirmək üçün zəruri olan imtiyaz və immunitetlərdən istifadə edir. Baş Məclis bu maddənin tətbiqi ilə bağlı ayrı-ayrı detalları müəyyən etmək üçün tövsiyələr verə bilər. 2002-ci ilin iyulunda hüquqi qüvvəyə minən Beynəlxalq cinayət məhkəməsi statutunda sülhməramlı heyətə, humanitar heyətə, obyekt və materiallara zərər vurulması "hərbi cinayət" hesab edilir. 2005-ci il dekabrın 8-də Baş Məclisin qəbul etdiyi konvensiyaya fakultativ protokolda BMT-nin missiyasında iştirak edən istənilən heyətin (humanitar, siyasi,inkişaf sahəsində heyət daxil olmaqla) müdafiə edilməsi nəzərdə tutulur.

Baş Məclisin 2004-cü il sessiyasında çıxış edən Gürcüstan Respublikasının prezidenti M.Saakaşvili Abxaziya, Cənubi Osetiya münaqişəsinin nizama salınması üçün üç mərhələ təklif etdi. Birinci mərhələdə antiterror əməliyyatlar həyata keçirmək üçün Rusiyanın ehtiyat qüvvələri birləşdirilməli, Gürcüstan-Rusiya sərhədlərinə birgə nəzarət genişləndirilməli, qarşılıqlı etimad yaratmaq üçün Gürcüstan və Abxaziya, Gürcüstan və Cənubi Osetiya vətəndaş cəmiyyəti nümayəndələrilə, tələbələrlə, jurnalistlərlə danışıqlar aparılmalı idi. İkinci mərhələdə hüquq normalarına əməl etmək sahəsində fəaliyyət həyata keçirilməli, Gürcüstan-Rusiya sərhədlərinə BMT sülhməramlıları gətirilməli idi. Üçüncü mərhələdə isə Abxaziya və Cənubi Osetiyaya tam və geniş muxtariyyat verilməsi təklif edilirdi.(147)

BMT sülhməramlılarının Qal, Oçamçir, Tkvarçelidə fəaliyyəti genişləndi, Suxumi və Qalda onların nümayəndəliyi açıldı. Lakin Abxaziya tərəf yenə də sülh danışıqlarından yayınırdı. Təhlükəsizlik Şurasının 2005-ci il 29 iyul tarixli 1615 saylı qətnaməsində də bu, qeyd edildi.(143) Qətnamədə BMT-nin Gürcüstan üzrə sülhməramlılarının tərkibində polislərin iştirakını təmin etmək göstərilmişdi. Qeyd etmək lazımdır ki, "Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu" adlı 2001-ci il 30 avqust tarixli 1366 saylı qətnamənin IV bəndində münaqişənin qarşısını almaq üçün polislərin sülhməramlılarla əməkdaşlığının əhəmiyyəti vurğulanmışdı.(141)

2006-cı ildə Baş Məclisdə çıxışında M.Saakaşvili daxili münaqişələrin regionda sabitliyi pozduğunu bildirərək, Rusiyanı

Gürcüstan torpaqlarını anneksiya etməkdə günahlandırdı, sülhməramlıların təcili çıxarılmasını tələb etdi, ölkəyə beynəlxalq polis kontingentinin gəlməsini təklif etdi.(148)

2007-ci ilin sentyabrında Baş Məclisdə çıxışında M.Saakaşvili BMT-nin Gürcüstan üzrə missiyasının sülh prosesinin bütün aspektlərini təhlil etmədiyini, məcburi köçkünlərin öz yurdlarına qayıtmadığını bildirərək, Rusiyanı Gürcüstanın daxili işlərinə müdaxilə etməkdə və öz müstəqilliklərini elan etmək üçün Abxaziya və Cənubi Osetiyaya köməkdə günahlandırdı.(146) M.Saakaşvili Abxaziyadan olan məcburi köçkünlərin öz yurdlarına qayıtması barədə qətnamənin layihəsini dəstəkləməyə çağırdı. Layihədə Abxaziyadan gələn 500 min məcburi köçkünün Gürcüstanda vəziyyəti mürəkkəbləşdirdiyi, əvvəllər Abxaziyada yaşamayan əhalinin oraya köçürülməsi ilə demoqrafik dəyişikliklər etmək cəhdi pislənilirdi.(346) Qətnamə BMT-də bəyənildi. Rusiya qətnamənin əleyhinə səs verdi. Rusiya nümayəndəsi İlya Roqaçev bu qətnamənin Abxaziya tərəfə siyasi, humanitar təzyiq olduğunu, Gürcüstan-Abxaziya münaqişəsini nizamasalmaya mənfi təsir etdiyini bildirdi.(126)

Bununla belə, 2008-ci il 18-19 fevral tarixli Cenevrə danışıqlarından sonra Təhlükəsizlik Şurası 15 aprel tarixli 1781 saylı qətnamədə Rusiyanın, ATƏT-in cəhdlərini dəstəklədi, BMT sülhməramlılarının MDB sülhməramlıları ilə əməkdaşlığını möhkəmlətməyə, münaqişə tərəflərini “Tbilisi və Suxumi arasında sərhədlənmənin əsas prinsipləri” adlı sənədləri həyata keçirməyə çağırdı. Qətnamədə Gürcüstanın ərazi bütövlüyü təsdiq edildi, münaqişənin BMT və Baş katibin dostları qrupu çərçivəsində həll edilməsi dəstəkləndi, icmalar arasında əlaqələr yaradılması zəruriliyi vurğulandı.(144) Rusiyanın “cəhdləri”nin BMT tərəfindən dəstəklənməsi bu dövləti regionda öz maraqlarını həyata keçirməyə ruhlandırdı. Digər dövlətin daxili səlahiyyətlərinə aid olan işlərə müdaxilə etməmə, dövlətlərin bir-birilə əməkdaşlıq vəzifələri, suveren bərabərlik prinsiplərini pozan Rusiya 2008-ci ilin avqustunda Gürcüstana silahlı hücum edərək dinc sakinləri güllələbaran etdi, avqustun 7-də Fransa və Avropa İttifaqının vasitəçiliyi ilə Rusiya və Gürcüstan arasında bağlanan, rus hərbi hissələrinin çıxarılmasını nəzərdə tutan sazişdən irəli gələn vəzifələri

yerinə yetirməyərək işğal etdiyi ərazilərdə hərbi bazalarını qurdu. Rusiya ərazi toxunulmazlığı prinsipini pozaraq Gürcüstana gürcü hərbçilərin rus sülhməramlılarına hücum etməsini bəhanə gətirərək hücum etsə də, bu bəhanə ona bəraət qazandırmadı. Çünki belə halda o, Gürcüstan ərazisindən öz sülhməramlılarını çıxarmalı, BMT-nin Təhlükəsizlik Şurasına şikayət etməli və onun qərarı əsasında hərəkət etməli idi. 1990-cı ildən açıq surətdə Abxaziya və Cənubi Osetiyada separatçı hakimiyyəti dəstəkləyən Rusiya vətəndaş müharibəsi və terror aktlarında iştirak edərək digər dövlətin ərazisinə hücuma yardım məqsədilə muzdluların təşkil edilməsinin qadağan edilməsi prinsipini də pozdu. Əslində abxaz və osetin separatçıları müdafiə edən, faktiki olaraq münaqişə tərəfi olan Rusiya formal olaraq vasitəçilik missiyasını öz üzərinə götürərək münaqişənin nizama salınması üçün praktik olaraq heç bir addım atmadı. İnsan hüquq və əsas azadlıqlarına hörmət etmə prinsipini pozan Rusiya öz maraqlarına müvafiq olaraq abxaz və osetin xalqların hüquqlarını "müdafiə etdi", gürcülərin etnik təmizlənməsinə isə göz yumdu.

Həmin il sentyabrın 9-da Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanıyan Rusiya ərazi bütövlüyü, xalqların bərabərhüquqluluğu və öz müqəddəratını təyin etməsi prinsipini də pozdu. Hazırda hər hansı etnik qrup, millət dövlətdən kənar yaşamır. Bu o deməkdir ki, istənilən xalqın öz müqəddəratını yeni xüsusi dövlət çərçivəsində təyin etməsi artıq mövcud olan dövlətin ərazisi hesabına həyata keçirilə bilər. Buna görə də Gürcüstanın razılığı olmadan onun ərazisində olan Abxaziya və Cənubi Osetiyanın müstəqilliyini tanımaqla Rusiya ərazi bütövlüyü prinsipini pozmuşdur. Çünki xalqların öz müqəddəratını təyin etməsi prinsipi müstəmləkə ölkələri və xalqlarının 50-60-cı illərdə azadlıq uğrunda mübarizəsi ilə bağlı idi. Hazırda isə müstəmləkə sistemi yoxdursa, heç bir xalq suveren dövlətin qanuni hakimiyyətinə qarşı mübarizə apara bilməz. Buna görə də müasir dövrdə etnik qrupların ərazi iddiası xalqların öz müqəddəratını təyin etməsi prinsipinin deyil, ərazi bütövlüyü prinsipinin qorunmasına yönəldilməlidir.

Rusiyanın Gürcüstana qarşı silah tətbiq edərək dinc sakinləri güllləbaran etməsi Gürcüstan hökumətini bir daha BMT-yə müraciət etməyə sövq etdi. Baş Məclisin 63-cü sessiyasında çıxış edən M.Saakaşvili beynəlxalq birliyi suveren dövlətin ərazi bütövlüyü,

sərhədlərin toxunulmazlığı prinsipinin pozulmasına yol verməməyə və Gürcüstanda "iki separatçı əyalətin qeyri-qanuni tanınmasını pisləməyə" çağırdı. M.Saakaşvili bildirdi ki, "Gürcüstanın ərazisinin işğalı, iki regionun müstəqilliyinin tanınması, minlərlə insana qarşı "etnik təmizləmə" siyasətinin həyata keçirilməsi Baş Məclisə "total çağırış"dır." Gürcüstanın prezidenti Baş Məclisi dünyanın hər yerində olan təcavüzkarlığa münasibət bildirməyə, Abxaziya və Cənubi Osetiyada sülhquruculuğu və vasitəçilik mexanizminin dəyişilməsinə çağırdı və Baş katibin Gürcüstana göndərdiyi xüsusi nümayəndə ilə sıx əlaqə saxladığını bildirdi.(135)

Baş Məclisdə çıxış edən Moldavanın xarici işlər naziri Andrey Stratan Cənubi Osetiya və Abxaziyanın müstəqilliyinin tanınmasının regionda sabitlik amili olmayacağını vurğuladı, beynəlxalq sülh və təhlükəsizliyi hədələyən "dondurulmuş" münaqişələrin həll edilməsi üçün BMT-nin regional təşkilatlarla, o cümlədən ATƏT-lə əməkdaşlığını möhkəmləndirməyin zəruriliyini bildirdi.(127) Rusiyanın beynəlxalq hüquq normalarını pozması Təhlükəsizlik Şurasında müzakirə edilsə də, təcavüzkar dövlət barədə tədbir görülmədi. Halbuki veto hüququndan istifadə edərək beynəlxalq səviyyədə öz maraqlarını həyata keçirən Rusiya, ən azından Təhlükəsizlik Şurasının daimi üzvlüyündən kənarlaşdırılmalı idi.

Gürcüstan ərazisindən Rusiya kontingentlərinin tamamilə çıxarılmasını tələb etdi, MDB-dən çıxmaq üçün təşkilata müraciət etdi. Bu faktlar göstərir ki, nizamasalmada regionda strateji maraqları olan dövlətin iştirakı, vasitəçi olması məqsədəuyğun deyil. Rusiyanın MDB-dən, Minsk qrupu həmsədrlərinin, xüsusən də Rusiya və ABŞ-ın ATƏT-in regionda fəaliyyətindən sui-istifadə edərək Cənubi Qafqazda regional münaqişələri nizama salmasına mane olmasını nəzərə alaraq, BMT sülhməramlılarının regionda fəaliyyətinə üstünlük verilməlidir. İstər abxaz-gürcü münaqişəsi, istərsə də Ermənistan-Azərbaycan münaqişəsi BMT çərçivəsində , Nizamnaməyə müvafiq olaraq həll edilməlidir.

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, abxaz-gürcü münaqişəsinin nizama salınmasına cəhd edərkən BMT-nin səhvi onda oldu ki, Cənubi Qafqazda bu və ya digər formada öz nüfuzunu bərpa etməyə çalışan Rusiyanın vasitəçiliyinə, əksəriyyəti Rusiya Federasiyası vətəndaşları olan MDB kollektiv

təhlükəsizlik qüvvələrinin Abxaziyaya gətirilməsinə etiraz etməmişdi, əksinə buna şərait yaratmışdı. Halbuki, Abxaziyanın Rusiyaya birləşdirilməsində bu dövlətin maraqları var. BMT-nin hərbi müşahidəçiləri münaqişə zonasına gec göndərməsi MDB-nin öz silahlı qüvvələrini göndərmək təklifinə səbəb oldu. BMT sülhməramlıları ilə MDB kollektiv təhlükəsizlik qüvvələrinin əlaqələri Nizamnamənin 54-cü maddəsinə müvafiq həyata keçirilmədi. Tərəflər arasında bağlanan atəşkəs barədə sazişin pozulması barədə Gürcüstan hökuməti BMT-yə bildirsə də, beynəlxalq hüquq normalarına müvafiq tədbirlər görülmədi. Münaqişə zonasında BMT müşahidəçilərinin olmasına baxmayaraq, insan hüquqları pozuldu, ancaq cinayətkarlar cəzalandırılmadı. Qaçqınların qayıtması üçün humanitar kömək göstərmək məqsədilə yaradılan Dördtərəfli komissiyada Abxaziyanın dəfələrlə iştirak etməməsinə baxmayaraq, günahkara qarşı BMT sanksiyalar tətbiq etmədi. Abxaziyada gürcülərin əksəriyyət təşkil etməsini arzulamayan separatçılar komissiyanın işinə mane oldu.

Abxaziya münaqişəsini nizama salmaq üçün BMT Təhlükəsizlik Şurası yalnız qətnamələr qəbul etməklə kifayətlənməməli, bu qətnamələrin həyata keçirilməsinə nəzarət etməli, beynəlxalq hüquq normaları çərçivəsində tədbirlər görməlidir. Atəşkəsi pozan separatçı qüvvələrə qarşı sanksiyalar tətbiq edilməlidir. Münaqişə zonasında olan beynəlxalq müşahidəçilər ciddi fəaliyyət göstərməlidirlər. Hərbi əsirlər və girovların dəyişdirilməsində BMT-nin ixtisaslaşmış qurumları fəal iştirak etməlidir. Qaçqın və məcburi köçkün probleminin həlli istiqamətində Qaçqınların İşi üzrə Ali Komissarlığın üzərinə mühüm vəzifə düşür. Qaçqın problemi və humanitar məsələlərin həlli üçün münaqişə zonasına mütəxəssislər cəlb edilməlidir. Qaçqınların repatriasiyasına mane olan minalanmış ərazilər tam təmizlənməlidir. İqtisadi vəziyyəti bərpa etmək üçün humanitar yardım gücləndirilməlidir. Regionda beynəlxalq hüquq normalarına əməl edilməsinə, separatçıların tərksilah edilməsinə, Rusiya kontingentinin tam çıxarılmasına nəzarət edilməlidir. Özünü suveren "respublika" elan edən Abxaziyanın BMT-nin gərgin sülhyaratma cəhdlərini rədd etməsinə qarşı beynəlxalq hüquq normaları tətbiq edilməlidir. Cinayətkarları cəzalandırmaq üçün xüsusi tribunal

yaradılmalı, cəzasızlığa son qoyulmalıdır. Təhlükəsizlik qüvvələri BMT-nin bağladığı sazişə müvafiq olaraq sülh əməliyyatında iştirak edərkən beynəlxalq təşkilatın Nizamnaməsinin 54-cü maddəsinə müvafiq olaraq regional orqanlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barədə Təhlükəsizlik Şurasına daimi olaraq tam məlumat verməli, beynəlxalq müşahidəçilər atəşkəs barədə sazişin icrasına və regional sülhməramlılar ilə əməkdaşlığa nəzarət etməlidir. BMT-nin əsas orqanları ilə sıx əməkdaşlıqda ixtisaslaşmış qurumların (Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, UNİSEF, UNESCO və b.), qeyri-hökumət təşkilatlarının münaqişə zonasında fəaliyyəti gücləndirilməlidir. Münaqişənin qarşısını almaq üçün, hər şeydən əvvəl qeyri-qanuni silah satışının qarşısını almaq, Rusiyanı növbəti cinayətlərdən çəkindirmək lazımdır.

Paraqrafın əvvəlində qeyd etdiyimiz kimi Cənubi Qafqazda sabitlik yaratmaqda Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması mühüm əhəmiyyət kəsb edir

Ermənilər "Böyük Ermənistan" mifini e.ə.70-ci illərdə Albaniya ərazisinin erməni çarı II Tiqran tərəfindən işğalı fərziyəsinə əsasən yaratmışlar. Azərbaycanlıların öz tarixi torpaqlarından terror yolu ilə qovulması, etnik təmizləmə siyasəti 1804-1813-cü və 1826-1828-ci illər Rus-İran müharibəsinin gedişində və 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsi dövründə İran və Türkiyədən ermənilərin Azərbaycan torpaqlarına köçürülməsindən sonra başladı. İrandan ermənilərin "rus torpaqlarına" köçürülməsindən narahat olan Rusiya imperiyasının İrandakı səfiri A.S.Qriboyedov rus imperatoruna məktubunda yazırdı: "Əlahəzrət, mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verməyin. Onlar elə tayfalardır ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salaraq bura bizim dədə-baba torpağımızdır, deyəcəklər."(15, s.158) Çar Rusiyası ermənilərin məhz bu iftiraçı xüsusiyyətlərindən gələcəkdə bəhrələnmək üçün 1 milyon 300 mindən çox ermənini Cənubi Qafqazda, xüsusən də Azərbaycanda yerləşdirdi. Çar Rusiyasının Azərbaycana "hədiyyə"sinin nəticəsi olaraq, 1905-1907, 1918-1920, 1948-1953, 1988-1992-ci illərdə indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı terror və xüsusi qəddarlıqla etnik təmizləmə siyasəti həyata keçirildi. 1923-cü il iyulun 7-də isə Azərbaycan Sovet

Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldığı vaxtdan etibarən əhalinin etnik tərkibi barədə saxta məlumatlar verilir, ermənilərin sayını və artımını çox, azərbaycanlıların sayını az göstərirdilər. Məsələn, 1921-1939-cu illərdə erməilərin faktiki artımı 3,6% olduğu halda 38,5%, azərbaycanlıların artımı 46,1% olduğu halda 23,1% verilmişdi.(26,s.34)

1988-ci ildən yenidən öz mənfur siyasətini həyata keçirməyə can atan, tarixən regionda geostrateji maraqları olan Rusiyanın dəstəyinə arxalanan Ermənistan təcavüzkar siyasətini Dağlıq Qarabağ "özünümüdafiə qüvvəsini" müdafiə etmək pərdəsi altında gizlədərək, Azərbaycanda olan daxili qeyri-sabitlikdən istifadə etdi və Dağlıq Qarabağ Muxtar Vilayətini (ərazisi 4388 $km^2$), iri şəhərləri Şuşanı, Xankəndini, Ağdamı, Füzulini, Laçını, Kəlbəcəri, Cəbrayılı, Qubadlını, Zəngilanı işğal etdi. Sənaye və kənd təsərrüfatı, kommunikasiya sistemi dağıdıldı, 1 milyondan çox qaçqın, məcburi köçkün kütləsi yarandı. Məhz adları çəkilən şəhər və rayonlar turizm, sanatoriya, sənaye, sənətkarlıq, kənd təsərrüfatı sahələrində ölkənin büdcəsinə ciddi gəlir verirdi. Nəticədə işsizlik, miqrasiya, demoqrafiya və digər problemlər yarandı. Ermənistanın təcavüzü nəticəsində 20000-dən çox insan həlak oldu, 50000-dən çox insan yaralandı, təxminən 4861 nəfər əsir və girov düşdü. İlkin məlumata görə, büdcəyə 60 milyard dollardan çox zərər dəydi, sosial-iqtisadi sahə aşağıdakı itgilərə məruz qaldı: 700 xəstəxana, tibb müəssisəsi, 150 mindən çox yaşayış məntəqəsi, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə, 4 sanatoriya kompleksi, 927 kitabxana (o cümlədən 4,6 milyon cild kitab, əlyazma yandırıldı), 6 teatr, 368 klub, 85 musiqi məktəbi, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 1200 km. suvarma sistemi, 35 min abunəsi olan telefon stansiyası, 2500 transformator stansiyası, 15 min elektrik xətti, 160 körpü, 800 km. yol, 2300 km. su körpüsü, 2 min km. qaz kəməri, 35 qazvermə stansiyası dağıdıldı. (122, s.5) İşğal edilən ərazilərdən 244 min baş xırdabuynuzlu, 69 min baş iribuynuzlu heyvan, yalnız 1993-cü ildə 206 600 ton odun Ermənistana daşındı. Azərbaycanın otlaq sahəsinin 70%-i, o cümlədən 595 600 hektar kənd təsərrüfatı üçün yararlı torpaq sahəsi, 246 000 hektar meşə massivi, 10 100 boş sahəsi işğal altındadır.(122, s.6) 500 tarixi və memarlıq abidəsi, 100-dən

çox arxeoloji abidə, 22 muzey (40 min eksponat), 9 tarixi saray, 44 məbəd, 10 məscid, 4 şəkil qalereyası düşmən tapdağı altında qaldı.(122, s.12) Çoxlu miqdarda tarixi, mədəni, dini abidələr, incəsənət əsərləri Ermənistana aparılaraq, xarici ölkələrdə satıldı, yaxud onların hansı ölkəyə məxsus olduğu, irsi, milli kökləri dəyişdirildi.

Azərbaycan Respublikasının ərizəsinə və Baş Məclisin tövsiyəsinə əsasən 1992-ci il 14 fevral tarixli 742 saylı qətnamə ilə Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildi. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT ilə əməkdaşlıq yaratdıqdan sonra Azərbaycan münaqişəni nizama salmaq üçün ona müraciət etdi. BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsinə dair dörd qətnamə qəbul etdi. Təhlükəsizlik Şurası sədrinin 1993-cü il 29 yanvar və 6 aprel tarixli bəyanatlarına, Baş katibin 1993-cü il 14 aprel tarixli məruzəsinə istinad edərək, Təhlükəsizlik Şurası 1993-cü il aprelin 30-da Dağlıq Qarabağ münaqişəsi barədə 822 saylı ilk qətnaməni qəbul etdi.(136) Qətnamədə yeril ermənilərin Azərbaycanın Kəlbəcər rayonuna hücumları ilə bağlı silahlı münaqişənin eskalasiyası, çoxsaylı mülki vətəndaşların məcburi köçkün olması, regionda, xüsusən də Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyət yaranmasında narahatlıq ifadə olunur, regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilər əldə etmək üçün güc tətbiq etməyin yolverilməzliyi təsdiq edilir, silahlı münaqişənin eskalasiyasının ağır nəticələnəcəyindən narahatlıq bildirilərək, sülh prosesinin ATƏT çərçivəsində həyata keçirilməsinin dəstəkləndiyi vurğulanırdı. Qətnamənin I bəndində möhkəm atəşkəs yaratmaq məqsədilə hərbi fəaliyyətin təcili dayandırılması, bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın yaxınlarda işğal edilmiş digər rayonlarından təcili çıxarılması tələb edilir. II bənddə Təhlükəsizlik Şurası maraqlı tərəfləri ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin həll edilməsi istiqamətində təcili danışıqlar aparmağa, problemin sülh yolu ilə həll edilməsini çətinləşdirən bütün hərəkətlərin qarşısını almağa çağırdı. III bənddə Təhlükəsizlik Şurası regionda, xüsusən də münaqişənin zərər vurduğu rayonlarda mülki əhalinin vəziyyətini yüngülləşdirmək üçün maneəsiz humanitar yardım göstərməyə çağırır, yenidən bütün tərəflərin

beynəlxalq humanitar hüquq prinsipləri və normalarına riayət etmək vəzifəsini təsdiq edirdi. IV bənddə Təhlükəsizlik Şurası Baş katibdən ATƏT-lə, həmçinin Minsk qrupunun sədri ilə məsləhətləşərək regionda, xüsəsən də Azərbaycanın Kəlbəcər rayonunda vəziyyəti qiymətləndirməyi, Təhlükəsizlik Şurasına məruzə etməyi xahiş etdi. V bənddə isə bu məsələlər ilə fəal məşğul olmaq qərara alınır.

İyulun 24-də Azərbaycan Respublikası Ali Sovetinin sədri H.Əliyevin, iyulun 27-də xarici işlər naziri H.Həsənovun Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını təkzib edən bəyanatı və ATƏT-in Minsk qrupunun məruzəsindən sonra, Təhlükəsizlik Şurası iyulun 29-da 14 bənddən ibarət 853 saylı qətnaməni qəbul etdi.(136) Qətnamədə maraqlı tərəflərin 822 saylı qətnaməni həyata keçirməyə yönəlmiş təxirəsalınmaz tədbirlər haqqında ölçülər götürməsi alqışlanır, mülki şəxslərin didərgin düşməsi, bölgədəki humanitar vəziyyətlə əlaqədar narahatçılıq qeyd edilirdi. Qətnamənin I bəndində Ağdam rayonunun, eləcə də Azərbaycanın digər rayonlarının işğal edilməsi, II bənddə mülki vətəndaşlara təcavüz, yaşayış məntəqələrinin bombalanması və artilleriya atəşinə tutulması pislənildi. III bənddə hərbi fəaliyyətin dərhal dayandırılması, işğalçı qüvvələrin Azərbaycanın Ağdam rayonundan və işğal edilmiş digər rayonlarından tam, qeyd-şərtsiz çıxarılması tələb edilir. IV bənddə maraqlı tərəflər atəşkəs barədə möhkəm sazişə nail olmağa və ona riayət etməyə, V bənddə regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə çağırılır. VI-VIII bəndlərdə münaqişənin nizama salınması üçün ATƏT-in Minsk qrupunun cəhdləri bəyənilir və dəstəklənir. Təhlükəsizlik Şurası IX bənddə Ermənistanı öz nüfuzundan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ regionu ermənilərinə 822 saylı qətnaməni, Minsk qrupunun təkliflərini yerinə yetirmək üçün təsir etməyə çağırır. X bənddə dövlətləri münaqişənin eskalasiyasına səbəb olan istənilən silah və hərbi sursat verməkdən çəkindirir. XI-XII bəndlərdə münaqişə zonasının mülki əhalisinə humanitar yardım edilməsi, XIII-XIV bəndlərdə Baş katibdən ATƏT-in sədri ilə, həmçinin Minsk qrupunun sədri ilə məsləhətləşərək regionda vəziyyət barədə Təhlükəsizlik Şurası sədrinə məruzə etmək xahiş edilir, bu məsələ ilə fəal məşğul olmaq qarşıya məqsəd qoyulur.

Fizuli şəhərinə qarşı təcavüzün qarşısını almaq tələbilə Azərbaycan hökumətinin, İran İslam Respublikasının və Türkiyənin müraciətlərindən sonra, Təhlükəsizlik Şurası 1993-cü il avqustun 18-də 13 bənddən ibarət 874 saylı qətnamə qəbul etdi.(136) Qətnamənin I bəndində maraqlı tərəflər Rusiya Federasiyası hökumətinin vasitəsilə, ATƏT-in Minsk qrupunun dəstəyi ilə effektli və daimi atəşkəs etməyə çağırıldı. II – VI bəndlərdə ATƏT-in Minsk qrupu çərçivəsində sülh prosesinin həyata keçirilməsi dəstəklənir, « Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə “Təxirəsalınmaz tədbirlər qrafiki» alqışlanır, yaxınlarda işğal edilmiş ərazilərdən silahlı qüvvələrin çıxarılması, kommunikasiya və nəqliyyatın bərpa olunması daxil olmaqla, tərəflər həmin qrafiki həyata keçirməyə çağırılır, VII bənddə Baş katibdən Minsk konfransında iştirak etmək üçün nümayəndələr təklif etmək, konfrans açılandan sonra danışıqların keçirilməsi üçün yardım etmək xahiş edilir, VIII bənddə ATƏT-in müşahidəçilik üzrə missiya yaratması dəstəklənir, IX-XI bəndlərdə Baş katibdən bütün tərəflərin beynəlxalq humanitar hüququa əməl etməsinə nəzarət etmək, bütün münaqişə rayonlarına humanitar yardım göstərmək, qaçqın və məcburi köçkünlərin təhlükəsiz şəraitdə öz yurdlarına qayıtmasına kömək etmək xahiş edilir, XII-XIII bəndlərdə Baş katibdən, ATƏT-in sədrindən, Minsk konfransının sədrindən Minsk danışıqları prosesi, yerlərdə vəziyyətə dair, ATƏT və BMT-nin bu məsələdə əməkdaşlığına dair Təhlükəsizlik Şurasına məruzə etmək və bu məsələ ilə fəal məşğul olmaq xahiş edilir.

Azərbaycan Respublikası prezidenti H.Əliyevin və Türkiyə hökumətinin müraciətlərindən sonra, Dağlıq Qarabağ regionunda münaqişənin davam etməsindən, Ermənistan və Azərbaycan arasında gərginliyin saxlanılmasından, atəşkəsin pozulması nəticəsində Zəngilan və Horadiz şəhərlərinin işğal edilməsindən narahat olaraq Təhlükəsizlik Şurası noyabrın 12-də 884 saylı 9 bənddən ibarət qətnamə qəbul etdi.(136) Qətnamədə Azərbaycanın və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı, ərazilərin alınması üçün güc tətbiq etməyin yolverilməzliyi prinsipləri təsdiq edilir. I bənddə atəşkəsin pozulması, silahlı münaqişəni yenidən başlayaraq Zəngilan və

Horadiz rayonlarının işğalı, dinc sakinlərə hücum, ərazinin güllləbaran edilməsi pislənilir, II bənddə Ermənistan hökumətini öz nüfuzundan istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ ermənilərini Təhlükəsizlik Şurasının qətnamələrinə piayətə məcbur etməyə, silahlı münaqişəni davam etdirməsi üçün onları silahla tədarük etməməyə çağırır. III-VI bəndlərdə ATƏT-in Minsk qrupunun 9 üzvünün 1993-cü il 4 noyabr tarixli atəşkəs barədə bəyanatı qiymətləndirilir. Təhlükəsizlik Şurası 822 (1993), 853 (1993) qətnamələri üzrə təxirəsalınmaz tədbirlər qrafikinə və Minsk qrupunun 1993-cü il 2-8 noyabr tarixli Vyanada keçirilən iclasında ona əlavələrə müvafiq olaraq maraqlı tərəflərdən hərbi əməliyyatları dərhal dayandırmağı, Zəngilan, Horadiz və işğal edilmiş digər rayonlardan işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını tələb edir, tərəfləri Rusiya Federasiyasının vasitəçiliyi, Minsk qrupunun dəstəyi ilə effektli və daimi atəşkəsə nail olmaq üçün danışıqları davam etdirməyə çağırır. VII-IX bəndlərdə Baş katibdən Azərbaycanın cənub sərhədləri daxil olmaqla, Zəngilan və Horadizdə mülki əhaliyə humanitar yardım göstərməsi, ATƏT sədrinin, Minsk konfransı sədrinin əvvəlcədən Minsk prosesi, qətnamələrin həyata keçirilməsi barədə Təhlükəsizlik Şurasına xəbər verməsi, onların BMT ilə əməkdaşlıq etməsi xahiş edilir.

BMT Nizamnaməsinin VIII fəslinə müvafiq olaraq yerli mübahisələrin müzakirəsi Təhlükəsizlik Şurasına verilməzdən əvvəl regional və ya subregional təşkilatlara həvalə edilə bilər. Regional təşkilat ilkin mərhələdə münaqişənin öhdəsindən gələ bilmirsə və münaqişə eskalasiya edirsə, onun nizama salınması məsələsi Təhlükəsizlik Şurasının öhdəsinə düşür. 1992-ci il yanvarın 20-də Azərbaycan ATƏT-ə qəbul edildikdən sonra, martın 24-də Nazirlər Şurasının qəbul etdiyi qərara əsasən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün 11 dövlətdən (Azərbaycan, Ermənistan, ABŞ, Rusiya, Fransa, Almaniya, İsveç, İtaliya, Belorusiya, Türkiyə, Çexiya) ibarət Minsk qrupu yaradılsa da, Azərbaycanın ərazilərinin bir-birinin ardınca işğal edilməsi göstərdi ki, ATƏT bu problemi həll etməyə qadir deyil. Minsk konfransı həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınması barədə yeni 1997-ci ilin iyunun 11-də «paket» həlli adlandırılan layihəsi (Layihədə Dağlıq Qarabağın statusu daxil olmaqla, bütün

məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu.), həmin il sentyabrın 19-da münaqişənin «mərhələli» həlli kimi tanınan layihəsi (Layihədə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu. Birinci mərhələdə Laçın rayonu istisna olmaqla, erməni silahlı qüvvələri işğal edilən Dağlıq Qarabağ ətrafındakı 6 rayondan çıxarılmalı, qaçqınlar öz yurdlarına qayıtmalı, kommunikasiya məsələsi həll edilməli, ikinci mərhələdə Dağlıq Qarabağın statusu qəti olaraq müəyyənləşdirilməli və bununla eyni zamanda Laçın və Şuşa şəhərləri və keçmiş Şaumyan rayonu ilə bağlı məsələ həll edilməli idi. Bu sənəddəki layihəni həyata keçirmək üçün dəqiq mexanizm, konkret zaman çərçivəsi prinsiplərini pozan tərəflərə qarşı sanksiyalar tətbiq edilməsi müəyyənləşdirilmişdi.) nəticə vermədi. Ermənistanda radikal qüvvələrin reaksiyası nəticəsində L.T.Petrosyan istefa verdi.(4,s.76) Belə halda ATƏT dekabrın 2-də «mərhələli təklif»ə «DQR»ın münaqişə tərəfi kimi tanınmasını təklif edən maddə əlavə edilən variantı təqdim etdi. 1998-ci il noyabrın 9-da Rusiyalı həmsədrin fəal iştirakı ilə «ümumi dövlət» adlı təklif verildi. Bu təklif beynəlxalq hüquq normalarına zidd olmaqla, ATƏT-in Budapeşt, Lissabon zirvə toplantılarında qəbul edilən sənədləri inkar edirdi. Həmsədrlər sözün əsl mənasında Azərbaycanın daxilində ikinci erməni dövləti yaratmaq təklifi verdilər. «Ümumi dövlət» təklifinə görə, Dağlıq Qarabağ müvafiq atributları olan respublika kimi dövlət, ərazi qurumuna çevrilir, «ümumi dövlət» çərçivəsində ona Azərbaycanla bərabərsubyektlilik verilirdi. Azərbaycan bu təklifi qəti olaraq rədd etdi.

Azərbaycan hökuməti və Türkiyə Təhlükəsizlik Şurasının sədrinə və dünya dövlətlərinə müraciət edərək Ermənistanın təcavüzünün qarşısını almaq üçün bütün vasitələrdən istifadə etməyə çağırdı. Münaqişənin ilk mərhələsindən başlayaraq Ermənistan Dağlıq Qarabağ münaqişəsi barədə BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməklə yanaşı, münaqişə barədə dünya birliyində müxtəlif formalarda dezinformasiya yaratmağa cəhd etdi.

Birincisi, Ermənistan Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan hökuməti tərəfindən təhlükədə olması barədə dünyanı təkidlə inandırmağa çalışırdı.

İkincisi, Azərbaycan ərazisindəki münaqişədə iştirak etməməsi barədə yanlış məlumatlar verməklə, Ermənistan dünya

ictimaiyyətini aldadırdı. Ermənistan öz təcavüzkarlıq planlarını gizlətmək üçün qondarma Daölıq Qarabağ hakimiyyətindən istifadə edir, Dağlıq Qarabağıı müstəqil dövlət kimi Azərbaycanla danışıqlar keçirmək təşəbbüsünü irəli sürürdü.

Üçüncüsü, Ermənistan dünyanın nüfuzlu ölkələrində olan diasporlarından məharətlə istifadə edərək, dünya dövlətlərinin siyasətinə təsir göstərirdi.

Dördüncüsü, Ermənistan blokadada olması barədə dünya birliyinə məlumat verir, aldığı humanitar yardımı sosial və iqtisadi problemlərə deyil, Azərbaycana qarşı işğal müharibələrinin davam etdirilməsinə sərf edirdi.

Beşincisi, Dağlıq Qarabağın erməni əhalisinin sosial-iqtisadi, mədəni cəhətdən təmin olunmaması barədə dünya birliyində dezinformasiya yaradan Ermənistan Dağlıq Qarabağın ərazisinin Ermənistanın iqtisadiyyatı ilə inteqrasiya etməsi ideyasını irəli sürürdü.

Altıncısı, Ermənistan təcavüzkar dövlət kimi ittiham olunmasından yayınmaq məqsədilə Azərbaycanın xarici ölkələrdən silah və hərbi sursat alması və münaqişəni qızışdırması barədə BMT-yə məlumatlar verirdi.

Yeddincisi, Ermənistan, Türkiyəni problemə müdaxilə etməkdə günahlandırmaqla, öz təcavüzkar siyasətini pərdələyirdi.

Azərbaycana qarşı dezinformasiya blokadası yaratmaqla Ermənistan təcavüzkar adından məharətlə yayınır, Dağlıq Qarabağ probleminin Azərbaycanın daxili problemi olduğunu, qondarma "DQR" nümayəndələrinin "xalqların öz müqəddəratı uğrunda mübarizə aparması" prinsipinə əsaslanaraq mübarizə etdiklərini, Ermənistanın yalnız onların təhlükəsizliyini müdafiə etdiyini, Azərbaycanın Dağlıq Qarabağı işğal etdiyini dünya birliyinə bəyan edir. Halbuki öz müqəddəratını təyin etmək prinsipi artıq öz dövlətləri olan ermənilərə aid edilə bilməz. Ona görə də münaqişəni nizama salmaq üçün ilk növbədə, BMT-nin missiyası ciddi surətdə münaqişə regionunda hansı qüvvələrin olduğunu müəyyən etməlidir. Azərbaycanın Dağlıq Qarabağ ərazisinə sonralar köçürülmüş kompakt halda yaşayan bu etnik qrupun müstəqil dövlət yaratmaq hüququ yoxdur. Azərbaycana qarşı ərazi iddiaları edən Ermənistan beynəlxalq hüquq normalarını, dövlətlərin suverenliyi, ərazi

bütövlüyü, ərazi toxunulmazlığı, insan hüquqları, başqa dövlətin daxili işlərinə müdaxilə etməmə prinsiplərini pozur. 1960-cı il 14 dekabr tarixli Müstəmləkəçilikdən azad olmuş dövlətlərə müstəqillik verilməsi haqqında bəyannamədə, Vyana bəyannaməsində göstərilir ki, öz müqəddəratını təyin etmək hər hansı bir suveren dövlətin ərazi bütövlüyünü pozmamalıdır. Baş Məclisin 1970-ci il 24 oktyabr tarixli "Dövlətlər arasında dostluq və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqqında" bəyannamədə ərazi bütövlüyü, ərazi toxunulmazlığı prinsipləri beynəlxalq münasibətləri tənzimləyən əsas prinsiplər kimi göstərilmişdir. BMT-nin üzvü olan Ermənistan Nizamnaməyə əməl etməyərək, çoxtərəfli müqavilənin prinsiplərini pozur. Beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi Nizamnamənin 2-ci maddəsinin 2-ci bəndində birbaşa təsbit olunmuşdur: «Bütün üzvlər Təşkilata üzvlükdən irəli gələn hüquq və üstünlükləri özlərinə təmin etmək üçün, bu Nizamnaməyə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirirlər». Təcavüzkarlığını göstərən faktlar BMT-yə göndərilsə də, Ermənistan öz təcavüzkar fəaliyyətini «xalqların öz müqəddəratını təyin etmə» hüququ kimi beynəlxalq hüquq prinsipinə əsaslanması ilə pərdələyir.

Ərazi bütövlüyü prinsipi BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində öz əksini tapmışdır: Bütün üzvlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər.

Bu prinsip BMT Baş Məclisinin 1960-cı il 14 dekabr tarixli Müstəmləkə ölkələri və xalqlarının müstəqilliyinin təyin edilməsi barədə bəyannamədə belə təsdiq edilmişdir: «Milli birlik və ölkənin ərazi bütövlüyünün qismən, yaxud tam dağıdılması BMT Nizamnaməsinin məqsəd və prinsipləri ilə bir araya sığmır». «Bütün xalqların tam azadlıq, suverenlik, milli ərazilərinin bütövlüyü hüququ var».

Ermənistanın bəhanələri Azərbaycan xalqına məxsus olan milli, təbii ehtiyatları qarət etməyə, siyasi anneksiya ilə yanaşı, iqtisadi anneksiyanı həyata keçirməyə yönəldilmişdir. Dağlıq Qarabağın erməni əhalisinin sosial-iqtisadi, mədəni cəhətdən təmin

olunmaması barədə dünya birliyində dezinformasiya yaradan Ermənistan Dağlıq Qarabağın ərazisinin Ermənistanın iqtisadiyyatı ilə inteqrasiya etməsi ideyasını irəli sürür. Halbuki adı çəkilən ərazidə yeyinti, yüngül, tikinti materialları, kənd təsərrüfatı və digər sahələr üzrə müəssisələr daha çox inkişaf etmiş, əhali işlə təmin olunmuşdu. Azərbaycanın iqtisadi regionları arasında Abşeron, Gəncə-Qazax, Naxçıvan Muxtar Respublikasından sonra Dağlıq Qarabağ Muxtar Vilayəti sənayenin inkişafına görə 4-cü yerdə dururdu. Təkcə DQMV-də 137 sənaye və tikinti müəssisəsi fəaliyyət göstərirdi (21, s.45).

Azərbaycanla elan olunmamış müharibə edən Ermənistan təcavüzkar siyasətini dünya birliyindən müxtəlif yollarla gizlətsə də, onun təcavüzkar dövlət olduğunu və Azərbaycan torpaqlarını özünə anneksiya etmək məqsədini sübut edən faktlar çoxdur.

Birincisi, Ermənistan Ali Sovetinin 1989-cu ildə Dağlıq Qarabağı Ermənistana birləşdirməsi barədə qərar qəbul etməsi onun Azərbaycana qarşı təcavüzünü sübut etdi. Azərbaycan dövlətinin suverenliyini pozmaqda davam edən Ermənistan Ali Soveti Azərbaycan ərazisində seçki dairəsi yaradılması və orada Ali Sovetə seçkilər keçirilməsi barədə qərar qəbul etdi. (112)

İkincisi, Ali Sovet Dağlıq Qarabağın iqtisadi inkişaf planları daxil olmaqla, Ermənistanın iqtisadi inkişafı barədə dövlət proqramı qəbul etdi.

Üçüncüsü, separatçıların parlamentin üzvü olması Ermənistanın Azərbaycana qarşı təcavüzünü bir daha sübut etdi.

Dördüncüsü, Ermənistan müdafiə nazirinin Azərbaycanın Ağdərə rayonuna gizli gəlişi, orada yerləşən erməni hərbi hissələrinin döyüş qabiliyyətini yoxlamağı, erməni hərbi əsirlərin ifadələri sübut edir ki, Ermənistan təcavüzdə birbaşa iştirak edir. BMT nümayəndəsi Azərbaycan ərazisində döyüşlərdə T-72 tankları, Mi-24 təyyarələri, müasir döyüş aviasiyasının olmasını və yalnız yerli etnik qüvvələrin (ermənilərin) hücum etmədiyini təsdiq etdi.

Beşincisi, Kəlbəcəri işğal etmək məqsədilə Azərbaycan ərazisinə göndərilən Ermənistan hərbi qulluqçuları əsir götürülərkən əldə edilən sənədlər, onların üzərində tapılmış Ermənistan silahlı qüvvələri baş ştabının rəisi general-leytenant Q.Andresyanın imzaladığı «Sekretno ekr № 1 qrifi ilə Kəlbəcərin işğalı və işğal

edilən Azərbaycan torpaqlarının əldə saxlanılmasına dair hərbi xəritənin (miqyası 1:50000), Laçın və Kəlbəcərin alınmasında xidmətlərinə görə hərbi rütbə verilməsi barədə sənədlərin olması Ermənistanın Azərbaycana qarşı təcavüzünü sübut edən digər faktlardır. (108, s.124; s.120)

Altıncısı, Ermənistanda hökumət səviyyəsində əhali arasında Kəlbəcər, Qubadlı, Zəngilan rayonlarına köçürülmə siyasəti ilə bağlı fəal iş aparılması Ermənistanın Azərbaycan ərazilərinə təcavüzkarlığını sübut edən digər faktdır.

Yeddincisi, Ermənistanın işğal etdiyi ərazilərdə olan təbii ehtiyatları istismar etməsi onun təzavüzkarlığını sübut edən digər fakt olub, BMT-nin qətnamələri, qərarları ilə ziddiyyət təşkil edir. İri qızıl yataqları olan Kəlbəcərin Söyüdlü və Zəngilanın Vejnalı kəndləri erməni şirkətləri tərəfindən işğal edilir. Kanadada olan “Ferst Daynasti Maynz LTD”(2002-ci ildən “Sterlayt Qold LTD” adlanır.) erməni şirkəti 63 milyon dollar verməsi müqabilində Söyüdlü yataqlarını istismar etməsi barədə razılığa gəlmişlər. Ermənistan hökuməti özü bildirmişdir ki, Amerika və Kanada şirkətləri ilə 4,5 ton qızıl ehtiyatı olan Vejnalı qızıl yataqlarını istismar etmək barədə razılaşmışlar.(78, s.110)

Səkkizincisi, Ermənistanın işğal etdiyi ərazilərdə yer adlarını erməni adları ilə əvəz etməsi, abidələri süni surətdə erməniləşdirməsi bu dövlətin təcavüzkarlığını sübut edən digər faktdır. Ermənistan Kəlbəcər rayonunun adını Karvaçar, Laçının adını Kaşatax, Qubadlının adını Kaşunik, Zəngilanın adını Kavsakan adları ilə əvəz etmiş, Qədim Albaniyanın çox böyük əhəmiyyət daşıyan abidələrinin – alban dini abidələri monastırları olan Kəlbəcərdəki Xotabank (VI-VII əsr), Laçındakı V-XI əsr abidələrini, Ağdamın Kəngərli kəndində olan kilsəni erməni abidələri kimi qələmə verməyə çalışmış, bu abidələr üzərində olan qədim alban yazısı, divarlarda ornamentlər və xaçlar erməni simvolları ilə əvəz edilmişdir.(78,s.110)

BMT Baş Məclisinin 14 dekabr 1974-cü il 3314 saylı qətnaməsində təcavüzkarlıq belə təyin edilir: 1-ci maddədə göstərilir ki, dövlətin suverenliyinə, ərazi toxunulmazlığına,

siyasi müstəqilliyinə qarşı digər dövlətin silahlı qüvvələrinin tətbiqi, başqa söslə, BMT Nizamnaməsi ilə bir araya sığmayan hallar baş verərsə, bu, təcəvüzkarlıqdır.Təcəvüzkarlığın birinci əlaməti silahlı qüvvələrin tətbiq edilməsidir. Bununla bağlı qətnamənin 2-ci maddəsində göstərilir ki, Təhlükəsizlik Şurası Nizamnamə əsasında çıxış yolu tapa bilər. 3-cü maddədə təcəvüzkarlıq aktları sadalanır: bir dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə hücum etməsi, istənilən hərbi işğalın qısamüddətli olub-olmamasından asılı olmayaraq həyata keçirilməsi, dövlətin ərazisinin və ya onun hissəsinin silahlı qüvvə tətbiq etməklə anneksiya edilməsi b)Hətta əgər silahlı qüvvələrin hücumu ilə müşahidə olunmadan dövlətin ərazisinə digər dövlətin istənilən silahı tətbiq etməsi v)digər dövlətin liman və sahillərinin silahlı qüvvələrlə mühasirə edilməsi q)dövlətin silahlı qüvvələrinin digər dövlətin silahlı qüvvələrinə hücumu d)hər hansı bir ölkənin razılığı ilə silahlı qüvvələrini orada yerləşdirərək ondan istifadə etmək. Onların olması barədə uyğun sazişin dayandırılmasından sonra xarici dövlətin ərazisində belə silahlı qüvvələrin olmasını davam etdirmək e)üçüncü dövlətə qarşı təcəvüzkarlıq aktlarını hıyata keçirmək üçün hər hansı bir dövlətə öz ərazisindən istifadə etməyə icazə vermək j)silahlı qüvvələr tətbiq etmək məqsədilə digər dövlətin ərazisinə silahlı dəstələr, qruplar, nizami qüvvələr, yaxud muzdlular göndərmək

4-cü maddədə göstərilir ki, bunlar əsas təcavüzkarlıq aktları olsa da, tam deyil, başqa hallar da ola bilər. 5-ci maddədə göstərilir ki, istənilən siyasi, iqtisadi, hərbi yaxud digər xarakter təcavüzə haqq qazandıra bilməz.

II Dünya müharibəsindən sonra dünyada sülh və təzlükəsizliyi qoruyub saxlamaq məqsədilə yaradılmış BMT-nin təcavüzkar dövlət olan Ermənistana qarşı tədbirlər görməsi üçün kifayət qədər fakt var. Nizamnamənin 40-cı maddəsinə görə münaqişənin qarşısını almaq məqsədilə Təhlükəsizlik Şurası tədbirlər barədə qərar qəbul etməzdən əvvəl maraqlı

tərəflərdən zəruri müvəqqəti tədbirlər yerinə yetirməyi tələb edə bilər. Bundan sonra Təhlükəsizlik Şurası 41-ci maddəyə əsasən iqtisadi münasibətlərin, dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tam və ya qismən dayandırılmasını, diplomatik münasibətlərin kəsilməsini üzv dövlətlərdən tələb edə bilər. 41-ci maddədə nəzərdə tutulan tədbirlər kifayət etməzsə, Təhlükəsizlik Şurası hava, dəniz, su qüvvələrinin vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri tədbirlər görə bilər. 43-cü maddəyə müvafiq olaraq hər hansı bir dövlət təşkilata daxil olarkən sülh və təhlükəsizliyin qorunub saxlanması üçün üzərinə vəzifə götürür və Təhlükəsizlik Şurasının tələbi ilə, xüsusi sazişə müvafiq olaraq silahlı qüvvələr, yardım, ərazidən keçmək hüququ da daxil olmaqla, müvafiq xidmət vasitələri verməlidir. BMT Nizamnaməsinin 51-ci maddəsində dövlətlərin təcavüzdən fərdi, yaxud kollektiv özünümüdafiəsi göstərilir. Təhlükəsizlik Şurasının Nizamnamə əsasında təcavüz aktını müəyyən etmək və beynəlxalq sülhü dəstəkləmək yaxud bərpa etmək üçün tədbirlər görmək barədə hüququ var.

Nizamnamənin 52-ci maddəsinə görə, yerli mübahisələrin həll olunması Təhlükəsizlik Şurasına verilməzdən əvvəl regional orqanlar tərəfindən tədbirlər görülə bilər. Ermənistan – Azərbaycan münaqişəsinin də nizama salınması regional təşkilat olan ATƏT-ə həvalə edildi və 54-cü maddəyə görə ATƏT planlaşdırdığı tədbirlər barədə Təhlükəsizlik Şurasına tam məlumat verməlidir. Lakin ATƏT-in bu işdə ikili standart siyasəti yürütməsi, xüsusilə də 2008-ci il mart ayında Baş Məclisin Azərbaycanın ərazi bütövlüyünün tanınması barədə qətnaməsinə səsvermədə Minsk qrupu həmsədrlərinin əleyhinə səs verməsi Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması problemini bu regional təşkilatın səlahiyyətlərindən alıb, Baş Məclisin, yaxud da Təhlükəsizlik Şurasının müzakirəsinə verilməsini zəruri edir.

Beynəlxalq hüquq normaları və prinsipləri müqavilələrdə, sazişlərdə və beynəlxalq hüququn mənbəyi olan konvensiyalarda öz əksini tapmışdır. Beynəlxalq hüququn əsas mənbəəsi 18 oktyabr 1907-ci il Haaqa konvensiyaları, 12 avqust 1949-cu il Müharibə qurbanlarının müdafiəsi barədə dörd Cenevrə konvensiyası, 12 avqust 1949-cu il həmin konvensiyalara Beynəlxalq silahlı münaqişələrin qurbanlarının müdafiəsi barədə iki əlavə protokol və 8 iyun 1977-ci il iki protokol hesab edilir. Ermənistanın Azərbaycana silahlı təcavüzü, torpaqlarımızın işğalı kütləvi surətdə insan hüquqlarının kobudcasına pozulması ilə müşahidə edilmiş və edilməkdədir. Ermənilər azərbaycanlıları dəfələrlə soyqırımına məhkum etmişlər. Bəşəriyyətə böyük itkilər verən soyqırımın qarşısını almaq üçün beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alan BMT Baş Məclisi 1948-ci il 9 dekabr tarixdə Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında konvensiya qəbul etdi. Baş Məclisin 1973-cü il 3 dekabr tarixli qətnaməsində hərbi cinayətlər, bəşəriyyətə qarşı cinayətlərdə müqəssir olan şəxslərin aşkar edilməsi, cəzalandırılmasına dair beynəlxalq əməkdaşlığın prinsipləri göstərilmişdir. Qətnamənin 1-ci bəndində deyilir ki, hərbi cinayətlər və bəşəriyyətə qarşı cinayətlər nə vaxt və harada törədilməsindən asılı olmayaraq araşdırılmalı, belə cinayətləri törətmələri barədə dəlillər olan şəxslər axtarılmalı, müqəssir sayıldıqda cəzalandırılmalıdırlar. 5-ci bəndə görə belə cinayətlər törədən şəxslər həmin cinayətləri törətdikləri ölkədə cəzalandırılmalıdırlar. Buna müvafiq olaraq həmin şəxslərin təhvil verilməsində dövlətlər əməkdaşlıq edirlər.(22,s.116-117)

Beynəlxalq sənədlər silahlı münaqişələrdə vətəndaşların hüquqlarının qorunmasında vacib mexanizmdir və bu sənədlər insan hüquqlarının qorunması istiqamətində Təhlükəsizlik Şurasına kömək edə bilər. İnsan hüquqlarına hörmət prinsipi beynəlxalq hüququn müstəqil prinsipi kimi Helsinki Yekun Aktında da əksini tapmışdur. Bu prinsipə müvafiq olaraq

dövlətlər insan hüquqlarına hörmət etməli və buna beynəlxalq səviyyədə dəstək verməlidir. Lakin insan hüquqlarına hörmətlə birbaşa bağlı olan İnsan hüquqları barədə bəyannamə, bir çox konvensiyalar – Quru müharibəsinin qanun və adətləri haqqında 1907-ci il Haaqa Konvensiyası, Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları və ona I əlavə protokolu, 1954-cü il Silahlı münaqişə hallarında mədəni dəyərlərin müdafiəsi barədə konvensiya, 1999-cu il ona əlavə protokol, Ətraf mühiti dəyişikliyə uğradan vasitələrdən hərbi və ya istənilən digər düşmən məqsədlərlə istifadə olunmasının qadağan edilməsi haqqında 1976-cı il Konvensiyası, Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında 1980-ci il Konvensiyası BMT-nin üzvü olan Ermənistan tərəfindən dəfələrlə pozulmuşdur. Ermənistan Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarını pozaraq hərbi əsirlərlə bərabər, dinc əhaliyə işgəncələr vermiş, onları vəhşicəsinə döymüş, təhqir etmiş, alqı-satqı obyektinə çevirmiş, əksər halda əsirlərin sahibindən külli miqdarda pul aldıqdan sonra onları geri qaytarmamış, işgəncələrlə öldürmüş, yaxud əsir və girovların daxili orqanlarını satmış, onların üzərində eksperiment aparmışlar.(11) Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlərin hüquqi mühakiməsini həyata keçirmək məqsədilə xüsusi tribunalın yaradılması Təhlükəsizlik Şurasının Beynəlxalq Məhkəmə, ixtisaslaşmış qurumlar, o cümlədən İnsan hüquqları barədə Şura ilə əməkdaşlğı istiqamətində həyata keçirilə bilər. 2004-cü ildə BMT-nin seçkili strukturlarında Azərbaycan yüksək səviyyədə təmsil olunmuş, Azərbaycanın BMT yanındakı dami nümayəndəsi Baş Məclisin, İqtisadi və Sosial Şuranın vitse-prezidenti seçilmişdir. Azərbaycan nümayəndə heyətinin ciddi səyləri nəticəsində həmin orqanlarda münaqişələrin gedişində girov

götürülmüş qadın və uşaqların, itgin düşmüş şəxslərin vəziyyəti ilə bağlı məsələlər haqqında qətnamələr qəbul edildi.(4,s.80) 2005-ci ildə də Azərbaycan İqtisadi və Sosial Şuranın İnsan hüquqları üzrə komissiyasının 15 yeni üzvündən biri, 2006-cı ildə İnsan hüquqları üzrə Şura yaradılarkən səs çoxluğu ilə Şuranın üzvü, 2011-ci ildə isə Təhlükəsizlik Şurasının müvəqqəti üzvlərindən biri seçildi və erməni iddiaları, onun acı nəticələri barədə əsil həqiqətləri dünya birliyinə çatdırmaq imkanları yarandı. İnsan Hüquqları üzrə Komissiya vaxtilə Cənubi Afrikada aparteid rejimin devrilməsi, Çili, Qvatemala, Argentina və b. dövlətlərdə demokratik dəyişikliklər etməyə nail olmuşsa, hazırda İnsan hüquqları üzrə Şura Ermənistanın cinayətlərinə göz yummamalıdır. BMT insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin əsasını qoyan universal təşkilat kimi, Ermənistanı beynəlxalq konvensiyalara əməl etməyə məcbur etməlidir. Əgər Ermənistan BMT-nin qəbul etdiyi prinsiplərə əməl etmirsə, Nizamnamədə təsbit edilən prinsipləri sistematik qaydada pozursa, 6-cı maddəyə müvafiq olaraq, Təhlükəsizlik Şurası bu barədə Baş Məclisdə məsələ qaldırmalı və o, üzvlükdən xaric edilməlidir.

Münaqişənin nizama salınması üçün qaçqın və məcburi köçkünlərin problemlərinin həll edilməsi, onların öz yurdlarına qayıtmasının təmin edilməsi əsas məsələlərdən biridir.(12) Qaçqın və məcburi köçkün probleminin aradan qaldırılması, onların maddi vəziyyətinin yaxşılaşdırılması və hüquqi statusunun təkmilləşdirilməsi, habelə qaçqınların könüllü surətdə daimi yaşadıqları yerlərə qaytarılması məqsədilə Azərbaycan Respublikası digər dövlətlərlə, beynəlxalq təşkilatlarla, ilk növbədə BMT-nin Qaçqınların işi üzrə Ali Komissarlığı ilə əməkdaşlıq edir. BMT Baş Məclisi "Azərbaycanın qaçqın və məcburi köçkün düşmüş əhalisinə təcili beynəlxalq yardım" adlı 48/114 nömrəli qətnamə qəbul etməklə ölkəmizdəki ağır humanitar vəziyyəti bir qədər yüngülləşdirdi..

Ermənistan təbliğat apararaq, Azərbaycanda olan qaçqın və məcburi köçkünlərin sayının artırılmasını "neft müqaviləsindən böyük gəlir götürən" Azərbaycana humanitar yardımın azaldılmasını

bildirir. Erməni tədqiqatçı Arsen Məlik Şahnazarov kitabının "Nizamasalmasız nizamasalma" adlı XV fəslində Azərbaycanda olan qaçqın və məcburi köçkünlərin sayının saxtalaşdırılaraq artırılması, Azərbaycanın "DQR"-na qarşı təcavüz etməsi, beynəlxalq birlikdə dezinformasiya yaradılması və buna görə də problemin həll edilmədiyini göstərir.(158)

Qondarma "DQR"-nın "prezident əvəzi" Leonard Petrosyanın Baş katib K.Annana 1997-ci il 7 avqust tarixli məktubunda da Azərbaycanda 1 milyondan artıq qaçqın və məcburi köçkün olması barədə məlumatların saxta olduğu bildirilir. L.Petrosyan yazır ki, "Dağlıq Qarabağ müdafiə ordusu tərəfindən tutulan 7 rayonun əhalisi 483,9 min nəfər idi. Ağdam və Füzulinin bir hissəsinin tutulduğunu nəzərə alsaq, göstərilən rayonlardan məcburi köçkünlərin sayı təxminən 420 mindir. Onlardan 45 mini 1997-ci ildə öz yurdlarına qayıtmışlar. Beləliklə, göstərilən 7 rayondan 375 min nəfər qaçqın və məcburi köçkün düşmüşdür. Ermənistandan gələn 168 min və Dağlıq Qarabağdan gələn 40 min nəfəri də ona əlavə etsək, cəmi 583 min nəfər qaçqın və məcburi köçkün var."(145) Erməni nümayəndəsinin BMT Baş katibinə bu məktubu yazmaqda məqsədi Azərbaycana göstərilən humanitar yardımın azaldılmasını tələb etmək və "DQR"-nı dünya birliyinə tanıtmaq, beynəlxalq təşkilatlardan yardım almaq idi: "Azərbaycandan fərqli olaraq DQR öz qaçqın və məcburi köçkünlərinə beynəlxalq təşkilatın xətti ilə yardım almır... beynəlxalq təşkilat tərəfindən qaçqınlar milli əlamətlərinə görə faktiki olaraq diskriminasiyaya məruz qalır."(145) L.Petrosyan Baş katibə məktubunda Azərbaycandan 600 min erməninin çıxarıldığını yazırdı.(145) Halbuki münaqişə başlayanadək Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf rayonlarda təxminən 268 min erməni yaşayırdı və bu ermənilər Ermənistanın təcavüzkar siyasətinin qurbanı olaraq Azərbaycandan çıxmışlar. Ermənilərin təşviqatlarının nəticəsi olaraq ABŞ 2009-cu ilin dekabrında "DQR"-na humanitar yardım ayırdı

Amerika tədqiqatçısı Tomas de Vaal yazır ki, Azərbaycan dünyada məcburi köçkünlərin sayına görə birinci yerdə durur. Mütləq rəqəmlər Əfqaıstanda, Konqoda ola bilər, lakin Azərbaycanda hər on nəfərdən biri Qarabağ müharibəsinin

qurbanıdır.(41,s.293) 2000-ci ildə təxminən 80 min, yaxud 90 min insan qaçqın düşərgələrində yaşayırdı.(41,s.293)

BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması barədə qəbul etdiyi 4 qətnamənin hər birində qaçqın və məcburi köçkünlərə humanitar yardım edilməsi və öz yurdlarına təhlükəsiz qayıtmasına kömək göstərilməsi Baş katibdən və müvafiq beynəlxalq qurumlardan xahiş edilir. Bununla belə işğalçı Ermənistanın öz silahlı qüvvələrini torpaqlarımızdan çıxarmaması bu problemin həllinə imkan vermir. Eyni zamanda Azərbaycanın işğal edilən ərazilərində Ermənistanın «yandırılmış torpaq» taktikasını həyata keçirməsi bu torpaqların uzun müddət istifadəsini qeyri-mümkün edir. Çünki dağıdılmış, yandırılmış ərazinin tez bir zamanda bərpası mümkün deyil. Ermənistanın "yandırılmış torpaq" taktikasını həyata keçirməsi bu torpaqların səhralaşmasına, yararsız hala düşməsinə aparıb çıxarır. Qeyd etmək lazımdır ki, BMT səhralaşmaya qarşı mübarizə aparır, təşkilatın ixtisaslaşmış qurumu UNEP isə ətraf mühitin mühafizəsi ilə məşğul olur.

Hələ 1993-cü ildə xarici informasiya agentlikləri ermənilərin «yandırılmış torpaq» taktikasını həyata keçirməsi, Azərbaycan-İran sərhədboyu ərazinin yandırılması barədə məlumat verir, bu taktikanın münaqişəni gərginləşdirdiyini qeyd edirdilər. (106,s.251-252) Lakin beynəlxalq birliyin Ermənistanın cinayətlərinə qarşı ciddi tədbirlər görməməsi nəticəsində işğalçılar tərəfindən «yandırılmış torpaq» taktikası bu gün də həyata keçirilir. Ermənistanın Azərbaycan ərazisində həyata keçirdiyi bu taktika yalnız bizim ölkəmizə qarşı deyil, həm də bəşəriyyətə qarşı cinayətdir. Azərbaycanın xarici işlər naziri E.Məmmədyarov Baş Məclisin növbəti sessiyasında bildirdi ki, "Baş Məclisin 2006-cı ildə qəbul etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində meşə yanğınları ilə mübarizə" barədə qətnaməsi yandırılmış rayonlarda bərpa işləri aparılmasını əks etdirərək, ekoloji əməliyyatların həyata keçirilməsi üçün Ermənistan və Azərbaycan arasında əməkdaşlığa çağırsa da, qətnaməyə əməl olunmur."(123)

Məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtması problemlərindən biri də mina təhlükəsidir. İstər Ermənistan tərəfindən, istərsə də ölkəmizdən sovet ordusu çıxarılarkən ərazilərin

əksər hissəsi minalanmışdır. 80-ci illərdən başlayaraq BMT 70-dən çox ölkədə minaların zərərsizləşdirilməsi ilə məşğul olur.

İnsan hüquq və azadlıqlarını pozan qlobal problemlərdən biri olan terrorçuluğa qarşı mübarizədə hər bir dövlət BMT-nin qəbul etdiyi qətnamələri yerinə yetirməlidir. Lakin bu gün heç də bütün dövlətlər bu tələblərə cavab vermir. Belə ki, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəklənməsi və cəzasız qalmasının nəticəsi olaraq azərbaycanlılar, türklər tarixən erməni terrorizminə məruz qalmış, yüz minlərlə azərbaycanlı tarixi yurdlarından terror yolu ilə qovulmuşdur. Edqar O`Ballans yazır ki, "dünyada təxminən 6,5 milyon erməni yaşayır. Bunlardan 3,5 milyonu Ermənistanda, 400000-i ABŞ-da, 500000-i Orta Şərqdə, 160000-i Türkiyədə, 30000-i Kanadada, təxminən 30000-i Qərbi Avropada məskunlaşmışdır. Erməni diasporu tərəfindən maliyyələşən anti-türk əhvali-ruhiyəli bəzi siyasi təşkilatlar Qərb hökumətlətinin siyasətinə təsir göstərməyə çalışırlar."(113,s.48) Azərbaycanın torpaqları hesabına Ermənistan Respublikası yaradıldıqdan sonra isə Dağlıq Qarabağda antihökumət, antiazərbaycan ruhlu təbliğatla eyni adlı problem ortaya atılmış və terrorçu Ermənistan dövləti bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirmiş və keçirməkdədir. Qondarma "Dağlıq Qarabağ Respublikası"nda rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən 1 milyondan çox azərbaycanlının kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulması və minlərlə insanın qətlə yetirilməsinə şərait yaradan, erməni quldur dəstələrini zəruri vəsaitlərlə təmin edən R.Koçaryan, indi isə S.Sarkisyan hökuməti azərbaycanlılara qarşı kütləvi terror aksiyalarını Ermənistanda dövlət səviyyəsində davam etdirirlər. Cəbrayıl, Zəngilan, Füzulinin işğalını erməni quldurları R.Koçaryan, S.Sarkisyan, S.Ohanyan, S.Babayan, A.Qukosyan təşkil etmişlər.(14,s.128-129) Lakin minlərlə insanın qətlində iştirak edən R.Koçaryanın (1999-2007-ci illər), indi isə S.Sarkisyanın Ermənistan prezidenti olması Beynəlxalq Məhkəməni narahat etmir. Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edildikdən sonra orada narkotik maddələr istehsal edilir, ondan gələn gəlir terrorçu təşkilatları maliyyələşdirir. Ermənistan dövlət apparatı öz ətrafında terrorçuları birləşdirir.

Hər bir dövlət beynəlxalq terrorizmə qarşı mübarizədə BMT başda olmaqla, beynəlxalq təşkilatlarla əlaqə saxlamalı, qəbul edilən beynəlxalq konvensiyalara əməl etməlidir. Azərbaycan da demokratik dövlət, beynəlxalq sülh və təhlükəsizliyi müdafiə edən, BMT-nin, Helsinki Yekun Aktının prinsiplərinə əsaslanaraq xarici siyasət həyata keçirən sülhsevər dövlət kimi, BMT-nin 1996-cı il Beynəlxalq terrorizmlə mübarizə tədbirləri haqqında və bu barədə olan digər konvensiyalara qoşulmuşdur. Lakin Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olması onun bəzi öhdəlikləri həyata keçirməsinə imkan vermir. Belə öhdəliklərdən biri «Avropada adi silahlı qüvvələr barədə» müqavilədir. Belə ki, Avropada adi silahlı qüvvələr barədə müqaviləyə nəzarət etmək təhlükəsizlik strukturunun vacib elementlərindən biridir. Ermənistan Azərbaycan ərazisində təcavüzü həyata keçirərək birbaşa bu müqaviləni pozur. ATƏT və Şimali Atlantika Əməkdaşlıq Şurasının üzvü olan Azərbaycanın Dağlıq Qarabağ regionunda hökumət tərəfindən nəzarət altında olmayan ağır texnika ilə təchiz edilmiş hərbi qruplaşmalar saxlanılır. Ermənistan işğal etdiyi Laçın, Kəlbəcər, Zəngilan, Qubadlı rayonlarından istifadə edərək özünün də etiraf etdiyi kimi, Yuxarı Qarabağa «humanitar kömək» göstərir. 1993-cü ilin əvvəllərində Azərbaycan, Ermənistan-Azərbaycan münaqişəsini nizama salmaq üzrə xarici hərbi heyətin işğal edilən ərazilərdən çıxarılmasına kömək barədə ATƏT-in müşahidəçilər qrupuna mandat verilməsinə çətinliklə nail olunsa da, belə mandatı qəbul etməyən Ermənistan bu maddənin də üstündən keçməyə cəhd edərək «Dağlıq Qarabağ özünümüdafiə qüvvələri» terminini ortaya atdı. Ermənistan hökumət səviyyəsində terrorçuluğu həyata keçirən bir dövlətdir. Buna görə də bu təcavüzkar dövlət BMT Nizamnaməsinin VII fəslinə, BMT-nin beynəlxalq terrorizmlə mübarizə barədə qəbul etdiyi qərar və qətnamələrə müvafiq olaraq cəzalandırılmalı, beynəlxalq sülh və təhlükəsizliyi, qlobal sabitliyi, sosial-iqtisadi inkişafı pozan, beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi məhv edilməlidir.

BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi yuxarıda adları çəkilən qətnamələr yerinə yetirilməsə də, dövrümüzün reallıqlarına uyğun olaraq yeni qətnamələr qəbul edilməli, Ermənistan təcavüzkar dövlət kimi göstərilməli, qəbul edilən qətnamələrdə muzdluluq

pislənilməli, beynəlxalq sülh və təhlükəsizliyi pozan belə dövlətlərə qarşı sanksiyalar tətbiq edilməli, münaqişə tərəfləri rəhbərlərindən, yəni Ermənistan və Azərbaycan rəhbərlərindən möhkəm siyasi nizama salma tələb edilməlidir. Belə ki, Azərbaycan tərəf siyasi nizamasalmaya ciddi cəhd etsə də, Ermənistan belə danışıqlardan məharətlə yayınır, yaxud da qəbul edilməz şərtlər irəli sürür. Nizamnaməyə müvafiq olaraq Ermənistana qarşı sanksiyalar tətbiq edilməlidir. Nə qədər ki, Ermənistan münaqişə tərəfi kimi tanınmayıb, bu münaqişənin BMT çərçivəsində həll edilməsi mümkün deyil. BMT Təhlükəsizlik Şurasının qərarları sülhü dəstəkləmək üçün mütləqdir. Bu barədə Nizamnamənin 24-cü maddəsinin 1-ci bəndində deyilir: «Birləşmiş Millətlər Təşkilatının cəld və səmərəli hərəkətlərini təmin etmək üçün onun üzvləri beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyəti Təhlükəsizlik Şurasının üzərinə qoyurlar və razılaşırlar ki, bu məsuliyyətdən irəli gələn vəzifələrini yerinə yetirərkən Təhlükəsizlik Şurası onların adından çıxış etsin». 25-ci maddəyə görə «Birləşmiş Millətlər Təşkilatının üzvləri razılaşırlar ki, bu Nizamnaməyə uyğun olaraq Təhlükəsizlik Şurasının qərarlarına tabe olsunlar və onları yerinə yetirsinlər». 39-cu maddədə isə qeyd edilir: «Təhlükəsizlik Şurası hər bir halda sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasını müəyyən edir və tövsiyələr verir və yaxud beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün 41-ci və 42-ci maddələrə uyğun olaraq hansı tədbirlərin görülməsi haqqında qərar qəbul edir.»

BMT Nizamnaməyə müvafiq olaraq atəşkəs haqqında sazişin bağlanması və təcavüzün nəticələrinin aradan qaldırılması üçün effektiv tədbirlər görməli, Ermənistanın Azərbaycana hücumunu beynəlxalq sülh və təhlükəsizliyi hədələyən vəziyyət kimi müəyyən etməlidir. 40-cı maddədə nəzərdə tutulduğu kimi, situasiyanın pisləşməsinin qarşısını almaq üçün Təhlükəsizlik Şurası maraqlı tərəflərdən zəruri, arzu edilən müvəqqəti tədbirlər görməyi tələb edə bilər və belə müvəqqəti tədbirlər maraqlı tərəflərin hüquqlarına, iddialarına, yaxud mövqelərinə zərər vurmamalıdır. Təhlükəsizlik Şurası bu müvəqqəti tədbirlərin yerinə yetirilməməsini lazımi qaydada nəzərə alır.

41-ci maddəyə müvafiq olaraq Təhlükəsizlik Şurası öz qərarlarının həyata keçirilməsi məqsədilə silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan tədbirlərin tətbiq olunması barədə qərar qəbul edə bilər və BMT-nin üzvlərindən bu tədbirlərin tətbiq olunmasını tələb edə bilər. Həmin tədbirlər iqtisadi münasibətlərin, dəmiryolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini özündə əhatə edə bilər. Əgər 41-ci maddədə nəzərdə tutulan tədbirlər nəticə vermirsə, Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələrinin vasitəsilə beynəlxalq təhlükəsizliyin qorunub saxlanılması tədbirlərini həyata keçirə bilər.

BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasını ATƏT-in Minsk qrupuna həvalə etdikdən sonra Nizamnamənin 11-ci maddəsinin 2-ci bəndinə əsaslanaraq Ermənistanın təcavüzünün nəticələrinin ləğv edilməsi ilə bağlı BMT sülhməramlı qüvvələrini səfərbər etməli, Baş katib münaqişənin nizama salınmasını təhqiq etməli, bu barədə Təhlükəsizlik Şurasının nəzərinə çatdırmalıdır. Azərbaycan Respublikası prezidenti H.Əliyevin (1993-2003-cü illər), hazırda isə İ.Əliyevin hakimiyyətinin ilk günlərində BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan dövlətlərdə ardıcıl olaraq rəsmi səfərdə olması, Azərbaycanın ədalətli mübarizəsi barədə məlumat verməsi, Ermənistanın iddialarının heç bir hüquqi, siyasi, tarixi əsası olmadığını faktlarla sübut etməsi bu dövlətlərin rəsmi dairələrinin mövqeyini dəyişmişdir. Bu da Təhlükəsizlik Şurasının yeni qətnamələr qəbul etməsi vaxtının çatdığını göstərir.

Baş Məclisin 2008-ci il 14 mart tarixli 62-ci sessiyasında «Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə» adlı qətnamənin qəbul edilməsi dövlətimizin haqq mübarizəsinin dünya birliyi tərəfindən dəstəkləndiyini bir daha sübut etdi. Qətnamədə Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətraf rayonlarında olan silahlı münaqişənin beynəlxlaq sülh və təhlükəsizliyi hədələdiyi, Cənubi Qafqaz ölkələrində humanitar vəziyyətə mənfi təsir etdiyi göstərilmişdir. Baş Məclis bildirdi ki, hər bir dövlət Azərbaycanın ərazisinin işğal edilməsi nəticəsində vəziyyətin mürəkkəbləşdiyini etiraf etməli, belə vəziyyətin saxlanılmasına kömək etməməli, şərait yaratmamalıdır. Baş Məclis

üzv dövlətləri Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq tanınmış sərhədlərinə hörmət etməyə çağırdı. Qətnamədə Azərbaycanın işğal edilmiş ərazilərindən bütün erməni silahlı qüvvələrinin təcili, tam, danışıqsız çıxarılması, məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtması zəruriliyi qeyd edilir. (125) Lakin bu qətnamədə də Emənistandan öz silahlı qüvvələrini işğal etdiyi Azərbaycan ərazilərindən çıxarması tələb edilmədi. Bu qətnamə də digər 4 qətnamə kimi ümumi xarakterə malik idi.

«Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə» adlı qətnamənin qəbul edilməsinə səsvermədə iştirak edən 146 dövlətdən 7 dövlət əleyhinə səs verdi. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa, Rusiya qətnamənin əleyhinə səs verən dövlətlər arasında idi. ABŞ nümayəndəsi Aleksandro Vulff həmsədr dövlətlərin belə mövqeyini Minsk qrupunun 2007-ci ildə təklif etdiyi «balanslaşdırılmış paket»də göstərilən nizamasalmanın bütün gedişatını özündə əks etdirməməsi ilə əlaqələndirdi. (125)

Yenə həmin ilin sentyabrında Baş Məclisin 63-cü sessiyasında Azərbaycan, Gürcüstan, Moldova nümayəndələri çıxış edərək GUAM məkanında olan «dondurulmuş münaqişələrin» regional, beynəlxalq təhlükəsizliyi hədələdiyini və bu münaqişələrin BMT çərçivəsində nizama salınmasının vacibliyini vurğuladılar. Ermənistan nümayəndəsi isə «dondurulmuş münaqişələrin» müzakirəyə qoyulması əleyhinə çıxaraq, Cənubi Qafqazda silahlı münaqişələrin qarşısının alınması üçün «xalqların öz müqəddəratını təyin etmək» hüququnun həyata keçirilməsi zəruriliyini bildirdi.

Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü, işğal etdiyi əraziləri anneksiya etməsi Baş Məclisin xüsusi sessiyasında ətraflı müzakirə edilməlidir. Yeni qəbul edilən qətnamələrdə ərazilərin hərbi yolla tutulması «yolverilməz» hesab edilməli, Təhlükəsizlik Şurasının üzvləri, BMT-nin üzvləri Ermənistandan təcavüz faktlarını kəsməyi tələb etməli, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən qəsb edilməsinin qeyri-qanuni olduğu qeyd edilməlidir.

BMT-nin qəbul etdiyi qətnamələrdə Ermənistanın insan hüquqları və azadlıqlarını pozması qeyd edilməli, bu barədə xüsusi qətnamə qəbul edilməlidir.

Ermənistanın işğal etdiyi ərazilərdə olan təbii ehtiyatları istismar etməsi, yerli toponimlərin adını dəyişdirərək erməniləşdirməsi BMT-nin regional münaqişələrin qarşısını almaq barədə son zamanlar qəbul etdiyi qətnamələr və qərarlar ilə ziddiyyət təşkil edir. Ermənistanın təcavüzkar siyasətinə son qoymaq üçün onun beynəlxalq hüquq prinsiplərini pozması barədə qətnamələr qəbul edilməsi vacibdir.

BMT-nin İnsan hüquqları üzrə Şurası Ermənistanın təcavüzü zamanı öz yurdlarından qovulan azərbaycanlıların hüquqlarını təsdiq etməli, onların Vətənə qayıtmasına şərait yaratmalıdır. 1968-ci il 27 fevral tarixdə BMT-nin İnsan hüquqları barədə komissiyasının ərəblərin hüquqları haqda belə bir qərar qəbul etməsini, komissiyanın səlahiyyətlərinin çərçivədən kənar çıxmadığını bəhanə edən İsrail qəbul etməmişdi. (40, s.34) İndi isə Şura yaradılmış və belə bir qətnamənin yerinə yetirilməsinə bəhanə olmaz. Azərbaycan da həmin Şuranın üzvüdür və belə bir qətnamənin qəbul etdirilməsinə cəhd etməlidir.

BMT yalnız qaçqın və məcburi köçkünlərə humanitar yardımla kifayətlənməməli, onların yaşayış yerlərini kütləvi surətdə tərk etmələrinin səbəblərini təhqiq etməli, fövqəladə yardım göstərməklə, səbəbləri aradan qaldırmaqla onların repatriasiyasının bütün aspektlərini nəzərə almalıdır. İnsan hüquqlarının pozulması ilə qaçqın və məcburi köçkün axınının yaranması arasında sıx bağlılıq var. Buna görə də qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə İnsan hüquqları üzrə Şura maraqlanmalı, qəbul etdiyi qətnamələrdə onların qeyd-şərtsiz öz vətənlərinə qayıtması tələb edilməlidr.

BMT-nin qəbul etdiyi qətnamələrdə qaçqın və məcburi köçkün kütləsinin yaranmasından narahatlıq yarandığı, yalnız 874 saylı qətnamədə qaçqın və məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz şəraitdə qayıtması nəzərdə tutulsa da, onlara dəyən zərərin ödənilməsi, onların qayıtmasını təchiz etmək nəzərdə tutulmur. Başqasının ərazisinin işğal edilməsi, əhalinin qovulması problemi beynəlxalq məna kəsb edir və o, beynəlxalq hüquq norması əsasında həllini tapmalıdır.

Təhlükəsizlik Şurası 1994-cü il 19 oktyabr tarixli 1269 saylı qətnaməsində sülh və təhlükəsizliyin dəstəklənməsində əsas məsuliyyətin onun üzərinə düşdüyünü bir daha təsdiq etdi,

beynəlxalq terror aktları pislənildi, bu məqsədlə bütün dövlətlər, BMT və digər beynəlxalq, regonal təşkilatlar beynəlxalq terrorizmlə mübarizə etməyə, onu maliyyələşdirmənin qarşısını almağa çağırıldı.(137) Təhlükəsizlik Şurasının bu qətnaməsinə istinad edərək BMT-nin qətnamələrində beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi pislənilməli, demokratik ölkələrə tədbirlər görmək üçün müraciətlər edilməlidir. Beynəlxalq hüquq normaları və adətlərinə tabe olmadığı halda təcavüzkar Ermənistan dövləti Nizamnamənin 6-cı maddəsinə müvafiq olaraq Təşkilatdan kənarlaşdırılmalıdır: «Bu Nizamnamədə təsbit olunmuş prinsipləri sistematik qaydada pozan Birləşmiş Millətlər Təşkilatının üzvü Təhlükəsizlik Şurasının tövsiyəsi ilə Baş Məclis tərəfindən Təşkilatdan çıxarıla bilər».

Cinayətlərdə məsuliyyət daşıyan şəxslər isə Beynəlxalq Hərbi Tribunala verilməli, cəzalandırılmalıdır, əks halda beynəlxalq hüquq normaları öz nüfuzunu, əhəmiyyətini itirir. Beynəlxalq hüququn ümumi prinsiplərinin hüquqi əsasında nə dayanır? Beynəlxalq hüquqşünas F.İ.Kojevnikovun fikrincə, «Beynəlxalq hüquq normaları beynəlxalq əlaqələrin, sülhün və təhlükəsizliyin təmin olunması vasitəsi olub, bəşəriyyətin, bütün sülhsevər xalqların tələblərini özündə əks etdirir.» (39, s.110) Təhlükəsizlik Şurasının 2001-ci il 30 avqust tarixli 1366 saylı «Silahlı münaşqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu» adlı qətnaməsində də keçmiş Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların rolu etiraf edilmiş, belə tribunalların gələcəkdə silahlı münaqişələrin qarşısını almaqda rolu göstərilmişdir.(141) Bu nöqteyi-nəzərdən gələcəkdə Ermənistanın növbəti cinayətlərinin qarşısını almaq üçün xüsusi tribunalın yaradılması vacibdir. Oxşar faciələrə yol verilməməsi üçün Xocalı soyqırımıda və digər faciələrdə günahkar olanlar məsuliyyətə cəlb edilməlidir.(9; 10)

Ermənistanın Azərbaycana qarşı təcavüzü, yalnız bizim ölkə üçün deyil, digər ölkələr üçün də dəyərli olan mədəni abidələrin qarət edilməsinə, məhv edilməsinə səbəb oldu. H.Əliyev Fondunun topladığı materiallar, faktlar bunu təfsilatı ilə sübut edir. İngilis, fransız dillərində yayımlanan bu materiallar dünya birliyində Ermənistanın Azərbaycanın mədəniyyətinə, elminə, təhsilinə və s. vurduğu zərər barədə tam rəy formalaşdırır. (116-118, 120-122)

Bununla yanaşı, BMT-nin Elm, təhsil, mədəniyyət məsələləri üzrə (UNESCO) ixtisaslaşmış qurumu bu məsələlərlə bağlı təhqiqat aparmalıdır.
İqtisadiyyata dəyən zərərə gəldikdə isə BMT qəbul etdiyi qətnamələrdə Ermənistanın Azərbaycana təcavüzü, ərazilərinin işğalı nəticəsində ona dəyən zərərin əvəzinin ödənilməsi barədə qeyd etməlidir.

Regional münaqişələrin nizama salınması üçün BMT-də aparılan islahatlar barədə təklifləri, qəbul edilən qətnamələri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, münaqişə tərəfləri BMT-nin vasitəçilik missiyasını dəstəkləməli, indiyə qədər heç bir səmərə verməyən ATƏT-in vasitəçilik missiyasından imtina edilməlidir. Beynəlxalq birlik problemi düzgün qiymətləndirmək üçün münaqişənin tarixi kökləri, əsil səbəbləri barədə xəbərdar olmalıdır. Nizamnamənin VIII fəslinə müvafiq olaraq regional, yaxud subregional təşkilatlarla əməkdaşlığın əhəmiyyətini nəzərə alaraq, GUAM təşkilatı üzvlərinin oxşar problemlər yaşamasına əsaslanaraq, regionda münaqişənin nizama salınmasında bu təşkilatın BMT ilə əməkdaşlığının müsbət nəticə verə biləcəyi barədə fikir söyləmək olar. Baş Məclis Ermənistanı təcavüzkar siyasətdən əl çəkməyə çağırmalı, Təhlükəsizlik Şurası münaqişə barədə qəbul etdiyi qətnaməni qısa müddətdə həyata keçirməli, təcavüzkar dövlətin işğal etdiyi ərazilərdən çıxarılması tələb edilməlidir, əgər tələb yerinə yetirilməzsə, Təhlükəsizlik Şurası iqtisadi sanksiyalar qəbul etməli, nəticə verməzsə, siyasi sanksiyalar tətbiq etməlidir. Baş katib Təhlükəsizlik Şurası ilə məsləhətləşərək sanksiyalara nəzarət etməli, Təhlükəsizlik Şurasını bu barədə məlumatlandırmalıdır. Ermənistanın işğal etdiyi ərazilərə erməni əhalini köçürməsi, təbii ehtiyatları istismarı, toponimləri dəyişdirmə siyasətinə son qoyulmalıdır. Münaqişəni maliyyələşdirən, muzdlular verən dövlətlər cəzalandırılmalıdır. BMT-nin beynəlxalq terrorizmlə mübarizə barədə qəbul etdiyi qətnamələrə müvafiq olaraq, beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizmi məhv edilməlidir. BMT Təhlükəsizlik Şurasının son zamanlar qəbul etdiyi qətnamələrə istinad edərək, azərbaycanlıların soyqırımı barədə xüsusi tribunal yaradılmalı, cinayətkarlar cəzalandırılmalıdır. Qaçqın və məcburi köçkünlər təhlükəsiz şəraitdə öz yurdlarına

qaytarılmalıdır. Hərbi əsir və girovlar azad edilməlidir. Sülh və təhlükəsizlik iqtisadi inkişafla vəhdət təşkil etdiyi üçün sosial-iqtisadi proqramlar həyata keçirən, kreditlər verən ixtisaslaşmış qurumların fəaliyyəti gücləndirilməlidir. Ərazilərin minalardan təmizlənməsi, qaçqın və məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtması üçün ixtisaslaşmış qurumlar qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı gücləndirməlidir. Ermənistan Azərbaycanın iqtisadiyyatına, mədəniyyətinə, təbii sərvətlərinə və s. vurduğu zərərin əvəzində təzminat verməlidir.

## 2.3. Kosova probleminin nizama salınmasında BMT-nin NATO ilə əməkdaşlığının nəticələri

Serbiya ərazisində mövcud olan və 1945-ci ildə muxtatiyyat statusu alan Kosovada(1974-cü ilə qədər Kosova və Metoxiya adlanırdı) XX əsrdə etnik tərkib dəyişildi və albanlar əhalinin təxminən 80 faizini təşkil etdi. 1974-cü ildə Kosovaya muxtariyyat statusu verildi. Albaniyadan bu əraziyə miqrasiya edən albanların əksəriyyəti separtizmlə məşğul olaraq Kosovada yaşayan serbləri, çernoqoriyalıları diskriminasiyaya məruz qoydular və onlar yavaş-yavaş Kosovanı tərk etməyə başladılar. Kosova böhranının ən kəskin dövründə 230000-dən çox qaçqın Makedoniyaya, 430000-dən çoxu Albaniyaya, 64000-i Çernoqoriyaya, təqribən 21500-ü Bosniya və Hersoqovinaya, 61000-dən çoxu isə digər ölkələrə getdi. Kosovanın özündə isə 580000 insan evsiz-eşiksiz qaldı.(27, s.150) Demoqrafik göstəricilər albanların xeyrinə dəyişdi. Əhalinin 80 %-ini təşkil edən albanlar (Kosovada 2 milyona yaxın alban yaşayır) 1990-cı ilin iyununda Kosova Respublikasının yaradılması barədə Bəyannamə qəbul etdilər. 1992-ci ildə Serbiya və Çernoqoriyanın birləşməsi nəticəsində yaranmış Yuqoslaviya İttifaqı Respublikası Kosovaya qarşı mübarizəni BMT Təhlükəsizlik Şurasının sanksiyaları şəraitində apardı. Şimali Albaniyada Tiran hökumətinin nəzarəti altında «Kosova Azadlıq Ordusu» yaradıldı. Alban-serb qarşıdurması başladı.

1995-ci il dekabrın 14-də Parisdə imzalanmış Deyton sülh sazişindən sonra BMT Təhlükəsizlik Şurasının 1031 saylı qətnaməsi əsasında sazişin hərbi tərəflərini həyata keçirmək üçün NATO-ya

səlahiyyət verildi.(27, s.257) NATO-nun rəhbərliyi altında 60000 nəfərlik İmplementasiya qüvvələri yaradıldı.(27,s.142) 1996-cı il yanvarın 19-da Deyton sülh sazişinə əsasən tərəflər öz hərbi qüvvələrini atəşkəs xəttinin hər iki tərəfindən, fevralın 3-də isə müqavilə yurisdiksiyasına aid edilən bütün ərazilərdən çıxardılar.1998-ci ilin fevralında Serb hərbi və polis qüvvələri ilə Kosova albanları arasında toqquşmalar başladı. BMT Təhlükəsizlik Şurası sentyabrın 23-də Kosovada hərbi əməliyyatların keçirilməsi barədə 1199 saylı qətnamə qəbul etdi. Qətnamədə qısa müddət ərzində zorakılığa son qoymaq və özünün hərbi, polis və yarımhərbi qüvvələrinin geri çağırılmasını və NATO-nun əhəmiyyətli ölçüdə münaqişənin nizama salınmasında iştirakı alqışlandı. Kosovada təcili güc və repressiya kəsilməli, Kosovadan bütün hərbi qüvvələr mərhələli çıxarılmalı, BMT-nin himayəsi altında beynəlxalq birlik təhlükəsizliyə, atəşkəsin kəsilməsinə, Kosova Azadlıq Ordusunun və digər alban silahlı qüvvələrinin tərksilah edilməsinə, qaçqın və köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtmasına beynəlxalq birlik nəzarət etməli idi. (27,s.148) BMT Nizamnaməsinin 53-cü maddəsində göstərilir ki, Təhlükəsizlik Şurası regional saziş və təşkilatlardan öz rəhbərliyi altında məcburiyyət tədbirləri üçün istifadə etsə də, Təhlükəsizlik Şurasının  mandatı olmadan həmin regional sazişlər və ya regional təşkilatlar tərəfindən heç bir məcburiyyət tədbiri görülə bilməz. 54-cü maddəyə görə isə Təhlükəsizlik Şurasına hər bir zaman sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün sazişlər və ya regional təşkilatlar tərəfindən görülən və ya planlaşdırılan tədbirlər barəsində tam məlumat verilməlidir. NATO Nizamnamədən irəli gələn vəzifələrə məhəl qoymayaraq oktyabrın 13-də S.Miloşeviç rejimini öz qüvvələrini Kosovadan geri çəkməyə məcbur etmək üçün Serbiyanın bombalanmasını qərara aldı. Prezident S.Miloşeviç tabe oldu. 1998-ci il Paris, yaxud Rambuye sazişi Kosova albanlarına geniş muxtariyyat verdi. Həmin sazişin NATO qoşunlarının nəzarəti altında keçirilməsi nəzərdə tutulurdu. NATO Belqraddan qüvvə tətbiq etməyi dayandırmağı tələb etdi. Rambuye sazişi Yuqoslaviya İttifaqı və Serbiyanın sərhədlərinin pozulması çərçivəsində Kosovanın yüksək daxili muxtariyyatını şərtləndirdi.

Serbiya uzun müddət BMT və NATO qoşunlarının münaqişə zonasına daxil olmasına qarşı çıxdı. Təşkilatın nizamnaməsinin 5-ci maddəsində göstərilir ki, "Tərəflər razılaşır ki, Avropa və yaxud Şimali Amerikada onlardan birinə və ya bir neçəsinə qarşı silahlı hücum onların hamısına qarşı hücum kimi qəbul edilməlidir. Əgər bu cür hücum baş verərsə, onlardan hər biri Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş fərdi və ya kollektiv özünümüdafiə hüququnu həyata keçirərkən fərdi və ya digər tərəflərlə birlikdə Şimali Atlantika bölgəsində təhlükəsizliyi bərpa etmək və qoruyub saxlamaq üçün hərbi gücdən istifadə də daxil olmaqla, lazım olan tədbirləri həyata keçirməklə hücuma məruz qalmış tərəf və ya tərəflərə dəstək verəcəklər. Hər hansı belə bir silahlı hücum və bunun nəticəsi olaraq görülən bütün tədbirlər dərhal Təhlükəsizlik Şurasına məruzə edilməlidir. Belə tədbirlər, Təhlükəsizlik Şurası beynəlxalq sülhün və təhlükəsizliyin bərpası və qorunması üçün lazım olan tədbirlər gördükdə dayandırılmalıdır."(27,s.386)

Çin və Rusiya NATO-nun bu hərəkətini müzakirə etməyi təklif etsələr də, digər üzvlər bunu dəstəkləmədilər. Qeyd etmək lazımdır ki, Rusiya münaqişənin əvvəlindən Kosovaya müstəqillik verilməsinin qəti əleyhinə idi. Prezident V.Putin hətta bildirmişdir ki, əgər Kosovaya müstəqillik verilsə, bu hal postsovet məkanında dondurulmuş münaqişələrə presedent ola bilər. Rusiyanın etirazlarına baxmayaraq NATO qoşunları Yuqoslaviyaya daxil olaraq Kosovada yerləşdi. NATO-nun əməliyyatlarına razı olmayan Rusiya da 200-ə yaxın əsgəri Kosovanın paytaxtı Priştinaya gətirdi.(80) Serbiyanı Avropada öz məqsədlərinin son dayağı hesab edən Rusiya NATO-nun bu hərəkəti ilə razılaşmmayaraq Serbiyanın ərazi bütövlüyünün qorunması və Kosovanın Serbiyanın tərkibində muxtariyyatının mümkünlüyü barədə bəyanat vermişdir:"Dövlət daxilində dövlətin olması mümkün deyil. Buna nail olmaqla sülh və təhlükəsizliyi dünyada saxlamaq olar". Rusiya 1991-ci ildən Şimali Atlantika Əməkdaşlıq Şurasının(1997-ci ildən Avro-Atlantik Tərəfdaşlıq Şurası adlanır)üzvü olsa da və1994-cü ildən NATO ilə ikitərəfli əməkdaşlıq sahəsində əsas proqram olan Sülh naminə tərəfdaşlıq proqramına qoşulsa da, yalnız 1999-cu ildən etibarən NATO-Rusiya əlaqələri yaxşılaşmağa başladı. Həmin ilin oktyabr ayında Lord

Robertson NATO-nun baş katibi təyin edildiyi zaman bu əlaqələrin möhkəmlənməsinə çalışdı.(27,s.211) Rusiyanın NATO yanındakı nümayəndəsi Dmitriy Roqozin Rusiya və NATO arasında əməkdaşlığın inkişaf etməsi barədə konkret təklif olmadığını və bu təşkilatın ABŞ-ın mənafeyinə işlədiyini bildirmişdi:"Əgər NATO islahat aparmazsa, qlobal sistem kimi ABŞ-ın hegemonluğunu davam etdirərsə, belə vaşinqtonsentrizm sistemdə Rusiya heç cürə çıxış edə bilməz Vaşinqton müqaviləsinin 5-ci maddəsində kollektiv təhlükəsizlikdən bəhs edir. NATO Qərbin maraqlarını coğrafi baxımdan onun sərhədlərindən kənarda müdafiə edən dünya polisinə çevrilir." (156) NATO-nun Yuqoslaviyada hərbi əməliyyatlar aparması dünya birliyində ixtilafa səbəb oldu. Belə ki, bu hərbi-siyasi təşkilat 1949-cu il Vaşinqton müqaviləsinə müvafiq olaraq, hərbi əməliyyatları ancaq ona üzv olan ölkələrin ərazisində keçirə bilər. 1999-cu ildə NATO-nun Yuqoslaviyaya qarşı müharibəsindən sonra Kosova faktiki olaraq Serbiyanın himayəsindən çıxdı. Bu ərazinin statusu BMT Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsi ilə müəyyən edildi. Lakin münaqişənin qarşısını aldıqdan sonra islahatların düzgün aparılmaması yeni münaqişəyə zəmin yaradır. Başqa sözlə, postkonflikt sindrom sonrakı münaqişələrin mənbəyi ola bilər.(63,s.131) Belə vəziyyət Yuqoslaviya ərazisində də yarandı. 1999-cu ildə NATO bu ərazidə əməliyyatlar apararaq albanların serblər tərəfindən etnik təmizlənməsinin qarşısını almalı idi. Bunun əksinə olaraq NATO Kosovanı serblərdən təmizlədi. Nəticədə 350 mindən çox serb və digər etnik qruplar ərazini tərk etdi. Bununla əlaqədar olaraq BMT baş katibi Təhlükəsizlik Şurasına öz məruzəsində etiraf etməli oldu ki, serblərin və albanlardan başqa digər etnik qrupların vətəndaşlıq hüquqları kobud surətdə pozulmuşdur, Vilayətdə terrorçuluq inkişaf etmişdir.(63,s.132) BMT Kosova probleminin həll edilməsində Serbiyanın deyil, Kosovada yaşayan serblər icmasının iştirakını nəzərdə tuturdu. Kosovanın iki milyonluq əhalisinin əsasını isə albanlar, 5-10%-ni serblər və digər millətlər təşkil etdiyi üçün BMT-nin bu qərarı və NATO-nun postkonflikt əməliyyatı albanların öz ikinci müstəqil dövlətlərini asanlıqla yaratmasına şərait yaratdı.

Öz müqəddəratını təyin etmə statusu uğrunda təkidlə mübarizə edən albanlar hüquqi cəhətdən tanınmanı tələb etdilər.

Dünya birliyi üzvləri arasında bu barədə yekdil fikir yoxdur. Belə ki, Rusiya rəsmən Kosovanın müstəqilliyinə qarşı çıxırsa, Qərbi Avropa və ABŞ onun müstəqilliyi lehinədir. Rusiya Serbiyada öz nüfuzunu saxlamağa cəhd edirsə, Avropa İttifaqı və ABŞ da geostrateji maraqları nöqteyi-nəzərindən çıxış edərək Kosova münaqişəsinin nəticəsindən bəhrələnərək bu regionda öz təsirini saxlamağa çalışır.

Serbiyanın rəsmi mövqeyi budur ki, Kosovo Serbiyanın tərkib hissəsidir. Kosovanın müstəqilliyinin tanınması Serbiyanın ərazi bütövlüyünü pozur. Hazırda Kosovanın iki milyonluq əhalisinin əsasını albanlar, 5-10%-ni serblər və digər millətlər təşkil edir. Serbiya hökumətinin baş nazirinin müavini, xarici işlər naziri İviça Daçiç Kosovoda çıxan qəzetlərin birində müsahibəsində bildirmişdir ki, "problemin yeganə həlli yolu serbləri Serbiyada yerləşdirmək, albanların yaşadığı hissəni isə ayırmaqdır".(128)

Albaniya tərəf hesab edir ki, 90-cı illər hadisələrindən sonra Kosovanı Serbiyanın tərkibində qalmağa məcbur etmək olmaz, Kosovaya BMT Təhlükəsizlik Şurasının dəstəyi ilə status verilməlidir. Albaniya ekspertləri güman edirlər ki, Balkan dövlətləri - Albaniya, Serbiya, Bosniya Herseqovina Avropa İttifaqına və NATO-ya inteqrasiya edərsə, etno-ərazi məsələləri ümumi Avropa çərçivəsində əhəmiyyətini itirəcək.

BMT Təhlükəsizlik Şurasının Kosovo barədə 1244 saylı qətnaməsinə əsasən 1999-cu ildən problem nizama salınmalıdır. Yuxarıda dediyimiz kimi qətnaməyə əsasən BMT regionda sülh quruculuğu üzrə missiya həyata keçirməli idi.

Yuqoslaviyanın NATO ərazisinə daxil olmamasına baxmayaraq, İstanbul sammitində NATO hökumət və dövlət başçıları 2004-cü ilin martında BMT Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsinə uyğun olaraq Kosova ilə bağlı öz öhdəliklərini bir daha vurğuladılar.(27,s.149) 2008-ci il 17 fevral tarixdə ABŞ və Avropa İttifaqı ölkələrinin fəal dəstəyi ilə Kosova albanları öz müstəqilliklərini birtərəfli qaydada elan etdikdən sonra BMT-nin missiyası dayandırıldı. Regionda qayda-qanunu bərpa etmək səlahiyyəti Avropa İttifaqına həvalə edildi. Hazırda BMT-nin üzvü olan 193 dövlətdən 70-i Kosovanın müstəqilliyini tanıyır. Azərbaycan beynəlxalq hüquq normalarına müvafiq olaraq

Serbiyanın ərazi bütövlüyünün bərpa olunmasını dəstəkləyən dövlətlərdən biridir.

H.Kissincer yazır ki, "Bosniya və Kosovada olan etnik münaqişələr həmişə üçüncü tərəfin – bir vaxtlar Osmanlı imperiyasının, Avstriya imperiyasının, prezident Titonun iştirakı ilə kəsilmişdir. İndi bu vəzifəni NATO üzərinə götürmüşdür. Balkanlarda əvvəllər Avstriya-Macarıstanın, Osmanlı imperiyasının yerinə yetirdiyi funksiyanı ABŞ yerinə yetirir." (61, s.294)

## 2.4. Afrikada olan problemlərin nizama salınmasında BMT-nin Afrika Birliyi ilə əməkdaşlığının nəticələri

BMT Nizamnaməsinə müvafiq olaraq Afrika Birliyi regional təşkilatı ilə əməkdaşlıq digər regional təşkilatlarla əməkdaşlıqdan fərqli olaraq səmərəli nəticə verir. Afrika dövlətlərinin müstəmləkə sistemindən azad olmaq, aparteizmlə mübarizə etmək məqsədilə 1963-cü ildə yaratdıqları Afrika Birliyi Təşkilatı Afrika qitəsinin yeni inkişaf mərhələsinə addımı idi. 2002-ci il iyulun 9-da bu təşkilatın rəsmi adı Afrika Birliyi oldu.(Əsərdə Afrika Birliyi adlanacaq.) Afrika Birliyinin məqsədi ölkələr arasında əməkdaşlıq yaratmaq, demokratiyanın möhkəmləndirilməsi yolu ilə ölkələrə investisiya cəlb etmək, insan hüquqlarını müdafiə etmək, idarəetmənin keyfiyyətini yaxşılaşdırmaqdır. Dünya ölkələrinin dörddə birini təşkil edən Afrikada qlobal problemlər – ekologiya, yoxsulluq, xəstəlik və s. daha çoxdur. Afrika savadsızlığa, uşaq ölümünün ən yüksək və ömür müddətinin ən aşağı göstəricilərinə görə dünyada birinci yeri tutur. Təkcə SPİD xəstəliyindən bu qitədə 30 milyondan çox insan məhv olmuşdur. Əhalinin 70 faizə qədəri kasıb vəziyyətdə yaşayır, maliyyə ehtiyatı azdır, iqtisadiyyata böyük məbləğdə xarici kapital qoyulur.

Afrika dövlətləri özünün çoxsaylı olmasına, iqtisadi potensialına görə beynəlxalq siyasi və iqtisadi proseslərdə böyük əhəmiyyət kəsb edir. Bu dövlətlər BMT çərçivəsində qlobal məsələlərə dair qərarların qəbul edilməsində mühüm rol oynayır, öz müqəddəratlarını özləri beynəlxalq hüquq normalarına əsaslanaraq həll edirlər. Afrika dövlətlərinin, demək olar ki, hamısı BMT-nin

üzvüdür. BMT Təhlükəsizlik Şurasının 1993-cü il 12 mart tarixli 812 saylı qətnaməsi Afrika Birliyinə dəstəyin gücləndirilməsini tövsiyə etdi. BMT sülh məramlıları missiyası Afrika Birliyinin «neytral hərbi nəzarətçilər qrupu», təşkilatın sədri Səlim Əhməd Səlimlə görüşdü. BMT-nin Ruandada, Liberiyada missiyaları təşkil edildi. 1992-ci il mayın 28-də artıq «Afrika təhlükəsizliyi məsələləri barədə BMT-nin daimi məsləhət komitəsi» yaradılmışdı.(119,s.163.)

Son zamanlar, BMT Təhlükəsizlik Şurasında islahatlar aparmaq üçün baş katib K.Annanın təşkil etdiyi qrup Afrikadan, Təhlükəsizlik Şurasının daimi üzvlüyünə iki, müvəqqəti üzvlüyünə dörd dövlətin qəbul edilməsini təklif etmişdir. Təhlükəsizlik Şurasında islahatlar barədə qrupun təklif etdiyi hər iki alternativ modeldə Afrika dövlətlərinə yer verilmişdir. Bu dövlətlərdən daha çox maliyyə, hərbi qüvvə, diplomatik xərc qoyan dövlət Təhlükəsizlik Şurasına qəbul edilməlidir. Afrika Birliyinin 53 üzvündən yalnız 9 üzvü müntəzəm olaraq Afrika Birliyinə maliyyə borclarını verir. Afrika Birliyinin 5 üzvü – Əlcəzair, Misir, Liviya, Nigeriya və Cənubi Afrika Respublikası təşkilata daha çox maliyyə qoyur. Onlar, öz növbəsində, Afrika Birliyi komissiyasında əsas yerləri tutmağa cəhd edirlər. Belə nəticəyə gəlmək olar ki, yuxarıda adı çəkilən 5 dövlətdən ikisi, yaxud müvəqqəti yerə dördü, Təhlükəsizlik Şurasının üzvü seçilə bilər. Afrika Birliyi yaranandan qitədə bir neçə münaqişə – Kot d'İvuar, Liberiyada vətəndaş müharibəsi, Burundidə yeni münaqişələr, qırğınlar olmuşdur. Demokratiya adı altında Zairdə vətəndaş müharibəsi başladı. Ruandada, Syera-Leonda və Sudanda genosid baş verdi. Anqolada və Sudanda da təxminən vətəndaş müharibəsi 38 il davam etdi. (61,s.227) BMT Təhlükəsizlik Şurasının passivliyi üzündən Ruanda genosidi baş verdi. 1993-cü ilin oktyabrında ölkədə vətəndaş müharibəsini kəsmək məqsədilə Ruandaya missiya göndərilməsinə baxmayaraq, bu missiya faciənin gedişinə zəif mane oldu. BMT-nin Kanada generalı Daller BMT rəhbərliyinə müxtəlif rayonlarda gizli silah anbarlarının zərərsizləşdirilməsini təklif etsə də, BMT bu məsələyə fikir vermədi. Ruanda genosidində 1 milyondan çox insan həlak oldu. (50, s.95.) Sudan və Livanda vətəndaş müharibəsi, Konqo, Ruanda, Burundi və Uqandada millətlərarası münaqişələr insan itkilərinə səbəb oldu. Livanda 140 min, Ruandada 1 milyondan

çox insan məhv oldu. Somalidə ekspedisiya BMT Təhlükəsizlik Şurasının səs verməsi əsasında oldu və Baş katibin xahişi ilə o dəqiqə başladı. 1992-ci ilin dekabrında BMT Təhlükəsizlik Şurasının tövsiyəsi ilə və Baş katibin təkidli xahişi ilə Corc Buş hökuməti Somaliyə hərbi hissələr göndərdi.(61, s.297) ABŞ Liberiyaya da hərbçilərini göndərdi. Lakin onlar malyariya xəstəliyinə tutulduqları üçün oranı tərk etdilər.

Mozambikin paytaxtı Maputoda 2003-cü il iyulun 9-12-də keçirilən Afrika Birliyi dövlət və hökumət başçılarının sammitində yalnız 15 üzv təşkilatda sülh və təhlükəsizlik şurasının fəaliyyətə başlaması barədə protokolu təsdiq etdi. Bu da onu göstərir ki, Afrika dövlətləri münaqişələri nizama salmağın öhdəsindən gəlməyə hazır deyillər. Yuxarıda adını çəkdiyimiz beş güclü dövlət – Əlcəzair, Misir, Liviya, Nigeriya, CAR nəhəng qitədə sülh yaratmağa kifayət deyildir. Bu münaqişələr və digər problemlər – SPİD-ə, yoluxucu xəstəliklərə, savadsızlığa, yoxsulluğa qarşı mübarizə kollektiv əməkdaşlıq, inkişaf etmiş dövlətlərin maliyyə köməyi, BMT ilə əməkdaşlıqda həllini tapa bilər. Hələ 2001-ci ilin iyulunda Afrika Birliyi Lusakoda keçirilən sammitində iqtisadi inkişafın inteqrasiyası proqramını – NEPAD–ı qəbul etmişdi. NEPAD–ın fəal üzvləri CAR prezidenti Tabo Mbeki və Nigeriya prezidenti O.Obasanco sosial sferada SPİD epidemiyası, malyariya, vərəm problemlərinə diqqət ayırmağı, hər il bu xəstəliklərdən Afrikada milyonlarla insanın öldüyünü vurğulamışdılar. Sammitdə BMT baş katibi K.Annan, Avropa komissiyası prezidenti Romano Pradi, Beynəlxalq Valyuta Fondunun icraçı direktoru Xerst Keller və digər şəxslər iştirak edirdilər. Afrikanın inkişaf proqramı NEPAD-ın qeydlərinə görə, qitənin 818 milyon əhalsindən yarısına gündə 1 dollar gəlir düşür, 1000 nəfərdən 140-ı 5 yaşa qədər yaşayır, orta ömür 54 ildir. Əhalinin yalnız 58 faizini içməli su ilə təmin edilir. 15 yaşdan yuxarı əhali sırasında savadsızlıq 41 faizdir, 1000 nəfərə 146 əvəzinə 18 telefon xətti düşür. NEPAD afrikalıların öz talelərini özləri müəyyən edəcəklərinə inanır. Bu proqramın həyata keçirilməsi üçün ildə 64 milyard dollar tələb olunur. NEPAD iqtisadiyyatın həcmini ildə 7% artırmağı, 2015-ci ilə qədər kasıbların sayını iki dəfə azaltmağı qarşısına məqsəd qoymuşdur. Beləliklə, Afrika dövlətləri öz problemlərini yalnız BMT çərçivəsində deyil, regional səviyyədə də

həll etməyə çalışırlar. BMT Baş Məclisi Afrika Birliyinin NEPAD proqramını «dünya ictimaiyyətinin Afrika ölkələri ilə qarşılıqlı əlaqələrində yeni startı» adlandırmışdı. Proqramda deyilir ki, «afrikalıllar köməkdən asılı olmaq istəmirlər, alçaldıcı cüzəştlər istəmirlər, onlar özləri öz talelərini müəyyən edəcəklər.» Ancaq bu təşkilatlar və proqram təkbaşına Afrikanın ehtiyaclarını ödəməyə qabil deyildir. BMT-nin hesabına görə, Afrika ölkələrinə kömək ildə 10 milyard dollar aratacaqdır. Aclıq ilə Mübarizə Təşkilatının (Oksfam) hesabına görə bu tələbat ildə 25 milyard dollardır.(37, s.53-55.)

Problemlərin əksəriyyəti hakimiyyəti zəif olan dövlətlərdə olur. İnkişaf etmiş dövlətlərin belə ölkələrdə ancaq iqtisadi maraqları olur. Afrikanın zəngin təbiəti, nefti, qiymətli mettalları və s. ABŞ, Rusiya kimi dövlətləri cəlb edir. Rusiyanın Anqolada almaz, CAR-da qızıl emalı, Qvineyada alüminium, Nigeriyada metallurgiya kombinatları fəaliyyət göstərir.ABŞ neftinin 12 faizini Anqola verir. 2003-cü ildə Afrikada 15 münaqişə oldu, nəticədə 7 milyon qaçqın, 20 milyon köçkün meydana gəldi. 2003-cü il BMT Baş Məclisinin 58-ci sessiyasında Rusiyanın təklifi ilə «Qlobal təhlükə və hədələrə qarşı reaksiya» qətnaməsi qəbul edildi. 2001-ci ilin dekabrında Rusiya və Efiopiya arasında dostluq bəyannaməsində göstərilir ki, hər iki tərəf yeni təhlükələrlə beynəlxalq hüquq çərçivəsində BMT səviyyəsində mübarizə edəcək. Belə müqavilələr Qvineya Respublikası, Qabon, Namibiya, Anqola, CAR ilə də bağlanmışdır. Rusiya sülhməramlıları Afrikada beynəlxalq sülh və təhlükəsizliyin bütün əməliyyatlarında iştirak edir. Onlar Syerra-Leon, Böyük Göl, Konqo Demokratik Respublikası, Qərbi Saxar, Anqola, Liviya, Mozambik, Efiopiya, Eritreya və Lıberiyada sülh əməliyyatlarında iştirak etmişlər. Afrika Rusiya malları üçün xammal, perspektivli bazar mənbəyidir. Afrika dövlətləri çoxtərəfli əməkdaşlığın tərəfdarıdır, monopolyar prinsip əleyhinədir, xarici və iqtisadi maraqlarda bir, yaxud bir neçə ölkənin dominant rol oynamasına yol vermir. Rusiyanın Afrika dövlətlərinə sovet dövrü ilə müqayisədə maddi köməyi azalmışdır. Əgər 1990-cı ildə Rusiya Afrikanın inkişafına 19 milyard ayırmışdısa, 2003-cü ildə bu, 10 milyard dollar olmuşdur.(37,s. 51) Rusiya Afrika ölkələrinə ixtisaslı kadrların hazırlanmasında, səhiyyə sahələrində kömək edir. Hər il Afrikadan

700 nəfər Rusiyada təqaüdlü təhsil alır. İşləmək üçün Rusiyadan Afrikaya müəllim və həkimlər göndərilir. (82,s.81.) BMT Ümumdünya ərzaq proqramı xətti üzrə Rusiya Anqolaya 1 milyon dollar, 2 milyon dollar isə könüllü olaraq BMT Qaçqınların işi üzrə Ali Komissarlığına vermişdir.

Afrika özünün zəngin təbiəti, iqtisadi potensialı ilə Avropa ölkələrinin də maraq dairəsindədir. 2000-ci ildə ingilis «mavi dəbilqəliləri» Syerra-Leonda hərbi əməliyyatlarda iştirak etdilər. 2003-cü ildə Fransa sülh məramlıları Konqo Demokratik Respublikasının şərqində yerləşən Buniyanı nəzarətdə saxladılar. Afrikada frankofon ölkələr çox olduğu üçün münaqişələr zamanı sülh əməliyyatlarında Fransa daha çox iştirak edir. Dil cəhətdən yaxınlıq Fransanın bu ölkələrdə sülh əməliyyatlarında iştirakını zəruri edir. Afrika ölkələrindən Kot d'İvuar, Seneqal, Qabon, Ruanda və b. fransız dillidir.1994-cü ilin iyulunda Fransanın Müdafiə Naziri Fransua Leotard Ruanda sülh əməliyyatlarında iştirak barədə ideya irəli sürdü. Bu ideyanı Fransa, Böyük Britaniya müzakirə etdi. Məsələn, Fransa iki ay Ruandada «Türkqas» əməliyyatında iştirak etdi.

ABŞ-dan sonra dünyada neftə olan tələbatına görə ikinci ölkə olan Çin neftin yarısını Yaxın Şərqdən, qalanını Afrikadan, Cənub-Şərqi Asiyadan, Ruandadan, Qazaxıstandan, Cənubi Amerikadan alır. Çin Afrika ölkələrinin neft sektorunda fəal iştirak edir. Bu sahədə əsas dövlətlər Anqola, Konqo və Sudandır. İqtisadi əməkdaşlıqla bağlı 1995-ci ildə Afrika ölkələrində ÇXR səfirlərinin xüsusi iclası keçirildi. İndi Afrikanın 53 dövlətindən yalnız 7 dövlətinin – Burkina Faso, Qambiya, Seneqal, San Tome, Prinsipiz, Çad, Malavi və Svazilendin Çinlə diplomatik münasibətləri yoxdur. Əvvəlki beş dövlət Tayvanın müstəqilliyini tanıdığı üçün Çin onlarla münasibətlər qurmur. Afrika ölkələrinin beynəlxalq siyasətdə rolu böyükdür. 1995-ci ildə Çinin baş naziri Li Ten Efiopiyada görüşü zamanı demişdir: «Afrika ölkələri ilə münasibətlərin möhkəmlənməsi Çinin xarici siyasətinin vacib hissəsidir.» (48,s.36)

Qərb kreditorlarından, xüsusən də ABŞ-dan fərqli olaraq, ÇXR demokratik cəmiyyət, insan hüquqları və bazar iqtisadiyyatında öz humanitar «köməyini» mübadilə etmək tələbini irəli sürmür. Çinin xarici işlər naziri Çyan Çiçen 1992-ci ildə Namibiya

Universitetində bu barədə belə demişdir: «Yalnız afrikalılar öz ölkələrinin reallıqlarını bilirlər. Yalnız onların öz inkişaf yollarını seçmək hüquqları var. Çin seçkiyə, inkişaf modelinə hörmətlə yanaşır.» ÇXR-nın sədri Xu Çzintao da 2004-ci ilin əvvəlində Afrikaya səfəri zamanı Afrika ölkələrinin siyasi sistemi və inkişaf yollarını seçməkdə azad olduqlarını bildirmişdir. Çinin Afrika ölkələrindən yeganə tələbi «vahid Çin» prinsipini tanımaqdır. Çinin iqtisadi cəhətdən inkişafı, onun BMT Təhlükəsizlik Şurasının üzvü olması Afrika dövlətlərinin «Tayvan problemi»ndə Çinin vahidliyini müdafiə etməsi Çinlə münasibətlərin genişləndirilməsinə səbəb oldu. Çinin BMT Təhlükəsizlik Şurasında olması üçün lehinə səs verən 76 dövlətdən 25-i Afrika dövləti idi. Qərb dövlətləri tərəfindən 7 dəfə təklif edilən antiçin qətnaməsi Afrika dövlətlərinin dəstəyi ilə qəbul edilməmişdir. 1997-ci ildə BMT Baş Məclisinin 53-cü sessiyasında 17 səsə qarşı 27 səslə qətnamə ləğv edildi. Bu ölkələrdən 14-i Afrika dövləti idi. Afrika Çinin həm xarici siyasətində, həm də zəngin təbii ehtiyatlar, ucuz işçi qüvvəsi, satış bazarı mənbəyi kimi iqtisadi siyasətində mühüm rol oynayır.

Afrika Birliyi çərçivəsində Sülh və Təhlükəsizlik Şurasının yaradılması BMT ilə birlikdə qitədə sabitliyi təmin etmək və münaqişələrin qarşısını almağa xidmət edir.. Eyni zamanda, iqtisadi, sosial və mədəni şuranın yaradılması, insan hüquqlarını müdafiə üçün Afrika Məhkəməsinin fəaliyyətə başlaması qitənin problemlərinin qarşısını regional surətdə ala bilər və problemləri beynəlxalq səviyyəyə çatmamış həll edə bilər. Qeyri-sabitliyin, qlobal problemlərin qarşısını almaq barədə BMT-nin Minillik Bəyannaməsində Afrikada demokratiyanın möhkəmləndirilməsi, sülh və təhlükəsizliyin müdafiəsi, yoxsulluğun aradan qaldırılması, Afrikanın dünya iqtisadiyyatı cərəyanına qoşulması üçün aşağıdakılar qərara alındı: Afrikanın demokratik cəhətdən geridə qalmış bölgələrinin siyasi strukturlarına dəstək vermək, münaqişələrin aradan qaldırılması və siyasi sabitliyi gücləndirmək, resursların sülh əməliyyatlarına sərf olunması üçün regional və subregional mexanizmlərin yaradılması, saxlanılması, yoxsulluğun aradan qaldırılması, mövcud problemləri həll etmək üçün xüsusi tədbirlər görmək, borcları ləğv etmək, bazarlardan istifadə imkanlarını artırmaq, yardımı gücləndirmək, birbaşa xarici

investisiyanı və texnologiya imkanlarını artırmaq, VİÇ / SPİD və digər yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün potensial imkanlar yaratmaqda Afrikaya yardım etmək..» (45,s.165.)

Sülhyaratma əməliyyatlarının keçirilməsi, humanitar yardımlar edilməsi problemlərin qarşısını qismən alır. Münaqişələr nəticəsində əhalinin miqrasiyası artır, cinayət halları, terror aktları, narkotik alveri, infeksiya xəstəlikləri yayılır. Bunların qarışısını almaq üçün sərhədlərə güclü nəzarət edilməlidir. 2004-ci ilin oktyabrında Əlcəzairdə Afrikanın terrorizmlə mübarizə mərkəzi yaradılması başa çatdı. BMT Somali və Ruandada sülh əməliyyatları apardı, Sudanda terrorizmi məhv etdi. 1992-ci il yanvarın 23-də BMT münaqişənin qarşısını almaq məqsədilə silah alınmasına embarqo qoyan 723 saylı qətnamə qəbul etdi. Həmin il aprelin 24-də qəbul edilən 751 saylı qətnaməyə əsasən Somalidə sülh əməliyyatları aparılması müəyyən edildi. (119, s. 87.) Somalidə vətəndaş müharibəsi nəticəsində yüz minlərlə əhali öz yurdunu tərk etdi, 4 milyona yaxın insan aclıqdan əziyyət çəkdi. Qeyd etmək lazımdır ki, Azərbaycan Türkiyə ilə yanaşı Somalidə aclıqdan, susuzluqdan, yoluxucu xəstəliklərdən əziyyət çəkən insanlara yardım edir.

# FƏSİL III
# ABŞ-IN NATOSENTRİZM SİYASƏTİ VƏ BMT

## 3.1.ABŞ-ın Avrasiya siyasətinin mahiyyəti və bundan irəli gələn bəhanələr

Kapitalizm və sosializm qarşıdurması, Baş Məclisdə daha çox səs çoxluğu toplamaq cəhdi BMT yaradılandan artıq təşkilatda özünü göstərməyə başlamışdı. 1946-1949-cu illərdə BMT-yə Əfqanıstan, Birma, Yəmən, İsrail, İslandiya, Pakistan, Tayland, İsveç qəbul edildi. 13 dövlət – Albaniya, Monqolustan Xalq Respublikası, Bolqarıstan, Macarıstan, Rumıniya, İtaliya, Finlandiya, İrlandiya, Portiqaliya, İordaniya, Avstriya, Seylon və Nepalın BMT-yə qəbul edilməsi barədə müraciətlərinə Təhlükəsizlik Şurasında dəfələrlə baxılsa da, ABŞ və İngiltərənin etirazı ilə 1955-ci ilə qədər bu məsələ həll edilmədi. Potsdam konfransında ABŞ, İngiltərə və SSRİ Bolqarıstan, Macarıstan, Rumıniya, İtaliya və Finlandiyanın BMT-yə qəbul edilməsi barədə razılaşsalar da, ABŞ və İngiltərə Təhlükəsizlik Şurasında Bolqarıstan, Macarıstan və Rumıniyanın əleyhinə, İtaliya və Finlandiyanın isə lehinə səs verdilər. (57,s.238) ABŞ və İngiltərə BMT-yə müraciət edən bütün dövlətlərin qəbul edilməsi haqqında SSRİ-nin təklifi ilə yalnız 1955-ci ildə razılaşdılar.(56,s.239)BMT-nin fəaliyyətinin ilk illərində ABŞ və onun tərəfdarları səs çoxluğundan istifadə edərək beynəlxalq təşkilatdan öz siyasi məqsədləri üçün istifadə etməyə çalışdılar. ABŞ Nizamnamənin 107-ci maddəsində göstərilən " müharibədən sonrakı nizamasalmaya BMT orqanlarında baxıla bilməz." ifadəsi ilə hesablaşmayaraq, 1947-ci ildə Baş Məclisin II sessiyasında "Koreya məsələsi"ni gündəmə gətirdi və BMT bayrağından istifadə edərək Koreyaya silahlı müdaxilə etdi. 1950-ci il iyunun 25-də səhər tezdən ABŞ dövlət departamenti sədrinin telefon səsinə oyanan BMT-nin baş katibi Truqve Li Koreya hadisələri ilə bağlı ABŞ-ın təcili Təhlükəsizlik Şurasını çağırmaqla bağlı xahişini qəbul etməyi qeyri-mümkün hesab etdi. BMT-yə müraciət etmək təşəbbüsünü ABŞ öz üzərinə götürdü. Təhlükəsizlik Şurasının iclasında ABŞ nümayəndəsi Qros Koreya Xalq Demokratik Respublikasının Cənubi Koreyaya qarşı təcavüzü barədə qətnamə qəbul etməyi tələb etdi.(57,s.277)

1951-ci ildə həmin maddə yenidən pozuldu, ABŞ və İngiltərə Baş Məclisin VI sessiyasında Almaniya qanunvericilik aparatına seçkilərin keçirilməsi barədə məsələ qoydular. Başqa dövlətin daxili işinə müdaxilə olduğu üçün SSRİ, Ukrayna, Belorusiya, Polşa və Çexoslovakiya BMT-nin müdaxiləsinə etiraz etdi.

Böyük dövlətlər arasında ziddiyyətlər Yunanıstanda vəziyyətlə bağlı da üzə çıxdı. 1946-cı ildə Yunanıstandan ingilis ordusunun çıxarılması barədə SSRİ-nin təklifi Təhlükəsizlik Şurasının müzakirəsinə buraxılmadı. ABŞ Baş Məclisdə mexaniki səs çoxluğuna arxalanaraq öz xeyrinə qətnamə qəbul etdirdi. Qətnamədə Yunanıstanda vəziyyətin kəskinləşməsinin səbəbi kimi Albaniya, Bolqarıstan, və Yuqoslaviyada olan hadisələr göstərilir, demokratik qüvvələri zəiflətmək üçün Balkan barədə xüsusi komitənin yaradılması nəzərdə tutulurdu.(57,s.239-240)

1947-ci il fevralın 21-də ABŞ-ın Böyük Britaniyadan aldığı iki notada İngiltərənin ABŞ tərəfindən Yunanıstan və Türkiyəyə etdiyi kömək rəsmən qəbul edildi. İngiltərə Yunanıstandan öz ordusunu çıxartdı. ABŞ dövlət departamentinin keçmiş əməkdaşı Cons notalara belə siyasi əhəmiyyət verdi:"İngiltərə sülhə rəhbərliyi ABŞ-a verdi."(57,s.249) 1948-ci il Trumen doktrinası isə beynəlxalq münasibətlərdə yeni mərhələnin əsasını qoydu. ABŞ yeni beynəlxalq qaydada öz imperiya siyasətini yalnız öz ərazisində təkrarlamır, həm də bir çox xarici ölkələrdə öz siyasətini yeridir.

Böyük Britaniyanın baş naziri U.Çerçil 1946-cı ildə Vestministir kollecində çıxışında demişdir ki, "Biz yeni fəlakəti təkrar etməməliyik. Yalnız BMT-nin himayəsi altında Rusiya ilə normal qarşılıqlı münasibətlər qurmaq olar. Belə münasibətlər çox illər ərzində yalnız BMT-nin himayəsi ilə deyil, ABŞ, Böyük Britaniya və digər ingilis dilli ölkələr və onların həmkarlarının nüfuzu ilə olmalıdır."(96,s.489) U.Cerçil BMT-nin effektli fəaliyyətində məsuliyyəti böyük dövlətlərdə görürdü:"Əgər biz BMT Nizamnaməsində nəzərdə tutulan prioritetləri möhkəm dəstəkləsək, başqa ərazilər və ya zənginliklər üzərində hegemonluq etməsək, öz vətəndaşlarımızın fikirləri üzərində total nəzarət yaratmağa cəhd etməsək, əgər britaniyalılar və onların tərəfdarlarının mənəvi və maddi qüvvələri bizim ölkə və xalqları qardaşlıq ittifaqında

birləşdirsə, bizim qarşımızda, eləcə də bəşəriyyətin qarşısında bir əsr yox, çox əsrlər geniş yollar açılacaq."(96,s.491)

Bu gün də Təhlükəsizlik Şurası daimi üzvləri arasında əməkdaşlıqdan daha çox ziddiyyətlər mövcuddur. İstər etnik, istər regional münaqişələrlə, istərsə də beynəlxalq terrorizmlə mübarizədə bu dövlətlər arasında fikir ayrılığı özünü göstərir. ABŞ-ın mövqeyi Böyük Britaniya ilə, Rusiyanın mövqeyi Fransa ilə üzlaşırsa, Çinin mövqeyi əksər halda neytral olur.

Beynəlxalq münasibətlərin yeni sisteminin formalaşmasında ABŞ yalnız iqtisadi hegemonluğa meyl etmir, o həm də dünyanın iqtisadi baxımdan zəngin və strateji əhəmiyyətli regionlarında mövqeyini möhkəmlətməyə cəhd edir. ABŞ birqütblü dünya yaratmaq üçün aşağıda sadalanan amilləri əsas götürür: a) Dünyanın müxtəlf ölkələrində Qərbə meyl edən, ABŞ-ın dəstəyindən asılı olan elitanın hakimiyyətə gətirilməsi; b) Geopolitik dəstəyi olmayan, ABŞ himayəsinə ehtiyac duyan, özlərini düşmən əhatəsində hiss edən satellit ölkələrin sayının artırılması; v) Hər anda başını qaldırmağa hazır olan dövlətlərə demokratiyanı yaymaq pərdəsi altında təcavüz etmək. (75,s.248)

H.Kissincer yazır ki, Amerikanın Asiyada siyasətinin əsas prinsipləri aşağıdakılardır: Birincisi, Asiyada Amerika milli maraqları regionda dominantlıq etməyə cəhd edən istənilən ölkənin maraqları ilə toqquşur. İkincisi, ABŞ üçün Asiyanı istənilən təhlükədən qorumağın ən yaxşı üsulu hərbi üstünlüyü və iri Asiya dövlətlərinin milli maraqlarına cavab verən ABŞ-ın məqsədləri ilə bir araya sığan xarici siyasətin keçirilməsidir. Üçüncüsü, Yaponiya ilə ittifaq Amerikanın Asiyada başlıca siyasəti olaraq qalır. Yaponiya başa düşməlidir ki, Asiyada onun ABŞ-dan vacib həmkarı yoxdur. Dördüncüsü, İslam dünyasında olan hadisələrə təsir edə bilən Hindistanla sıx dialoq aparmaq lazımdır. Hindistanın ambisiyaları hazırkı mərhələdə Amerikanın Avrasiya maraqları ilə toqquşur. Beşincisi, Çin-ABŞ münasibətləri ABŞ tərəfdən müəyyən edilə bilər. Bu münasibətlər ümumi maraqlara xidmət etməlidir. Altıncısı, Koreya ilə münasibətləri nizama salmaq lazımdır. Yeddincisi, ABŞ-ın milli maraqlarında nüvə silahını məhdudlaşdırmaq və Asiya ölkələrini də bu prosesə cəlb etmək lazımdır. Çin artıq nüvə silahı və raket texnologiyasının məhdudlaşdırılmasına dair beynəlxalq

sazişlərə qoşulmuşdur. O, nüvə və raket sahəsində İranla əməkdaşlığı kəsmişdir. Hindistanla, Pakistanla nüvə, kimyəvi, bioloji silahlar üzərində nəzarət barədə ikitərəfli sazişlərin bağlanması zəruridir. Səkkizincisi, dünyanı nizamlamada fəal iştirak etmək üçün ABŞ-ın Asiyada aydın siyasəti olmalıdır. ABŞ bu regionda iştirak etməlidir, lakin dominant təsir bağışlamamalıdır. O, heç bir münaqişənin mərkəzində olmadan müxtəlif təhlükələrin qarşısını almaqda həlledici rol oynamalıdır.(61, s.172-173) Avrasiya üzərində hökmranlıq etmədən ABŞ dünyaya hegemonluq edə bilməz. ABŞ-ın Avrasiyada strateji məqsədləri aşağıdakılardır: birincisi, nadir təbii ehtiyatları "bacarıqsız, barbar əllərdən" alıb "layiqli əllərə" vermək; ikincisi Atlantik okeanı Sakit okeanla birləşdirən keçmiş Böyük İpək yolu məkanında möhkəmlənmək və Avrasiya Mərkəzi Kommunikasiya sistemi üzərində nəzarət etmək; üçüncüsü, Avropa məkanında strateji rəqib olan Çin və Hindistanı birbaşa təhlükədə qoyan açar nöqtələrin ələ alınması. Çünki Çin və Hindistan neytrallaşdırılmadan ABŞ uzunmüddətli hegemon ola bilməz.(75,s.42)

Z.Bjezinskiyə görə, ABŞ-ın siyasətinin məqsədi iki hissədən ibarət olmalıdır: 1)Dünya üzərində hökmranlığını möhkəmlətmək 2)Geopolitik struktur qurmaq. Sonrakı mərhələdə Avrasiyanın qabaqcıl dövlətləri ilə Amerika tərəfindən nizamlanan əməkdaşlığı genişləndirmək, BMT-nin köhnəlmiş strukturunu 1945-ci ildən bəri dəyişən şəraitə müvafiq olaraq təkmilləşdirmək.(133,s.247)

Amerika hazırda Avrasiyada arbitr rolu oynayır. Avrasiyanın heç bir böyük problemi Amerikanın iştirakı olmadan, yaxud Amerikanın maraqları olmadan həll edilmir. ABŞ-ı Avrasiyadan çıxara biləcək, yaxud onun dünya arbitri rolunu məhdudlaşdıran heç bir potensial dövlət və ya dövlətlər qrupu yoxdur. Amerkanın dünyada liderlikdən imtina edərək hegemonluğa can atması beynəlxalq miqyasda ancaq anarxiyaya gətirib çıxara bilər.(105) Avrasiya yer üzündə ən böyük materikdir və geopolitik siyasətdə mühüm yer tutur. Avrasiyada hökmranlıq edən dövlət dünyanın üçdə iki iqtisadi cəhətdən inkişaf etmiş regionunu nəzarətdə saxlayır. Avrasiyaya nəzarət avtomatik olaraq Afrikaya nəzarət etmək deməkdir. Dünya əhalisinin təxminən 75 faizi

Avrasiyada yaşayır, dünyanın əsas əmək ehtiyatı və təbii ehtiyatı, enerji ehtiyatlarının dörddə üç hissəsi orada yerləşir. Dünya xarici ticarət dövriyyəsinin təxminən 60 faizi Avrasiyanın payına düşür. Avrasiyada həmçinin dünyanın siyasi cəhətdən ən fəal, dinamik, qlobal təsirə iddia edən, iqisadi, hərbi cəhətdən yaxşı inkişaf etmiş, leqal və qeyri-leqal nüvə dövlətləri yerləşir. Amerikaya bütün siyasi və iqtisadi potensial Avrasiyadan gəlir. Avrasiyanın nəhəngliyi Amerikanı ötüb keçir. Xoşbəxtlikdən, Amerikanın siyasi münasibətlərdə yeganə qüvvə olması üçün Avrasiya son dərəcədə böyükdür. Bu tərzdə Avrasiya qlobal hakimiyyət uğrunda mübarizənin getdiyi şahmat taxtasıdır.(133,s.45)

ABŞ-ın Avrasiya siyasətinin prioritetlərindən biri NATO-nun tərkibinin şərqə doğru genişləndirilməsidir. Avropa İttifaqında olduğu kimi NATO-ya Mərkəzi Avropa dövlətlərinin, Baltik dövlətlərinin, Ukraynanın qoşulması ABŞ-ın maraqları dairəsindədir. Məşhur geopolitiklərdən biri olan Xarold Makkinderin "yerin ürəyi" adlı konsepsiyasında göstərir ki, Şərqi Avropanı kim idarə edirsə, Yerin ürəyinə hakimlik edir. Kim Yerin ürəyinə hakimlik edirsə, Dünya adasına(Avrasiyaya) hakimlik edir. Kim Dünya adasına hakimlik edirsə, Dünyaya hakimlik edir.(133,s.53)

Beynəlxalq terrorizmə qarşı mübarizədə antiterrorçu koalisiyanın aparıcı iştirakçısı olmalarına baxmayaraq ABŞ və Rusiya arasında geopolitik və geostrateji ziddiyyətlərin saxlanılması bu iki ölkə arasında sabit münasibətlərin inkişafına imkan vermir. Vaşinqtonda ilk sovet nümayəndəsi olan A.A.Trayanovski ABŞ-SSRİ münasibətlərini məhəbbət üzərində deyil, haqq-hesab, müəyyən niyyət üzərində bağlanan nigaha bənzədirdi. (75, s.42) XX əsrin 90-cı illərində bu iki ölkə arasında münasibətlər bir qədər dəyişdi. Rusiya üçün ABŞ-la münasibətlər ideoloji ziddiyyət xarakterini itirdi, geopolitik ixtilaf gücləndi, beynəlxalq problemlərin həllində, ticarət, hərbi-siyasi sahələrdə, tərksilah, regional təhlükəsizlik, strateji sabitlik, BMT-də münasibətlər və digər məsələlərdə fikir ayrılığı yarandı. Natosentrizm siyasətini qəbul etməyərək qitədə təhlükəsizlikdə ATƏT-in ümumavropa və universal xarakterinə üstünlük verən Rusiya postsovet məkanında münaqişələrin «nizama salınmasını» MDB vasitəsilə, yaxud tək həyata keçirməyə çalışır. Rusiyanın NATO yanındakı nümayəndəsi

Dmitriy Roqozin Rusiyanın NATO silahlı qüvvələrinə ehtiyacı olmadığını, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində öz ittifaq vəzifələri olduğunu bildirmişdi:”Bu təşkilat cənub istiqamətindən gələn təhlükələri, həmçinin Əfqanıstan ətrafında olan vəziyyəti kollektiv əsasda dəf etməyə qadirdir. Məhz “əfqan problemi” göstərir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı yaxın gələcəkdə ona daxil olan ölkələrin maraqlarını müdafiə edə biləcək, eyni zamanda bütün şimal yarımkürəsinə qarşı olan ekstremist təhlükələrin qarşısını ala biləcək.”(156)

ABŞ Sakit okeanda öz mövqeyini möhkəmlətmək üçün Rusiyadan Cənubi Kuril adalarını tələb edən Yaponiya ilə əməkdaşlıq edir. Yaponiya iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdən biridir. O, siyasi liderlik iqtidarında olan bir dövlət olsa da, bu vəziyyətdən istifadə etmir, regional dominant dövlət olmağa cəhd etmir, Amerikanın tabeliyi altında siyasət yeritməyə üstünlük verir. Yaponiyanın belə siyasi mövqeyi ABŞ-a Uzaq Şərqdə təhlükəsizliyi təmin etmək üçün mərkəzi rol oynamağa imkan verir. Kifayət qədər potensialı olmasına baxmayaraq Yaponiya geostrateji dövlət deyil.(133,s.61)Uzaq Şərqdə təhlükəsizliyin təmin edilməsində Amerikanın rolu Yaponiya ilə əməkdaşlıqdan asılıdır. Yaponiya varlı, dinamik, iqtisadi cəhətdən güclü, lakin regional cəhətdən izolyasiya olunmuş, güclü alyanslardan təhlükəsizlik sahəsində asılı olan bir dövlətdir. Çin gücləndikcə Yaponiya ABŞ üçün daha böyük əhəmiyyət kəsb edir. BMT Təhlükəsizlik Şurasının daimi üzvlüyünə namizədlər içərisində ABŞ-ın Yaponiyanı dəstəkləməsi də bununla bağlıdır. ABŞ-ın yeni dünya nizamı yaradılmasında güclü müttəfiqə ehtiyacı var və buna görə də o, Şərqi Asiyada Yaponiya ilə təhlükəsizlik sahəsində əməkdaşlığı möhkəmləndirir, güclü tərəfdarlar toplamaq üçün fəal çıxış edir. ABŞ  hələ 70-ci illərdə Almaniya və Yaponiyanın Təhlükəsizlik Şurasının daimi üzvləri sırasına daxil olması barədə ideya irəli sürmüşdü.  Bu, Təhlükəsizlik Şurasında həm ABŞ-ın həmkarlarının sayını artması, həm də ABŞ-ın BMT-yə qoyduğu xərcin azalmsı baxımından ABŞ üçün əhəmiyyət kəsb edir.. 90-cı illərdə inkişaf etməkdə olan ölkələrin təzyiqi altında ABŞ “kvikfiks” adlanan bu ideyanı “2+3” formulası ilə dəyişdi. Bu formulaya görə Yaponiya və Almaniya ilə yanaşı inkişaf etməkdə olan hər bir regiondan 1 ölkə

Təhlükəsizlik Şurasına daxil edilməli idi. 2000-ci ildə Klinton hökuməti Təhlükəsizlik Şurasının üzvlərinin sayının 23-dən çox olması ilə razılaşdı. Z.Bjezinski yazır ki, "Yaponiya ABŞ ilə müasir dünya problemlərinin həll edilməsində sıx əməkdalıq etməklə dünya səviyyəsində təsir edə bilən bir dövlət ola bilər. Amerika rəhbərliyi bu istiqamətdə Yaponiyaya kömək etməlidir. Ümumi iqtisadi məkan yaratmaqdan bəhs edən azad ticarət barədə Amerika-Yaponiya sazişi iki ölkə arasında münasibətləri möhkəmlədə bilər. Məhz Yaponiya ilə sıx əlaqələr yaratmaqla ABŞ regionda Çinin cəhdlərinin qarşısını ala bilər."(133, s.247) Çinə XXI əsrdə özünün geopolitik rəqibi kimi baxan ABŞ hətta Çini zəiflətmək üçün Sintszyan-Uyğur Muxtar Dairəsində olan uyğur separatçılarını maliyyələşdirməkdə, silahlandırmaqda böyük rol oynayır. (33,s.61)

H.Kissincer Yaponiya ilə münasibətlərin ABŞ üçün Asiyada açar rol oynayacağını bildirir: "Yaponiya bizim həmkardır, onun ərazisində amerika hərbi bazaları yerləşir; onun iqtisadiyyatı Asiyada ən böyük yer tutur və yaxın qərinədə də belə olacaq. Eyni zamanda bu ölkənin mədəniyyəti o qədər incə nüanslarla həyata keçirilir ki, Amerika hələ onu tam qəbul etməyə hazır deyil. Ancaq Amerika rəhbərləri yapon demokratiyasını qəbul edirlər. Amerika iqtisadçıları yapon iqtisadiyyatını onun çatışmamazlıqlarına görə tənqid edirlər, lakin yaponlar hələ təkidlə amerika reseptlərini qəbul etməkdən imtina edirlər". (61,s.121)"Amerikanın xarici siyasətinin başlıca məqsədi xüsusi siyasi və hərbi gücə malik olmadan Yaponiyanı siyasi münasibətlərə cəlb etməkdir. Bütün bunlar ABŞ-dan Asiya işlərində iştirakı davam etdirməyi tələb edir. Asiyada Amerika hərbi bazaları olmazsa, beynəlxalq münasibətlərdə və təhlükəsizlik məsələlərində yapon siyasəti daha çox milli olacaq." (61, s.128)

"Yeni dünya nizamı" konsepsiyasının əsas yaradıcılarından biri olan Z.Bzejinski ABŞ-ın Sakit okean strategiyasını Çin və Yaponiya antiamerika əməkdaşlığına mane olmaq üçün dəqiq tarazlaşdırılmış üçtərəfli ABŞ, Çin, Yaponiya əlaqələrində görür.(20,s.154)

ABŞ-ın xarici siyasətinin əsası hərbi qüvvələrin gücləndirilməsi, ABŞ-ın xarici siyasətini müdafiə edən dövlətlərlə müttəfiqliyi möhkəmlətmək, ABŞ üçün təhlükə yaradanlara qarşı daha kəskin siyasət yeritmək, digər ölkələrlə bağlı məsələlərdə müttəfiqlərlə, dünənki rəqiblərlə, keçid tipli bütün dövlət qurumları ilə

münasibətlərdə öz maraqlarını müəyyən etmək, möhkəm hakimiyyət sistemi olmayan, müxtəlif tipli diktatorun hegemonluq etdiyi müflisləşmiş ölkələrlə münasibətlərdə qlobal mövqeyini möhkəmlətmək, sözdə nüvə silahının yaranması əleyhinə çıxsa da, nüvə silahı istehsalını və bu silahın modernləşdirilməsini davam etdirməkdir

Zəifləmiş dövlət olmasına baxmayaraq Rusiya iri geostrateji mərkəz olaraq qalır və geopolitik məqsədlərini açıq elan edir. Buna görə də keçmiş SSRİ-nin ərazisinə daxil olan geopolitik əhəmiyyətli yeni müstəqil dövlətləri dəstəkləmək ABŞ siyasətinin tərkib hissəsidir. Bu ölkələr içərisində üç ölkə vacib əhəmiyyət kəsb edir: Azərbaycan, Özbəkistan, Ukrayna. Azərbaycan öz energetika ehtiyatları ilə Qərbə keçid yaradır. Avropa İttifaqı və NATO ilə əlaqələr yaradan Ukraynanın ABŞ üçün böyük əhəmiyyəti var.(133, s.147) Rusiya Ukraynanın NATO-ya daxil olması ilə razılaşmır. Ukrayna geopolitik mərkəz olub, Avrasiya şahmat taxtasında vacib yer tutur, ona görə ki müstəqil dövlət kimi onun mövcudluğu Rusiyanın transformasiyasına kömək edir. Ukraynasız Rusiyanın Avrasiya imperiyası olmayacaq. (133, s.62) Əgər Moskva 52 milyonluq əhalisi və zəngin təbii ehtiyatları olan Ukrayna üzərində öz nəzarətini, həmçinin Qara dənizə çıxışını bərpa edərsə, onda Rusiya avtomatik olaraq yenidən güclü imperiyaya çevriləcək. Cənubi Qafqaz Rusiyanın milli təhlükəsizliyini təmin etmək baxımından Moskvanın diqqət mərkəzində qalmaqdadır. Bu regionda münaqişələrin nizama salınmasına vasitəçilik etməsi, ATƏT-in Minsk qrupunda həmsədrlik etməsi, yaxud MDB sülhməramlılarını münaqişə regionuna göndərmək canfəşanlığı da bununla izah edilir. Ərazisinin və əhalisinin az olmasına baxmayaraq, Azərbaycan geopolitik planda zəngin energetika ehtiyatları ilə açar məna kəsb edir. Əgər Azərbaycan Moskvaya tabe olsa, Orta Asiya dövlətlərinin müstəqilliyi məna kəsb etmir. Əgər Azərbaycan müstəqilliyini itirsə, onun zəngin neft ehtiyatları Rusiyanın nəzarəti altına keçər. (133, s.63)

N.A.Nartov ABŞ-ın Ukrayna, Azərbaycan, Gürcüstan respublikalarının inkişafına köməyini Rusiyanın mərkəzləşdirmə siyasətini zəiflətmək məqsədilə etdiyini bildirır.(72, s.268) Amerika tədqiqatçıları isə ABŞ-ın enerji ehtiyatları o qədər də çox olmayan

Mərkəzi Asiya və Qafqazda strateji maraqlarının olmadığını, onun siyasətinin regionlarda münaqişələri nizamasalmaya yönəldildiyini bildirirlər.(53, s.241)Z.Bjezinski isə yazır ki, Rusiyanın yenidən güclü dövlət olmasının qarşısını almaq üçün ABŞ yeni müstəqillik əldə etmiş dövlətlərin inkişafına kömək edir.(133,s.242)

Çinlə münasibətləri müsbət istiqamətdə inkişaf etdirən Rusiya Tayvan probleminə münasibətdə Çinin vahidliyini müdafiə edir. Rusiyanın sabiq xarici işlər naziri E.M.Primakovun yeni dünya nizamında Çin və Hindistan kimi Asiya nəhənglərinə əhəmiyyət verməsi təsadüfi deyildir. Hətta o, Dehliyə səfəri zamanı Rusiya-Çin-Hindistan strateji üçbucağı yaradılması arzusunu da bildirmişdi. (43, s.47) Tayvan problemi ilə bağlı Çin-Qərb qarşıdurması yaranarsa, Rusiya Çini şimaldan hərbi, strateji cəhətdən təchiz edə bilər. Bu nöqteyi-nəzərdən Çin Rusiya ilə münasibətlərə üstünlük verir. (133, s.36) Öz iqtisadi potensialına görə ABŞ və Rusiyadan sonra üçüncü yerdə olan Çin ABŞ-ın ən böyük potensiallı rəqibidir. Çin ordusu öz sayına görə (3 milyon) dünyada birinci hesab edilir. Səbirli və uzaqgörən xarici siyasəti olan Çin qonşu ölkələri istila etmək deyil, onların Çinə qarşı birləşməsinin qarşısını almaq siyasətini həyata keçirir. Çinin ABŞ-ın Asiyada hərbi birliklər yaratmaq təşəbbüsünü tənqid etməsi göstərir ki, Çin ABŞ-ın bu regionda fəaliyyətinin məhdudlaşdırılmasını dəstəkləyir.(61, s.155) ABŞ Mərkəzi Asiyada möhkəmlənməklə, Rusiya kimi Çini də əldə saxlamağa çalışır, Rusiyanın Çinlə hərbi əməkdaşlığına mane olur, Mərkəzi Asiya istiqamətində, Çinlə sərhəddə NATO-nun irəliləməsi Çində narahatlıq doğurur. Belə ki, Mərkəzi Asiyanın əksər ölkəsi «Sülh naminə tərəfdaşlıq» proqramının iştirakçısıdır, onlardan bəzisi isə NATO-nun tamhüquqlu üzvü olmağa çalışır. Çinin Şanxay təşkilatı üzvləri ilə əməkdaşlığı inkişaf etdirməsini də bu nöqteyi-nəzərdən izah etmək olar. Rusiyanın Çinlə əlaqələrinin möhkəmlənməsi göstərir ki, yeni Şərqi Asiya güc mərkəzi yaradılması yalnız regional səviyyədə deyil, həm də qlobal səviyyədə beynəlxalq münasibətlər sistemində sabit balans yaradır. ABŞ-ın qarşısında duran məsələlərdən biri Amerikanı Avrasiyadan çıxartmağa cəhd edən regional koalisiyalarla münasibət yaratmaqdır. ABŞ-ın Asiyada əsas strateji məqsədlərindən biri iki nəhəng dövlətin Çin və Rusiyanın antiamerikan hərbi-siyasi yaxınlaşmasına yol verməməkdir. Çinin

Rusiya ilə alyans yaratması ABŞ-ın vacib strateji partnyorunu itirməsinə səbəb olur və o, Asiya-Sakit okean regionunda möhkəmlənmək üçün Çinlə tarixən ziddiyyətləri olan Yaponiyaya arxalanır. Bununla bağlı Rusiya tədqiqatçısı N.A.Nartov yazır ki, ABŞ-ın Asiya-Sakit okean regionunda geopolitik hegemonluğuna Yaponiya-Çin alyansı son qoya bilər.(72, s.272). Lakin Tayvan problemi bu iki dövləti bir-birindən uzaqlaşdırır. XVII əsrdən Çinin ərazisinə daxil olan Tayvan 1895-ci ildə Yaponiya tərəfindən anneksiya edildi. ABŞ prezidenti Ruzvelt 1943-cü ildə Tayvanı Çinin hissəsi elan etdi, II Dünya müharibəsində qələbədən sonra, 1945-ci ildə ada Çinə qaytarıldı. (61, s.158) 1972-ci ildən başlayaraq hər bir Amerika prezidenti "bir Çin" siyasətini təsdiq etdi və "iki Çin", yaxud "bir Çin və bir Tayvan" ideyasını rədd etdi. Belə siyasətin tam təsdiqi 1982-ci ildə, Reyqanın hakimiyyəti dövründə Pekində imzalanmış birgə kommünikedə və 1998-ci ildə Klintonun Çin görüşündə öz əksini tapdı.(61, s.159)

ABŞ-ın son zamanlardakı xarici siyasətini dəstəkləyən dövlət Böyük Britaniyadır. O, Amerika üçün öz əhəmiyyətini hələ də saxlayır. Böyük Britaniya geostrateji fiqur deyil, gələcək Avropada liderliyə iddia etmir, ənənəvi olaraq Avropada balans yaratmağa çalışır.(133, s.58) Siyasi birləşməni inkar edən Böyük Britaniya azad ticarət əsasında iqtisadi inteqrasiyaya, xarici siyasətin koordinasiyasına, Avropa İttifaqından kənarda təhlükəsizlik və müdafiəyə üstünlük verir; nadir hallarda Avropa İttifaqında öz nüfuzundan tam istifadə edir.(133, s.59) ABŞ həmişə vahid Avropanın yaradılmasında özünün üstün rolu barədə bildirsə də, dünya liderliyini Avropa ilə bölmək arzusunu bildirsə də, praktikada ABŞ Avropa ilə liderliyi bölmək istəmir. Məsələn, ABŞ coğrafi cəhətdən Amerikadan daha çox Avropaya yaxın olan, bəzi Avropa dövlətlərinin marağı olan Yaxın Şərqdə Avropa ilə liderliyi bölmək istəyirmi? ABŞ Böyük Britaniyanın Avropa inteqrasiyasından ayrılmasına öz etirazını bildirmir. Əsil vahid Avropanın yaradılması üçün Avropa və Amerika arasında əsas əlaqə yaradan NATO-nun strukturunda Amerikanın rolunun azaldılması istiqamətində dəyişiklik etmək lazımdır. NATO yalnız Avropa işlərində Amerikanın təsirini həyata keçirmir, o, həm də Qərbi Avropada Amerikanın hərbi hissələrinin olmasını təmin edir. Amerikanın

Avropada maraqları genişdir. Atlantika alyansı Avrasiya materikində Amerikanın siyasətini möhkəmləndirir. Avropa dövlətləri özləri öz təhlükəsizliklərini təmin etməkdə ABŞ-dan hiss olunacaq dərəcədə asılıdırlar. Avropanın sərhədləri genişləndikcə Amerikanın da orada nüfuzu artır. Z.Bjezinskinin açar geopolitik mərkəzlər hesab etdiyi Fransa və Almaniya Birləşmiş Avropanın obrazıdır. Hər ikisinin öz konsepsiyası var. Fransa Rusiyanı, Almaniya Böyük Britaniyanı qabaqlamağa çalışır, Fransa yalnız birləşmiş Avropada siyasi rola cəhd etmir, o həm də Aralıq dənizi ölkələrində, Şimali Afrikada - Mərakeşdə, Tunisdə, Əlcəzairdə öz nüfuzunu möhkəmlətməyə cəhd edir.

Avropa İttifaqının liderlərindən olan Almaniya açar geopolitik mərkəz olub, İttifaq vasitəsilə müəyyən qlobal təsirini davam etdirir, Amerikanın əsas tərəf müqabilidir, loyal həmkarıdır, vacib hərbi bazasıdır, kəşfiyyat fəaliyyətində sıx əməkdaşıdır. Avropa dövlətlərinin əksəriyyəti NATO-nun, yaxud Avropa İttifaqının üzvləridir. Bu dövlətlər ya Amerikanın hakim rolunu təsdiq edirlər, ya da Almaniya, yaxud Fransanı dəstəkləyirlər. Onların siyasətinin xüsusi regional təsiri yoxdur və onlar öz əsas istiqamətlərini dəyişmək iqtidarında deyillər.(Bjez şts.59) Fransanın nöqteyi-nəzərindən vahid və müstəqil Avropanın yaradılması üçün başlıca məqsəd Fransanın rəhbərliyi altında Avropanın birləşdirilməsi və eyni zamanda Avropa qitəsində Amerikanın rəhbər rolunun təxminən məhdudlaşdırılması yolu ilə ola bilər. Əgər Fransa gələcək Avropanı yaratmaq istəyirsə, o, Avropa işlərində Amerikanın rolunu azaltmaq üçün Almaniyanı öz işinə cəlb etməlidir. Nəticədə Fransanın qarşısında başlıca iki siyasi dilemma dayanır: Avropada təhlükəsizliyi dəstəkləmək üçün Amerikanın iştirakını necə saxlamalı, Avropada Almaniyanın liderliyinə imkan vermədən Avropanın birləşdirilməsinin siyasi-iqtisadi mexanizmində Fransa-Almaniya əməkdaşlığını necə saxlamalı.(133, s.83) Z.Bjezinski yazır ki, ABŞ-ın Avropada rəhbərliyinə nail olmaq üçün Avropada Almaniyanın liderliyini dəstəkləmək lazımdır. Almaniya "bağışlanma+təhlükəsizlik = Avropa+Amerika" formulunu dəstəkləyir. Bu formula görə Almaniya Avropada Amerikanın əsas tərəfdarıdır.(133, s.80)

Lakin nə Fransa, nə də Almaniya təklikdə Avropanı qurmaq, yaxud Rusiya ilə coğrafi problemləri həll etmək iqtidarında deyil. Avropa İttifaqı ABŞ üçün qlobal siyasi rəqib ola bilər.

### 3.2.ABŞ-ın Yaxın Şərqdə siyasəti və BMT

Dünya ictimaiyyətini cəlb edən Yaxın Şərqin münaqişə zonalarından biri İraqdır. H.Kissincerin fikrincə, heç bir region Amerika üçün Fars körfəzi qədər problem yaratmır:"Dünyanın bu hissəsində demokratik ölkə yoxdur. ABŞ və inkişaf etmiş digər demokratik dövlətlər bu regionda bizə düşmən olan rejimin dominantlığına yol verməməyə çalışırlar."(61, s.204) "İnkişaf etmiş ölkələrin iqtisadiyyatı Fars körfəzinin energetika ehtiyatlarından asılıdır və orada vəziyyətin kəskinləşməsi Şimali Afrikadan Mərkəzi Asiyayadək və Hindistana qədər ərazilərə təsir edir. Körfəzdə ən təhlükəli dövlət İran hesab edilir. Bundan başqa İraqın şimalında kürdlərin müstəqil respublika yaratması Türkiyənin Amerika siyasətini həyata keçirməsinə mane ola bilər. Nə qədər ki Səddam Hüseyn hakimiyyətdədir, İraq bu regionda balans yaradılmasında iştirak edə bilməz."(61, s.209)

ABŞ-ın bu ölkəyə hücumu Səddam Hüseyn diktaturasının devrilməsi və nüvə silahını məhv etmək bəhanəsilə oldu. 1996-cı ildə Səddam Hüseyn kürdlərin ABŞ-ın himayəsi altında olan institutlarını ləğv etdi. ABŞ-la əməkdaşlıq edən yüzlərlə kürd öldürüldü, üç min adam qovuldu. 1997-ci ilin noyabrından başlayaraq S.Hüseyn İraqın kütləvi qırğın silahlarının yaradılması barədə İraq proqramına nəzarət edən BMT-nin inspeksiya sisteminin işinə mane oldu, İraqa qarşı qoyulmuş iqtisadi sanksiyaların ləğv edilməsinə cəhd etdi. 2000-ci ilin payızından dünya bazarına neftin verilməsini tədricən məhdudlaşdırdı. (61, s.210)

ABŞ siyasi xadimi Robert Maknamara nüvə silahının olmasını balanslı beynəlxalq münasibətlər yaratdığını, digər dövlətlərin bundan istifadə etməsinə imkan verməməyin zəruriliyini bildirir.(44, s.171)Bu fikir açıq-aşkar ABŞ-ın təkqütblü dünya yaratması iddiasını göstərir. ABŞ-ın Xansvilla şəhərindəki laboratiyada tədqiq edilən İraq raket sursatlarında sinir iflic qazının izləri görünsə də, eyni tədqiqat aparan Fransa və İsveçrə mərkəzlərində bu kimyəvi

maddələrin izi görünmədi. MAQATE ABŞ-ın İraqda kütləvi qırğın silahının olması fikrinin yanlış olduğunu əvvəlcədən bildirsə də, ABŞ İraqa hücum etdi.(94, s. 12.)

ABŞ-ın İraqa hücum etməsi ciddi problemlər yaratdı. Bir tərəfdən BMT Təhlükəsizlik Şurasının üzvləri arasında fikir ayrılığı, ixtilaf, bu beynəlxalq təşkilatın nüfuzunu itirmək qorxusu yarandısa, digər tərəfdən İraqda vəziyyətin mürəkkəbləşməsi ilə bağlı beynəlxalq terrorizm miqyaslı xarakter aldı. İraqla müharibədən sonra ərəb dövlətləri və İsrail arasında müharibə daha da qızışdı. Yaxın Şərqdə dini ixtilaflar gücləndi. İraqda özbaşınalıq edən amerikalı əsgərlərin müsəlmanların müqəddəs kitabını – Qurani-Kərimi təhqir etməsi müsəlmanlarda ABŞ-a qarşı nifrət yaratdı. İraqda müharibə ciddi humanitar, ekoloji böhranlara səbəb oldu. ABŞ-ın bu siyasəti insanlara mənəvi zərbə vurdu, psixoloji təsir göstərdi, qorxu yaratdı. Unikal hərbi, siyasi qüvvəsindən sui-istifadə edən ABŞ-ın bu hərəkətinə Təhlükəsizlik Şurası üzvlərindən Rusiya, Fransa, Almaniya öz etirazlarını bildirsələr də, onun planlarına mane ola bilmədilər. Cimmi Karterin prezidentliyi dövründə milli təhlükəsizlik üzrə məsləhətçi işləmiş Zbiqnev Bjezinski amerika hərbçilərinin iraqlılar üzərində işgəncələr aparmasının ABŞ-a böyük zərər vurduğunu bildirərək yazır ki, ABŞ-a qarşı nifrət heç vaxt bu dərəcədə çox olmamışdır. İndi ABŞ itirdiklərini qaytarmalıdır. Əgər belə olmazsa, Amerika lider rolunu itirəcək və dünya güclü xaos içində olacaq. Bu gün anti-amerikanizm qlobal xarakter alıb, faciə ondadır ki, bu əhval-ruhiyəni özümüz yaratmışıq.(124)

2002-ci il noyabrın 8-də BMT Təhlükəsizlik Şurası kütləvi qırğın silahlarına malik olmaqda şübhəli sayılan İraqa tərksilahla bağlı öhdəliklərini yerinə yetirməyi təklif edən 1441 saylı qətnaməni qəbul etdi. Noyabrın 21-22-də Praqa zirvə görüşündə qəbul olunmuş xüsusi bir bəyannamədə NATO liderləri bu qətnamənin həyata keçirilməsinə dəstək olacaqlarını bildirdilər. Səddam Hüseynin bu öhdəliyə əməl etməməsinin Təhlükəsizlik Şurası üzvləri arasında şübhələrə səbəb olması onların bir qisminin təxirəsalınmaz hərbi addımları dəstəkləməyə, digərlərini isə silahlara nəzarət üzrə müfəttişlərə öz işlərini aparmaq üçün daha çox vaxt verməkdə təkid etməyə tələsdirdi.(27, s.24) NATO-nun üzvü olan Türkiyə Şimali Atlantika Müqaviləsinin 4-cü maddəsi çərçivəsində məsləhətləşmələr

aparmağı təklif etdi. Həmi maddədə deyilir:”Tərəflərdən hər hansının bir fikrinə görə, nə vaxt ki, onlardan hər hansı birinin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyi təhdid olunarsa, Tərəflər birlikdə məsləhətləşəcəklər.”(27, s.386) ABŞ 2003-cü ilin martında İraqın “azadlığı” əməliyyatına başladı və Səddam Hüseyn rejimini devirdi.

İraqda öz güc siyasətini həyata keçirdikdən sonra, ABŞ Şimali Koreyada, Liviyada, İranda, Pakistanda təhlükəli nüvə texnologiyasının olması fikrini ortaya atdı. Kütləvi qırğın silahları istehsalının qarşısı alınması inkişaf etmiş dövlətlərə, o cümlədən ABŞ-a, Rusiyaya da aiddir. Məlum olduğu kimi, inkişaf etmiş dövlətlər bu gün də dağıdıcı texnologiyanı leqal və qeyri-leqal yolla buraxırlar, satırlar, özlərinin düşməni hesab etdikləri dövlətlərə qarşı istifadə edirlər. Məsələn: Əfqanıstana, İraqa, Liviyaya ABŞ və onun müttəfiqlərinin hücumu zamanı müxtəlif növlü raketdən istifadə edilmişdir. XX əsrin 80-ci illərində ABŞ nüvə proqramı üçün xammal, bahalı avadanlıqlar verirdi. Bunlarsız İraq heç nə edə bilməzdi. ABŞ-ın Müdafiə naziri Kolin Pauel özü etiraf etdi ki, İraqın müharibədə hərəkət etməsi üçün 1200 raketi var.

Rusiya Fransa və Almaniya ilə birlikdə sülh və təhlükəsizliyi təmin etmək üçün ABŞ-ın İraqa qarşı hücumu əleyhinə çıxdı, İraq problemini siyasi yolla həll etməyi, Təhlükəsizlik Şurasının sanksiyası olmadan hərbi əməliyyatlar keçirilməsinin mənfi nəticələr verəcəyini bildirdi.

C.Buşun İraqa hücumunu Böyük Britaniyanın baş naziri T.Bleyer dəstəklədi. Fransa prezidenti J.Şirak, Almaniya kansleri H. Şreyder, Yaponiyanın baş naziri C.Koudzimi C.Buşun siyasətini tənqid etdilər. Çin Xalq Respublikası İraq probleminin sülh yolu ilə həll edilməsinin vacibliyini dəfələrlə qeyd etmişdi. 2003-cü il martın 24-də ABŞ İraqa qarşı müharibəyə başlayanda, Çinin baş naziri Ven Tzyabo Pekində Pakistanın baş naziri ilə görüşündə Çinin mövqeyini belə izah etdi: «Çin İraqın ərazi bütövlüyü və suverenliyinin tərəfdarıdır. İraqda müharibəni tez kəsmək lazımdır. İraq problemi yalnız sülh yolu ilə həll edilməlidir.(64, s. 24.)

Çin İraq probleminin BMT səviyyəsində siyasi, diplomatik yolla həll edilməsi, BMT ekspertlər qrupunun İraqda Kütləvi Qırğın Silahlarının tədqiq etməsinin gücləndirilməsi, Təhlükəsizlik

Şurasının 1441 saylı qətnaməsinə nəzarət etmək və İraqın BMT Təhlükəsizlik Şurasının qətnaməsini şərtsiz yerinə yetirməsi lehinə idi. Çinin İraqdakı keçmiş səfiri Sun Biqanın fikrincə, «İraqla müharibənin hüquqi əsası yoxdur. ABŞ, Böyük Britaniya və onlara qoşulan ölkələr BMT qətnaməsi və beynəlxalq hüquq normalarını pozdular, digər ölkələr üzərində mütləq üstünlüyü ilə ABŞ özünün mütləq təhlükəsizliyini həyata keçirmək istəyir.» Əksər alimlər hesab edirlər ki, İraqla müharibə ABŞ-ın hegemonluğu altında «yeni tipli» beynəlxalq münasibətlər yaratmaq mərhələsidir.(97, s. 58.)

İraq böhranının aradan qaldırılması çoxtərəfli əməkdaşlıq nəticəsində ola bilər. BMT-nin baş katibi K.Annan İraqa səfərindən sonra bildirdi ki, «əgər Təhlükəsizlik Şurası ümumi mövqedən çıxış etsə, İraq böhranının həll edilməsi mümkündür. İraqın suverenliyini tam bərpa etmək üçün Təhlükəsizlik Şurasında yekdillik olmalıdır.»(34, s. 5)

2004-cü ilin iyununda seçkilər keçirmək üçün K.Annan İraqa missiya göndərdi. Əhalinin qırılmasından qəzəblənən iraqlılar amerikalılardan ölkəni tərk etməyi tələb edirdilər. Hakimiyyətin iraqlılara verilməsi və ölkə iqtisadiyyatının bərpa edilməsinə, koalisiyaya qoşulmayan dövlətləri - Rusiyanı, Fransanı, Almaniyanı buraxmadığını bildirən ABŞ-ın İraqın dövlət quruculuğunda edəcəyi islahatlar dini və milli zəmində yeni münaqişələr yarada bilər, belə ki, güclü, vahid İraq dövləti deyil, zəif federativ dövlət qurmağa can atan ABŞ İraqı iki dövlətə – ərəb və kürd dövlətlərinə, yaxud üç dövlətə – ərəb-şiə, ərəb-sünni və kürd dövlətinə parçalamağa cəhd edir. H.Kissincer yazır ki, S.Hüseyndən sonra İraq nə çox güclü olmalıdır ki regionda hegemonluq etsin, nə də çox zəif olmalıdır ki İran kimi öz düşmən qonşularından asılı vəziyyətə düşsün. (61, s.215)

Araşdırmalardan belə nəticəyə gəlmək olar ki, İraq öz neft ehtiyatı, inkişaf etmiş sənayesi, kənd təsərrüfatı ilə daxili tələbatlarını ödəyən dövlət olmuşdur. ABŞ-ın İraqa hücumu terrorizmin sahəsini genişləndirdi, ekstremistlər, terrorçular xaricdən İraqa gəldilər. İraq problemini həll etmək üçün Təhlükəsizlik Şurasının üzvləri arsında ziddiyyətlər, ABŞ-ın hegemonluq həvəsi aradan qaldırılmalı, Təhlükəsizlik Şurasında islahatlar aparılmalıdır. R.Keyqan yazır ki, Avropa daha çox beynəlxalq hüquq normalarını

diplomatik danışıqlar və əməkdaşlıq yolu ilə aparmaq istəyirsə, ABŞ beynəlxalq hüquq normalarının pozulduğu yerdə dərhal hərbi qüvvələrin tətbiqini tələb edir.(59,s.155) Onu da əlavə etmək istərdim ki, ABŞ özü çox vaxt beynəlxalq hüquq normalarını pozur.

ABŞ-ın Yaxın Şərq dövlətlərinin daxili işlərinə müdaxiləsi İraqla başa çatmadı. ABŞ Liviyada, Suriyada, Yəməndə mövcud rejimin devrilməsini zəruri hesab etdi. BMT Təhlükəsizlik Şurası Liviyaya, Suriyaya, Yəmənə dair qətnamə qəbul edəndə daimi üzvlər arasında ixtilaf yarandı. Rusiyanın baş naziri V.V.Putin BMT Təhlükəsizlik Şurasının 1973 saylı Liviya barədə qətnaməsini tənqid etdi, o, bu hadisəni orta əsrlər səlib yürüşü ilə müqayisə edərək bildirdi ki, "Muəmmər Qəddafi rejimi demokratiyanın meyarlarına cavab vermir, bu hal suveren dövlətə xarici müdaxiləyə imkan yaradır. lakin digər ölkəyə həmin ölkənin daxili münaqişəsinə müdaxilə etməyə haqq qazandırmır." Putin Rusiyanın qətnamənin əleyhinə səs verdiyini qeyd edərək, ABŞ-ın Klinton dövründə Yuqoslaviyaya, Buş dövründə İraqa və Əfqanıstana hücumunu xatırlatdı, digər ölkəyə qüvvə tətbiq etməyin ABŞ-ın siyasətində möhkəm yer tutduğunu bildirdi.

Liviya barədə qətnamənin layihəsi Livan, Böyük Britaniya, Fransa və ABŞ tərəfindən irəli sürülmüşdür. Səsvermə zamanı Təhlükəsizlik Şurasının 15 üzvündən 10-u qətnamənin lehinə səs vermiş, 5 ölkə, o cümlədən Rusiya, Çin və Almaniya, Hindistan və Braziliya qətnaməni dəstəkləməmişlər. Qətnamədə Liviya rəhbərliyinin qəddar rejimi, Liviya milli neft kompaniyasının və Mərkzi bankın fəaliyyətinin dayandırılması, təcili atəşkəs edilməsi, beynəlxalq humanitar hüquq və insan hüquqları daxil olmaqla, beynəlxalq hüquq normalarına riayət edilməsi, mülki əhalinin müdafiəsi üçün zəruri tədbirlər görüləcəyi göstərilmişdi. Liviya hökuməti adından Kaim bildirdi ki, bu qətnamə ölkənin vahidliyini təhlükədə qoyur və liviyalıların bir-birini öldürməsinə səbəb olacaq, Fransa, Böyük Britaniya və ABŞ-ın məqsədi Liviyanı parçalamaqdır. NATO ilə bu qətnamə müzakirə edilərkən təşkilatın baş katibi Anders Foq Rasmussen bildirdi ki, əgər BMT Təhlükəsizlik Şurası qanuni olaraq NATO-nun müdaxiləsini lazım bilərsə, NATO Liviyanın mülki əhalisini tam müdafiə etməyə hazırdır. Beynəlxalq koalisiya Liviya əleyhinə hava hücumuna keçdi. NATO bildirmişdi

ki, bombalama obyekti insanlar deyil, hərbi obyektlərdir. Lakin onlar heç bir hərbi obyekt olmayan rayonlarda mülki əhalini bombaladılar. ABŞ Liviya müxalifətçilərini maliyyələşdirdi. Liviyada əməliyyatlar 2011-ci il 11 mart tarixdən başlamış, həmin il oktyabrın 20-də Muəmmar Qəddafinin öldürülməsi ilə başa çatmışdır. (155)

Rusiya və Çin veto qoyduqları üçün Təhlükəsizlik Şurası Suriya barədə qətnamənin layihəsini müzakirəyə qoymadı. Braziliya, Hindistan və Cənubi Afrika da səsverməni dəstəkləmədiyini bildirdi. 32 ildir ki Yəmənin prezidenti olan Əli Abdulla Saleh rejiminin devrilməsi barədə Almaniyanın xahişi ilə Təhlükəsizlik Şurası iclas çağırsa da, Rusiya və Çin Yəmənə dair qətnaməni də dəstəkləmədi. (155) Bununla belə ABŞ tərəfindən maliyyələşən müxalifətçilərlə iqtidarın qarşıdurması nəticəsində yüzlərlə insan, öldürüldü.

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, ABŞ dünyanın müxtəlf regionlarında hər anda başını qaldırmağa hazır olan dövlətlərə demokratiyanı yaymaq pərdəsi altında təcavüz edərək ABŞ-ın dəstəyindən asılı olan elitanın hakimiyyətə gətirilməsinə və həmin regionları nəzarət altında, özündən asılı vəziyyətdə saxlamağa cəhd edir. İraq problemində Səddam Hüseyn, Misir problemində Hüsnü Mübarək, Liviya problemində Müəmmar Qəddafi, Yəmən problemində Əli Abdulla Saleh, Suriya problemində Başər Əsəd rejimlərinin devrilməsi ABŞ-ın Avrasiyada hegemonluq etmək siyasətində bəhanədir. Bu dövlətlərdə demokratik rejimin qurulması ABŞ-ın regiona müdaxiləsi ilə deyil, beynəlxalq hüquq çərçivəsində, universal, çoxtərəfli əməkdaşlıq, möhkəm sülh və təhlükəsizliyi təmin etməkdə böyük səlahiyyətlərə malik olan BMT səviyyəsində həllini tapmalıdır.

### 3.3. Fələstin problemi və BMT

Yarım əsrdən çoxdur ki, BMT səviyyəsində müzakirə edilərək qətnamələr qəbul edilməsinə, həlli yollarında bəzi təşəbbüslər, planlar irəli sürülməsinə baxmayaraq, Fələstin problemi Yaxın Şərqdə münaqişə ocaqlarından biri kimi qalmaqdadır. 1945-ci il aprelin 25-də BMT Təhlükəsizlik Şurasının yaradılması barədə danışıqlardan sonra Fələstin məsələsi ilə məşğul olmaq üçün İngiltərə-ABŞ komissiyası yaradıldı və 1947-ci ilin aprelindən 1948-

ci ilin mayınadək Fələstin məsələsi BMT-də müzakirə edildi. 1947-ci il noyabrın 29-da BMT Baş Məclisinin 181 saylı qətnaməsinə görə Fələstin ərazisinin 56 faizi yəhudilərə, 42 faizi ərəblərə, ərazinin 2 faizini təşkil edən Yerusəlim şəhəri BMT-nin himayəsinə verildi. Bu qətnaməyə görə ərazidə yaradılmış hər iki dövlətin – Yəhudi dövləti və Fələstin dövlətinin vahid valyuta, nəqliyyat vasitəsindən istifadə etmək hüquqları var idi. Vahid gömrük birliyi, iqtisadi layihələr, su, enerji ehtiyatlarının buraxılması və s. nəzərdə tutulmuşdur. ABŞ və İngiltərə Baş Məclisin bu qərarından narazı olaraq Baş Məclisin qərar qəbul edən komitəsi ilə əməkdaşlıqdan imtina etdilər. 1948-ci il mayın 15-də İngiltərənin Fələstin üzərində mandat müddəti itdi, Təl-Əvivdə İsrail yəhudi dövlətinin yaradılması elan edildi. ABŞ və İngiltərəyə arxalanan İsrail dəfələrlə ərəblərə qarşı hərbi əməliyyatlar aparmış, Fələstin dövlətinin hesab edilən torpaqları, eləcə də Misir, Suriya torpaqlarını işğal etmişdir.(56, s.234-235) Təhlükəsizlik Şurasının hərbi əməliyyatları dayandırmaq barədə qətnamələrinə məhəl qoymayan İsrail ABŞ-ın dəstəyilə BMT-nin qərarlarını rədd etmiş, Fələstinə qarşı təcavüzkar siyasətini davam etdirmişdir. BMT Baş Məclisinin qaçqınların vətənlərinə qayıtması barədə 1948-ci ildə 194 saylı qətnaməsi, Təhlükəsizlik Şurasının Yerusəlimi İsrailə birləşdirərək paytaxt elan edilməsi barədə İsrailin qərarlarının qeyri-reallığını bildirən 251, 267, 271, 298 saylı qətnamələri nəticəsiz qalmışdır. Hər iki xalq, istər ərəb xalqı, istərsə də yəhudi xalqı ölkəni öz yurdları hesab edirlər. Yəhudilər bu torpaqlarla tarixi və mənəvi bağlılıq haqqı ilə, ərəblər isə bu torpaqlarda çoxəsrlik yaşayış haqqı ilə öz dövlətlərini yaratmaq istəyirlər.(23, s. 13.)

Ərazidə yəhudilərin süni əksəriyyət təşkil etməsi üçün Fələstinə bir neçə yəhudi köçü olmuşdur. XIX əsrdə Böyük Britaniya, ABŞ, Fransa, Rusiya, Avstriya Yerusəlimdə öz konsulluqlarını açdıqdan sonra Avropa ilə dəniz əlaqələri yaradıldı, Yerusəlimin əhalisi çoxaldı. 1860-cı ildə yəhudilər şəhər divarları ətrafında ilk məhəllələrini tikdilər, sonrakı iyirmi beş ildə daha yeddi məhəllə saldılar. Beləliklə, sionist hərəkatı üçün zəmin yarandı. XIX əsrin sonu XX əsrin əvvəllərində Şərqi Avropadan ölkəyə yəhudilərin ilk axını oldu. (24, s.14.) 1500-cü ildə Fələstin ərazisində 5000 yəhudi var idisə, I Dünya müharibəsi başlayanda onların sayı 85000 idi. Britaniya ordusu Yerusəlimə gələrək Osmanlı imperiyasının

ağalığına son qoydu. 1922-ci ildə Millətlər Cəmiyyəti Fələstini idarə etmək üçün Böyük Britaniyaya mandat verdi.

Yəhudilərin Fələstinə ikinci axını I Dünya müharibəsindən II Dünya müharibəsinə qədərki dövrdə oldu. 1919-1923-cü illərdə Rusiyadan kənd təsərrüfatı ilə məşğul olan 35 000-ə yaxın, 1924-1932-ci illərdə Polşadan tikinti işləri ilə məşğul olan 60 000-ə yaxın yəhudi Fələstin torpaqlarına gəldi. 1933-cü ildə Hitler Almaniyada hakimiyyətə gələndən sonra əksəriyyəti alimlərdən ibarət olan 165 000 yəhudi Fələstinə köçdü.(24, s.20.) 1939-cu ildə Böyük Britaniya yəhudilərin repatriasiyasına məhdudiyyət qoyan «Ağ kitab» nəşr etdi.

Yəhudilərin Fələstinə üçüncü axını II Dünya müharibəsindən sonra oldu. Müharibə zamanı nasistlər Avropa yəhudilərinin məhv edilməsi planını həyata keçirərək 6 milyon yəhudi, o cümlədən 1,5 milyon uşağı öldürdülər, kameralarda boğdular. 1945-1948-ci illərdə gizli yollarla Fələstinə 85 000 yəhudi gəldi.(24, s. 21)

Fələstin ərəbləri yəhudilərin kütləvi axınına, dövlət yaratmaq iddiasına qarşı susmadıqları üçün Böyük Britaniya Fələstin problemini BMT Baş Məclisinə müzakirəyə çıxarmağı təklif etdi.

Yəhudilərin dördüncü axını fələstinlilərin öz yurd-yuvalarından didərgin salınmasınadan sonra oldu. 1949-cu ildə, əsasən Avropadan 50 000, 1951-ci ilin sonunda 687 000 (bunlardan 300 000-i ərəb ölkələrindən gəlmişdi) yəhudi Fələstin torpaqlarına gəldi. Burada 1959-cu ildə artıq 2 milyon yəhudi var idi.

İsrailin inkişafı ilə əlaqədar, eyni zamanda sionizmlə bağlı yəhudilərin beşinci axını XX əsrin 80-90-cı illərində oldu. SSRİ, Şərqi Avropa və Efiopiyadan 750 minə yaxın yəhudi köçdü. Beləliklə, Fələstin torpaqlarında süni surətdə yəhudi çoxluğu təşkil edildi.

Ərəb dövlətləri İsrailə qarşı müharibə edəndə ABŞ, Böyük Britaniya öz maraqlarını qorudular. Fələstin ərəbləri üçün ayrılmış ərazinin çox hissəsi və Yerusəlim şəhərinin yarısı yəhudilər tərəfindən işğal edildi, İordaniya çayının qərb sahili və Yerusəlimin digər hissəsi İordaniya qoşunu tərəfindən işğal edildi, Qəzzə şəhəri Misirin nəzarəti altına keçdi. Bu zaman Böyük Britaniya İordaniyaya, ABŞ İsrailə kömək etdi. İsrail bir milyondan çox ərəbin öz yerlərinə qayıtmasına icazə vermədi. BMT komissiyası 1951-ci

ildə fəaliyyətini dayandırdı. XX əsrin 60-cı illərində vəziyyət yenidən mürəkkəbləşdi. ABŞ-a arxalanan İsrail Suriya ərazisini bombaladığı üçün Suriya, Misir, İordaniya ona qarşı müdafiə haqqında saziş bağladılar. 1967-ci il iyunun 5-də bu üç dövlətə qarşı hərbi əməliyyatlar keçirən İsrail BMT Təhlükəsizlik Şurasının atəşin dayandırlıması haqqında qətnamələrinə məhəl qoymadı, Qəzzə bölgəsini, Sina yarımadasını, Yerusəlimin şərq hissəsini, İordaniya və Suriyanın bir hissəsini işğal etdi. Noyabrın 22-də BMT-nin işğal edilən ərazilərdən qoşunların çıxarılması barədə qətnaməsinə İsrail etiraz etdi. BMT-nin münaqişəni nizama salmaq üçün İsveç səfiri Qunnar Yarrinqin rəhbərliyi ilə təşkil etdiyi missiyanın və bu işgüzar diplomatın səyi heç bir nəticə vermədi. İsrailin bu hərbi əməliyyatları nəticəsində iki milyon fələstinli İordaniyaya, Suriyaya, Livana qaçdı. Fələstinlilər torpaqlarının qaytarılmasını tələb etdilər. 1973-cü il oktyabrın 22-də BMT Təhlükəsizlik Şurası vuruşan tərəflərdən dərhal hərbi əməliyyatları dayandırmaq və sülh müqaviləsi bağlamaq üçün danışıqlara başlamaq barədə qətnamə qəbul etdi. Təhlükəsizlik Şurasının 242, 338 saylı qətnamələrinə müvafiq olaraq, İsrail Misir torpaqlarından qoşunlarını çıxardı, Süveyşdən 30 km geri çəkilərək Sina yarımadasını Misirə qaytardı, İsrail və Misir qoşunları arasında BMT qüvvələri yerləşdirildi. 1967-ci ildə İsrail tərəfindən işğal edilmiş İordan çayının qərb sahilləri üç zonaya bölündü. (61, s.185) “A” zonasında, əsasən fələstinlilərin yaşadığı Qərb sahilinin təxminən 45 faizi, həmçinin Qəzzə bölgəsi fələstinlilərin nəzarəti altına verildi; bu zonada fələstin polis qüvvələri təminən 13 min təşkil edirdi. “B” zonasında vətəndaş hakimiyyəti Fələstinə aid olsa da, nəzarət İsrail tərəfindən həyata keçirilir. Yəhudi əhalisinin məskunlaşdığı “S” zonası İsrailin tam nəzarəti altında qaldı.(61, s.186) İsrail 1967-ci ildə tutduğu torpaqların bir hissəsini, 1973-cü ildə tutduğu torpaqların hamısını, Suriyaya qaytardı. Suriya və İsrail qoşunları arasında BMT qüvvələri yerləşdirildi. 1978-ci ildə Livanın cənubu İsrail ordusu tərəfindən işğal edildi. Livan BMT Təhlükəsizlik Şurasına müraciət etdi. Təhlükəsizlik Şurası İsrail qoşunlarının Livanın cənubundan çıxarılması barədə qətnamə qəbul etdi. 1982-ci ildə İsrail Livanın üçdə birini işğal etdi, Qərbi Beyruta daxil oldu. BMT Təhlükəsizlik Şurasının 1988-ci ilin yanvarında qəbul etdiyi 607 və 608 saylı qətnamələrdə İsrailin işğal etdiyi

torpaqlarda əhaliyə qarşı cəza tədbirləri tətbiq etdiyi pisləndi, ilk dəfə olaraq, işğal olunmuş ərazinin Fələstin torpaqları olduğu qeyd edildi. 1988-ci ilin noyabrında Əlcəzairdə Fələstin Milli Şurasının XIX sessiyasında Milli Şura BMT Təhlükəsizlik Şurasının 1947-ci il noyabrın 29-da qəbul etdiyi 181 saylı qətnaməni tanıdığını bildirərək paytaxtı Yerusəlim olmaqla müstəqil Fələstin dövləti yaradıldığını elan etdi. 1989-cu ildə bu dövlət 50-dən çox ölkə tərəfindən tanındı. Fələstin BMT Təhlükəsizlik Şurasının qətnaməsində göstərilən 42 faiz ərazidə haqlı olaraq öz dövlətinin yaradıldığını elan etsə də, Fələstin ərəbləri torpaqlarından didərgin salındı. 1992-ci ilin sentyabrında Fələstin Azadlıq Təşkilatının sədri Yasər Ərafatla İsrailin baş naziri İshaq Rabin arasında danışıqlar zamanı Fələstin tərəfi İsrailin mövcudluğunu rədd edən bəndləri çıxarmağı öhdəsinə götürdü. Vaşinqtonda olan bu danışıqlarda müqavilənin həyata keçirilməsində dörd mərhələdən ibarət, bölünmüş Fələstin özünüidarəsinə keçidin beş il müddətinə bir sıra prinsipləri müəyyənləşdirilmişdi. Birinci mərhələ 1994-cü ilin mayında Qəzzə bölgəsində və Hevrok rayonunda özünüidarəyə keçiddir. İkinci mərhələ 1994-cü ilin avqustunda İordaniya çayının qərb sahilində təhsil, mədəniyyət, səhiyyə, sosial təminat, birbaşa vergi və turizm sahəsində Fələstin nümayəndələrinə səlahiyyət verilməsidir. Üçüncü mərhələdə Qərb sahilindəki Fələstin özünüidarəsi özünün seçkili orqanı olan Fələstin Şurasının köməkliyi ilə genişlənməli, daxili məsələlərin həllinə şərait yaradılmalı idi. Dördüncü mərhələ son status üzrə tərəflərin danışıqları mərhələsi idi. 1996-cı ilin mayında keçirilməli olan bu mərhələdə qaçqınlar, yaşayış məntəqələri, təhlükəsizlik, sərhədlər, Yerusəlim haqqında hər iki tərəfin marağını təmsil edən bir çox məsələlər həll edilməli idi. Lakin İsrailin baş naziri İ.Rabin 1995-ci ildə ekstremist yəhudi tərəfindən öldürüldü. Baş nazir vəzifəsi xarici işlər naziri Şimon Peresə tapşırıldı. 1996-cı ilin may seçkilərində isə hakimiyyətə Likud partiyasının lideri Benyamin Netanyahu başda olmaqla millətçi, dini, mərkəzçi elementlərdən ibarət olan koalisiyalı hökumət gəldi. Yuxarıda qeyd edilən danışıqlar mərhələsi həyata keçirilmədi. 1996-cı il sentyabrın 28-də BMT Təhlükəsizlik Şurası Qəzzə bölgəsi və İordaniya çayının Qərb sahilində zorakılığın artdığını ittiham edən qətnamə qəbul etdi. 1997-ci ilin yanvarında razılaşma nəticəsində Hevrok şəhəri Fələstin

Muxtariyyatının nəzarətinə verildi. 2000-ci ildə vəziyyət yenidən gərginləşdi. May ayında Fələstin Azadlıq Təşkilatının rəhbəri Y.Ərafat Mahmud Abbasın başçılığı ilə muxtariyyatın yeni hökumətini təşkil etdi. 2004-cü ildə Y.Ərafat vəfat etdikdən sonra M.Abbas Fələstin Azadlıq Təşkilatının lideri oldu.

2003-cü ilin noyabrında ABŞ prezidenti Corc Buş «Böyük Yaxın Şərq» ideyasını irəli sürdü. Vaşinqtonun bu ideyasına görə Böyük Yaxın Şərq qərbdə Mərakeşdən, şərqdə Pakistana qədər, şimalda Türkiyədən, cənubda Sudana qədər ərazini əhatə etməli idi.(60, s.69.) 2004-cü ilin iyununda Amerikanın turist adası olan Si-Aylenddə keçirilən «böyük 8-liyin» görüşündə ABŞ bu ideyanı dəstəkləməyi təklif etdi. ABŞ-ın bu təşəbbüsü Yaxın Şərq regionunda «demokratiyanı dəstəkləyən ocaqlar» yaratmaq istəyi və demokratiyanı yaymaq pərdəsi altında ərəb dünyasını parçalamaq cəhdi ilə bağlı idi. Lakin Misir prezidenti Hüsnü Mübarəkin sözləri ilə desək «demokratik islahatı xariclə əlaqələndirmək olmaz». Regionun digər əksər liderlərinin də fikri belədir. Demokratiyanı kənardan gətirmək mümkün deyildir.

Fələstin probleminin həll edilməsində digər təşəbbüslərdən biri də Fələstin tərəfi və İsrailin iştirak etdiyi Cenevrə sazişidir. Bu sazişi Yaxın Şərq problemini nizama salmaqda vasitəçi olan BMT, Avropa İttifaqı, ABŞ və Rusiyanın işləyib hazırladığı «Yol xəritəsi»nin nəticəsi hesab etmək olar. Sənədin əsas prinsiplərindən biri İsrailin 1967-ci ildə olan sərhədlərinə qayıtması və 2005-ci ildə Fələstin dövlətinin yaradılmasıdır. Cenevrə sazişinin layihəsi İsrailin keçmiş ədliyyə naziri Yossi Beylin və Fələstin muxtariyyatının keçmiş mədəniyyət naziri Yaser Abdər Rabbo tərəfindən verilmişdir. Layihənin məqsədi İsrail və Fələstinin daimi statusu barədə müqavilənin razılaşdırılmış modelini hazırlamaq idi. Layihədə İsrail-Fələstin münaqişəsinin əsas problemi olan beynəlxalq hüquqda insan hüquqlarına zidd olaraq İsrailin 1948-1949-cu illərdə işğal etdiyi Fələstin ərazilərindən ərəblərin etnik təmizləndiyi göstərilməmişdir. Həmin vaxt İsrailin işğal etdiyi 400-ə yaxın Fələstin kənd və şəhərlərinin əhalisi didərgin salınmışdır. İsrailin 1950-ci ildə «Ölkədə olmayanların mülkiyyəti haqqında», 1952-ci ildə «Yəhudi sionist təşkilatının hüququ haqqında», 1953-cü ildə «Yəhudi milli fondu haqqında» aparteid qanunların ləğv edilməsi barədə Cenevrə

sazişində göstərilməmişdi. Yəni 1967-ci ilə qədər İsrail dövləti əhalisinin 20 faizini təşkil edən, hazırda ölkədən kənarlarda sığınacaq tapan 1 milyondan çox Fələstin ərəbinin vətənə qayıtması, öz mülkiyyətinə sahib olması, yəhudilərlə bərabər hüquqlara malik olması barədə məsələ qoyulmamışdı. 1993-cü il Oslo sazişinin dağılmasının səbəbi də belə çatışmamazlıqlar idı. İsrailin qəbul etdiyi «İştirak etməyənlərin mülkiyyəti haqqında» qanuna görə Fələstin ərəbləri torpaqdan, sudan, mülkiyyətdən bərabər istifadə edə bilməz. Qanunda «S» vətəndaşlığı deyilən təbəqəyə İsrail ərazisində yaşayan ərəblər daxil edilir. Bu insanlar vergi vermək və səsvermədə iştirak etməklə yanaşı 1948-ci ilə qədər onlara məxsus olan torpaq, ev, bina, korporasiya, aksiya, bankda hesab və sairədən məhrum olurdular. İsraildə yaşayan 200 000 Fələstin ərəbi İsrail qanunvericiliyi ilə «S» vətəndaşlığı təbəqəsinə aid edilir. 1947-ci il 29 noyabr tarixli BMT Təhlükəsizlik Şurasının qətnaməsinə görə Böyük Britaniya mandatı altında Fələstin torpaqlarında «Yəhudi dövləti» və «Ərəb dövləti» yaratması barədə qətnaməyə müvafiq «Yəhudi dövləti»ndə 4 milyona yaxın Fələstin ərəbi yaşayır. Deməli, onların 1948-ci ildə yaradılan «Yəhudi dövləti» vətəndaşlığı almaq hüququ var. Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnaməyə görə «Ərəb dövləti»ndə yaşayan yəhudilərin «Ərəb dövləti» vətəndaşlığı, «Yəhudi dövləti»ndə yaşayan ərəblərin «Yəhudi dövləti» vətəndaşlığı almaq hüququ var. Lakin İsrail knesseti 1948-ci il İnsan hüquqları barədə ümumi bəyannaməni və beynəlxalq hüquq normalarını yuxarıda adı çəkilən qanunlarla pozur. Beləliklə, «Yəhudi dövləti»nin qanuni vətəndaşları olan Fələstin ərəbləri öz hüquqlarından məhrum edilir. İnsan hüquqları barədə ümumi bəyannamənin 15-ci maddəsində göstərilir ki, hər kəsin vətəndaşlıq hüququ var, heç kəs icazəsiz milli mənsubiyyətdən məhrum edilə bilməz, heç kəsin vətəndaşlığı dəyişə bilməz. İsrail dövlətinin öz vətəndaşları üçün vahid vətəndaşlıq qanunu yoxdur.

ABŞ İsrail-Fələstin münaqişəsində İsrailə havadarlıq edir. Lakin ABŞ-ın əldə tutduğu «demokratiyanı yaymaq» siyasəti İsraildə görünmür. Demokratik ölkənin vətəndaşları siyasi proseslərdə, vətəndaşlıq qanunlarında, kommunal və sosial xidmətlərdə və s. bərabərhüquqlu olmalıdırlar. İsrail knesseti vətəndaşlarını vətəndaşlıq təbəqələrinə ayırır. Hüquqlarını əllərindən almaqla, İsrail

dövləti Fələstin ərəblərini indiki ərazisinin (işğal etdiyi) 93 faizinə daxil olmaqdan məhrum edir. BMT 1966-cı ildə dünyada aparteizmin qarşısını almağa xidmət edən «İrqi diskrimininasiyanın bütün formalarının qadağan edilməsi barədə» konvensiya qəbul etməsinə, 1975-ci ilin noyabrında Baş Məclisiin 3379 saylı qətnaməsində «sionizmi rasizm və irqi diskriminasiya» kimi qəbul etməsinə baxmayaraq, 1991-ci ilin oktyabr-noyabr aylarında Madriddə keçirilən Yaxın Şərq sülh konfransında ABŞ və SSRİ-nin səyi nəticəsində qəbul edilən 46/86 saylı qətnamədə «sionizmin rasizm və irqi diskriminasiya forması olduğu rədd edilir»

«Yol xəritəsi» adlanan beynəlxalq Yaxın Şərq tənzimləşməsi planına müvafiq olaraq, İsrail 2001-ci ilin martından Fələstin ərazisində salınmış yəhudi məskənlərinin sökülməsini planlaşdırır. (89, s.17) Dünya birliyi Qəzzə bölgəsində və İordan çayının qərb sahilində yəhudi məskənlərinin mövcudluğunun beynəlxalq hüquqa uyğun gəlmədiyini bildirir. Lakin yəhudilərin bu ərazilərdən köçürülməsinə nümayişçilər etiraz edirlər. Məsələn, 1996-cı ildə Fələstin torpağında Ramalla şəhərindən şimalda salınmış Amona yəhudi məskənindən sakinlərin evakuasiyasına qarşı İsrail əsgərlərinin nümayişçilərlə toqquşması oldu.(28)

2004-cü ilin aprelində baş nazir A.Şaronun köməkçisi İsrael Maymon ABŞ prezidenti C.Buşla birlikdə fələstinlilərdən ayrılma planı («Aryer Şaron planı») hazırladılar.( 89, s.17-18) Planda iki dövlətin olması barədə sülh danışıqları göstərilir. İsrail «təhlükəsizliyi təmin etmək üçün» ayrılma planı irəli sürür. Ümumi prinsiplərdə İsrailin maraqları irəli çəkilir. Fələstin terrorizmilə mübarizə göstərilirsə, sionistlərin terrorlarına göz yumulur. Çünki İsrail sionizmin terrorçu ideyasını etiraf etmir. Planda İsrailin Qəzzə bölgəsindən və Samariyanın şimal əraziləri olan Qanim, Kadim, Xomeş və Sanurdan qüvvələrini çıxardaraq bu rayonların sərhədlərində yerləşdirməsi nəzərdə tutulurdu. İsrail Qəzzə bölgəsinə nəzarət etməli, sularda hərbi əməliyyatları davam etdirməli idi. Vətəndaşların bərabərhüquqluluğu unitar, yaxud federativ və ya konfederativ dövlətin konstitusiyası ilə təmin edilməli, BMT himayəsi altında olan Yerusəlim şəhəri iqtisadi birlikdə olmalı idi. «İslah uğrunda ərəb hərəkatı» partiyasından olan İsrail parlamentinin üzvü Əhməd Tibi hesab edir ki, «əgər İsrail hökuməti siyasi çəpər

deyil, təhlükəsizlik divarı yaratmaq istəyirsə, onu «yaşıl xəttin» sərhəddində, yəni 1967-ci ilə qədərki sərhəddə, beynəlxalq hüquq normalarını pozmadan, fələstinlilərin hüquqlarını tapdamadan yaratsın. (36, s. 155)

BMT baş katibi K.Annan İsrail hökumətini humanitar qanunvericiliyi pozmamağa çağırır. Digər tərəfdən İsrail-Fələstin münaqişəsinin nizama salınmasında iştirak edən BMT-nin Yaxın Şərqdə nümayəndəsi Terye Red-Larsen İsraili Fələstin ekstremistlərinə təsir edə bilməməkdə, islahatlar keçirməməkdə günahlandırdı. Hadisələri düzgün qiymətləndirməyi bacarmayan Terye Red-Larsen Fələstin torpaqlarında persona non-qrata elan edildikdə, bunu özbaşınalıq və hədələmə siyasəti kimi qiymətləndirdi.

2006-cı il yanvarın sonlarında Fələstin muxtariyyatına parlament seçkilərində İsraildə, ABŞ-da, Avropa Birliyi ölkələrində terrorçu təşkilatlar sırasına daxil edilən HƏMAS qruplaşması qələbə çaldıqdan sonra Fələstin probleminin həllinə ümid azaldı. İsrailin baş naziri vəzifəsini icra edən Exüd Olmert açıq surətdə HƏMAS-ın qələbəsini «təəssüf edilən hadisə» adlandırdı.(30) İsrail təbliğat apararaq, yeni hökumətlə münasibətlər yaratmamağa çağırır. Belə ki, E.Olmert Almaniya kansleri Angela Markellə görüşdükdən sonra, İsrail və Almaniyanın HƏMAS-ın formalaşdırdığı hökumətlə əməkdaşlıq etməyəcəyini bildirmişdi.(30)

ABŞ və Avropa Birliyi HƏMAS-dan zorakılığı dayandırmağı və İsrail dövlətini tanımağı tələb edirlər. HƏMAS-ın siyasi lideri Xalid Meşaal qruplaşmanın heç vaxt İsraili tanımayacağını bildirir.(29) ABŞ dövlət katibi Kondaliza Rayz «HƏMAS zorakılıq və İsraili məhv etmək niyyətindən əl çəkməzsə, ABŞ administrasiyasının Fələstin muxtariyyatına yardım proqramını azalda biləcəyini demişdi. (30) Fələstinin yeni baş naziri İsmayıl Xanıya Fələstin Muxtariyyatına qarşı İsrailin tətbiq etdiyi maliyyə məhdudiyyətinə əhəmiyyət vermir, Qərbin Fələstinə yardımının azaltmasını ciddi problem saymır, ərəb və İslam dünyasına arxalanır.

Fələstin probleminin həll edilməsi üçün birinci növbədə, ABŞ öz maraqlarından əl çəkməli, İsrailə havadarlıq etməməlidir. ABŞ-ın İsraili dəstəkləyərək problemin həllinə mane olması BMT-nin keçmiş baş katibi Butros Butros Qallinin sözlərində ifadə

olunmuşdur: "Son 12 ayda biz İsrailin işğal etdiyi ərazilərdə törətdiyi fəlakətlərin şahidi oluruq: evlər dağıdılır, uşaqlar öldürülür… Ərəb dünyası zəif, gücsüzdür, ABŞ İsraili dəstəkləyir." (153) Vaşinqtonla birlik yaradan ərəb hökuməti ərəb kütləsini zəiflədir. Panarabizm böhran keçirir. Bipolyar sistemi şəraitində fələstini SSRİ müdafiə edirdi. ABŞ nə qədər ki, İsraili dəstəkləyir, ərəb dünyası Amerika ilə münasibətləri yaxşılaşdıra bilməz.» İsrail-Fələstin münaqişəsinin həll edilməsinə B.B.Qali belə münasibət bildirir: «2010, yaxud 2015–ci ilə qədər ərəblər Fələstində israillilərdən çox olacaq. Artıq İsrail əhalisinin 20 faizi ərəblərdir. Sonra Qəzzə bölgəsi və İordaniyanın Qərb sahili əhalisi daxil olmaqla, ərəblər əhalinin 30 - 40 faizini təşkil edəcək. Bu, CAR-da 1980-ci ildə olduğu kimi olacaq. Orada da qaradərililər üstünlük təşkil etdilər, 20 ildən sonra isə yəhudi azlığı ərəb çoxluğu tərəfindən idarə ediləcəkdir.»

İkincisi, ərəb dövlətləri arasında birlik olmalıdır. Hər bir ərəb dövləti öz maraqlarını qoruyur. Ayrı-ayrı ərəb dövlətləri ilə saziş bağlanması onların birliyini məhv edir. Regional kollektiv təhlükəsizlik sistemi yaratmaqla hər iki tərəfin daxili sabitliyini təmin etmək olar. Regionda qlobal sülh danışıqları olmalıdır. Fələstin məsələsinin həllində İsrail Misir prezidenti Ənvər Sadatın timsalında gözlənilməz kömək aldı. Ə.Sadat İsrailin işğal etdiyi torpaqların Misirə qaytarılmasını ön palana, Fələstin problemini arxa plana çəkdi. Ə.Sadat islam ekstremistləri tərəfindən öldürüldükdən sonra Hüsnü Mübarək onun xarici siyasət kursunu davam etdirdi, İsrail Sina yarımadasını Misirə qaytardı, Fələstin problemi isə regionda əsas problem olaraq qaldı.

Üçüncüsü, ABŞ-ın BMT bayrağı altında öz maraqlarını həyata keçirməsinə son qoyulmalıdır. 1996-cı ildə İsrail Livanın cənubunu işğal edərkən BMT bayrağı altında sığınacaq tapmaq ümidilə livanlılar güllə yağışı altında BMT müşahidəçilərinin Kanada yerləşən səngərlərinə qaçarkən yüzlərlə dinc sakin öldürüldü. BMT-nin bu məqsədlə apardığı təhqiqat zamanı ekspertlər nəticəyə gəldilər ki, bu plan əvvəlcədən düşünülmüşdür. ABŞ BMT baş katibi B.B.Qaliyə Kanada təhqiqat barədə məruzə dərc etdirməməyi məsləhət gördü. Baş katib həqiqəti bilməyə dünyanın haqqı olduğunu bildirdi. Bu, ABŞ tərəfindən xoşagəlməz qarşılandı və B.B.Qalinin

yenidən 1996-cı ildə baş katib vəzifəsinə seçilməsinə ABŞ veto qoydu.

Dördüncüsü, Təhlükəsizlik Şurasında islahatlar aparılmalı, veto hüququ ləğv edilməlidir. ABŞ-müsəlman dünyası qarşıdurması göz qabağındadır. Müsəlmanlarda onların haqq işini müdafiə etməkdə ABŞ-a inam yoxdur. ABŞ-sionist kompaniyası müsəlmanların əleyhinədir. Təhlükəsizlik Şurasının daimi üzvlərindən olan ABŞ-ın Yaxın Şərqi nəzarətdə saxlamaq üçün münaqişənin kökünü kəsməkdə marağı yoxdur. ABŞ xarici siyasətinin başlıca məqsədi demokratiya yaymaq pərdəsi altında tam ekspansiya, təcavüzkarlıq, hegemonluq həyata keçirməkdir.

Beşincisi, BMT birmənalı fəaliyyət göstərməlidir. Belə ki, BMT bir tərəfdən yəhudilərin hərəkətini pisləyən qətnamələr qəbul edir, digər tərəfdən baş katib K.Annan 2004-cü ilin iyununda «antisemitizm (yəhudilərə qarşı ədavət) problemi» ilə bağlı konfrans keçirir.(154) Dünya ictimaiyyətinə məlumdur ki, İsrail işğalçı dövlətdir. Avropada sorğu zamanı əhalinin 60 faizi İsrail dövlətinin beynəlxalq sülhü daha çox təhlükədə qoyduğunu bildirmişdi. BMT Baş Məclisi 1947-ci ildə qəbul etdiyi 181 saylı, 1948-ci ildə qəbul etdiyi 194 saylı qətnamələrin yerinə yetirilməsinə nəzarət etməlidir. Bu qətnamələr həyata keçirilsə, Fələstin problemi dinc, danışıqlar yolu ilə həll edilə bilər. İsrail BMT-nin üzvüdür və Təşkilata daxil olarkən bütün üzv dövlətlər öz üzərlərinə Nizamnamənin 55-ci maddəsində göstərilmiş məqsədlərə nail olmaq üçün birgə əməkdaşlıq barədə öhdəlik götürürlər. 55-ci maddədə yazılır: «BMT millətlər arasında, xalqların hüquq bərabərliyi və öz müqəddaratını təyin etməsi prinsipinə hörmət əsasında sülh və dostluq münasibətləri üçün zəruri olan sabitlik, əmin-amanlıq yaratmaq məqsədilə həyat səviyyəsinin yüksəldiləmsinə, əhalinin tam məşğulluğuna, iqtisadi, sosial, səhiyyə sahələrində beynəlxalq problemlərin həllinə, mədəniyyət, təhsil sahələrində beynəlxalq əməkdaşlıq, irqi, cinsi, dili, dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və bunlara riayət edilməsinə dəstək verir. İsrail bu öhdəlikləri yerinə yetirməməsinə baxmayaraq, 1949-cu ilin mayında BMT-nin 59-cu üzvü oldu. Bu vaxt İsrail beynləxalq hüquq normalarını, BMT-nin 181 saylı

qətnaməsini pozaraq Fələstin ərazisini işğal etmiş, fələstinlilərə qarşı vəhşiliklər törətmişdi. Fələstin isə 2011-ci ildə BMT-nin üzvü oldu.

. İsrail-Fələstin qarşıdurmasının əsas problemləri ərazi, sərhəd məsələsini, daxili təhlükəsizliyi, sabitliyi təmin etmək, qaçqın problemini, iqtisadi, maliyyə problemini, Yerusəlim məsələsini, müqəddəs yerlərə buraxılmaq məsələsini həll etməkdir. BMT Nizamnaməsinin 41-ci maddəsinə görə Təhlükəsizlik Şurasının silahlı qüvvələrdən istifadə etmədən BMT-nin üzvlərindən təcavüzkar dövlətə qarşı iqtisadi münasibətləri, dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrini tamamilə və ya qismən dayandırmasını, diplomatik münasibətləri kəsməyi tələb etmək hüququ var. İsrailə qarşı BMT 41-ci maddəni tətbiq etməlidir, əgər bu nəticə verməzsə, 42-ci maddədə göstərildiyi kimi, beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün BMT üzvlərinin hava, dəniz və ya quru qüvvələrinin nümayişləri, blokadası və digər əməliyyatları keçirilməldir. Beynəlxalq təhlükəsizlikdə BMT Nizamnaməsi həyata keçirilməli, birinci maddədə deyildiyi kimi, bütün xalqların, millətlərin, kollektiv təhlükəsizliyi təmin edilməlidir. Lakin Yaxın Şərqi həmişə nəzarətdə saxlamaq üçün İsraildən forpost kimi istifadə edən ABŞ Təhlükəsizlik Şurasının veto hüquqlu üzvü kimi bu problemin həll edilməsinə mane olur.

### 3.4 BMT-nin beynəlxalq terrorizmə qarşı mübarizə tədbirlərindən ABŞ-ın Avrasiya siyasətində məqsədyönlü istifadəsi

Müasir dövrdə yeni tipli təhlükələri, o cümlədən günümüzün ən böyük bəlası olan beynəlxalq terrorizmi dəf etməkdə BMT-nin öhdəsinə daha çox vəzifələr düşür. BMT Baş Məclisinin 1994-cü ildə qəbul etdiyi "Beynəlxalq terrorizmi aradan qaldırmaq tədbirləri" adlı bəyannamədə, 1996-cı il 17 dekabr tarixli qətnamədə ekstremist xarakterli terrorizmin dövlətə və onun ərazi bütövlüyünə təhlükə yaratmasından bəhs edir. Təhlükəsizlik Şurası 1999-cu il 19 oktyabr tarixli 1269 saylı qətnamədə beynəlxalq terrorizm aktlarını pislədi, BMT-ni və regional təşkilatları, bütün dövlətləri beynəlxalq terrorizmlə mübarizəyə, onu maliyyələşdirməməyə çağırdı.(369) Təhlükəsizlik Şurası 1999-cu il 9 dekabr tarixli Terrorizmin

maliyyələşməsi ilə mübarizə barədə konvensiya daxil olmaqla, terrorizmlə mübarizə barədə bir sıra konvensiyalar qəbul etsə də, 2001-ci il 11 sentyabr tarixdə Nyu York, Vaşinqton və Pensilvaniyada olan terror aktlarından sonra dünya dövlətlərini terrorizm ilə mübarizəyə çağıran qətnamələr qəbul etdi. Təhlükəsizlik Şurasının 12 sentyabr tarixli 1368 saylı qətnaməsi ilk belə qətnamə oldu.(141) Bundan əvvəl, Baş Məclisin 1970-ci il oktyabr bəyannaməsində və Təhlükəsizlik Şurasının 1998-ci il 13 avqust tarixli 1189 saylı qətnaməsində hər hansı bir dövlətin digər dövlətdə terror aktlarında iştirak etməkdən çəkinməsi əksini tapmışdı. Təhlükəsizlik Şurasının 2001-ci il sentyabrın 28-də qəbul etdiyi 1373 saylı qətnaməyə əsasən, Nizamnamənin VII fəslinə müvafiq olaraq, hər bir dövlət beynəlxalq terrorçulara qarşı zəruri tədbirlər görməli, terror aktlarını maliyyələşdirmənin qarşısını almalı, terrorizmin qarşısını almaq üçün operativ informasiya mübadiləsi (terror şəbəkələri, silah satışı, kütləvi qırğın silahlarının ələ keçirilməsi barədə) aparmalıdır. Qətnamədə Təhlükəsizlik Şurası beynəlxalq terrorizmlə transmilli cinayətlər – qeyri-qanuni narkotik, silah, çirkli pul, nüvə, kimyəvi, bioloji silah satışı arasında əlaqəni qeyd edərək, milli, subregional, regional, beynəlxalq səviyyədə bütün dövlətləri bu qlobal təhlükə ilə mübarizəyə çağırır. 1373 saylı qətnamə əsasında BMT Təhlükəsizlik Şurasının bütün üzvlərindən ibarət Terror əleyhinə komitə yaradıldı. Ekspertlərdən ibarət olan bu komitə qarşısında hər bir dövlət terrorizmlə mübarizə, sərhədlərə nəzarət, terrorçuların maliyyələşməsinin qarşısını almaq barədə hesabat verməlidir. (141)

Baş Məclisin 2001-ci il sessiyasında bütün dövlətlər beynəlxalq terrorizmlə mübarizəyə və terrorizmlə mübarizə barədə beynəlxalq konvensiyalara, protokollara qoşulmağa çağırıldı. Təhlükəsizlik Şurası 12 noyabr tarixli 1377 saylı qətnaməsində yenidən bütün dövlətləri terror aktlarını passiv, yaxud aktiv surətdə dəstəkləməkdən çəkindirdi.(141) 2005-ci il aprelin 13-də Baş Məclis Nüvə terrorizm aktları ilə mübarizə barədə beynəlxalq konvensiya qəbul etdi. Təhlükəsizlik Şurası 14 sentyabr tarixli 1624 saylı qətnaməsində 1948-ci il İnsan hüquqları barədə bəyannamənin 19-cu maddəsini, 1966-cı il Vətəndaş və siyasi hüquq barədə beynəlxalq paktın 19-cu, həmçinin 3-cü maddələrini, İnsan hüquqları barədə

bəyannamənin 14-cü maddəsində ifadə olunan sığınacaq tapmaq hüququnu, 1951-ci il Qaçqınların statusu barədə konvensiya və ona əlavə protokolu xatırlayaraq, bütün dövlətləri terror aktlarının həyata keçirilməsinin qadağan edilməsini qanunilәşdirməyə, günahkar olması barədə informasiya verilən istənilən şəxsə sığınacaq verilməsinə imtina etməyə, Terror əleyhinə komitə qarşısında informasiya verməyə çağırdı.

Təhlükəsizlik Şurası Terror əleyhinə komitəyə aşağıdakı səlahiyyətləri verdi: 1) Hazırkı qətnaməni həyata keçirmək üçün üzv dövlətlərlə dialoq aparmaq 2) İnformasiya mübadiləsi, hüquq normalarına əməl edilməsi sahəsində üzv dövlətlərlə əməkdaşlıq etmək 3) Hazırkı qətnamənin həyata keçirilməsi barədə 12 aydan sonra Təhlükəsizlik Şurasında məruzə etmək.(143)

Beynəlxalq terrorizmlə mübarizə barədə Hindistan layihəsi üzrə konvensiya, Nüvə terrorizmi ilə mübarizə barədə Rusiyanın təklif etdiyi konvensiya aktuallığı ilə diqqəti cəlb edir. Hər iki dövlətin fikrincə, terrorizmi ayrı-ayrı dinlə, yaxud etnik qrupla eyniləşdirmək olmaz. Müasir dövrdə terror təhlükəsinin qlobal xarakter alması təsdiq edir ki, terrorizmlə mübarizədə dünya dövlətləri birləşməli, qarşıdurma aradan qaldırılmalıdır. Terrorizmə qarşı mübarizə çoxtərəfli əsasda beynəlxalq konvensiyalara uyğun aparılmalıdır. İnsan hüquqlarının kütləvi surətdə pozulması ilə mübarizədə BMT-nin sözdə yox, işdə öz real addımlarını atması vacibdir.

Terrorizm qədimdən bu və ya digər səbəbdən müxtəlif formada baş vermişdir. XIX əsrin sonu, XX əsirn əvvəllərində çar rejiminə qarşı sinfi mübarizə zəminində olan terrorlar olmuşdur. 1918-1922-ci illər zamanı vətəndaş müharibəsində «ağ» və «qırmızı» terrorlardan istifadə edilmişdir. Böyük Vətən müharibəsi illərində Hitler Almaniyası slavyan xalqlarına, qaraçılara, yəhudilərə qarşı terrordan geniş istifadə etmişdir. 1918- ci il mart-aprel aylarında S.Şaumyan başda olmaqla ermənilər Bakı, Şamaxı, Quba, Ağsu, Göyçay, Kürdəmir, Salyanda azərbaycanlılara qarşı kütləvi terrordan istifadə edərək azərbaycanlıları soyqırıma məhkum etmişdilər. Ermənilər XX əsrdə dörd dəfə - 1905-1907, 1918-1920, 1948-1953, 1988-ci ildən sonra terror aksiyaları keçirməklə azərbaycanlıları yurdlarından didərgin salmışlar.(47) II Dünya müharibəsindən sonra

İsrail terror həyata keçirməyə başladı. Amerika ekspertlərindən biri Adam Parfrey göstərdi ki, "sionizm özünü həyatın axarına salmaq üçün terrordan istifadə etdi…Sionistlər terrorun təzyiqi altında öz xüsusi dövlətlərini yaratdılar."

Müasir terror aktlarının başlıca əlamətləri onların beynəlxalq regional münaqişələr şəraitində olmasıdır. Bu, yoxsulluğun, savadsızlığın, narkomafiyanın, qaçqın probleminin artması ilə bağlıdır. Terror istər hakimiyyətin zəif olduğu, istərsə də güclü olduğu dövlətlərdə baş verir. Terrorçu qrupların münaqişəli regionlardan çıxması da təsadüfi deyil, alman diplomat Otto fon Bismarkın dediyi kimi, «radikalların gücü onların liderlərinin ideyalarında deyil, vaxtında təsdiqini tapmayan tələblərindədir.» Hüquqları pozulan, ədalətsizliyə düçar olan köməksiz qalmış insanların vəziyyətindən istifadə edən terrorçu liderlər onları asanlıqla öz təşkilatlarına cəlb edirlər. Hüquq müdafiəsi təşkilatı olan «Emnesti interneşnl» qeyd edir ki, İsrail minlərlə evlər darmadağın etmiş, raketlərlə yaşayış binalarına, ictimai binalara, o cümlədən kütləvi informasiya vasitələrinin binalarını dağıtmışdır. Bu hücumlar zamanı kütləvi qırğınlar olmuş, sağ qalanlar isə evsiz-eşiksiz, işsiz qalmışdır. (66, s. 30.) Belə şəraitdə isə terrorizmə yol açılır.

ABŞ-ın "diktator rejiminin ləğvi üçün" İraqa qarşı hücumu da terrorun sərhədlərini genişləndirdi. Şəraitdən istifadə edən terrorçular İraqa üz tutdular və nəticədə İraqda, İsraildə, Fələstində, Səudiyyə Ərəbistanında, Türkiyədə, Əfqanıstanda, Şimali Qafqazda terror aktları törədildi. Ben Ladenin təşkilatlarından olan «Ansar əl-islam» İraqın paytaxtında, «Bağdad» otelində və digər yerlərdə partlayışlar etdi. ABŞ-ın müdafiə nazirinin müavini Pol Vulfoviç etiraf etdi ki, İraq terrorizmlə mübarizədə ön ölkədir. Biz nə qədər çox İraqı yenidən qurmağa çalışsaq, orada o qədər çox terrorizmin miqyası genişlənəcək.»(58, s.11.)

Terror təşkilatları dedikdə, istər-istəməz gözlərimiz önündə birinci növbədə, Əfqanıstan canlanır. Nyu-York və Vaşinqtonda baş vermiş terror aktlarından dərhal sonra ABŞ BMT-nin mandatı ilə Əfqanıstanda "onun ərazisini 40 ilə yaxın hökm sürən avtoritar idarəçilikdən, xarici işğaldan və vətəndaş müharibəsindən xilas etmək üçün" terrorçular əleyhinə Azadlığı dəstək əməliyyatına başladı. Avropa məkanından kənarda əməliyyatlar aparmaq üçün

NATO xarici işlər nazirləri 2002-ci ilin may ayında qərar qəbul etdilər. (Bu barədə "Kosova problemi və BMT" adlı paraqrafda bəhs edilir.) O vaxtdan etibarən NATO Əfqanıstanda, İraqda, Sudanın Darfur əyalətində fəaliyyət göstərməyə başladı. 2003-cü ildə ABŞ Əfqanıstanda əməliyyata rəhbərlik məsuliyyətini tamamilə öz üzərinə götürdü. Həmin ilin payızında BMT Təhlükəsizlik Şurası Beynəlxalq təhlükəsizliyə yardım qüvvələrinin əməliyyatlarının Əyalət bərpa qrupları vasitəsilə Kabuldan kənarda yerləşən ərazilərdə yayılmasına imkan verən yeni qətnamə qəbul etdi.(27, s.24) Kabulda BMT Təhlükəsizlik Şurasının qərarına görə beynəlxalq təhlükəsizlik qüvvələrinin ümumi sayı 6500-ə çatır. Ümumi rəhbərlik Fransa generalı Jan Lui Piyə tapşırılmışdır. 2003-cü ilin oktyabrında BMT Təhlükəsizlik Şurası Kabul sərhədində öz mandatının genişlənməsi haqqında sanksiya verən 1510 saylı qətnamə qəbul etdi. 2004-cü il sentyabrın 17-də qəbul edilən 1563 saylı qətnaməyə əsasən beynəlxalq təhlükəsizlik qüvvələrinin səlahiyyəti 2005-ci ilin oktyabrın 13-dək uzadıldı.

ABŞ hökuməti devirdi və Əfqan keçid hökuməti yaradıldı. BMT Təhlükəsizlik Şurasının 1386, 1413, 1444 saylı qətnamələrinə əsasən Beynəlxalq təhlükəsizliyə yardım qüvvələri(İSAF-İnternational Security Assistance Force) yaradıldı. İSAF-a əvvəlcə Böyük Britaniya, sonra isə Türkiyə rəhbərlik edirdi. 2003-cü ilin fevralında Almaniya və Hollandiya İSAF-a rəhbərliyi öz üzərilərinə götürdülər. Bu dövlətlərin müraciətindən sonra NATO İSAF-a rəhbərliyi öz üzərinə götürdü və beləliklə, hər altı aydan bir İSAF-a rəhbərlik etmək istəyən və buna qadir olan ölkənin müəyyən edilməsi problemi aradan qaldırıldı.(27, s.153) 2004-cu ilin oktyabr-noyabr aylarında ABŞ nümayəndələri, Avropa İttifaqı, BMT və ATƏT müşahidəçilərinin iştirakı ilə seçkilərdə X.Karzayın qələbəsi elan edildi.

Terrora himayədarlıq halları varsa, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun özünümüdafiə hüququ həyata keçirilir, eyni zamanda bu barədə təcili Təhlükəsizlik Şurasına xəbər verilməldir. ABŞ isə Əfqanıstan dövlətinin özü terrorçuları himayə etmədiyi halda bu ölkəyə hücum etdi. Rusiyanın BMT-də və Cenevrədəki digər beynəlxalq təşkilatlarda, tərksilah barədə konfransda nümayəndəsi olan Leonid Skotnikovun fikrincə, əgər faktiki hücum

barədə sübutlar varsa, məsələn, ballistik raketlərin buraxılması, özünümüdafiədən istifadə edilməlidir, əgər dövlət hücumlara məruz qalırsa, ancaq şahid yoxdursa, 51-ci maddə tətbiq edilə bilməz «Əl-Qaidə» terror təşkilatı dövlət himayəsindən istifadə etmir, hətta Qərbi Avropada da gizli fəaliyyət göstərir. Əgər bu və ya digər dövlət terrorçu qrupa sığınacaq verirsə, deməli, o, digər dövlətə qarşı terror hücumlarına himayə edir. Bu halda məhz himayədarlıq edən dövlət özünümüdafiə hüququnu həyata keçirmə obyekti olur. Əgər bir dövlətdə terror rüşeymi varsa, ancaq ona himayədarlıq edilmirsə, özünümüdafiə hüququ həmin dövlətə qarşı tətbiq edilə bilməz. İnsan hüquqlarının mükəmməl beynəlxalq müdafiə sisteminin yaradılması, beynəlxalq hüquq normalarının təkmilləşdirilməsi, onlara əməl edilməsi dünya birliyinin səlahiyyətli statusu çərçivəsində mümkündür. ABŞ-da terror aktları baş verən kimi hadisədə günahlandırılan taliban Əfqanıstanına qarşı ABŞ müharibə etdi. Bu işdə terrorçu lider Usama Ben Laden və onun «Əl-Qaida» təşkilatı məsuliyyət daşıyırdı və ABŞ üçün özünümüdafiəni həyata keçirməkdə bu təşkilat obyekt olmalı idi. Koalisiya qüvvələri isə bütün puştunları talibançılar kimi qəbul edir, onları öldürürdülər.

2001-ci il 11 sentyabrda Nyu-York və Vaşinqtonda terror hadisələrindən ABŞ-da bir qrup öz siyasətini yeritmək üçün bəhrələndi. Z.Bjezinski bildirir ki, amerikalılar ayılmalı və başa düşməlidirlər ki, 11 sentyabr heç də çox məna kəsb etmir: O, yazır: ”Biz hamımız keçənlərdən şok olduq, bu hadisə bir qrup ekstremistə bizim şok olmağımızdan istifadə etməyə və ABŞ-ın xarici siyasətini öz əlinə almağa imkan verdi. Bu qrupun fəaliyyəti bizi dünyada izolyasiya etdi. 11 sentyabrdan sonra beynəlxalq vəziyyətin mürəkkəbliyini başa düşməyən messianist ekstremist-strateqlər prezidenti nəzarət altına götürməyi bacardılar. Onların fəaliyyəti ABŞ-ın maraqlarına zərər vurdu. Ona görə də biz indi seçki qarşısında qalırıq: Amerika dünya liderliyində əvvəlki öz uğurlarını qaytaracaqmı, yoxsa dünyada hegemonluq uğrunda mübarizədə özünə zərbə vuracaq?”(124)

Terrorda günahlandırılan dövlətlərdən biri də Misirdir. 2000-2003-cü illərdə Misir Avstriya, Azərbaycan, Bosniya, Kanada, Suriya, İsveçdə terror fəaliyyətində günahlandırılan 25-dən çox vətəndaşını həbs etdi. Misir hökumətinin müvəffəqiyyətli

fəaliyyətinə baxmayaraq, «Əl Qama əl islamiyyə»nin bəzi liderləri Usama Ben Ladenin «Cihadın islam cəbhəsi» təşkilatına daxil olmuşlar. Terrorizmi tədqiq edən ərəb tədqiqatçılarından Məhəmməd İbrahim Əl-Fayumi bildirir ki, «Misir rəhbəri terror alovunu zəiflədə bildi, lakin tam söndürə bilmədi, terror liderlərini qorxuda bildi, ancaq onları tam məhv edə bilmədi. Onlar yaşayır və yaşamaqda davam edəcəklər.»(65, 106. )Terrorizm üçün zəmin yaradan siyasi qeyri-sabitlik, iqtisadi çətinlikdir. Yoxsulluq, savadsızlıq, dini, etnik münaqişələr terrorizmin qidalandırıcı vasitələridir. Misirin Daxili İşlər Nazirliyində terrorizmlə mübarizə üçün fəaliyyət göstərən təhlükəsizlik qurumları 1993-2002-ci illərdə Misirdə 13-16 min terrorçu və qeyri-qanuni siyasi partiya üzvləri tutmuş, 1999-cu ildə «Əl Qama əl islamiyyə»ni öz mübarizəsini dayandırmağa məcbur etmişlər. Misir Bolqarıstan, Macarıstan, Rumıniya, Pakistan, ərəb dövlətləri, Rusiya ilə birlikdə terrorizmlə mübarizədə əməkdaşlıq barədə saziş imzalamışdı. Ölkədə daxili sabitliyi saxlamağa çalışan Misir prezidenti Hüsnü Mübarək terrora qarşı mübarizə aparsa da, müxtəlif təbəqələrin, xüsusən də tələbələrin xarici və daxili siyasətdən narazılıqlarından, ölkə daxilində müxalifət qüvvələrindən istifadə edən və onları maliyyələşdirən ABŞ demokratiyanı yaymaq pərdəsi altında Misirin daxili işlərinə müdaxilə edərək Hüsnü Mübarək rejimini devirdi.

Kəşmir, Camma problemi ilə əlaqədar terrorçular Pakistanda da güclü fəaliyyət göstərirlər. Pakistan da ABŞ-ın özününküləşdirdiyi Ümumdünya koalisiyasına qoşulmuşdur. Pakistan prezidenti Pərviz Müşərrəf özü növbəti sui-qəsd nəticəsində öldürüldü. Bu, ona qarşı edilmiş üçüncü terror hadisəsi idi.

Rusiyanın Beslan şəhərində 2004-cü il sentyabrın 1-də terror nəticəsində günahsız insanlar öldürüldü, kütləvi qırğınlar törətməklə terrorçular insani əxlaq normalarını pozdular. Antiterror komitəsinin sədri kimi Rusiya islahatların keçirilməsinə kömək edir. Rusiya ekspertləri hesab edirlər ki, nə qədər ki, çoxqütblü dünya yaranmayıb, terror olacaq. Rusiya terroru dinlə bağlamır. Təkqütblü sistem yaratmağa cəhd edən ABŞ «beynəlxalq terrorizmi» «islam terrorizmi» ilə bərabərləşdirir. Ekspertlər hesab edirlər ki, bu kampaniyanın əsas məqsədi Rusiya və islam dünyası arasında qarşıdurma yaratmaqdır. Milli tərkibi müxtəlif olan terrorçular

arasında radikal islamçılar da var, yəhudi ravvinləri də var, xristianlar da var. İslamın əleyhdarları yalan iddia irəli sürərək «cihad» anlayışını «terrorizm» anlayışı ilə qarışdırırlar. Belə olan halda müsəlmanlar hücumun obyekti olur. «Cihad» çağırış üsullarından biridir. Əgər düşmən müsəlmanın torpağına hücum edibsə, cihadda iştirak etmək vacibdir. İslam ən dinamik, həyati əhəmiyyətli dindir, insanların ləyaqətini, azadlığını, sağlam fikrini, inamını, zənginliyini, vicdanını, namusunu, hüquqlarını müdafiə edir. Terrorçu cinayətkar deməkdir, o, müəyyən din, ideya uğrunda mübarizə etmir, siyasi, sosial məsələləri həll etmək üçün konkret terror hadisələri törədir. Terror qrupları dini, milli əsaslarla pərdələnir. Rusiyanın XİN S.V. Lavrov bildirir ki, «ərəblər terrorizmlə mübarizədə əsl partnyor olmağa hazırdırlar. Onlar terrordan az əziyyət çəkmirlər, hətta daha çox əziyyət çəkirlər. Çünki terrorizmi islam və ərəb millətləri ilə bağlayırlar. Rusiya terroru hər hansı bir millətlə bağlamağın əleyhinədir.» Rusiyanın prezidenti V.V. Putin İslam Konfransı Təşkilatının X qurultayında bildirdi ki, "Rusiya və islam dövlətlərinin əksəriyyəti beynəlxalq hüquq sistemini möhkəmlədir, sülh problemini həll etməkdə BMT-nin rolunun artması tərəfdarıdır. Biz inanırıq ki, qüvvələrimizi birləşdirərək hadisələrə müsbət istiqamətdə təsir edə bilərik." (50, s.92.)

Terror hadisələrinin genosidlə nəticələnməsinə tarixdə çox rast gəlinir. Buna XX əsrin ən böyük faciələrindən biri olan Ruandanı misal göstərmək olar. Ruandada yaşayan tutsi və xutular arasında tarixboyu münaqişələr olmuşdur. Tutsilər yüksək sosial təbəqədə olurdusa, xutular bir qayda olaraq, aşağı təbəqədə olurdu. 1962- ci ildə Ruanda müstəqillik əldə etdikdən sonra xutu xalqının azad edilməsi uğrunda mübarizə aparan partiyadan Q.Kaybobanda xutuların ilk prezidenti seçildi. Ekstremist mövqe tutan bu partiya yüz minlərlə tutsini ölkədən çıxardı. Tutsilər ABŞ və Avropaya emiqrasiya etdilər. Vəziyyətlə barışmayan tutsilər Uqandanın köməyi ilə dəstələr yaradaraq 1990-cı ildə Ruanda ərazisinə daxil olaraq silahlı mübarizəyə başladılar. 1993-cü il avqustun 4-də Tanzaniyanın Aruşa şəhərində vətəndaş müharibəsinin kəsilməsi barədə saziş bağlansa da, etnik gərginlik qalmaqda idi. 1994-cü il aprelin 6-da xutuların prezidenti Y.Xabiarimanın olduğu təyyarə Kiqali

aeroportuna düşən zaman vuruldu. Bu terror hadisəsindən sonra xutular tutsilərə qarşı kütləvi qırğın etdilər. Bu qırğın BMT Təhlükəsizlik Şurasının qətnaməsində genosid kimi təsnifləşdirildi. Xutulara qarşı genosidin qarşısını almaq üçün Ruandanın cənub-qərb rayonlarında BMT mandatı çərçivəsində Fransa ordusu iyun-avqust aylarında «Türküaz» əməliyyatı keçirdi, təhlükəsizlik üçün humanitar zona yaratdı. Ruanda genosidi zamanı 1 milyondan çox ölən, minlərlə şikəst edilən oldu. Şahidlərin sözlərinə görə, yollar, şəhərin küçələri, kəndlər meyitlərlə qalaqlanmışdı, çaylarda su yerinə qan axırdı.(45, s.16.)

Təhlükəsizlik Şurasının qərarı ilə Ruandaya dair beynəlxalq cinayət tribunalı yaradıldı. Ruanda hökuməti genosid qurbanlarına maddi kömək göstərdi. 2004-cü ildən başlayaraq milli birliyin möhkəmləndirilməsi barədə Ruanda məktəblərində dərs keçirilir. Ruanda hökuməti genosidin baş verməsini BMT Təhlükəsizlik Şurasının passivliyi ilə əlaqələndirir. 1993-cü ilin oktyabrında vətəndaş müharibəsini kəsmək, yetişən genosidin qarşısını almaq məqsədilə Ruandaya kömək üçün BMT missiyası yaradılmasına baxmayaraq, o, faciəli hadisələrin gedişinə güclü mane olmadı. BMT-nin Kanada generalı Daller 1993-cü ilin noyabrında BMT rəhbərliyinə müxtəlif rayonlarda olan gizli silah anbarlarını zərərsizləşdirməyi təklif etsə də, BMT fəaliyyət göstərmədi.

İndiki Ermənistanın ərazisinin 82 faizi terror yolu ilə Azərbaycandan qopardılmışdır. Dünyanın hər yerinə yayılmış ermənilər tarixdə sübut edilməyən «erməni genosidi» cəfəngiyyatından beynəlxalq forumlarda məharətlə istifadə edir, beynəlxalq terrorizmin fəal iştirakçısı olan «Daşnaksütun»un ABŞ, Fransa, Livan, Suriya, Yunanıstan, Avstraliya və digər ölkələrdə təşkilatları yaradılır. Xankəndində yaradılan «Haydat» (Erməni məsələsi) adlı terrorçu təşkilatı Azərbaycandan Dağlıq Qarabağı, Naxçıvanı, Türəkiyədən Qarsı, Ərdəhanı, Gürcüstandan Axalkalakini alıb Ermənistana birləşdirmək tələbini irəli sürür. 1885-ci ildə Fransada ermənilərin yaratdıqları "Armenakan", 1885-ci ildə Vanda Avetist Nazarbekyan və digər şovinist ermənilər tərəfindən yaradılan "Hınçaq" (Zəng), 1890-cı ildə Tiflisdə yaradılan "Daşnaksütun" partiyasının əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, Rus və İran Ermənistanları adlandırdıqları ərazilər birləşdirərək «Böyük

Ermənistan» dövləti yaratmaq idi. (79, s.13) Müsəlman əhaliyə qarşı erməni təbliğatı güclənirdi. Tbilisidə çıxan “Mşak” erməni qəzetinin redaktoru müsəlmanlara torpaqları azad etmək və “Ərəbistan səhralarına köçməyi” təklif edirdi.(79 ,s.14)

Təkcə 1890-1892-ci illərdə “Hınçak” terror təşkilatı 65 min silahsız müsəlmanı, türkü və kürdü məhv etdi. 1975-ci ildə Beyrutda Akopyan tərəfindən yaradılan “Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu” – ASALA, “Erməni gizli azadlıq ordusu”- ASOA, 1973-cü ildə yaradılan “Erməni «soyqırımı»nın intiqamçıları» qrupu və başqa terrorçü təşkilatlar 1975-ci ildən başlayaraq, 50-dən çox Türkiyə vətəndaşını, xüsusən də, səfirləri, diplomatları, onların qohumlarını qətlə yetirmişlər.(25, s.14) 1980-ci ildə ASALA birgə terror aksiyaları həyata keçirmək üçün PKK ilə razılığa gəlmiş, 1993-cü il avqustun 28-də açıqlanan bəyanatında «pantürkist neft borusu» (Bakı-Tbilisi-Ceyhan) ilə bağlı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdi. (15, s.139)

«Daşnaksütun» partiyasının  qərarı ilə 1919-cu ildə yaradılan «Nemezis» intiqamçı terror hərəkatının siyahısına 650 nəfər Türkiyənin və Azərbaycanın dövlət xadimlərinin, ziyalılarının adları salınmışdı. (15, s.114)  Qeyd etmək lazımdr ki, “Daşnaksütun” partiyası hazırda Ermənistanda “Erməni İnqilab Federasiyası” adı altında fəaliyyət göstərir.(16) Aqasi Enokyan yazır ki, “Erməni İnqilabi Federasiyası Daşnaksütun partiyasından olan millətçi-sosialistlər bütün erməni torpaqlarının birləşdirilməsi və erməni xalqının bütün tarixi düşmənlərini cəzalandırmağı nəzərdə tutur... Daşnaksütunun xarici siyasətinin yeganə məqsədi tarixi ədaləti bərpa etmək və bütün erməni torpaqlarının qaytarılmasıdır. Danışıqlar güzəştlə yox, güc tətbiq etməklə ola bilər.”(52, s.116)

Йалныз XX ясрин сон 90 илиндя ермяниляр азярбайъанлылара гаршы 86 сойгырымы щяйата кечирмiшляр.(2,с.53)  Ermənilər 1991-ъи ил декабрын 15-дя Ъямилли, декабрын 24-дя Мешяли, декабрын 28-дя Кярэиъащан, 1992-ъи ил йанварын 18-19-да Нябиляр кяндини, февралын 12-ня кечян эеъя Малыбяйли вя Гушчулар кяндини йандырдылар, dinc sakinləri гятля йетирдиляр. Февралын 25-дян 26-на кечян эеъя ясрин бюйцк фаъияси Хоъалы сойгырымы баш верди. Ермяниляр Ханкяндиндяки Русийайа мяхсус 366-ъы мотоатыъы

алайынын иштиракы иля Хоъалыны ишьал етдиляр. Азярбайъанлы сойгырымыда 613 няфяр вящшиъясиня ишэянъялярля гятля йетирилди, 487 няфяр йараланды, 1275 няфяр ясир алынды, 6 аиля мящв едилди, шящяр йандырылды, 25 ушаг щяр ики валидейнини, 130 ушаг бир валидейнини итирди. Юлдцрцлянлярдян 106 няфяри гадын, 83 няфяри ушаг иди. Hücum zamanı Rusiyanın 366-cı alayının komandirləri Seyran Ohanyan, Yevgeni Nabokix, qərargah rəisi Valeri Çitçyan, alayın hərbi qulluqçularından Slavik Arutyunyan, Andrey Şixanyan, Sergey Beqlaryan, Movses Akopyan, Qriqori Kisebekyan, Vaçik Mirzoyan, Vaçaqan Ayriyan, Aleksandr Ayrapetyan, erməni silahlı birləşmələri üzvlərindən Karo Petrosyan, Seyran Tumasyan, Valerik Qriqoryan, Xankəndi şəhər daxili işlər şöbəsinin rəisi işləmiş Armo Abramyan, Əskəran rayon daxili işlər şöbəsinin rəisi işləmiş Mavrik Qukasyan, onun müavini Şaqen Barseqyan, Dağlıq Qarabağda erməni xalq cəbhəsinin sədri olmuş Vitali Balasanyan, Xankəndi şəhər həbsxanasının rəisi işləmiş Serjik Koçaryan və başqaları azərbaycanlı soyqırımıda fəal iştirak etmişlər. S.Ohanyana general rütbəsi verildi və qondarma "DQR"-nın "müdafiə naziri" oldu.(5,s.23) Hazırda isə Ermənistanın müdafiə naziri olan bu cinayətkar öz həmkarı S.Sarkizyan ilə birlikdə Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla həll edilməsinə mane olur.

Azərbaycan Respublikası İnsan Hüquqları İnstitutunun Ekspert Şurasının apardığı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Azərbaycanın işğal olunmuş ərazilərində - Laçının Zabux kəndində "Kürd konqresi", "Xalq azadlıq cəbhəsi", Xocavəndin Qırmızı bazar ərazisində "Hizbullah", Zəngilanın Mincivan qəsəbəsində "Həmas" yerləşir, 1998-ci ildən Ermənistanın Razdan şəhərində "Nüvə bürosu" qeyri-rəsmi təşkilatı, 1997-ci ildən "Yak-mak metalis", 1998-ci ildən "Akopyan" nüvə məsələləri ilə məşğul olan şirkətləri, Dağlıq Qarabağ ərazisində məxfi elmi-tədqiqat lobaratoriyaları təşkil edilmişdir. ASALA terror təşkilatının Xəlfəli (Şuşa), Kiş (Xocavənd), Əskəran yaşayış məntəqəsində təlim düşərgəsi yaradılmışdır. "Əl-Qaida"nın "Vanquards" analitik qrupuna Levon Mikaelyan başçılıq edir.(19, s.111-112) Dağlıq Qarabağda erməni terrorizmi dörd istiqamətdə fəaliyyət göstərir: nüvə terrorizmi (Həsənriz, Ağdaban, Kurapatkin, Xanabad), bioloji

terrorizm (Kiş, Aşağı Veysəlli, İstisu), kimyəvi terrorizm (Havuslu, Vejnəli), kompyüter terrorizmi (Şuşa və Xankəndi). 2000-ci il dekabrın 14-də qəbul edilən Ermənistanın nüvə proqramının 4-cü maddəsində Kəlbəcərin Başalıbel, Şuşanın Göytala, Laçının Mixidərə, Malxələf, Aşağı Fərəcan yaşayış məntəqələri Ermənistanın nüvə zonalarına aid edilmişdir.(6,s.356)

Beynəlxalq nəzarətdən kənar qalan işğal edilmiş ərazilərdə narkotik bitkilər becərilir, istehsal edilir, dövriyəyə buraxılır. ABŞ Dövlət departamenti 2000-ci ilin martında etdiyi "Narkotiklər üzərində beynəlxalq nəzarət sahəsində strategiya barədə" adlı məruzəsində bu faktları göstərdi. Narkotiklərdən alınan gəlir işğal edilən əraziləri nəzarətdə saxlamağa, muzdluları maliyyələşdirməyə yönəldilmişdir. Bu faktlar Avropa Şurası Parlament Assambleyasının müvafiq məruzəsində də əks olunmuşdur.(78, s.110)

Qeyd etmək lazımdır ki, ermənilər siyasi rejimin dəyişməsi ilə əlaqədar müxtəlif ad altında öz terror niyyətlərini həyata keçirmiş və ermənilərin xəyanətkar xislətindən Rusiya, Avropa ölkələri tarixən Cənubi Qafqazda möhkəmlənmək, Türkiyəni zəiflətmək üçün istifadə etmişlər. Azərbaycan Respublikası terrorizmlə mübarizə məqsədi ilə beynəlxalq konvensiyalara qoşulmuş, terrormizmə qarşı fəaliyyətini beynəlxalq təşkilatlarla çoxtərəfli əməkdaşlıqda həyata keçirir. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının 1999-cu il 15 oktyabr və 19 oktyabr tarixli terrorizmə qarşı mübarizə qətnaməsini yerinə yetirən proqramı həyata keçirir.

Müasir dövrdə beynəlxalq təhlükəsizliyi təmin etməkdə başlıca istiqamətlərdən biri BMT sistemini beynəlxalq terrorizmlə mübarizəyə çevirməkdir. Hər hansı nizamsızlıq barədə Təhlükəsizlik Şurasına məlumat verilməli, dövlətlər beynəlxalq hüquq normaları qarşısında məsuliyyət daşımalıdır. Terrorizmlə, cinayətkarlıqla, narkomafiya ilə mübarizə gücləndirilməlidir. Terrorun qarşısını almaq üçün hər şeydən əvvəl yoxsulluğu, savadsızlığı, regional və beynəlxalq münaqişələri aradan qaldırmaq, dinlər arasında dialoq aparmaq, terrorçu dövləti məhv etmək vacibdir. BMT ilk dəfə 1972-ci ildə terrorla bağlı tədqiqat keçirdi. Bundan sonra Baş Məclis, Təhlükəsizlik Şurası, BMT yanındakı komissiyalar qərarlar,

qətnamələr qəbul etdi. 1973-cü ildə beynəlxalq terrorizm üzrə xüsusi komissiya yaradıldı.

İndiyə qədər BMT çərçivəsində beynəlxalq terrorizmlə mübarizə barədə 13 beynəlxalq konvensiya qəbul edilmişdir. Bunlar aşağıdakılardır: 1963-cü il Hava gəmilərində törədilən cinayətlər və bəzi digər aktlar barədə konvensiya(Tokio konvensiyası), 1970-ci il Hava gəmilərinin qeyri-qanuni tutulması ilə mübarizə barədə konvensiya, 1971-ci il Mülki aviasiyanın təhlükəsizliyi üçün qeyri-qanuni aktlarla mübarizə barədə konvensiya(Monreal konvensiyası), 1973-cü il İmtiyazlı şəxslərə, o cümlədən diplomatik şəxstlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması barədə konvensiya, 1979-cu il Girov saxlama ilə mübarizə barədə beynəlxalq konvensiya, 1980-ci il Nüvə materiallarından qorunma barədə konvensiya, Monreal konvensiyasına əlavə olaraq 1988-ci il Beynəlxalq mülki aviasiyaya xidmət edən hava limanlarında qeyri-qanuni aktlarla mübarizə barədə protokol, 1988-ci il Dəniz gəmilərinin təhlükəsizliyinə qarşı yönəldilmiş qeyri-qanuni aktlarla mübarizə barədə konvensiya, 1988-ci il Kontinental şelflərdə yerləşmiş stasionar platformaların təhlükəsizliyinə qarşı yönəldilmiş qeyri-qanuni aktlarla mübarizə barədə protokol, 1991-ci il plastik partlayıcı vasitələrin aşkar edilməsi barədə beynəlxalq konvensiya, 1997-ci il Bomba terrorizmi ilə mübarizə barədə beynəlxalq konvensiya, 1999-cu il Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə barədə beynəlxalq konvensiya, 2005-ci il Nüvə terrorizmi aktları ilə mübarizə barədə beynəlxalq konvensiya.

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, beynəlxalq münaqişələr BMT çərçivəsində ədalətli və qətiyyətli həll edilərsə, işğal edilmiş torpaqlar öz sahiblərinə qaytarılarsa, qaçqın və məcburi köçkünlər vətənlərinə qayıdarsa, qeyri-qanuni narkomafiyanın, sosial bərabərsizliyin, hüquq pozuntularının nəticəsi olan beynəlxalq terrorizmin səbəbləri məhv edilərsə, beynəlxalq hüquq normalarına müvafiq olaraq digər dövlətin daxili işlərinə müdaxilənin qarşısı alınarsa və beynəlxalq terrorizmlə mübarizə səmərəli nəticə verərsə, müasir dövrdə beynəlxalq münasibətlər sistemində beynəlxalq təhlükəsizlik sistemnin yaradılması mümkündür. Beynəlxalq təhlükəsizliyə nail olmaq üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir: BMT-nin qəbul

etdiyi sazişlərə əməl etmək, daxili və beynəlxalq terrorizmlə mübarizə barədə beynəlxalq sazişlərə riayət etmək və terrorçu təşkilatların məhvinə yönəltmək, sivilizasiyalararası, dinlərarası dialoq keçirmək, insanlarda sağlam şüurluluğu təlqin etmək, regional və beynəlxalq münaqişələri ədalətli həll etmək, siyasi, iqtisadi, sosial sahələrdə bərabərhüquqluluq yaratmaq, yoxsulluğu, savadsızlığı, ədalətsizliyi aradan qaldırmaq, insan hüquqlarını qorumaq, sərhədlərə nəzarət emək, narkomafiyanın qarşısını almaq, digər dövlətlərin daxili işlərinə müdaxilə etməmək, terror fəaliyyətinin səbəblərini araşdırmaq, bu fəaliyyəti təşkil edən, maliyyələşdirən dövləti üzə çıxarmaq, terrorçu dövləti məhv etmək.

# FƏSİL IV
# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MÜASİR PROBLEMLƏRİNİ NİZAMA SALMAQ ÜÇÜN BMT-NİN POTENSİALININ ARTIRILMASI YOLLARI

## 4.1. BMT-nin fəaliyyətinin gücləndirilməsi istiqamətində irəli sürülən təkliflər və onların nəticələri

«Soyuq müharibə»nin qurtarması bəşəriyyəti iki fövqəldövlətin qlobal müharibəsindən xilas etsə də, yeni tipli təhlükələr ortaya çıxdı: millətçilik, ekstremizm, etnik, dini, regionlararası münaqişələr, yeni əsrin bəlası olan beynəlxalq terrorizm, narkomafiya, qeyri-qanuni silah satışı, narkotik maddələrin qeyri-qanuni dövriyyəsi, cinayətkarlıq – bütün bunlar beynəlxalq sülhü təhlükədə qoyur. «Soyuq müharibə» illərində BMT bir-birinə zidd olan iki fövqəldövlətin mübarizə meydanına çevrilmişdisə, hazırda BMT qarşısında duran əsas məsələlərdən biri beynəlxalq sülh və təhlükəsizlik sistemi üçün real qorxu mənbəyi olan dövlətdaxili problemlərin və münaqişə ocaqlarının nəzərə alınmasıdır. Əksər halda bu münaqişələr beynəlxalq səviyyəyə yüksəlir və qonşu ölkələri öz orbitinə cəlb edir. Belə halda beynəlxalq universal təşkilat kimi BMT-nin üzərinə daha çox məsuliyyət düşür, onun sülhyaratma potensialını gücləndirməyin zəruriliyi ortaya çıxır.

«Soyuq müharibə» illərində BMT-nin sülh əməliyyatları əksər halda atəşkəsə nəzarət etməyə yönəldilmişdi, dövlətlərarası münaqişələrin nizama salınması üçün BMT-nin komandanlığı altında hərəkət edən bir neçə dövlətin silahsız, yaxud yüngül silahlı hərbçiləri qarşıduran dövlətlərin cəbhəboyu düzülürdü, Təhlükəsizlik Şurası atəşkəsə nəzarət etmək, yaxud sülh və təhlükəsizliyi müdafiə məqsədilə silahlı qüvvələrin artırılması vəzifəsini BMT-nin qarşısına qoyduqda sülhməramlılar əməliyyata cəlb edilirdi. BMT sülhməramlıları atəşə atəşlə cavab verməməli idi, yerlərdə müşahidələr aparmalı və atəşkəs barədə sazişə riayət edilməsini qiymətləndirməli, diplomatik danışıqlara şərait yaratmalı idilər. Həmin dövrün xarakterik xüsusiyyəti olaraq, iki fövqəldövlət – SSRİ və ABŞ münaqişə tərəflərindən birinə havadar çıxırdı. Münaqişələrin

bir hissəsi müstəmləkə sisteminə qarşı mübarizə, digər hissəsi sərhəd iddialı separatizm xarakterli idi.

90-cı illərdə meydana çıxan yeni qlobal problemlər BMT-nin əməliyyatlarının xarakterini dəyişdi, iki fövqəldövlətin qarşıdurmasından azad olan Təhlükəsizlik Şurası sülh və təhlükəsizliyi təmin etmək üçün BMT-nin daha iri və mürəkkəb missiyalarını təşkil etdi, BMT-nin sülhü dəstəkləmək üzrə fəaliyyəti münaqişələr şəraitində sülhquruculuğu fəaliyyəti ilə birləşdi. Hazırda BMT nəinki münaqişələrin qarşısını almaq üçün sülhməramlı əməliyyatlar həyata keçirir, həm də münaqişə regionuna humanitar yardım edir və BMT-nin sülhməramlı əməliyyatları əksər halda regional təşkilatlarla əməkdaşlıqda həyata keçirilir.

XX əsrin 90-cı illərindən başlayaraq regional münaqişələrin qarşısının alınması, nizama salınması mexanizmində islahatların aparılması ilə bağlı bir sıra təkliflər verilmişdir. 1992-ci ildə Təhlükəsizlik Şurasının fövqəladə sessiyasında dövlət və hökumət başçıları Baş katibə BMT-nin sülh və təhlükəsizliyi müdafiədə effektliliyini artırmaq üçün müvafiq tövsiyələr hazırlamaq xahişi ilə müraciət etdilər. BMT-nin sülhməramlı fəaliyyətinin konseptual əsasları Baş katib Butros-Butros Qalinin «Sülh üçün gündəlik» adlı məruzəsində göstərildi. Məruzədə təhlükəsizlik məsələlərinə kompleks yanaşmanın zəruriliyi, BMT mexanizmində islahatların keçirilməsi, Baş katibin hüquq və səlahiyyətlərinin genişləndirilməsi qeyd edilmişdi. (102) Baş katib belə nəticəyə gəlir ki, BMT əgər öz üzvlərinin səmimi dəstəyini alırsa, yaxşı təchiz olunubsa, imkan və məqsədləri aydındırsa, gələcək problemlər barədə tez informasiya verirsə, qlobal problemləri həll edən beynəlxalq təşkilat olaraq qalacaq.(74, s.84)

1995-ci ildə Baş katibin «Sülh üçün gündəliyə əlavə» adlı məruzəsində bu ideyalar daha geniş verildi (103).

1997-ci ildə BMT-də islahatlar barədə B.B. Qalinin növbəti məruzəsində dini, etnik münaqişələrin (Bosniya və Herseqovina, Abxaziya, Dnestryanı və s.) daha çox yayılması, ölən hər on nəfərdən doqquzunun dinc sakin olması, sülhməramlılar arasında ölüm hallarının çoxalması qeyd edildi. Baş katib potensial münaqişələrin qarşısını almaq, onların eskalasiyasına yol verməmək üçün preventiv tədbirlər görmək metodunu hazırlayacağını bildirdi.

BMT-də islahatlar barədə məruzəsində Təhlükəsizlik Şurası daimi üzvlərinin veto hüququndan istifadə etməsinin bir çox münaqişələrin nizama salınmasına mane olması, sülhyaratma maraqlarına müvafiq olaraq Beynəlxalq Məhkəmənin potensialının inkişaf etdirilməsi qeyd edilmişdi. Orada göstərilirdi ki, üzv dövlətlər Nizamnamənin 36-37-ci maddələrinə müvafiq olaraq öz mübahisələrinə məhkəmədən, arbitrajdan və s. mexanizmlərdən istifadə etməklə baxa bilərlər, aydın, icra olunan mandat, onun həyata keçirilməsində tərəflərin əməkdaşlığı, üzv dövlətlərin zəruri hərbi, polis, mülki heyət verməyə hazır olması, Təhlükəsizlik Şurasının dəstək durması BMT-nin sülh potensialının möhkəmləndirilməsində vacib komponentlərdir. (54, s.57-60)

B.B.Qalinin tövsiyələri BMT-nin sülhyaratma potensialının möhkəmləndirilməsinin bazisini qoydu. Məruzədən sonra bütün siyasi işlər Siyasi məsələlər üzrə departamentdə cəmləşdirildi. Departamentdə preventiv tədbirlərin hazırlanması üzrə qrup yaradıldı. Humanitar yardım, seçkilərin keçirilməsinə, hakimiyyət orqanlarının bərpasına və s. kömək etmək məqsədilə Sülhü dəstəkləmək üzrə əməliyyatlar departamenti yaradıldı.

Bundan başqa, «ehtiyat saziş» sistemi adlanan qurum yaradıldı. Bu qurum çərçivəsində təxminən 90 dövlət öz hərbi kontingentini Baş katibin sərəncamına verməyə hazır olduğunu təsdiq etdi. Sülh üzrə əməliyyatların cəbhə ehtiyaclarını təmin etmək üçün Brindizidə (İtaliya) BMT-nin maddi-texniki bazası təsis edildi. 1993-cü ildə təşkil edilən Situasiya Mərkəzi gündəlik olaraq situasiyaların tədqiqi, potensial münaqişəlrin xəritəsini tərtib etməklə məşğul olur. BMT-nin strukturu, daxili bölmələri arasında qarşılıqlı əlaqə, departamentlərarası koordinasiya çərçivəsi əsasında departamentlər arasında məsləhətləşmə mexanizmi yaradıldı, sülhün həyata keçirilməsində Baş katib, onun şəxsi və xüsusi nümayəndələrinin, məsləhətçilərinin fəaliyyəti genişləndi. Baş katibin himayəsi altında xüsusi tapşırıqlı missiyalar, vasitəçilik, xeyirxah xidmətlər, eyni zamanda insan hüquqlarının pozulması faktlarının toplanması üzrə missiyalar yaradıldı.

Sonrakı Baş katib K.Annan B.B.Qalinin sülhməramlı fəaliyyət konsepsiyasını inkişaf etdirərək «preventiv tədbirlər», «preventiv humanitar kömək», «preventiv sülhquruculuğu»

anlayışlarını gündəmə gətirdi. Yeni vəzifələr – münaqişə regionunda qeyri-qanuni silahlı qüvvələrin tərksilah edilərək ləğv edilməsi, vətəndaş cəmiyyətinin, qaçqın və məcburi köçkünlərin, humanitar köməyin, strateji obyektlərin müdafiə edilməsi və s. vəzifələr meydana çıxdı. Beləliklə, 90-cı illərdə sülhməramlıların yalnız atəşkəs xətti boyunca yerləşdirilməsi məqsədəuyğun deyildi. Sülh əməliyyatlarında polis qüvvələrinin, hərbi müşahidəçilərin iştirak etməsinə, yerlərdə seçkilər keçirilməsinə, insan hüquqlarına riayət edilməsinə, demokratiya, söz azadlığı instiututlarının möhkəmlənməsinə nəzarət etmək tələbatı yarandı.

2000-ci ilin martında Baş katib uzun müddət onun məsləhətçisi olmuş, Əlcəzairin xarici işlər naziri Laxdar Braximinin rəhbərliyi altında beynəlxalq ekspertlər qrupuna BMT-nin sülh əməliyyatlarını təsqiq etmək, harada və nə vaxt belə əməliyyatların daha effektli olması məsələlərinin araşdırılmasını tapşırdı. BMT-nin əməliyyatlar üzrə Qrupunun məruzəsi, eyni zamanda «Braximi məruzəsi» kimi də tanındı. Məruzədə BMT-nin sülh potensialının möhkəmləndirilməsi meyarları kimi aydın və konkret mandat, sülh əməliyyatlarının aparılmasında münaqişə tərəflərinin razılığı, mandatın yerinə yetirilməsi üçün kifayət qədər ehtiyatın olması əksini tapmışdı. Məruzəni rəhbər tutaraq, BMT-yə üzv dövlətlər əməliyyatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün bir sıra tədbirlər gördülər. Sülhü dəstəkləmək üzrə əməliyyatlar departamenti genişləndirildi, hərbi və 2000-ci ildən polis məsləhətçi bölmələri, tarixi təcrübəni öyrənmək, gender məsələləri üzrə tövsiyələr vermək üçün Sülhyaratma fəaliyyətinin qabaqcıl praktikası qrupu yaradıldı. Bu qrup tərksilah proqramını və s. planlaşdırmalı idi. Sülhməramlılarla fasiləsiz təlim keçmək sistemi möhkəmləndirildi. İslahatda əsas diqqət sülhə nail olmaq üçün «kompleks missiya» konsepsiyasına ayrıldı. Buraya da əsas komponentlər – insan hüquqlarının qorunması, qanunun alililiyi, humanitar yardım, departamentlərdə nizam-intizam, əxlaq normalarına riayət edilməsi və s. daxildir. (132)

Təhlükəsizlik Şurasının sülh və təhlükəsizliyi müdafiədə rolunun effektivliliyini artırmaq barədə Təhlükəsizlik Şurası 2000-ci ildə 13 noyabr tarixli 1327 saylı qətnamə qəbul etdi. (140) Qətnamədə BMT-nin regional, subregional təşkilatlarla əməkdaşlığı,

Baş katibin danışıqlar, təhqiqat, qiymətləndirmə, tövsiyələr barədəTəhlükəsizlik Şurasına məlumat verməsi, Baş katibin müntəzəm olaraq hərbi məsələlər üzrə brifinqlər keçirməsi, kontingent verən ölkələrlə məsləhətləşmələr aparması, Təhlükəsizlik Şurası ilə yekdil fikrə gəlməsi, üzv dövlətlərlə, xüsusən də kontingent verən ölkələrlə məsləhətləşdikdən sonra BMT-nin operativ hərbi doktrinasını hazırlaması və Təhlükəsizlik Şurasına, Baş Məclisə təqdim etməsi, tövsiyələr verməsi üçün Katibliyin faktları toplamaq və təhqiqat potensialını gücləndirmək zəruriliyi göstərilmişdi. (Qeyd etmək lazımdır ki, Baş katib sülh və təhlükəsizlik məsələləri üzrə İcraedici Komitədə informasiya – texniki tədqiqat üzrə Katibliyin yaradılması layihəsini Təhlükəsizlik Şurasına təqdim etmişdi.)

Qətnamədə həmçinin qeyd edilirdi ki, Təhlükəsizlik Şurası qətnamə qəbul etdikdən sonra 30 gün ərzində sülh və təhlükəsizlik əməliyyatlarını, 90 gün ərzində kompleks əməliyyatları həyata keçirməlidir.

2001-ci ilin iyununda K.Annan Baş Məclisə və Təhlükəsizlik Şurasına silahlı münaqişələrin qarşısının alınması barədə məruzə etdi. (104) Məruzədə münaqişələrin qarşısını almaq üçün BMT potensialının optimallaşdırılması, Təhlükəsizlik Şurasının rolunun gücləndirilməsi təklif edilirdi. Məruzədə sülhyaratma potensialının yüksəldilməsi yollarından biri kimi regional təşkilatlarla əməkdaşlığın zəruriliyini qeyd etməklə yanaşı, Baş katib sülh və təhlükəsizliyi müdafiə etmək üçün qeyri-qanuni silah satışının qarşısını almağa, maliyyə çətinliklərini aradan qaldırmağa çağırdı. Baş katibin məruzəsinə əsasən, Təhlükəsizlik Şurası 2001-ci il 30 avqust tarixdə “Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu” barədə 1366 saylı qətnamə qəbul etdi. (141) Qətnamədə münaqişələrin qarşısını almaq, yaxud da nizama salmaq üçün aşağıdakı məsələlər qarşıya qoyulurdu:

- Nizamnamənin 99-cu maddəsinə müvafiq olaraq, Baş katibin münaqişələrin qarşısını almaqda rolu təsdiq edilirdi. Belə ki, həmin maddədə deyilir: «Baş katib beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, onun fikrincə, təhlükə törədə bilən istənilən məsələni Təhlükəsizlik Şurasının nəzərinə çatdıra bilər».

- Silahlı münaqişələrin qarşısını almaq üçün BMT-nin digər ixtisaslaşmış qurumlarının, fondlarının, idarələrinin, proqramlarının, Ümumdünya Ticarət Təşkilatının, Bretton-Vuts müəssisələrinin, həmçinin qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti subyektlərinin rolundan istifadə etmək.

- Regional münaqişələrin yaranması səbəblərini araşdırmalı, preventiv tədbirlər, diplomatiya, tərksilah, postkonflikt sülhquruculuğu barədə praktiki tədbirlər görülməli, Yuqoslaviya və Ruanda xüsusi tribunallarının gələcəkdə silahlı münaqişələrin qarşısını almaqda rolunu təsdiq edərək üzv dövlətlər genosidin qarşısını almalı, bəşəriyyət əleyhinə cinayətlər və hərbi cinayətlər törədənlər məsuliyyətə cəlb edilməlidir.

- Münaqişələrin qarşısını almaq üçün əsas məsuliyyət daşıyan milli hökumətlər BMT-ni dəstəkləməli, vətəndaş cəmiyyəti, üzv dövlətlər, regional və subregional təşkilatlarla əməkdaşlıq etməli, preventiv tədbirlər görmək üçün qonşu, regional dövlətlərlə qarşılıqlı əlaqələr yaratmalıdırlar.

- Baş katib Təhlükəsizlik Şurasını beynəlxalq sülh və təhlükəsizliyi hədələyən potensial təhlükələr barədə məlumatlandırmalı, istər BMT-nin üzvü olsun, istərsə də olmasın, bütün dövlətlər potensial münaqişələrin qarşısını almalı, Baş Məclis, İqtisadi və Sosial Şura bu barədə Təhlükəsizlik Şurasına informasiya verməlidir. Bundan sonra operativ, effektli missiyalar da daxil olmaqla, müvafiq tədbirlər görülməli, BMT-nin potensialını gücləndirmək məqsədilə Təşkilata sosial, iqtisadi, texniki, maliyyə ehtiyatları verilməlidir.

- Nizamnamənin VI fəslində nəzərdə tutulduğu kimi, üzv dövlətlərin mübahisələrini sülh yolu ilə nizama salmaq üçün regional təşkilatlarla əməkdaşlıqdan istifadə etməklə yanaşı, daha çox Beynəlxalq Məhkəməyə müraciət etməyə üstünlük verilməlidir.

- Baş katib beynəlxalq hüquq normaları, beynəlxalq humanitar hüquq, insan hüquqları pozulduqda, etnik, dini, ərazi mübahisələri olduqda, yoxsulluq hallarında Təhlükəsizlik Şurasına analitik informasiya verməlidir.

- BMT Fövqəladə Koordinator İdarəsini və digər təşkilatları, Təhlükəsizlik Şurasının üzvlərini situasiya barədə məlumatlandırmalı, müvafiq tədbir görməli, kömək göstərməlidir.

- Baş katibin tövsiyəsi və üzv dövlətlərin razılığı ilə preventiv tədbirlər həyata keçirilməldir.
- Bütün üzv dövlətlər münaqişələrin qarşısını almaq üçün BMT-nin fəaliyyət proqramını həyata keçirməli, silah satışına qarşı milli, regional qlobal səviyyədə zəruri tədbirlər görməlidir.
- Baş katibdən daxil olan informasiya Təhlükəsizlik Şurasına ötürülməlidir.
- Münaqişələrin qarşısını almaq üçün polis heyəti sülhquruculuğunda iştirak etməlidir.
-Uşaqların münaqişədə iştirak etməsinə yol verilməməli, münaqişələrin qarşısını almaqda qadınların rolu artırılmalıdır.
- Faktların toplanması üzrə regional əməkdaşlarla preventiv təhqiqat apaılrmalı, xüsusən də Afrika Birliyi Təşkilatının, Qərbi Afrika dövlətləri İqtisadi Cəmiyyətinin fəaliyyətinin gücləndirilməsi timsalında regional təşkilatlarla əməkdaşlıq gücləndirilməlidir.

BMT heyətinin təhlükəsizliyinin təmin edilməsi də sülh potensialının möhkəmləndirilməsi amillərindən biridir. 2003-cü il avqustun 19-da BMT-nin Bağdadda hərbi qərargahına hücumdan sonra Baş katib K.Annan BMT-nin təhlükəsizlik sistemini araşdırmağa başladı. Nəticədə BMT təhlükəsizlik sistemi Müdafiə və təhlükəsizlik məsələləri üzrə departamentin təhlükəsizlik sisteminə daxil edildi. (134)

2000-ci il Minilliyin Bəyannaməsindən sonra əldə edilən inkişafı qiymətləndirmək məqsədilə dünya ölkələri liderləri 2005-ci ildə Nyu-Yorkda Ümumdünya Sammitinə yığışdılar. K.Annan məruzəsində qlobal problemlərin həllində insan hüquqlarının müdafiəsinin təhlükəsizlik sisteminin əsas meyarı olduğunu qeyd etdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, BMT Nizamnaməsinin bəzi bölmələrində ümumi, regional və xüsusi xarakterli sənədlərlə insan hüquqlarının müdafiəsi nəzərdə tutulur. Ümumi kateqoriyaya 1948-ci il İnsan hüquqları barədə ümumi bəyannamə, 1966-cı il mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquq barədə paktlar; regional kateqoriyaya oxşar sənədlər olan 1953-cü il İnsan hüquqları barədə Avropa konvensiyası və s. xüsusi kateqoriyaya konkret bir hərəkətin qadağan edilməsi barədə sənədlər olan Genosid cinayətinin xəbərdar edilməsi və ona görə cəzalandırma barədə 1948-ci il konvensiyası və s. daxildir.

K.Annanın yuxarıda adını çəkdiyimiz məruzəsi dörd hissədən ibarətdir. Birinci hissə «Yoxsulluqdan xilas olma» adlanır və 2015-ci ilə qədər yoxsulluğu 2 dəfə azaltmağı özündə əks etdirir. «Qorxudan xilas olma» adlanan 2-ci hissədə bütün dövlətlər, terrorizmlə mübarizə daxil olmaqla, təhlükəsizlik sahəsində konsensusa çağırılır. 3-cü hissə «Ləyaqətli insanlar şəraitində azad yaşamaq» adlanır və burada göstərilir ki, bütün dövlətlər qanunvericiliyin, demokratiyanın, insan hüquqlarının inkişafına şərait yaratmalı, genosid, etnik təmizləmə, insanlıq əleyhinə cinayətlərlə mübarizə etməlidir. Bu məsələlərdə hər bir dövlət məsuliyyət daşıyır və əgər milli hökumət öz vətəndaşlarını qorumaq iqtidarında deyilsə, BMT Təhlükəsizlik Şurası Nizamnaməyə müvafiq olaraq məcburi tədbirlər görə bilər.

«BMT-nin möhkəmləndirilməsi» adlanan IV bənddə aşağıdakı təkliflər irəli sürülür:

- Baş Məclisdə müzakirələr prosesini tezləşdirmək, gündəmdə olan məsələlər barədə mexanizmi gücləndirmək, vətəndaş cəmiyyəti barədə məsələlərlə tam, sistemli məşğul olmaq.
- Təhlükəsizlik Şurasında islahatlar aparmaq, Yüksək səviyyəli qrupun təklif etdiyi A və B variantlarına baxmaq.
-İqtisadi və Sosial Şura inkişaf sahəsində əməkdaşlığı gücləndirməli, iqtisadi və sosial sahələrdə müxtəlif hökumətlərarası təşkilatların qüvvələrini səfərbər etməli, inkişaf sahəsində BMT-nin effektli fəaliyyətinə şərait yaratmalıdır.
- İnsan hüquqları üzrə komissiyanın nüfuzu, qabiliyyəti aşağı düşdüyü üçün Baş Məclisin əsas, yaxud köməkçi orqanı kimi Baş Məclisdə $^2/_3$ səs çoxluğu ilə seçilən üzvlərdən ibarət İnsan hüquqları üzrə Şuranın yaradılması.
- Katibliyin strukturunu həyata keçirən əsas məsul şəxs Baş katibdir. O, Təşkilatın işi barədə Baş Məclisə illik hesabat verir, beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasına təhlükə törədə bilən istənilən məsələ barədə Təhlükəsizlik Şurasına informasiya verir. Baş katib və heyət vəzifələrini icra edərkən hər hansı hökumət və ya təşkilatdan, digər hər hansı orqandan göstərişlər istəməməli və almamalıdır.
- Koordinator-rezidentlərin rolunun gücləndirilməsi, humanitar vəziyyətlərdə məcburi köçkünlərin hüquqlarının müdafiəsi, regional

təşkilatların, xüsusən də Afrika Birliyi Təşkilatının fəaliyyətinin genişləndirilməsi.
- Nizamnamədən «düşmən dövlət» ifadəsi, həmçinin Qəyyumluq üzrə Şura və Hərbi Qərargah komitəsi ilə bağlı maddələr çıxarılmalıdır.

Bu hissədə Baş katib onu da qeyd etdi ki, qlobal problemlər bütün dövlətlərin birgə hərəkəti, ümumi strategiya çərçivəsində onların hər birinin konkret problemlərinin nizama salınması hallarında həllini tapa bilər. (151)

Təhlükə və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun məruzəsində də BMT-nin sülh potensialının möhkəmləndiilməsi barədə təkliflər var idi. (130) Məruzənin "Kollektiv təhlükəsizlik və münaqişələrin qarşısını almaq vəzifələri" adlanan II hissəsinin VIII bəndi ayrı-ayrı ölkələr, separatçı qruplar, şəxslər beynəlxalq hüquq normalarını pozduqda beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsində, müharibə və söz arasında vacib vasitəçi olan sanksiyaların tətbiq edilməsinin həyati əhəmiyyətindən bəhs edir. Məruzədə göstərilir ki, Təhlükəsizlik Şurası sanksiyaların effektli həyata keçirilməsini təmin etməlidir. Silah satışına embarqo qoymaq mexanizmi daxil olmaqla, Təhlükəsizlik Şurası dərin təhqiqat keçirməyə imkan verən nəzarət mexanizmi yaratmalı, Təhlükəsizlik Şurasının Sanksiyalar üzrə komitəsi dövlətlərə sanksiyaların həyata keçirilməsində kömək etməli, Baş katib Təhlükəsizlik Şurası ilə məsləhətləşərək sanksiyalara nəzarət etməlidir. Məruzənin «XXI əsr üçün daha effektli BMT» adlanan IV hissəsində Baş Məclisin gündəlikdə olan məsələləri həll etməyə qadir olmadığı, 1948-ci il İnsan hüquqları barədə ümumi bəyannamə və 2000-ci il Minilliyin Bəyannaməsi kimi bəzi vacib qətnamələr qəbul edilsə də, Baş Məclisin qətnamələrinin əksəriyyətinin təkrar xarakter daşıdığı, aydın olmadığı və tətbiq edilmədiyi qeyd edilərək, orada yalnız müasir təhlükələrə, daha kiçik məsələlərə baxılması göstərilirdi. Təhlükəsizlik Şurasının, xüsusən də maliyyə, hərbi qüvvələri daha çox verən üzv dövlətlərin münaqişələrin nizama salınmasında, qlobal problemlərin həllində rolunun artırılması, Təhlükəsizlik Şurasının regional və subregional təşkilatların potensial imkanlarından istifadə etməsinin əhəmiyyəti qeyd edilirdi. Məruzədə, eyni zamanda İnsan hüquqları üzrə komissiyanın, Katibliyin təkmilləşdirilməsi,

beynəlxalq təhlükəsizliyi iqtisadi və sosial cəhətdən dirçəltmək üçün yeni institut mexanizminin yaradılması, sülh və təhlükəsizlik iqtisadi inkişafla vəhdət təşkil etdiyi üçün Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Bankının, Ümumdünya Ticarət Təşkilatının, Avropa Birliyinin BMT-nin proqramları və təşəbbüslərinin həyata keçirilməsində fəaliyyətinin gücləndirilməsi təklif edilirdi. (131)

Baş katibin təkliflərindən bəziləri bəyənildi, Sülhquruculuğu üzrə komissiya yaradıldı. Sülhməramlı fəaliyyətin uğurlu həyata keçirilməsi üçün aşağıdakı məqsədlər qarşıya qoyulur: heyətin təhlükəsizliyinin müdafiəsi, rəhbərliyin gücləndirilməsi, maliyyələşdirmə, milli institutların yaradılması, BMT missiyalarının münaqişə tərəfləri ilə ciddi işləməsi, yaxşılığa doğru vəziyyətin inkişafı, vətəndaş cəmiyyətinin qurulması, silahlı qruplaşmaların tərksilah edilməsi, münaqişə zonasında humanitar yardım, ixtisaslaşmış qurumların, qeyri-hökumət təşkilatlarının rolunun gücləndirilməsi, möhkəm sülh üçün diplomatik danışıqların aydın olması, regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsi.

2005-ci il 14 sentyabr tarixdə qəbul edilən “BMT-nin münaqişələrin qarşısını almaqda potensialını möhkəmləndirmək barədə” 1625 saylı qətnamədə yuxarıda şərhi verilən qətnamələrin məzmunu təsdiq edilməklə yanaşı, 6-cı bənddə silahlı münaqişələrin olduğu rayonlarda təbii ehtiyatların istilası, qeyri-xammal malların mübadiləsi ilə mübarizə etmək vurğulanır, Təhlükəsizlik Şurasının münaqişələrin qarşısını almaqda rolunun artırılması qeyd edilirdi. (143) Təhlükəsizlik Şurasının 2005-ci il 20 dekabr tarixli “Postkonflikt sülhquruculuğu barədə” 1645 saylı qətnaməsində münaqişələrin qarşısının alınmasında bərpa, yenidənqurma işləri, humanitar yardım qiymətləndirilir.(143)

Təhlükəsizlik Şurasının aktiv fəaliyyət formalarından biri onun xüsusi missiyasının “qaynar nöqtəyə” göndərilməsidir. Belə missiya nəinki münaqişə tərəflərinə siyasi təsir edir, həmçinin missiya vəziyyəti əks etdirən xəritə tərtib edir və bu da Təhlükəsizlik Şurasının qərar qəbul etməsində vacib rol oynayır. Təhlükəsizlik Şurasının belə missiyası 1999-cu ildə Şərqi Timorda olmuşdu.

Siyasi nizamasalmada Təhlükəsizlik Şurasını böhran barədə məlumatlandırmanın əhəmiyyətini görən Venesuelanın BMT yanındakı nümayəndəsi Dieqo Arria Baş katibin məruzələrini

qiymətləndirməklə yanaşı, Təhlükəsizlik Şurası üzvlərinin münaqişə tərəfləri olan dövlətlərin siyasi xadimləri ilə görüş keçirməsi ideyasını irəli sürdü. “Arria formulası” adlanan bu ideya Təhlükəsizlik Şurasının üzvləri və münaqişə tərəfləri arasında fikir mübadiləsinə kömək edir.(54, s.72-78)

Beləliklə, 2005-ci ildə islahatlar barədə təkliflər, qəbul edilən qətnamələr 3 prinsipə əsaslanırdı – inkişaf, kollektiv təhlükəsizlik, insan hüquqlarının müdafiəsi. Bunlardan hər biri digər ikisini möhkəmlədir, tamamlayır. (Bəzi təkliflərdə isə 4-cü dayaq olaraq idarəetmədə islahatlar aparılması göstərilir). Bununla bağlı Baş katib K.Annan məqaləsində yazır ki, «BMT öz üzvlərinə 3 istiqamətdə eyni zamanda hərəkət etməyə kömək etməlidir. Buna görə də yalnız Təhlükəsizlik Şurasında deyil, İnsan hüquqları üzrə Şura və İqtisadi və Sosial Şurada da islahatlar aparılmalıdır… 2015-ci ilə qədər yoxsulluq iki dəfə azalmalı, inkişaf və maliyyə məsələlərində yüksəlişə nail olunmalıdır.» (152) Keçmiş Baş katib BMT-də ali vəzifədə olan Brayan Urkxartın “BMT heç zaman maliyyə böhranı keçirməmişdir, orada yalnız siyasi böhran mövcuddur.” Fikri ilə razılaşır. B.Urkxart BMT-nin sülhməramlı əməliyyatlarının uğurlu olması üçün aşağıdakı şərtləri irəli sürür: 1)BMT-nin vasitəçiliyi barədə münaqişə tərəflərinin razılığl 2) Təhlükəsizlik Şurasında, xüsusən də onun daimi üzvləri arasında yekdil fikir 3) Sülhməramlı əməliyyatın aydın və real mandatı 4) Özünümüdafiə halları istisna olmaqla, BMT qüvvələrindən istifadə edilməməsi 5) Üzv dövlətlərin hərbi kontingent verməyə hazır olması 6) BMT-nin sülhməramlı əməliyyatları maliyyələşdirməsi qabiliyyəti.(54, s.21)

Baş katibin müavini olan M.Quldinq “Sülh və təhlükəsizlik sahəsində BMT-nin fəaliyyətinin gücləndirilməsi üçün praktik tədbirlər” adlı məruzəsində problemin həll edilməsi üçün aşağıdakı şərtləri irəli sürür: 1) Təhlükəsizlik Şurası və Baş katib aydın mandat verməli 2) Əməliyyatlar siyasi məqsəd daşımamalı 3) Əməliyyatlar ərzində münaqişə tərəfləri və BMT arasında sazişlərə əməl edilməli 4) Siyasi, hərbi, informasiya və s. sahələrdə ciddi fəaliyyət göstərməli 5) Üzv dövlətlər, xüsusən də Təhlükəsizlik Şurasının üzvləri hərbi kontingent verməyə və onu maliyyələşdirməyə hazır olmalı 6) BMT tələb edilən vaxt ərzində əməliyyatlar aparmalı 7) Sülhməramlı əməliyyatlar regional təşkilatlar, yaxud dövlətlər

tərəfindən dəstəklənməli 8) Əməliyyatlar uğurlu olmazsa, alternativ addım atmalı.(54, s.23-24)

Yuxarıda deyilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, BMT-nin sülh potensialının möhkəmləndirilməsi üçün hər şeydən əvvəl beynəlxalq birlik problemə düzgün proqnoz qoymalıdır. Münaqişə tərəfləri döyüş əməliyyatlarının kəsilməsinə razılaşmalı, BMT-nin vasitəçi rolunu qəbul etməlidir. Sülhməramlı əməliyyatların keçirilməsi aşağıdakı kimi ola bilər: İnsidentlərin təhqiqatı, barışıq məqsədilə münaqişə tərəfləri ilə danışıqların keçirilməsi; Atəşkəs barədə razılaşmaya riayətin yoxlanılması; Qanunvericiliyin və hüquq normalarının dəstəklənməsinə kömək; Humanitar kömək göstərmək; Situasiyanı müşahidə etmək. Rusiya tədqiqatçısı Piter Kalvokoressi BMT missiyasını iki ümumi kateqoriyaya ayırır: birincisi və başlıcası, məqsədi seçkilərin hazırlanması, onları müşahidə etmək olan müşahidəçilik missiyası. İkincisi, müvəqqəti sülh sazişi bağlanan münaqişə regionlarında sülhü və təhlükəsizliyi təmin etmək, əhaliyə humanitar yardım etmək məqsədilə yaradılan sülhü dəstəkləmək üzrə missiya.(70, s.213-214)

Rusiya tədqiqatçısı A.İ.Nikitin sülhyaratma əməliyyatında fəaliyyətin aşağıdakı növlərini fərqləndirir: 1) Sülhyaratma əməliyyatının hüquqi statusu. Yəni münaqişə tərəflərinin razılığı ilə beynəlxalq birlik tərəfindən sülh əməliyyatlarının həyata keçirilməsi, yaxud sülhü bərpa etmək məqsədilə münaqişə tərəflərinin razılığı nəzərə alınmadan məcburi tədbirlərin görülməsi 2) Sülhyaratma əməliyyatlarının həyata keçirilməsi vasitələri. Buraya faktların toplanması üzrə missiya, yaxud beynəlxalq müşahidəçilik missiyası, silahlı qüvvələrin cəlb edilməsilə beynəlxalq sülhməramlı əməliyyatlar, beynəlxalq sülhməramlı polis əməliyyatları, humanitar yardım üzrə beynəlxalq sülhməramlı əməliyyatlar daxildir. 3) Subyektə görə sülhməramlı əməliyyatlar. Yəni BMT-nin mandatı üzrə dünya birliyi adından sülhməramlı əməliyyatların, regional sülhməramlı əməliyyatların (ATƏT, AB, MDB və s. mandatı üzrə), daxili sülhməramlı əməliyyatlar (etnik qruplararası, lokal münaqişələrin qarşısını almaq üçün dövlətlərin polis əməliyyatları). (87, s.414-416) Sülhməramlı əməliyyatın ilkin dövründə mandat 6 aydan 1 ilə qədər müəyyənləşdirilir, münaqişə tərəfləri arasında müqavilə və razılıqlar (o cümlədən müvəqqəti sülh, atəşkəs,

sərhədlərin bərpa edilməsi, postkonflikt nizamasalma, silahlı qruplaşmaların tərksilah edilməsi, sərbəst seçkilər keçirilməsi, milli dövlət quruculuğu formasının dəyişilməsi barədə razılıqlar) əldə edilir. Baş katibin tövsiyəsi və Təhlükəsizlik Şurası üzvlərinin rəyinə müvafiq olaraq səsvermə yolu ilə sülhməramlı əməliyyatların mandat müddəti uzadılır, yaxud başa çatır.

Sülhməramlı əməliyyatlarda iştirak edən hərbi, polis heyəti müvafiq ölkənin dilini, mədəniyyətini, siyasi vəziyyətini bu və ya digər dərəcədə bilməlidir. Eyni zamanda BMT heyətinin təhlükəsizliyi təmin edilməlidir.

Tez bir zamanda postkonflikt quruculuq işləri aparılmalıdır. Qanunvericilik və hüquq normaları bərpa edilməli, əgər yerli polis qüvvələri əhalinin etimadını itiribsə, müvəqqəti beynəlxalq qüvvələr yerləşdirilməli və hərbi cinayətlər barədə, yaxud həqiqətlərin üzə çıxarılması üzrə komissiyalar yaradılmalıdır. Yerləşdirilən beynəlxalq qüvvələr seçkilərin keçirilməsinə şərait yaratmalı, təhlükəsizlik sistemini təmin etməlidir.

Baş Məclisin rolunu artırmaq, kollektiv hərəkəti, qərarları yerinə yetirmək sülh potensialını möhkəmlədə bilər. Bu baxımdan Baş Məclsin gündəliyində duran məsələ qısa vaxtda müzakirə edilməli, qəbul edilən qətnamələr təkrarlanmamalı, həyata keçirilməlidir.

Təhlükəsizlik Şurasında veto hüququnun saxlanması münaqişələrin nizama salınmasına mane olduğu üçün daimi üzvlərin «veto» hüququ ləğv edilməli, münaqişələrin nizama salınmasında və ya qarşısının alınmasında Təhlükəsizlik Şurası sanksiyalardan istifadə etməlidir. Baş katib Təhlükəsizlik Şurası ilə məsləhətləşərək sanksiyalara nəzarət etməlidir. Münaqişələrin qarşısını almaq üçün İqtisadi və Sosial Şuranın, BMT-nin ixtisaslaşmış qurumlarının, fondlarının, idarələrinin, proqramlarının, Ümumdünya Ticarət Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Bankının, Avropa Birliyinin, həmçinin qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti subyektlərinin rolundan istifadə etmək məqsədəuyğundur.

Münaqişələrin qarşısını almaq üçün Nizamnamənin VIII fəslinə müvafiq olaraq regional və subregional təşkilatlarla, qonşu, regional dövlətlərlə əməkdaşlığın əhəmiyyəti ola bilər.

Baş katib Təhlükəsizlik Şurasını daimi olaraq beynəlxalq sülh və təhlükəsizliyi hədələyən potensial münaqişələr barədə məlumatlandırmalıdır. Beynəlxalq humanitar hüquq, insan hüquqları pozulduqda, etnik, dini, ərazi mübahisələri, yoxsulluq hallarında Baş katib Təhlükəsizlik Şurasına analitik informasiya verməlidir. Üzv dövlətlərin mübahisələrini sülh yolu ilə nizama salmaq üçün regional, subregional təşkilatların əməkdaşlığından istifadə etməklə yanaşı, Nizamnamənin VI fəslinə müvafiq olaraq Beynəlxalq Məhkəməyə müraciət etməyə üstünlük verilməlidir. Genosid, bəşəriyyət əleyhinə cinayətlər, hərbi cinayətlərdə təqsirli bilinənlər barədə xüsusi tribunallar təşkil edilməlidir.

İnsan hüquqları üzrə Şura fəaliyyət mexanizmini gücləndirməlidir. Silahlı münaqişələrin qarşısını almaq üçün bütün üzv dövlətlər BMT-nin fəaliyyət proqramını həyata keçirərək insan hüquqlarını müdafiə etməli, qanunsuz silah satışına qarşı, silahlı münaqişələrin olduğu rayonlarda təbii ehtiyatların istilası və qeyri-xammal malların mübadiləsinə qarşı, işğal edilən ərazilərə qanunsuz olaraq işğalçı dövlətin əhalisinin köçürülməsinə qarşı mübarizə etməlidir. İnsan hüquqlarının qorunması, qanunun aliliyi, münaqişə zonalarına humanitar yardım, məcburi köçkünlərin hüquqlarının müdafiəsi, BMT heyətində nizam-intizam, əxlaq normalarına riayət edilməsi və s. sülh potensialının möhkəmləndirilməsinə xidmət edən amillərdir. İqtisqdiyyatın inkişaf etdiyi, sosial ədalətin, insan hüquqlarının qorunduğu yerdə beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsi, regional münaqişələrin qarşısının alınması labüddür.

## 4.2. Beynəlxalq münasibətlərin müasir problemlərini nizama salmaq üçün BMT-də aparılması zəruri olan islahatlar

Rusiya tədqiqatçısı T.N.Neşatayeva Millətlər Cəmiyyətinin məğlub olmasının iki səbəbini göstərir: 1)1919-1939-cu illərdə ictimai-siyasi şərait yeni beynəlxalq siyasi strukturun olmasını tələb edirdi. Bu təşkilat inteqrasiya xarakterli deyildi, mərkəzdənqaçan meyilli idi. Dünyada hegemonluq etməyə çalışan üzv dövlətlərin milli statusunun güclənməsi prosesi gedirdi. 2) Millətlər Cəmiyyətinin hüquqi mexanizmi tam deyildi və dövlətlərarası münasibətləri inkişaf etdirmək üçün üzv dövlətlər

arasında mübahisələri həll etmək imkanına malik deyildi.(73, s.14) Millətlər Cəmiyyətinin məğlub olması səbəblərini BMT-yə tətbiq etsək, birincisi, BMT universal təşkilatdır, inteqrasiya xarakterlidir, lakin təşkilatın əsas orqanlarında, xüsusən də Təhlükəsizlik Şurasında veto hüquqlu üzvlərin olması onların statusunu gücləndirir. ABŞ-ın BMT-ni daha çox maliyyələşdirməsindən istifadə edərək hegemonluğa can atması, problemləri nizama salmaq pərdəsi altında NATO qüvvələrindən öz məqsədləri üçün istifadə etməsi BMT-ni nüfuzdan salır və onun ölü təşkilat kimi siyasi səhnədən getməsinə səbəb ola bilər. İkincisi, Millətlər Cəmiyyətinin hüquqi mexanizmindən fərqli olaraq I fəslin II paraqrafında araşdırmalara əsasən demək olar ki, BMT-nin hüquqi mexanizmi güclüdür, problemlərin qarşısını almağa qadirdir. Bununla belə BMT-nin müasir problemlərin nizama salınmasında rolunu artırmaq üçün islahatlara ehtiyac vardır. BMT-də islahat aparmaq üçün hansı problemlər qarşıya qoyulur? 1)inkişaf etməkdə olan ölkələrin nümayəndələrinin BMT-nin əsas orqanlarında kifayət qədər olmaması 2) Təhlükəsizlik Şurasının daimi üzvlərinin imtiyazlı vəziyyəti 3)ABŞ-ın hegemonluq etməsi ilə təkqütblü dünyanın yaradılmasına meyl 4)BMT-ni maliyyə böhranından çıxarmaq üçün varlı, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə Təhlükəsizlik Şurasının daimi, yaxud yarıdaimi üzvü statusunu vermə

K.Annan BMT-də islahatlar aparmaq, kollektiv tədbirlər keçirmək, BMT-nin əsas orqanlarının funksiyası barədə tövsiyələr vermək üçün 2005-ci il sammitində 15 tanınmış siyasi xadimdən ibarət Yüksək səviyyəli qrup yaratdı. (71, s.59-62) Qrupa BMT-nin İnkişaf Proqramının rəhbəri, Çilinin, Tanzaniyanın keçmiş prezidentləri, Norveç, Pakistan, Mozambikin baş nazirləri, Kanadanın və digər ölkələrin nazir müavinləri, Rusiyadan akademik E.M.Primakov da daxil edildi. Bu qrup Təhlükəsizlik Şurasının islahatlarında iki alternativ model təklif etdi: 1-ci modeldə veto hüququ olmayan üzvlərin artırılması nəzərdə tutulur, Afrika, Asiya və Sakit Okean, Avropa və Amerika qitələrindən heç birinin veto hüququ olmayan 6 yeni daimi üzv, 3 yeni müvəqqəti, yəni 2 il müddətinə seçilmiş üzv olmalıdır. Hal-hazırda Afrikadan daimi üzv yoxdursa, 2 daimi üzv bu qitədən, Asiya və Sakit okeandan 1 daimi üzv əvəzinə, 2 üzv, müvəqqəti üzvlüyə Afrikadan 4, Asiya və Sakit

Okeandan 3, Avropadan 2, Amerikadan 4 dövlət seçilməlidir. Qrupun təklif etdiyi 2-ci modeldə Təhlükəsizlik Şurasında heç bir yeni daimi üzvün olmaması, yeni kateqoriya ilə 4 il müddətinə 8 üzv seçilməsi nəzərdə tutulur. (Hər zona üzrə 2 dövlət) 2 il müddətinə seçilən üzvlər isə Afrikadan 4, Asiya və Sakit Okeandan 3, Avropadan 1, Amerikadan 3 dövlət olmalıdır. Göründüyü kimi, heç bir modeldə daimi üzvlərin veto qoymaq hüququ yoxdur.(130; 131)

H.Kissincer yazır ki, BMT təhlükələrə qarşı dayana bilmir. Əgər daimi üzvlərin fikirləri üst-üstə düşərsə, BMT sülhməramlı funksiyalar həyata keçirə bilər. Əgər bütün üzvlər məsuliyyəti üzərilərinə götürürlərsə, heç bir ölkə və ya ölkələr qrupu aydın vəzifə daşımır. Bu sülhməramlı missiyanı isə alyans həyata keçirir. "Alyans" və "kollektiv təhlükəsizlik" terminləri çox vaxt sinonim kimi işlənsə də, bu iki anlayış faktiki olaraq bir-birindən fərqlənir.(61, s. 32)

Beynəlxalq təşkilatın inkişafı istiqamətlərindən biri beynəlxalq hüquq normalarının nizamlayıcısı kimi, beynəlxalq hüquq normalarına dövlətləri riayət etməyə məcbur etməkdir. Təhlükəsizlik Şurası beynəlxalq hüquq normalarının pozulmasına qarşı ciddi sanksiyalar qəbul edə bilər. BMT Baş Məclisinin, Təhlükəsizlik Şurasının qəbul etdiyi müvafiq qətnamələr hüquq pozuntularına təsir göstərməyə qabildir. Hazırda yalnız BMT hərbi sanksiyalar qəbul edə bilər. Sanksiyalar təşkilatın üzvlərinə həvalə edilən hüquq normaları pozulduqda, Nizamnaməyə müvafiq öhdəlikləri yerinə yetirmədikdə və başqa hallarda tətbiq edilə bilər. Sanksiyalar iki cür ola bilər. 1) Hüquq və imtiyazların dayandırlıması 2) BMT-nin ixtisaslaşmış qurumlarının işində iştirakdan kənarlaşdırma. (99, s.121) L.Martinin iqtisadi sanksiyalar sahəsində əməkdaşlıq barədə tədqiqatı göstərir ki, sanksiyalar təsisatlanmış mühitdə qoyulduqda əməkdaşlıq güclənir (114, s.283). Beləliklə, Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin həyata keçirilməsində iqtisadi sanksiyalardan istifadə etməsi nəinki ayrı-ayrı dövlətlərin beynəlxalq hüquq normalarına riayət etməsinə, həmçinin ikitərəfli, çoxtərəfli əməkdaşlığın möhkəmlənməsinə səbəb ola bilər. Bundan başqa, sülh əməliyyatlarının həyata keçirilməsi zamanı blokada, müəyyən silah növlərindən istifadənin qadagan edilməsi və s. kimi məcburi tədbirlərdən istifadə edilməlidir. Təhlükəsizlik

Şurasının hər hansı bir məsələ barədə qətnamə qəbul etdikdən sonra uzun müddət sülhməramlı əməliyyatların həyata keçirilməməsi BMT-nin nüfuzunu azaldan əsas səbəbdir. Bu onunla izah edilir ki, Təhlükəsizlik Şurasının daimi ordusu, ehtiyat korpusu yoxdur və belə qüvvələri ancaq vacib lazım olduqda axtarmağa başlayır. Rusiya tədqiqatçısı A.D.Boqaturov Təhlükəsizlik Şurasının güc sanksiyası barədə istənilən qərarının həyata keçirilməsi üçün BMT-nin xüsusi silahlı qüvvələrinin olması zəruriliyini göstərir.(87, s.83)

Beynəlxalq sülh və təhlükəsizliyi müdafiə etmək üçün BMT-nin əsas, eləcə də ixtisaslaşmış qurumlarının Baş Məclislə əməkdaşlığını gücləndirmək lazımdır. Sülhquruculuğu həyata keçirilərkən Təhlükəsizlik Şurası və Baş Məclis arasında konsensus olmalıdır. Rusiya tədqiqatçısı V.F.Zayomskiy bu istiqamətdə ilk addım kimi Təhlükəsizlik Şurası üzvlərinin kontingent verən ölkələrlə görüş keçirməsi vacibliyini bildirir.(54, s.85) Tədqiqatçının bu fikrini düzgün hesab etmək olmaz. Çünki Baş Məclisin heç də bütün üzvləri kontingent verə bilmir.

Dünya dövlətlərinin 2005-ci il Ümumdünya Sammitində məruzə edən K.Annan Baş Məclisdə müzakirələr prosesinin tezləşdirilməsi, gündəmdə olan problemlər barədə mexanizmin gücləndirilməsi təklifini verdi. Ölkə rəhbərləri sülhməramlı əməliyyatlarda polis heyətindən istifadə edilməsi təklifini bəyəndilər.(151)

Təhlükə və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun məruzəsində də Baş Məclisin gündəlikdə olan məsələləri həll etməyə qadir olmadığı, bu qurumun qətnamələrinin əksəriyyətinin təkrar xarakter daşıdığı, aydın olmadığı və həyata keçirilmədiyi, orada yalnız müasir təhlükələrə, daha kiçik məsələlərə baxıldığı göstərildi.(131)

Baş Məclisin qərar və qətnamələrinin tövsiyə xarakteri daşıması, Təhlükəsizlik Şurasının 5 daimi üzvünün bütün əsas orqanlarda iştirak edərək qəbul edilən qərarlara, irəli sürülən təşəbbüslərə təsir göstərməsi Baş Məclisin, eyni zamanda dövlətlərin suverenlik hüquqlarını məhdudlaşdırır. B.B.Qalinin fikrincə, “III dünya ölkələri BMT-də və digər beynəlxalq təşkilatlarda daha çox səs almalıdır.Lakin bu institutlarda onlar yalnız öz ümidlərini, arzularını,

bədbəxtliklərini bildirirlər. Bu təşkilatda böyük dövlətlər, əsasən də iki aparıcı dövlət arasında razılaşırlar."(44, s.85)

Fikrimizcə, ayrı-ayrı orqanlarda müzakirə edilən məsələlərin yenidən Baş Məclisə gətirilərək, $_{3}/^{2}$ səs çoxluğu ilə onlar barəsində qərar və qətnamələrin qəbul edilməsi BMT-də təmsil olunan dövlətlərin suveren hüquq prinsiplərinin bir daha təsdiq edilməsinə imkan verər.

BMT-nin fəaliyyətində Katiblik mühüm yer tutur. Dünyanın hər yerindən gələn on minlərlə mütəxəssis burada əməkdaşlıq edir. Lakin Katibliyin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin həyata keçirilməsində fəaliyyəti gücləndirilməlidir. Sülhü dəstəkləmək üzrə əməliyyatlar departamenti Baş katibin adından missiyaya rəhbərlik edir. Departamentin fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün aydın mandat, bu mandatın yerinə yetirilməsində tərəflərin əməkdaşlığı, Təhlükəsizlik Şurası tərəfindən dəstəklənmə, üzv dövlətlərin zəruri miqdarda hərbi, polis, mülki heyət verməyə hazır olması, Katiblik tərəfindən effektli rəhbərlik, maliyyə, maddi-texniki dəstək verilməsi vacib amillərdir. Sülhməramlı əməliyyatların müvəffəqiyyətlə həyata keçirilməsi Təhlükəsizlik Şurasının üzvü olan dövlətlər və Katiblik arasında olan əlaqələrdən çox asılıdır.

Bu və ya digər əməliyyatın necə həyata keçirilməsi sülhməramlı missiyaya rəhbərlik edən Baş katibin xüsusi nümayəndəsinin fəaliyyətindən çox asılıdır. Yüksək səviyyəli siyasətçi və diplomat olan xüsusi nümayəndə münaqişə tərəfləri arasında, digər region dövlətləri ilə münasibətlər yaratmalıdır. Sülhquruculuğu fəaliyyətində Katibliyin qarşısına aşağıdakı məqsədlər qoyulur: 1) Möhkəm sülhə nail olmaq üçün Təhlükəsizlik Şurasının qərar qəbul etməsindən sonra əməliyyatların keçirilməsi 2) Təhlükəsizliyin möhkəmləndirilməsi, risklərlə qarşılaşan hərbi, polis, mülki heyətin müdafiəsi 3) Üzv dövlətlərin verdiyi ehtiyatlardan istifadə edilməsi 4) Regional strukturlarla birlikdə fəaliyyətin həyata keçirilməsi və sülhün qlobal səviyyədə dəstəklənməsi 5) BMT sülhməramlılarının fəaliyyət göstərdikləri ölkədə sakinlərə qarşı mənfi davranışın qarşısının alınması. (54, s.163)

Baş katib B.B.Qalinin 1992-ci il "Sülh üçün gündəlik" və 1995-ci il "Sülh üçün gündəliyə əlavə" adlı məruzələrində Baş

katibin hüquq və səlahiyyətlərinin genişləndirilməsi də əksini tapdı.(102; 103) Bundan başqa sülh və təhlükəsizliyi müdafiədə, sülhquruculuğunu həyata keçirməkdə Baş katib, onun şəxsi və xüsusi nümayəndələrinin, məsləhətçilərinin fəaliyyəti genişləndi, Baş katibin himayəsi altında xüsusi tapşırıqlı misiyalar - vasitəçilik, xeyirxah xidmətlər, insan hüquqlarının pozulması faktlarının toplanması üzrə missiyalar yaradıldı.

Təhlükəsizlik Şurasının "Sülh və təhlükəsizliyi müdafiədə rolunun artırılması" barədə 2000-ci il 13 noyabr tarixli 1327 saylı qətnamədə Baş katibin Təhlükəsizlik Şurası ilə əlaqələrinin genişləndirilməsi, Baş katibin Təhlükəsizlik Şurasına danışıqlar, təhqiqat, qiymətləndirmə, tövsiyələr barədə məlumat verməsi, üzv dövlətlərlə, xüsusən də kontingent verən dövlətlərlə məsləhətləşdikdən sonra hazırladığı BMT-nin operativ hərbi doktrinasını Təhlükəsizlik Şurasına və Baş Məclisə təqdim etməsi, Katibliyin faktları toplamaq və təhqiqat potensialını gücləndirmək zəruriliyi göstərilmişdi.(140)

2001-ci il 30 avqust tarixli "Silahlı münaqişələrin qarşısının alınmasında 65. Təhlükəsizlik Şurasının rolu" barədə 1366 saylı qətnamədə Nizamnamənin 99-cu maddəsinə müvafiq olaraq münaqişələrin qarşısını almaqda Baş katibin rolu təsdiq edildi. Qətnamədə deyilirdi ki, beynəlxalq hüquq normaları, beynəlxalq humanitar hüquq, insan hüquqları pozulduqda, etnik, dini, ərazi mübahisələri olduqda, yoxsulluq hallarında Baş katib Təhlükəsizlik Şurasına informasiya verməli, Baş katibin tövsiyəsi və üzv dövlətlərin razılığı ilə preventiv tədbirlər həyata keçirilməlidir.(141) Başqa sözlə, Baş katib sülh əməliyyatları mandatının həyata keçirilməsi barədə məruzə etdikdən və bunu müzakirə etdikdən sonra Təhlükəsizlik Şurası müvafiq qətnamə qəbul etməlidir.

2005-ci il dünya ölkələri liderlərinin Ümumdünya Sammitində Baş katib K.Annan məruzəsində Baş katibin hüquq və səlahiyyətlərini bir daha nəzərə çarpdırdı və bildirdi ki, Baş katib və heyət vəzifələrini icra edərkən hər hansı hökumət və ya təşkilatdan kənar olan hər hansı orqandan göstərişlər istəməməli və almamalıdır.(151)

BMT-nin sülh potensialının möhkəmləndirilməsi barədə təkliflər verən Yüksək səviyyəli qrupun məruzəsində sanksiyaların

effektli olması üçün Baş katibinTəhlükəsizlik Şurası ilə məsləhətləşərək sanksiyalara nəzarət etməsi, Katibliyin təkmilləşdirilməsi təklifləri edildi.(130; 131)

Beləliklə, beynəlxalq sülh və təhlükəsizliyi müdafiənin effektli olması Baş katibin və onun köməkçilərinin təşkil etdikləri missiyaların münaqişə regionunda səmərəli fəaliyyətlərindən və Təhlükəsizlik Şurasına informasiya verilməsindən çox asılıdır. Başqa sözlə, Təhlükəsizlik Şurası və Katiblik arasında əməkdaşlığın möhkəmləndirilməsi sülh və təhlükəsizliyi müdafiədə vacib amillərdən biridir. Katiblikdə heyətin tərkibinin artırılması sülh əməliyyatlarının planlı surətdə həyata keçirilməsinə şərait yaradır. Hərbi və polis funksiyalarının bölünməsi, cinayət hüququ və məhkəmə məsələləri üzrə məsləhətçi qrupun yaradılması hüququn aliliyini təmin etməyə imkan yaradır.

Təhlükəsizlik Şurasında islahatlar yalnız tərkibin genişlənməsi ilə bitmir. Təhlükəsizlik Şurasının, Baş Məclisin, Katibliyin, Beynəlxalq Məhkəmənin, İqtisadi və Sosial Şuranın, beynəlxalq maliyyə institutlarının, İnsan hüquqları üzrə Şuranın, Sülh quruculuğu üzrə Komissiyanın və b. fəaliyyəti uyğunlaşdırılmalıdır. Münaqişələrin nəticələrinin aradan qaldırılması məqsədilə sosial-iqtisadi proqramların həyata keçirilməsi sülhquruculuğu üçün vacib məsələdir. İqtisadi və Sosial Şurada islahatlar aparılması, inkişaf etməkdə olan ölkələrə, xüsusən də Afrika ölkələrinə, kiçik ada ölkələrinə, dənizə çıxışı olmayan, iqtisadi keçid dövrünü yaşayan inkişaf etməkdə olan ölkələrə maliyyə qoyuluşu beynəlxalq sülh və təhlükəsizliyin müdafiəsinə kömək edə bilər. İnkişaf etmiş ölkələr BMT-nin iqtisadi funksiyasını artırmağa çalışır. Butros Qali bildirir ki, "insanın xoşbəxt olması üçün minimal maddi tələbatı ödənilməlidir, İnsan hüquqları haqqında bəyannamə insan ləyaqətini, azadlığını həyat səviyyəsinin yüksəlməsi ilə birlikdə etiraf edir..."(44, s.11) A.Qromıko da xoşbəxtliyi mütləq təbii və ictimai şəraitlə bağlayır.(44, s.10)

Bununla əlaqədar Minilliyin Bəyannaməsində K.Annan iqtisadiyyatın inkişafına aparan hər bir addımın münaqişələrin qarşısını almağa yönəldilməsi tezisini irəli sürdü, daxili münaqişələrin etnik və dini ixtilafların yoxsulluq ilə çulğalaşmasından sonra meydana gəldiyini vurğuladı.(159)

İxtisaslaşmış qurumlar olan Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının fəaliyyəti daha səmərəli nəticə verir. EKOSOS-un qarşıya qoyduğu vəzifələr dünya inkişafının aktual problemləri ilə maliyyə böhranının qarşısını almaq, bazarların qaydaya salınması, beynəlxalq maliyyə institutlarında islahat və s. ilə daha sıx bağlanır. İslahata müvafiq olaraq İqtisadi və Sosial Şuranın çoxtərəfli ticarət-iqtisadi və valyuta-maliyyə qurumları, Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı ilə əlaqələri möhkəmlənir, siyasətin formalaşmasında EKOSOS-un rolu artır. Təhlükəsizlik Şurasının 2001-ci il 30 avqust tarixli "Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu" barədə 1366 saylı qətnaməsində qeyd edilir ki, beynəlxalq sülh və təhlükəsizliyi hədələyən potensial münaqişələr barədə Baş Məclis, İqtisadi və Sosial Şura Təhlükəsizlik Şurasına informasiya verməli, regional münaqişələrin qarşısını almaq üçün BMT-nin potensialını gücləndirmək məqsədilə Təşkilata sosial, iqtisadi, texniki, maliyyə ehtiyatları verilməli, İqtisadi və Sosial Şura inkişaf sahəsində əməkdaşlığı gücləndirməli, iqtisadi və sosial sahələrdə müxtəlif hökumətlərarası təşkilatların qüvvələrini səfərbər etməlidir.(141) Təhlükə və dəyişikliklər üzrə yüksək səviyyəli qrupun məruzəsinin "XXI əsr üçün daha effektli BMT" adlanan IV hissəsində beynəlxalq təhlükəsizliyi iqtisadi və sosial cəhətdən dirçəltmək üçün yeni institut mexanizminin yaradılması, Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının, Ümumdünya Ticarət Təşkilatının BMT-nin proqramlarının həyata keçirilməsində fəaliyyətlərinin gücləndirilməsi təklif edildi.(131) 2005-ci il Ümumdünya Sammitində münaqişə regionlarını iqtisadi və sosial cəhətdən dirçəltmək üçün Sülhquruculuğu üzrə komissiya yaradılması ideyası irəli sürüldü. Əsas məqsədi postkonflikt regionunda sülh quruculuğu işlərini təşkil etmək, maliyyələşdirmək olan Sülhquruculuğu üzrə komissiyanın yaradılması Baş Məclisin, İqtisadi və Sosial Şuranın rolunu artırdı. Komissiyanın daimi təşkilat komitəsinə Təhlükəsizlik Şurasının 5 daimi üzvü, 2 müvəqqəti üzvü, İqtisadi və Sosial Şuranın 7 üzvü (postkonflikt dövrü yaşayan dövlətlər istisna olmaqla), BMT büdcəsini ən çox maliyyələşdirən 5 üzv, könüllü olaraq proqramları maliyyələşdirən 5 ölkə, Baş Məclisin daha çox hərbi və polis heyəti verən 7 üzvü daxil edildi.(54, s.94) Komissiyanın işində iştirak

etmək üçün Baş katibin, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun və digər donor ixtisaslaşmış qurumların nümayəndələri dəvət edilir.

Beynəlxalq mübahisələrin dinc yol ilə nizama salınması vasitələrini iki növə ayırmaq olar: 1) Diplomatik vasitələr (danışıqlar, təhqiqat, barışdırma) 2) Məhkəmə vasitələri (Beynəlxalq arbitraj və Beynəlxalq Məhkəmə). Bu halda qərəzsiz üçüncü tərəf beynəlxalq hüquq normalarını əsas götürməklə beynəlxalq mübahisələri həll edir və onun çıxardığı qərar mübahisə tərəfləri üçün məcburidir.

1997-ci ildə BMT-də islahatlar barədə çıxış edən B.B.Qali sülhquruculuğu maraqlarına müvafiq olaraq Beynəlxalq Məhkəmənin potensialının inkişaf etdirilməsi vacibliyini qeyd etdi. Məruzədə Nizamnamənin 36-37-ci maddələrinə əsasən üzv dövlətlərin məkəmədən, arbitrajdan və s. istifadə etməklə beynəlxalq mübahisələrin nizama salınmasına üstünlük verməsi əhəmiyyəti göstərildi.(54, s.57-60) Beynəlxalq Məhkəmənin fəaliyyətinin gücləndirilməsi, onun qərarlarının yerinə yetirilməsi vacibliyi Baş Məclisin 55-ci sessiyasında qəbul edilən BMT-nin Minillik Bəyannaməsinin “Sülh, təhlükəsizlik və tərksilah” adlı bölümündə də əksini tapdı.(149) Həmin il Baş katib K.Annanın BMT-də islahatlar aparmaq üçün təkliflər verməsi məqsədilə təsis etdiyi Yüksək səviyyəli qrupun “Braximi məruzəsi” kimi tanınan məruzəsində sülhə nail olmaq üçün insan hüquqlarının qorunması, qanunun aliliyi, departamentlərdə nizam-intizam və s. olmasının vacibliyi vurğulandı.(132)

Təhlükəsizlik Şurası 2001-ci il 30 avqust tarixli “Silahlı münaqişələrin qarşısının alınmasında Təhlükəsizlik Şurasının rolu” barədə qəbul etdiyi 1366 saylı qətnaməsində regional münaqişələrin qarşısını almaq, yaxud onları nizama salmaq üçün genosidin qarşısını almağın, bəşəriyyət əleyhinə cinayətlər və hərbi cinayətlər törədənlərin məsuliyyətə cəlb edilməsinin, Yuqoslaviya və Ruanda kimi xüsusi tribunalların yaradılmasının əhəmiyyətli olduğunu bildirdi.(141) Qətnamədə deyilirdi ki, Nizamnamənin VI fəslində nəzərdə tutulduğu kimi, üzv dövlətlər mübahisələri sülh yolu ilə nizama salmaq üçün regional təşkilatların əməkdaşlığından istifadə etməklə yanaşı, daha çox Beynəlxalq Məhkəməyə müraciət etməyə

üstünlük verməlidirlər. 90-cı illərdə BMT Təhlükəsizlik Şurasının Yuqoslaviyada və Ruandada olan cinayətlərin araşdırılması üzrə təsis etdiyi beynəlxalq tribunallar ayrı-ayrı regionlarda da yaradılmağa cəhd edildi. (61,s.309)Təhlükəsizlik Şurası, eyni zamanda, xüsusi hallarda Yuqoslaviya və Ruanda barədə olduğu kimi beynəlxalq tribunallar yaradır. Belə beynəlxalq tribunalların fəaliyyəti və araşdırma prosedurası Təhlükəsizlik Şurası tərəfindən aydın müəyyən edilməlidir.

Deyilənləri ümumiləşdirərək qeyd etmək lazımdır ki, Beynəlxalq Məhkəmənin fəaliyyəti gücləndirilməli, digər əsas orqanlarla, eləcə də ixtisaslaşmış orqanlarla, o cümlədən İnsan hüquqları üzrə Şura, lazım olan vaxtda BMT-nin yaratdığı Kompensasiya Komissiyası və s. ilə əməkdaşlıq olmalıdır. Təhlükəsizlik Şurasının köməkçi orqanlarından biri olan Kompensasiya Komissiyası 1991-ci ildə Küveytə hücum zamanı İraqa vurulan zərərin əvəzinin ödənilməsi üçün yaradılmışdı. Belə bir Komissiya Ermənistanın Azərbaycana vurduğu zərərin əvəzini ödəməsi üçün də yaradılmalıdır. Beynəlxalq Məhkəmə konvensiyalardan, beynəlxalq adət normalarından, məhkəmə qərarlarından, doktrinalardan istifadə etməklə, münaqişə tərəflərinin razılığı ilə dövlətlərarası mübahisələrə baxır, tərəflərin qərarları ex aequoct, ədalətlilik prinsipi əsasında qəbul edilir. Məhkəmə iclası üçün kvorum 9 üzvdür. (67, s.180) Yuxarıda qeyd etdiyimiz kimi, təcavüzkarı cəzalandırmaq üçün Xüsusi Tribunalın yaradılması son dərəcə vacibdir, Beynəlxalq Məhkəmənin fəaliyyəti canlanmalıdır, praktiki olmalıdır və güman edirik ki, dünyada sülh və təhlükəsizliyi təmin etməkdə Təhlükəsizlik Şurası ilə sıx əməkdaşlıqda Beynəlxalq Məhkəmənin rolu böyük ola bilər.

BMT Nizamnaməsi insan hüquqları sahəsində beynəlxalq münasibətlərin keyfiyyətcə yeni mərhələsinin başlanğıcını qoymuş və beynəlxalq münasibətlər tarixində dövlətlərin insan hüquqları üzrə əməkdaşlığının əsasını qoyan çoxtərəfli müqavilədir. Əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi ilk dəfə olaraq BMT Nizamnaməsinin 55-56-cı maddələrində təsbit olunmuş, sonralar bir sıra sənədlərdə, o cümlədən 1948-ci il 10 dekabr tarixli İnsan hüquqları barədə ümumi bəyannamədə dəqiqləşdirilmiş, beynəlxalq hüququn müstəqil prinsipi kimi Helsinki Yekun Aktında əksini tapmışdır. 2005-ci il Ümumdünya Sammitində Baş katib K.Annan

məruzəsində insan hüquqlarının müdafiəsinin beynəlxalq təhlükəsizlik sisteminin əsas meyarı olduğunu vurğuladı. Məruzənin "Ləyaqətli insanlar şəraitində azad yaşamaq" adlı III hissəsində qanunvericiliyin, demokratiyanın, insan hüquqlarının müdafiə edilməsinin vacibliyi göstərilmişdi. K.Annan üzv dövlətləri insan hüquqları barədə sazişləri yerinə yetirməyə, Beynəlxalq Məhkəmə ilə əməkdaşlığı möhkəmlətməyə, dövlətlərin daxili işlərinə qarışmamağa və suveren huquqları müdafiə etməyə, genosid, etnik təmizləmə, bəşəriyyətə qarşı cinayətlərlə kollektiv mübarizəyə çağırdı. Baş katib bildirdi ki, "əgər xalq təhlükədən qorunmaq üçün əlinə silah götürürsə, beynəlxalq birlik onu dəstəkləməlidir. Əgər milli hökumət öz vətəndaşlarını qorumaq iqtidarında deyilsə, Nizamnaməyə müvafiq olaraq Təhlükəsizlik Şurası məcburi tədbirlər görməlidir." Məruzədə İnsan hüquqları üzrə komissiyanın təkmilləşdirilməsi zəruriliyi qeyd edilirdi. Genosidlə bağlı Təhlükəsizlik Şurası adekvat tədbirlər görmürsə, onun məsuliyyət daşıması barədə Baş katib Nizamnaməyə əlavələr edilməsini təklif etdi. K.Annan İnsan hüquqları barədə komissiyanın dəyişərək BMT-nin əsas orqanı olması, yaxud Baş Məclisin köməkçi orqanı olması təklifini irəli sürdü. Bununla əlaqədar Nizamnaməyə yeni fəsil daxil edilməli və burada bu orqanın səlahiyyətləri ilə yanaşı, onun əsas digər orqanlarla münasibətləri göstərilməli idi.

1946-cı ildə İqtisadi və Sosial Şura köməkçi orqan kimi İnsan hüquqları üzrə komissiyanı təsis etdi. Baş Məclisin 1966-cı il 16 dekabr tarixli Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktının IV hissəsinə müvafiq olaraq tərkibi iştirakçı dövlətlər tərəfindən öz vətəndaşları sırasından seçilmiş və yüksək əxlaqi keyfiyyətlərə, insan hüquqları sahəsində tanınmış bacarığa malik olan 18 ekspertdən ibarət İnsan hüquqları üzrə komitə yaradıldı. Baş Məclisin köməkçi orqanı olan bu komitənin əsas funksiyası iştirakçı dövlətlərin paktda qəbul edilmiş hüquqların həyata keçirilməsinə dair gördükləri tədbirlər barədə məruzələrinə baxmaq, onlara irad tutmaq, iştirakçı dövlətlərin bu və ya digər dövlət tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsi barədə şikayətlərinə, həmçinin ayrı-ayrı şəxslərin yurisdiksiyası altında olduğu dövlət tərəfindən hüquqlarının pozulması barədə şikayətlərə baxmaq idi.

Beynəlxalq hüquq normalarının inkişafında mühüm rol oynayan BMT-nin ilk sənədlərindən biri olan 1948-ci il 10 dekabr tarixli İnsan hüquqları barədə bəyannamə 80-dən çox konvensiya və bəyannamənin, o cümlədən 1962-ci il Azlıqların diskriminasiyası və müdafiəsi barədə qətnamənin, Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğv edilməsi barədə konvensiyanın, 1966-cı il 16 dekabr tarixli İqtisadi, sosial və mədəni hüquq haqqında beynəlxalq paktın, yenə həmin tarixdə Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq paktın, son illərdə qəbul edilən Uşaqların hüquqları barədə konvensiyanın, İşgəncələr əleyhinə konvensiyanın qəbul edilməsinin əsasını qoymuş, bu konvensyalara müvafiq olaraq 1970-ci ildə İrqi diskriminasiya üzrə komitə, 1982-ci ildə Qadınlara qarşı diskriminasiyanın ləğvi üzrə komitə, 1988-ci ildə İşgəncələrə qarşı komitə 1990-cı ildə Uşaq hüquqları üzrə komitə yaradılmışdır. İnsan hüquqları sahəsində Baş Məclisin qətnamələrini yerinə yetirməyən dövlət BMT-nin üzvü statusundan məhrum edilməlidir. İnsan hüquqları üzrə Komissiya Cənubi Afrikada aparteid rejimin devrilməsi, Çili, Qvatemala, Argentina və d. dövlətlərdə demokratik dəyişikliklər etməyə nail oldu. Qeyd etməliyik ki, BMT-nin qəbul etdiyi qərarlar əsasında regional təşkilatlar da İnsan hüquqları barədə Amerika konvensiyası, İnsan və xalqların hüquqlarının müdafiəsi haqqında Afrika xartiyası, İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Şurası konvensiyası, ATƏT-in Helsinki Yekun Aktı və s. kimi bəzi sənədlər qəbul etmişlər.

İnsan hüquqları üzrə Komissiyanın yerinə yeni orqanın, yəni İnsan hüquqları üzrə Şuranın yaradılması barədə 2005-ci il Ümumdünya Sammitində qərar qəbul edilərkən 170 dövlət qətnamənin lehinə, 4 dövlət – ABŞ, İsrail, Palau və Marşal Adaları əleyhinə səs verdi, 3 dövlət - Belorusiya, İran, Venesuela bitərəf qaldı. Yeni orqanın yaradılmasında məqsəd insan hüquqları sahəsində ikili standartlar, siyasiləşmə, qarşıdurmanın aradan qaldırılması idi. Bəzi dövlətlər Şurada müəyyən meyarlara cavab verən dövlətlərin namizədliyinin irəli sürülməsini təklif etdilər. Bu isə beynəlxalq hüququn jus cogens prinsiplərindən biri olan suveren bərabərlik prinsiplərinə zidd idi. Rusiya Federasiyası könüllü olaraq insan hüquqları sahəsinin fəaliyyətinə ildə 2 milyon dollar verəcəyini

bildirərək İnsan hüquqları üzrə Şuranın Katibliyi vəzifəsini öz üzərinə götürdü.

2006-cı il martın 15-də Baş Məclis 60/251 saylı qətnamə qəbul etdikdən sonra, mayın 9-da Nyu-Yorkda Baş Məclisin iclasında 47 üzv Şuranın tərkibinə seçildi. Digər iddiaçılar zəruri səs çoxluğu, yəni 96 səs toplamadıqları üçün seçilmədilər. İkinci turda Azərbaycan (95) və Ukrayna (91), üçüncü turda Rumıniya (89) Şuraya daxil edildi. Qalan dövlətlər Albaniya (31), Ermənistan (70), Macarıstan (79), Gürcüstan (35), Latviya (50), Litva (92), Sloveniya (91) kifayət qədər səs toplamadıqları üçün Şuranın tərkibinə daxil edilmədilər. ABŞ Böyük Britaniya Şuranın yaradılması əleyhinə idilər və ona görə də seçkidə iştirak etmədilər. Fikrimizi ümumiləşdirərək qeyd etmək lazımdır ki, İnsan hüquqları üzrə Şuranın fəaliyyəti siyasiləşdirilməməli, insan hüquqlarının tam təmin edilməsinə yönəldilməlidir.

2000-ci ildə keçirilən Minilliyin Sammitində kontingent verən ölkələrin fikri ilə hesablaşmaq üçün Rusiya prezidenti V.V.Putin Hərbi Qərargah Komitəsinin fəaliyyətininn canlandırılması təşəbbüsünü irəl sürdü. Dünya ölkələri liderlərinin 2005-ci il Ümumdünya Sammitində K.Annan məruzəsində Nizamnamədən "düşmən dövlət" ifadəsini, Qəyyumluq üzrə Şura və Hərbi Qərargah Komitəsi barədə maddələrin çıxarılması zəruriliyini bildirdi.(151) Nizamnamənin 47-ci maddəsinin 1-ci bəndində deyilir: «Təhlükəsizlik Şurasına, onun beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması üçün hərbi tələbatına, sərəncamında olan qüvvələrin istifadəsinə və onlara komandanlıq edilməsinə, silahların nizama salınmasına və mümkün tərksilaha aid olan bütün məsələlər üzrə məsləhətlər vermək və kömək etmək məqsədilə Hərbi Qərargah Komitəsi yaradılır.» Nizamnaməyə müvafiq Hərbi Qərargah Komitəsi Təhlükəsizlik Şurasının daimi üzvlərinin qərargah rəislərindən və ya onların nümayəndələrindən ibarətdir. Lakin hazırda ortaya çıxan qlobal problemlərin həll edilməsi BMT-nin digər üzvlərinin də Komitənin işində iştirakını tələb edir. Beləliklə, BMT sülhməramlılarının sayının artırılması tələbatı ortaya çıxır. 47-ci maddənin 4-cü bəndinə müvafiq olaraq Hərbi Qərargah Komitəsi Təhlükəsizlik Şurasının icazəsi ilə və müvafiq regional orqanlarla məsləhətləşmədən sonra regional subkomitələr yarada bilər. Bu

subkomitələrin fəaliyyəti BMT-nin sülh quruculuğunda fəaliyyətini yüksəltmək üçün hərbi ekspertiza mexanizminin səviyyəsini yüksəltməyə yönəldilməlidir. Rusiyanın münaqişə zonalarında subkomitələrin yaradılması və onların Katibliklə əməkdaşlığı təklifi BMT-nin 2001-ci il 13 iyun tarixli 1353 saylı "Ordu verən ölkələrlə əməkdaşlığın möhkəmləndirilməsi barədə" adlı qətnamədə əksini tapdı.(141) Qətnamədə Təhlükəsizlik Şurası ilə kontingent verən dövlətlər arasında münasibətlər, həmçinin kontingent verən dövlətlərin iştirakı ilə Təhlükəsizlik Şurasının açıq, qapalı, məsləhət formatlı iclaslar keçirməsi, həmçinin regional təşkilatların BMT ilə əməkdaşlığının möhkəmləndirilməsi, Baş katibin dostları qrupundan istifadə edilməsi, Baş katibin kontingent verən ölkələrlə görüşlərinin keçirilməsi, Hərbi-Qərargah Komitəsinin sülh əməliyyatlarında iştirak etməsi məsələləri əksini tapmışdı.

Kontingent verən dövlətlərin xüsusi komitəsinin yaradılması barədə ideya ilk dəfə olaraq 1995-ci ildə irəli sürüldü. Bir çox dövlətlər, o cümlədən Argentina, Hindistan, İordaniya, Kanada, Pakistan, İsveç kontingent verən ölkələrlə dialoqun institutlaşması ideyasını irəli sürdülər. Nizamnamənin 29-cu maddəsində qeyd edildiyi kimi, Təhlükəsizlik Şurası öz funksiyalarını yerinə yetirmək üçün zəruri halda köməkçi orqanlar yarada bilər. İnstitutlaşma məsələsinə nəinki Təhlükəsizlik Şurasının daimi üzvləri, eləcə də bəzi müvəqqəti üzvləri etiraz etdilər. Rusiya və Çinin təklifi isə yeni orqan yaratmamaq, Təhlükəsizlik Şurası və kontingent verən ölkələr arasında güclü fikir mübadiləsi keçirmək oldu. Rusiyanın Hərbi-Qərargah Komitəsinin fəaliyyətini gücləndirmək barədə təklifi aşağıdakı məqsədə yönəldilmişdi: Təhlükəsizlik Şurasının daimi üzvlərinin hərbi potensialının təsdiqi, Təhlükəsizlik Şurasının fəaliyyətinin gücləndirilməsi, Təhlükəsizlik Şurasının Katiblikdən asılılığının azaldılması. Rusiyanın fikrincə, Baş katib ümumdünya prezidenti deyil, Təşkilatın ali inzibati şəxsidir, həlledici səs üzv dövlətlərə məxsusdur. Praktika göstərir ki, Katibliyin əməkdaşları öz səlahiyyətlərindən kənara çıxır, siyasi nizamasalmaya təsir göstərməyə çalışır. Rusiyanın BMT yanındakı daimi nümayəndəsi V.V.Şustov bunu BMT büdcəsinin 80%-ni inkişaf etmiş ölkələrin maliyyələşdirməsi və onların daha çox kadr kvotasına iddia etməsi, nəticədə Katibliyin əməkdaşlarının əksəriyyətinin Qərb ölkələrindən

olması ilə izah edir.(159) Baş Məclisin 2006-cı il 16 may tarixli qətnaməsində Katiblikdə inkişaf etməkdə olan ölkələrin nümayəndələrinin artırılması təklif edildi.(150)

Rusiyanın təklifini Çin dəstəklədi və Hərbi-Qərargah Komitəsinin tərkibinə bütün Təhlükəsizlik Şurası üzvlərinin daxil edilməsi vacibliyini bildirdi. Fransa bu ideyanın "Braximi məruzəsi"ndə göstərilmədiyini, Böyük Britaniya bu təklifin Təhlükəsizlik Şurasının daimi və müvəqqəti üzvləri arasında ziddiyyətlər yaradacağını bildirdi. ABŞ Hərbi-Qərargah Komitəsinin böyük potensiala malik olduğunu qeyd etdi. Hindistan, İordaniya, Pakistan və başqaları bildirdilər ki, Rusiyanın bu təşəbbüsü daimi üzvlərin hegemonluğunu tanıtmağa yönəldilmişdir.

2005-ci il Ümumdünya Sammitində Yüksək səviyyəli qrup Hərbi Qərargah Komitəsinin ləğv edilməsi məsələsinə baxmağı Təhlükəsizlik Şurasına tövsiyə etdi. Nəhayət, Təhlükəsizlik Şurasında islahatlara qədər Hərbi Qərargah Komitəsinin tərkibinin Təhlükəsizlik Şurasının 15 üzvündən ibarət olması barədə qərar qəbul edildi.(54, s.93)

Hərbi Qərargah Komitəsinin gücləndirilməsi, onun sərəncamına kifayət qədər sülhməramlənın verilməsi NATO-nun münaqişələrin "nizama salınmasında " fəaliyyətini tədricən məhdudlaşdıra bilər.

